AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin

anadan olmasının 100 illik yubileyinə həsr olunmuş

Diferensial və inteqral operatorlar

mövzusunda

RESPUBLİKA ELMİ KONFRANSININ

MATERİALLARI

Bakı, 7-8 dekabr 2023-cü il

BAKI - 2023

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

Sədr:
Ziyatxan Əliyev
BDU-nun Mexanika-riyaziyyat fakültəsinin dekanı
Sədr müavini:
Alı Əliyev
BDU-nun Mexanika-riyaziyyat fakültəsinin tədris işləri üzrə dekan müavini
Üzvlər:
Etibar Əhmədov
BDU-nun Mexanika-riyaziyyat fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini
Gülnar Salmanova
BDU-nun Nəzəri mexanika və bütöv mühit mexanikası kafedrasının dosenti
Kəmalə Rəhimova
BDU-nun Hesablama riyaziyyatı kafedrasının müəllimi

KONFRANSIN PROQRAM KOMİTƏSİ

Sədr:
Vaqif İbrahimov
BDU-nun Hesablama riyaziyyatı kafedrasının müdiri
Üzvlər:
Sadiq Qurbanov
Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri
Asəf Hacıyev
Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin (ARETN) İdarəetmə Sistemləri İnstitutunun İdarəetmənin nəzəri problemləri şöbəsinin rəhbəri, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi
Misir Mərdanov
ARETN-nin Riyaziyyat və Mexanika İnstitutunun direktoru, BDU-nun Ali riyaziyyat kafedrasının müdiri
Fikrət Əliyev
BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru
Ədalət Axundov
ARETN-nin Riyaziyyat və Mexanika İnstitutunun elmi işlər üzrə direktor müavini
Məhəmməd Mehdiyev
BDU-nun Tətbiqi-riyaziyyat və kibernetika fakültəsinin dekanı
Araz Fərəcov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat fakültəsinin dekanı
Şirmayıl Bağırov
BDU-nun Mexanika-riyaziyyat fakültəsinin elmi işlər üzrə dekan müavini
Yusif Məmmədov
BDU-nun Riyazi fizika tənlikləri kafedrasının müdiri
Rəşid Əliyev
BDU-nun Riyazi analiz kafedrasının müdiri

Hamlet Quliyev
BDU-nun İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasının müdiri
Arif Səlimov
BDU-nun Cəbr və həndəsə kafedrasının müdiri
Yaşar Mehrəliyev
BDU-nun Diferensial və inteqral tənliklər kafedrasının müdiri
Yusif Sevdimalıyev
BDU-nun Nəzəri mexanika və bütöv mühit mexanikası kafedrasının müdiri
Əli Əhmədov
BDU-nun Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının müdiri
Səməd Əliyev
BDU-nun Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri
Rövşən Əliyev
BDU-nun Əməliyyatlar tədqiqi və Ehtimal nəzəriyyəsi kafedrasının müdiri
Araz Əliyev
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Ümumi və tətbiqi riyaziyyat kafedrasının müdiri
Elvin Əzizbəyov
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının müdiri
Əli Hüseynli
Xəzər Universitetinin Riyaziyyat departamentinin müdiri
Bilal Bilalov
Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitunun Qeyri-harmonik analiz şöbəsinin müdiri
Qeylani Pənahov
ARETN-nin Riyaziyyat və Mexanika İnstitutunun Maye və qaz mexanikası şöbəsinin müdiri
Sadiq Abdullayev
BDU-nun Riyazi analiz kafedrasının professoru
Hidayət Hüseynov
BDU-nun Tətbiqi riyaziyyat kafedrasının professoru
Nazim Kərimov
Xəzər Universitetinin Riyaziyyat departamentinin professoru
Nizaməddin İsgəndərov
BDU-nun Diferensial və inteqral tənliklər kafedrasının professoru
Sədi Bayramov
BDU-nun Cəbr və həndəsə kafedrasının professoru
Elmağa Qasımov
BDU-nun Riyaziyyat və onun tədrisi metodikası kafedrasının professoru
Telman Qasımov
BDU-nun Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının dosenti

ÜMUMİ HALDA MATRİS TƏNLİKLƏRİN ƏN YAXŞI TƏQRİBİ HƏLLƏRİNİ TAPILMASI

Abdullayev Elvin Aydin oğlu
Sumqayit Dövlət Universiteti
elvin.abdullavev.2023@inbox.ru

Məruzədə əvvəlcə aşağıdakı matris cəbri tənliyinə baxılır

$$AXA = A. \tag{1}$$

Əgər A matrisi cırlaşmayan kvadrat matris olarsa, onda bu tənliyin həlli $X = A^{-1}$ düsturu ilə təyin olunur. Əgər A matrisi $m \times n$ ölçülü matris olarsa, onda bu tənliyin həlli birqiymətli təyin olunmayan $n \times m$ ölçülü matrisdir. Ümumi halda (1) tənliyinin sonsuz sayda həlli vardır. Bu həllər arasında ancaq və ancaq bir həll vardır ki, həmin həllin sətir və sütunları A^* qoşma matrisinin uyğun olaraq sətir və sütunlarının xətti kombinasiyalarıdır. Həmin həll A matrisi üçün psevdotərs matris adlanır və A^+ ilə işarə olunur. Əgər $m \times n$ ölçülü matris A matrisi üçün

$$AA^+A = A, \tag{2}$$

$$A^+ = UA^* = A^*V \tag{3}$$

bərabərlikləri doğrudursa, onda $n \times m$ ölçülü A^+ matrisi A matrisi üçün psevdotərs matris adlanır, harada ki, U və V - hər hansı matrislərdir.

A matrisi üçün iki müxtəlif A_1^+ və A_2^+ matrisləri ola bilməz. Doğrudan da,

$$AA_1^+A = AA_2^+A = A, \quad A_1^+ = U_1A^* = A^*V_1, \quad A_2^+ = U_2A^* = A^*V_2$$

bərabərliklərindən $D = A_2^+ - A_1^+$, $U = U_2 - U_1$, $V = V_2 - V_1$ qəbul etməklə, taparıq:

$$ADA = 0, \ \ D = UA^* = A^*V .$$

Buradan da

$$(DA)^* DA = A^* D^* DA = A^* V^* ADA = 0$$

və, beləliklə,

$$DA = 0 .$$

Onda $DD^* = DAU = 0$, yəni $D = A_2^+ - A_1^+ = 0.$

İndi isə A matrisi üçün A^+ matrisinin varlığını göstərək. Bunun üçün A^+ matrisinin $A^+ = C^+B^+$ sklet ayrılışını istifadə edəcəyik.

Qeyd edək ki, ranqı r ədədinə bərabər olan $m \times n$- ölçülü A matrisi üçün ölçüləri $m \times r$ və $r \times n$ olan r ranqlı uyğun olaraq elə B və C matrisləri tapmaq olar ki, $A = BC$ olsun. A matrisinin belə təsviri onu sklet ayrılışı adlanır.

B^+ və C^+ matrislərini axtaraq. Təyinə görə

$$BB^+B = B, \ B^+ = \hat{U}B^*, \tag{4}$$

harada ki, $\hat{U}$ hər hansı bir matrisdir. Onda $B\hat{U}B^*B = B$.Sonuncu bərabərlyin hər tərəfini soldan B^* matrisinə vuraq. Onda B^*B matrisinin cırlaşmayan matris olmasını nəzərə almaqla $\hat{U} = (B^*B)^{-1}$ alarıq. Bu düsturu nəzərə almaqla (4) düsturundakı ikinci bərabərlikdən B^+ üçün alarıq:

$$B^{+}=(B^{*}B)^{-1}B^{*}. \tag{5}$$

Sonuncu düstura analoji olaraq C^{+} matrisi üçün alarıq:

$$C^{+}=C^{*}(CC^{*})^{-1}. \tag{6}$$

İndi göstərək ki,

$$A^{+}=C^{+}B^{+}=C^{*}(CC^{*})^{-1}(B^{*}B)^{-1}B^{*} \tag{7}$$

matrisi (2),(3) şərtlərini ödəyir və, beləliklə, A matrisi üçün psevdotərs matrisdir.

Doğrudan da

$$AA^{+}A=BC(C^{*}(CC^{*})^{-1}(B^{*}B)^{-1}B^{*})BC=BC=A.$$

Digər tərəfdən, (5)-(7) bərabərliklərindən $A^{*}=C^{*}B^{*}$ bərabərliyini nəzərə almaqla və $K=(CC^{*})^{-1}(B^{*}B)^{-1}$ qəbul etməklə, alarıq:

$$A^{+}=C^{*}KB^{*}=C^{*}K(CC^{*})^{-1}CC^{*}B^{*}=UC^{*}B^{*}=UA^{*},$$

$$A^{+}=C^{*}KB^{*}=C^{*}B^{*}B(B^{*}B)^{-1}KB^{*}=C^{*}B^{*}V=A^{*}V,$$

harada ki, $U=C^{*}K(CC^{*})^{-1}C, \quad V=B(B^{*}B)^{-1}KB^{*}$.

Beləliklə, göstərdik ki, istənilən düzbucaqlı A matrisi üçün (7) düsturu ilə təyin olunan yeganə A^{+} psevdotərs matrisi vardır, harada ki, B və C matrisləri A matrisinin sklet ayrılışıda vuruqlarıdır. Psevdotərs matrisin bu təyin düsturundan görünür ki, A matrisi kvadrat və cırlaşmayan matris olduqda A^{+} psevdotərs matrisi A^{-1} matrisi ilə üst-üstə düşür.

Tutaq ki, A matrisi $m\times n-$ ölçülü matrisdir: $A=(a_{ik}), i=\overline{1,m}, k=\overline{1,n}$. Bu matrisin normasınına baxaq. A matrisinin $\|A\|$ norması mənfi olmayan ədəddir və

$$\|A\|^{2}=\sum_{i,k}|a_{ik}|^{2} \tag{8}$$

düsturu ilə təyin olunur. Aydındır ki,

$$\|A\|^{2}=\sum_{k=1}^{n}|A_{\bullet k}|^{2}=\sum_{i=1}^{m}|A_{i\bullet}|^{2}, \tag{9}$$

haradakı $A_{\bullet k}$ və $A_{i\bullet}$ ilə A matrisinin uyğun olaraq $k-$cı sütun və $i-$sətiri işarə olunmuşdur.

Aşağıdakı matris tənliyə baxaq:

$$AX=Y, \tag{10}$$

harada ki, A və $Y-$ verilmiş $m\times n-$ və $m\times p-$ölşülü matrislərdir, $X-$isə $n\times p-$ölçülü axtarılan matrisdir.

(10) tənliyinin X^{0} ən yaxşı həllini $\|Y-AX^{0}\|=\min\|Y-AX\|$ şərtiylə tapaq və həm də $\|Y-AX\|=\|Y-AX^{0}\|$ halında tələb olunur ki, $\|X^{0}\|\le\|X\|$.

Aşağıdakı münasibətlərə baxaq:

$$\|Y-AX\|^{2}=\sum_{k=1}^{p}|Y_{\bullet k}-AX_{\bullet k}|^{2}, \tag{11}$$

$$\|X\|^{2}=\sum_{k=1}^{p}|X_{\bullet k}|^{2}. \tag{12}$$

Bu münasibətlərdən görünür ki, axtarılan X^0 matrisinin $k-$cı sütunu olan $X^0_{\bullet k}$ sütun vektoru $AX_{\bullet k} = Y_{\bullet k}$ XCTS-nin ən yaxşı təqribi həlli olmalıdır. Bu bərabərlik istəlinilən $k = 1,..., p$ üşün doğru olduğundan, alınır ki,

$$X^0 = A^+ Y. \tag{13}$$

Beləliklə, (10) tənliyi ancaq və ancaq bir ən yaxşı təqribi həlli vardır və bu həll də (13) düsturu ilə təyin olunur.

Xüsusi halda, $Y = E$ (yəni $m-$tərtibli vavid matris) olarsa, onda $X^0 = A^+$ olar. Beləliklə, A^+ psevdo tərs mtrisi $AX = E$ matris tənliyinin ən kiçik kvadratlar üsuluna görə ən yaxşı təqribi həlli ola bilər. Psevdo tərs matrisin bu xassəsi onun təyini (tərifi) üçün qəbul oluna bilər.

Ədəbiyyat

1. Гандмахер Ф.Р. Теория матриц. 4-ое изд. - М.: Наука, Гл. ред. Физ.-мат. лит., 1988, 552 с.

AÇIQ ƏYRİ ÜZRƏ BİR SİNİF SİNQULYAR İNTEQRAL TƏNLİKLƏRİN İNTERPOLYASİYA ÜSULU İLƏ TƏQRİBİ HƏLLİ

Abdullayev Fuad Ağca oğlu, Pərlanova Şahnaz Mayıs qızı
Bakı Dövlət Universiteti
shahnaz.babayeva1996@gmail.com

Aşağıdakı sinqulyar inteqral tənliyə baxaq:

$$\frac{1}{\pi i}\int_L \frac{\overline{\varphi}(t)}{t-t_0}dt + \frac{1}{\pi i}\int_L K(t_0,t)\overline{\varphi}(t)dt = f(t_0), \quad t_0 \in L \setminus \{a,b\}, \tag{1}$$

burada L- ucları a və b nöqtələrində olan açıq, hamar, sadə əyridir, f - verilən funksiya, $\overline{\varphi}$- axtarılan funksiyadır. Məlumdur ki, (1) tənliyi mexanikanın bir çox məsələlərində meydana çıxır və bu tənliyin təqribi həll olunmasına bir çox işlər həsr olunmuşdur (bax [1]). Həmçinin, məlumdur ki, (1) tənliyinin həlləri L əyrisinin uclarında özlərini aparma xarakterinə görə müxtəlif siniflərə bölünürlər. Biz (1) tənliyinin hər iki ucda qeyri-məhdud həllini təqribi qurmağa çalışacağıq.

Fərz edək ki, L tənliyinin parametrik tənliyi s qövs absisi vasitəsi ilə $t = t(s)$ $(s_a \le s \le s_b)$ şəklindədir və L üzərində istiqamət a nöqtəsindən b-yədir. Məlumdur ki, ([2]) hər iki ucda qeyri-məhdud həll aşağıdakı kimidir

$$\overline{\varphi}(t) = \frac{\varphi(t)}{\sqrt{(t-a)(t-b)}}\ , \tag{2}$$

belə ki, burada $\varphi(t)$ artıq məhdud funksiyadır. Baxılan sinfin indeksi æ$=1$ olduğu üçün həllin yeganəliyini təmin etmək üçün əlavə olaraq fərz edək ki, $\overline{\varphi}(t)$ həlli

$$\int_L \overline{\varphi}(t)dt = 0\,. \tag{3}$$

şərtini ödəyir.

$[s_a, s_b]$ parçasını

$$s_\sigma = s_a + \frac{s_l - s_a}{n}\sigma, \ \ \sigma = \overline{0, n-1}$$

nöqtələri ilə $n \in N$ bərabər hissəyə bölək.

Daha sonra $m > r$ natural ədədini qeyd edək və hər $[s_\sigma, s_{\sigma+1}]$ parçasını

$s_{\sigma k} = s_\sigma + hx_k, \ \ k = \overline{0, m-1} \ \ \left(h = \dfrac{s_b - s_a}{n} \right)$ nöqtələri ilə m yerə bölək, belə ki, x_k nöqtələri $[0,1]$ parçasının $x_0 = 0, \ x_{m-1} = 1$ şərtini ödəyən müəyyən nöqtələr sistemidir.

$\tau_\sigma = t(s_\sigma), \ t_{\sigma k} = t(s_{\sigma k}) \ \left(\sigma = \overline{0, n-1}, \ k = \overline{0, m-1}\right)$ işarə edək. $1 \le k_0 \le m-2$ natural ədədini qeyd edək və $t_{\sigma k_0} = \xi_\sigma \left(\sigma = \overline{0, n-1}\right)$ işarə edək (ξ_σ nöqtəsinə düyün deyək). $L_\nu(\varphi; t_0)$ $(\nu = \overline{0, n-1})$ ilə φ funksiyasını $\overset{\cup}{\xi_\nu \xi_{\nu+1}}$ qövsündəki m düyünə görə interpolyasiya edən və dərəcəsi $m-1-i$ aşmayan çoxhədlini işarə edək.

$$L_\nu(\varphi; t_0) = \begin{cases} \displaystyle\sum_{k=k_0}^{m-1} \frac{l_{\nu-1}(t_0)}{(t_0 - t_{\nu k}) l'_{\nu-1}(t_{\nu-1,k})} \varphi(t_{\nu-1,k}) + \\[2ex] \displaystyle\sum_{k=1}^{k_0} \frac{l_{\nu-1}(t_0)}{(t_0 - t_{\nu k}) l'_{\nu-1}(t_{\nu k})} \varphi(t_{\nu k}), \ t_0 \in \tau_\nu \xi_\nu, \\[2ex] \displaystyle\sum_{k=k_0}^{m-1} \frac{l_\nu(t_0)}{(t_0 - t_{\nu k}) l'_\nu(t_{\nu k})} \varphi(t_{\nu k}) + \\[2ex] \displaystyle\sum_{k=1}^{k_0} \frac{l_\nu(t_0)}{(t_0 - t_{\nu+1,k}) l'_\nu(t_{\nu+1,k})} \varphi(t_{\nu+1,k}), \ t_0 \in \xi_\nu \tau_{\nu+1}, \end{cases}$$

burada $l_j(t_0) = \prod\limits_{k=k_0}^{m-1} (t_0 - t_{jk}) \prod\limits_{k=1}^{k_0} (t_0 - t_{j+1,k}) \ \ (j = \nu - 1, \nu)$

Aşağıdakı funksiyanı quraq.

$$\Phi_n(\varphi; t, t_0) = L_\nu(\varphi; t_0) + \sum_{\substack{k=0 \\ k \ne k_0}}^{m-1} \frac{w_\sigma(t)(t - t_0)[L_\nu(\varphi, t_0) - \varphi(t_{\sigma k})]}{(t - t_{\sigma k}) w'_\sigma(t_{\sigma k})(t_0 - t_{\sigma k})},$$

burada $w_\sigma(t) = \prod\limits_{\substack{k=0 \\ k \ne k_0}}^{m-1} (t - t_{\sigma k})$.

$$\varphi_n(t) = \left\{ \Phi_n(\varphi; t, t_0), \ t \in \tau_\sigma \tau_{\sigma+1}, t_0 \in \tau_\nu \tau_{\nu+1}, \ \sigma = \overline{0, n-1}, \nu = \overline{0, m-1} \right\}.$$

İşdə $\varphi_n(t)$ təqribi həllərinin $\varphi(t_{\nu p})$ qiymətləri üçün

$$\left\{ \sum_{\sigma=0}^{n-1} \sum_{\substack{k=0 \\ k \ne k_0}}^{m-1} P_{\sigma k} \frac{\varphi(t_{\sigma k}) - L_\nu(\varphi; t_0)}{t_{\sigma k} - t_0} \right\}_{t_0 = t_{\nu p}} + \sum_{\sigma=0}^{n-1} \sum_{\substack{k=0 \\ k \ne k_0}}^{m-1} P_{\sigma k} K(t_{\nu p}, t_{\sigma k}) \varphi(t_{\sigma k}) = f(t_{\nu p}), \tag{4}$$

$$\nu = \overline{0, n-1}, \ p = \overline{0, m-1}, \ \ \ p_{\sigma k} = \frac{1}{\pi i} \int\limits_{\tau_\sigma \tau_{\sigma+1}} \frac{w_\sigma(t) dt}{\sqrt{(t-a)(t-b)} w'_\sigma(t_{\sigma k})(t - t_{\sigma k})}$$

cəbri tənliklər sistemi qurulur və aşağıdakı teorem isbat olunur.

Teorem. Fərz edək ki, (1) tənliyinin (3) şərti daxilində $H_{\alpha}\ \left(\frac{1}{2}<\alpha<1\right)$ fəzasında $H_{\beta}\left(\beta=\alpha-\frac{1}{2}\right)$ fəzasından olan ixtiyari sağ tərəf üçün yeganə həlli var və $K(t_0,t)$ funksiyası hər iki dəyişənə görə H_{α} şərtini ödəyir.Onda kifayət qədər böyük n-lər üçün (4) cəbri tənliklər sisteminin yeganə $\left\{(\varphi(t_{\sigma 0}),...,\varphi(t_{\sigma m-1})),\ \sigma=\overline{0,n-1}\right\}$ həlli var və $\varphi_n(t)$ təqribi həlləri $\varphi(t)$ dəqiq həllə $H_{\delta}\ \left(0<\delta<\alpha-\frac{1}{2}\right)$ fəzasının normasında yığılır.

Ədəbiyyat

1. Абдуллаев Ф.А., Парланова Ш.М., Funksiyalar nəzəriyyəsi , Funksional analiz və onların tətbiqləri mövzusunda Respublika Elmi Konfransı. Bakı-2022, səh334-337.
2. Хведелидзе В.В. Линейные разрывные задачи теории функций, сингулярные интегральные уравнения и некоторые их приложения.- Тр. Тбилисского математического института, XXIII,1956,стр.1-156.

RİYAZİYYAT MƏSƏLƏLƏRİNİN HƏLLİ METODİKASINA YENİ YANAŞMA

Abdullayeva Məlahət Vərəhməd qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti

azeriteacher@yahoo.com

Riyaziyyatın tədrisində məsələlər və onların həlli mühüm yer tutur. Məsələ riyaziyyatın ilkin anlayışı olduğundan ona tərif verilmir. Geniş mənada hər hansı işi yerinə yetirmək, həll etmək mənasında işlədilir.

Ümumtəhsil məktəblərində riyaziyyatın təlimi prosesində şagirdlərin riyazi təfəkkürünü inkişaf etdirmək məqsədilə «tədris məsələsindən» və ya «didaktik məsələdən» istifadə olunur. Məsələ dedikdə - kəmiyyətlər arasındakı asılılıqlara və kəmiyyətlərin verilmiş qiymətlərinə əsasən, məchul qiymətini tapmaq tələbi başa düşülür [3].

2006-cı ildə Azərbaycan Respublikası ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum) əsasında fənn kurikulumları, o cümlədən riyaziyyat fənn kurikulumu hazırlandı və təsdiq edildi [1]. Yeni təhsil proqramı (kurikulum) bütün təhsil pillələrində riyaziyyatın tədrisinə yanaşmanı dəyişdi. Yeni proqramın tələblərinə uyğun riyaziyyat dərslik komplektləri hazırlandı və təlim prosesində istifadəyə verildi.

Yeni dərsliklərdə mövzular “Öyrən” – “Möhkəmləndir” – “Tətbiq et” təlim modeli əsasında tədris edilir. Bilik və bacarıqların illüstrativ materiallarla zənginləşdirilərək əyani vəsaitlərlə mənimsədilməsi “Öyrən” mərhələsində həyata keçirilir. Qazanılmış bilik və bacarıqların çalışmalar, yazı işləri, praktik tapşırıqlar və başqa üsullarla təkmilləşdirilməsi “Möhkəmləndir” mərhələsini əhatə edir. Şagirdlər “Tətbiq et” mərhələsində qazanılmış bilik və bacarıqları getdikcə mürəkkəbləşən məsələ həllinə və riyazi modelləşdirməyə tətbiq edirlər [4].

Məsələ həlli riyaziyyat təliminin əsas tərkib hissəsidir. Riyaziyyat dərsliklərində hər bir mövzu məsələ həlli ilə başlayıb və məsələ həlli ilə də bitir. Riyaziyyat Müəllimlərinin Milli Şurası tərəfindən hazırlanan standartların reallaşdırılması da məhz məsələ həllinə əsaslanır. “Məsələ həlli – riyazi təhsilin əsas məqsədi olmaqla yanaşı, həm də bunun üçün əsas vasitədir. Şagirdlər üçün daha çox məsələ qurmaq və onları həll etmək, həm də daha çox səy tələb edən mürəkkəb məsələləri həll etmək imkanları yaratmaq lazımdır” [6].



Məsələlər riyaziyyatın tədrisinin ən vacib vəzifəsinin - şagirdlərin təfəkkürünün və yaradıcılıq fəaliyyətinin inkişafı üçün lazım olan ən güclü materialdır. Xüsusilə mətnli məsələlərdən ibtidai təhsil səviyyəsindən başlayaraq riyaziyyatın hər bir məzmun xəttinə aid standartlarının reallaşdırılmasında istifadə olunur. İbtidai siniflərdə əsasən hesab məsələləri, eyni zamanda cəbr, həndəsə, statistika və ehtimala aid məsələlər öyrədilir. Ümumi orta təhsil və tam orta təhsil səviyyələrində isə standartların reallaşdırılmasında cəbr, həndəsə, riyazi analiz, statistika və ehtimala aid məsələlər həll edilir.

Məsələlərin şüurlu və məqsədyönlü şəkildə həll edilməsi üçün şagirdlərə məsələlərin həlli metodikası, eyni zamanda həll üsulları və yazılış formaları öyrədilir.

Hazırda ümumtəhsil məktəblərində riyaziyyat məsələlərinin həlli C.Polyanın nəzəriyyəsinə [5] əsaslanır. Onun nəzəriyyəsinə görə məsələ həllinin dörd mərhələdə reallaşdırılması daha məqsədəuyğundur:

1. Anlama (məsələni başa düşmək)
2. Plan qurma (məsələnin düzgün həlli üsulunun seçilməsi)
3. Məsələni həll etmək
4. Cavabı yoxlamaq

Məsələ: Düzbucaqlı üçbucağın tərəfləri tam ədədlərlə ifadə olunur və katetlərindən biri 11 santimetrdir. Onun sahəsini tapın.

Anlama: Məsələdə bir katetin 11 *sm* olduğu məlumdur. Digər verilənlər qeyri-aşkar şəkildə olduğundan məsələni məntiqi və cəbri üsullardan istifadə etməklə həll edək.

Plan qurma: $\text{Verilir}: \ \Delta ABC, \ \ \angle C = 90^\circ$

$$b = 11 sm$$

Tapmalı: $S_{\Delta ABC} = ?$ $\quad S_{\Delta ABC} = \frac{1}{2} AC \cdot BC$

Həlli: Pifaqor teoreminə görə

$$a^2 + b^2 = c^2$$
$$c^2 - a^2 = 11^2$$

$c^2 - a^2$ ifadəsini vuruqlara ayırmaqla a və c-ni taparıq:

$$(c-a)(c+a) = 121 \Rightarrow \left\{\begin{array}{l} c - a = 1 \\ c + a = 121 \end{array}\right| +$$
$$2c = 122$$
$$c = 61$$
$$a = 60$$

$$S_{\Delta ABC} = \frac{1}{2} AC \cdot BC = \frac{1}{2} ab = \frac{1}{2} \cdot 60 \cdot 11 = 330 sm^2$$

Cavab: $330 sm^2$

Yoxlanması: $a = 60, b = 11, c = 61$

$$60^2 + 11^2 = 3600 + 121 = 3721 = 61^2$$

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı, 2013.
2. Abdullayeva M. Riyaziyyatın tədrisi metodikası-1. Bakı, «Elm və təhsil», 2020.
3. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı, ADPU, 2016.
4. İsayev Z. və b. Ümumtəhsil məktəbləri üçün Riyaziyyat fənni üzrə dərslik komplektləri. Bakı, «Radius», 2023.
5. George Pólya. "How to Solve It", 2nd ed., Princeton University Press, 1957. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://math.hawaii.edu/home/pdf/putnam/PolyaHowToSolveIt.pdf
6. https://www.nctm.org/Standards-and-Positions/Principles-and-Standards/Principles,-Standards,-and-Expectations/
7. https://press.princeton.edu/books/paperback/9780691164076/how-to-solve-it
8. https://www.scirp.org/(S(351jmbntvnsjt1aadkozje))/reference/referencespapers.aspx?referenceid=1964042

İSTİLİKKEÇİRMƏ TƏNLİYİ ÜÇÜN QARIŞIQ MƏSƏLƏNİN ƏMƏLİYYATLAR ÜSULU İLƏ TƏTDİQİ

Ağamalıyeva Kəmalə Faiq qızı

Sumqayıt Dövlət Universiteti

Kama_faiq@mail.ru

Riyazi fizikanın bir çox məsələlərinin həlli parabolik tip iki tərtibli xüsusi törəməli diferensial tənliyin həllinə gətirilir. Bu məsələlərdən biridə diffuziya məsələsidir. Diffuziya məsələsinin araşdırılması

$$\frac{\partial^2 u(x,t)}{\partial x^2} = \frac{\partial u(x,t)}{\partial t} \tag{1}$$

şəklində tənliyin uyğun başlanğıc və sərhəd şərtlərinin ödəyən həllinin tapılmasından ibarətdir.

Sərhəd şərtini

$$u(0,t) = a(t),\ u(l,t) = b(t) \tag{2}$$

başlanğıc şərti isə

$$u(x,0) = u_0,\ u_0 = const \tag{3}$$

şəklində qəbul etsək, baxılan məsələnin həlli riyuazi olaraq, (1) tənliyinin (2) və (3) şərtlərinin ödəyən həllin tapılmasından ibarətdir.

Verilmiş tənliyin həllini Laplasın inteqral çevirməsinin köməyi ilə həll edəcəyik.

Əgər Laplas çevirməsini (1) tənliyinə tətbiq etsək və (3) başlanğıc şərtini nəzərə alsaq

$$\frac{\partial^2 \bar{u}(x,p)}{\partial x^2} = p\bar{u}(x,p) - u_0 \tag{4}$$

tənliyini alarıq. Laplas çevirməsini (2) sərhəd şərtinə tətbiq etsək, onun Laplas surəti

$$\bar{u}(0,p) = \bar{a}(p),\ \bar{u}(l,p) = \bar{b}(p) \tag{5}$$

olar. Buradan görünür ki, baxılan məsələnin həlli (4) qeyri-bircins diferensial tənliyin (5) şərtlərini ödəyən həllinin tapılmasından ibarətdir.

Burada $\bar{u}(x,p)$, $\bar{a}(p)$ və $\bar{b}(p)$ uyğun olaraq həqiqi dəyişənli $u(x,t)$, $a(t)$ və $b(t)$ funksiyalarının Laplas surətləridir. p -Laplas çevirməsinin parametridir.

Burada (4) tənliyinin həllini başlanğıc şərti sıfra bərabər olduğu halda baxsaq, yəni $u_0 = 0$ halda tənliyin ümumi həllini

$$\bar{u}(x,p) = c_1 e^{\sqrt{p}x} + c_2 e^{\sqrt{p}x}$$

şəklində təyin edərik. Əgər əmsalları təyin etsək, tənliyin həllinin surətini

$$\bar{u}(x,p) = \bar{a}(p)\bar{u}_1(x,p) + \bar{b}(p)\bar{u}_2(x,p) \tag{6}$$

olar. Burada

$$\bar{u}_1(x,p) = \frac{\exp\left[(l-x)\sqrt{p}\right] - \exp\left[-(l-x)\sqrt{p}\right]}{\exp\left(l\sqrt{p}\right) - \exp\left(-l\sqrt{p}\right)}$$

$$\bar{u}_2(x,p) = \frac{\exp\left(x\sqrt{p}\right) - \exp\left(-x\sqrt{p}\right)}{\exp\left(l\sqrt{p}\right) - \exp\left(-l\sqrt{p}\right)}$$

işarə edilmişdir.

Burada $l \to \infty$-da $\bar{u}_2(x,p) \to 0$; $\bar{u}_1(x,p)$-üçün isə

$$\lim_{l\to\infty} \bar{u}_1(x,p) = \lim_{l\to\infty} \frac{\exp\left(-x\sqrt{p}\right) - \exp\left[-(2p-x)\sqrt{p}\right]}{1 - \exp\left(-2l\sqrt{p}\right)} = \exp\left(-x\sqrt{p}\right)$$

olar. Deməli, həllin surəti

$$\bar{u}(x,p)=\bar{a}(p)\exp\left(-x\sqrt{p}\right) \tag{7}$$

olar. (7) həlinin surətini hesablasaq

$$\exp\left(-x\sqrt{p}\right)=\frac{x}{2\sqrt{\pi}t^{\frac{3}{2}}}e^{-\frac{x^2}{4t}}$$

$$\bar{a}(p)=a(t)$$

olduğundan həllin orjinalı funksiyalar bağlısının köməyi ilə

$$u(x,t)=a(t)*g(t) \tag{8}$$

şəklində təyin edilir.

Burada $g(t)=\frac{x}{2\sqrt{\pi}t^{\frac{3}{2}}}e^{-\frac{x^2}{4t}}$ işarə edilmişdir. (8) bərabərliyini

$$u(x,t)=\frac{x}{2\sqrt{\pi}}\int_0^t a(t-\tau)\frac{e^{-\frac{x^2}{4\tau}}}{\tau^{\frac{3}{2}}}d\tau \tag{9}$$

şəklində yazmaq olar.

Ədəbiyyat

1. А.Н. Тихонов, А.А. Самарский “Уравнение математической физики”. Москва. “Наука”. 1977.
2. Ə.T. Hüseynov “İnteqral tənliklər”. Bakı. “Maarif”. 1975.
3. N.T. Qurbanov “Laplas çevirməsinin tədrisinə aid metodik vəsait”. Sumqayıt. “Votum”. 2002.

MƏHDUD VARİASİYALI FUNKSİYALARIN AYRILIŞI VƏ STİLTES ÖLÇÜSÜ

Alıyev Xəlil Hacı oğlu

Sumqyıt Dövlət Universiteti

Xelil.aliyev.54@mail.ru

Tutaq ki, $f(x)$ funksiyası $[a,b]$ seqmentində məhdud variasiyalı, $x_1, x_2, x_3,...$ nöqtələri bu funksiyanın kəsilmə nöqtələri, $S(x)$ isə sıçrayış funksiyasıdır:

$$S(a)=0,$$
$$S(x)=[f(a+0)-f(a)]+\sum_{x_k<x}[f(x_k+0)-f(x_k-0)]+[f(x)-f(x-0)],\ a<x\le b \tag{1}$$

Onda $\varphi(x)=f(x)-S(x)$ funksiyasının kəsilməz və məhdud variasiyalı olduğu yuxarıda isbat olunmuşdur. Odur ki,

$$f(x)=\varphi(x)+S(x)\,. \tag{2}$$

Beləliklə, hər bir məhdud variasiyalı $f(x)$ funksiyasını kəsilməz məhdud variasiyalı $\varphi(x)$ və sıçrayış $S(x)$ funksiyaların cəmi kimi göstərmək olur.

Tutaq ki, $\varphi(x)$ kəsilməz və məhdud variasiyalı funksiyadır. Onda $\psi(x)=\int_a^x \varphi'(s)ds$ funksiyası mütləq kəsilməz olur.

$$X(x)=\varphi(x)-\psi(x) \tag{3}$$

funksiyası kəsilməz və məhdud variasiyalı olduğundan sanki bütün $x\in[a,b]$ nöqtələri üçün

$$X'(x)=\varphi'(x)-\frac{d}{dx}\int_a^x \varphi'(s)ds=\varphi'(x)-\varphi'(x)=0\,.$$

Sanki bütün $x\in[a,b]$ nöqtələri üçün törəməsi sıfır olan kəsilməz və məhdud variasiyalı funksiyalara *sinqulyar* funksiya deyilir.

Sinqulyar funksiyaya misal Kantorun $\theta(x)$ funksiyasını göstərmək olar. Bu funksiya kəsilməzdir və artandır. Odur ki, məhdud variasiyalı olur. Sanki bütün $x\in[0,1]$ nöqtələri üçün $\theta'(x)=0$.

(3) bərabərliyindən

$$\varphi(x)=X(x)+\psi(x) \tag{4}$$

tapıb (2) bərabərliyində nəzərə alsaq

$$f(x)=\psi(x)+X(x)+S(x)\,. \tag{5}$$

Beləliklə, aşağıdakı teoremi isbat etdik.

Teorem. $[a,b]$ seqmentində məhdud variasiyalı hər bir $f(x)$ funksiyasını üç funksiyanın

$$f(x)=\psi(x)+X(x)+S(x)$$

cəmi kimi göstərmək olar. Burada $\psi(x)$ mütləq kəsilməz, $X(x)$ sinqulyar və $S(x)$ sıçrayış funksiyasıdır.

Bu ayrılışla əlaqədar olaraq məhdud variasiyalı funksiyanın doğurduğu Stiltes ölçüsünü üç sinfə ayırmaq olar.

1. Tutaq ki, $\psi(x)$ azalmayan mütləq kəsilməz funksiyadır. Onda bu funksiyanın $[a,b]$ seqmentinin sanki bütün x nöqtələrində Lebeq mənada inteqrallanan $\psi'(x)=\tau(x)$ törəməsi var. Törəməsi olmayan $x\in[a,b]$ nöqtələrində $\tau(x)=0$ götürməklə $\tau(x)$ funksiyasını bütün $x\in[a,b]$ nöqtələrində təyin edək. Onda $[a,b]$ seqmentində hər bir öçülən A çoxluğu üçün

$$\mu_\psi(A)=\int_A \tau(x)dx \tag{6}$$

inteqralının mənası var. Bu inteqralla təyin olunan $\mu_\psi(A)$ ədədinə A çoxluğun ölçüsü deyilir. Lebeq inteqralının xassəsinə əsasən $mA=0$ olduqda $\mu_\psi(A)=0$ olur. Mütləq kəsilməz $\psi(x)$ funksiya ilə təyin olunan $\mu_\psi(A)$ ölçüsünə *mütləq kəsilməz ölçü* deyilir.

Göstərək ki, A çoxluğunun $B=\psi(A)$ obrazının Lebeq mənada ölçüsü (6) düsturu ilə hesablanır. $A=(\alpha,\beta)$ olduqda $\psi(A)=(\psi(\alpha),\psi(\beta))$ olur. Onda $mB=m\psi(A)=\psi(\beta)-\psi(\alpha)=\int_\alpha^\beta \tau(x)dx$. A açıq çoxluq, (α_k,β_k) ($k=1,2,\ldots$) isə onun təşkiledici intervalları olduqda, yəni $A=\bigcup_k(\alpha_k,\beta_k)$ olduqda $B=\psi(A)=\bigcup_k(\psi(\alpha_k),\psi(\beta_k))$ və

$mB = \sum_k [\psi(\beta_k) - \psi(\alpha_k)] = \sum_k \int_{\alpha_k}^{\beta_k} \tau(x)dx = \int_A \tau(x)dx$. Aydındır ki, A çoxluğu qapalı olduqda da $B = \psi(A)$ çoxluğu üçün

$$mB = \int_A \tau(x)dx \tag{7}$$

düsturu doğru olur.

2. Tutaq ki, $X(x)$ sinqulyar funksiyadır. Aydındır ki, $X(x)$ funksiyasının törəməsinin sıfır olmadığı və törəməsi olmadığı nöqtələr çoxluğunu A_0 ilə işarə etsək, $mA_0 = 0$. $A \subset [a,b]$ çoxluğu üçün

$$\mu_X(A) = \int_E dX(x),\ E = A \cap A_0 \tag{8}$$

götürək. Bu qayda ilə təyin olunan $\mu_X(A)$ ədədinə A çoxluğun ölçüsü deyilir və *sinqulyar ölçü* adlanır.

3. Tutaq ki, $S(x)$ sıçrayış funksiyası, $x_1, x_2, x_3, \ldots$ kəsilmə nöqtələri, $h_1, h_2, h_3, \ldots$ isə bu nöqtələrdə funksiyanın sıçrayış qiymətləridir. Onda hər bir $A \subset [a,b]$ çoxluğunun ölçüsü

$$\mu_S(A) = \sum_{x_k \in A} h_k \tag{9}$$

düsturu ilə təyin olunur. Xüsusi halda A çoxluğu ancaq bir x_k nöqtəsindən ibarət olduqda onun ölçüsü h_k ədədi olur. Sıçrayış funksiyasının doğurduğu (9) ölçüsünə *diskret ölçü* deyilir.

Yuxarıda təyin olunan ölçülər σ–additiv olur. Bunu diskret ölçü üçün göstərək. Tutaq ki, $A_1, A_2, A_3, \ldots$ çoxluqları cüt-cüt kəsişmir. Onda

$$\mu_S(\bigcup_k A_k) = \sum_{x_i \in \bigcup_k A_k} h_i = \sum_k \sum_{x_i \in A_k} h_i = \sum_k \mu_S(A_k)\ .$$

Beləliklə hər bir məhdud variasiyalı funksiya üç növ ölçü: mütləq kəsilməz, sinqulyar və diskret ölçü doğurur.

Ədəbiyyat

1. Глазман Н.М., Любич Ю.Н. Конечномерный линейный анализ. М., «Наука», 1969, с.476,
2. Канторович Л.В., Акилов Г.П. Функциональный анализ. М., «Наука», 1977, с.742.
3. Колмогоров А.Н., Фомин С.В. Элементы теории функций и функционального анализа. М., «Наука», 1972, с.496.

TƏDRİS VƏ TƏLİM PROSESİNDƏ YENİ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN İMKANLARI

Aslanova Zülfiyyə Altay qızı

Sumqayıt Dövlət Universiteti

i.safarli@mail.ru, aslanovazulfiyye174@gmail.com

Metodoloji əsasını idrak nəzəriyyəsi təşkil edən didaktika təlimin üsullarını, yol və vasitələrini işləyib hazırlayır ki, bu da həqiqi bilikləri mənimsəmək, dünyanı düzgün təsəvvür etmək üçün şərait yaradır. Bu məqsədlə müəllim həmişə imkan olan kimi, fakt və hadisələrə, əşya və predmetlərə, qanun və qanunauyğunluqlara müraciət edir. Müəllim tələbələrin həqiqi biliklərə yiyələnmələri, onları praktikada yoxlayıb, ümumiləşdirmə apara bilmələri üçün müxtəlif növ əyani vasitələrə müraciət edir və səmərəli göstəricilərə nail olur. Ona görə də əyanilik didaktikanın mühüm prinsiplərindən sayılır. Əyani vəsait əşya və hadisələri, prosesləri inkişafda, bir-birindən təcrid olunmadan, digər əşya, hadisə və proseslərdə əlaqədə göstərdiyi təqdirdə biliklər daha möhkəm və davamlı olur, yaxşı mənimsənilir. Bu iş təlimin əyani vasitələrinin bütün sistemi ilə təmin olunur.

Tədris və təlimdə informasiya texnologiyaları əvəzsiz rol oynayır. Tədris materiallarının öyrənilməsi zamanı proseslərin əyaniləşdirilərək göstərilməsi həmin materialın yaxşı başa düşülərək mənimsənilməsini təmin etdiyindən bunların möhkəm biliklər şəklində formalaşdırılmasına da zəmin yaradır. Odur ki, bu halda müasir informasiya texnologiyaları müəllimin köməyinə gəlir. Təlim prosesində şagirdin materialı əsaslı mənimsəməsi, tədris olunan mövzular barəsində aydın təsəvvürə malik olması üçün o, proseslərlə daha yaxından tanış olmalı, onları müşahidə etmək imkanına malik olmalıdır. Bu da materialın yaxşı başa düşülərək qavranılmasını, dərk edilməsini, daha doğrusu mənimsənilməsini, onun bir komponenti olan möhkəmlənmənin həyata keçirilməsini təmin edir. Müəllimin vəzifəsi isə ondan ibarətdir ki, şagirdlər üçün yeni olan elmi anlayışları onlara izah etsin. Şagirdlər konkret predmetlərlə tanış olduqdan sonra çətinlik çəkmədən mücərrəd anlayışlara və ümumiləşdirmələrə keçirlər. Beləliklə, qeyd edə bilərik ki, bunları əyaniləşdirərək şagirdlərə göstərmək, onlarda dəqiq elmi təfəkkür formalaşdırmaq yeni informasiya texnologiyalarsız qeyri-mümkündür. Bu mövzuların (materialların) elmi əsaslarının multimedia texnologiyası ilə açılaraq göstərilməsi onların əqli fəaliyyətlərini inkişaf etdirməklə onlarda daha doğru, düzgün, möhkəm elmi biliklərin formalaşdırılmasını təmin edir.

İnformasiya texnologiyaları şagirdlərin biliklərini canlı təsəvvürlərlə əyaniləşdirməklə, təlimdə elmi səhihlik prinsipini təmin edir, təlimin prinsiplərinin müvəffəqiyyətlə həyata keçirilməsinə kömək göstərir.

İnformasiya texnologiyalarından istifadə mürəkkəb proqram materialının daha yaxşı və asanlıqla başa düşülməsinə imkan verir, öyrənilənlərin yadda saxlanmasına şərait yaradır.

Elmilik prinsipi də didaktikanın mühüm prinsiplərindəndir. Elmin inkişafı sürətlidir təbii ki, elmi məlumatların həcmi də sürətlə artır. Nəticədə biliyin məzmununda dəyişiklik, elmi ümumiləşdirmə prosesi yaranır İnformasiya texnologiyaları elmilik prinsipinin qarşısında dayanan bu vəzifələrin həyata keçirilməsinə kömək göstərir.

Təlimin şüurluluq və fəallıq prinsipi də diqqət mərkəzində olmalıdır. Bu prinsip də, informasiya texnologiyaları ilə sıx bağlıdır. Biliyə şüurlu şəkildə yiyələnməklə şagirdin həm əqli fəallıq göstərməsi, müqayisə, təhlil-tərkib, ümumiləşdirmə aparması, nəticəyə gəlməsi, əməli fəallıq nümayiş etdirməsi, nəzəri biliklərini öz fəaliyyəti prosesində tətbiq etməsi vacib şərtdir. İnformasiya texnologiyaları bu işlərdə şagirdlərin köməyinə gəlir.

Dərsdə yeni texnologiyalar vasitəsilə tədris materialı nümayiş etdirilməsi yeni mövzunun öyrənilməsinə maraq oyadan motivə çevrilə bilər. Texniki vasitələrin qarşısında konkret məqsəd dayanır, axtarış üçün istiqamət verilir. Nəticədə öyrənmə obyekti şagirdləri cəlb edir. Beləliklə, bütün növbəti tədris fəaliyyəti üçün əlverişli imkan yaranır. Bu və ya digər fənn üzrə dərsin uğurla keçməsi əyanilikdən və şərhin ifadəliliyindən, müəllimin təlimin təsviri imkanlarından bəhrələnərək öz şərhi ilə onları şagirdlərə çatdırmaq ustalığından asılıdır. Müəllim hər bir konkret halda real mənzərəni daha düzgün əks etdirən əyani vasitənin köməyi ilə çox yüksək tədris-tərbiyəvi effekt əldə edir. Ənənəvi və müasir texniki vasitələrin bu və ya digər pedaqoji və didaktik imkanları ilə əlaqədar məsələlərə bir sıra ədəbiyyatlarda geniş yer verilmiş və müxtəlif yanaşmalara rast gəlmək mümkündür. Bütün bu ədəbiyyatların təhlilindən sonra biz İKT- nin imkanlarını aşağıdakı kimi ümumiləşdirməyi məqsədə müvafiq hesab edirik:

1. Dərsi əyaniləşdirir. Digər əyani vasitələr daha az təsirli olduqda informasiya texnologiyaları tətbiq edilir, çünki bu zaman daxili əks əlaqə çox güclü həyata keçirilir. Yəni şagird öz-özünü korrektə edərək, düzgün istiqamət götürə bilir.

2. Sinfə gətirilməsi mümkün olmayan fakt və hadisələr, əşyalar haqqında, öyrənilən obyektlər və hadisələr barəsində şagirdlərə olduqca əyani yeni bilik və məlumatlar verir. Bilik və məlumatların müəllimin şərhi (nəqli, izahı və sinif dərsi) vasitəsilə çatdırılması ilə müqayisədə informasiya vasitələri obyektiv gerçəklik barədə daha tam və dürüst mənzərə yaradır. Bu da yeni biliklərin şüurlu və möhkəm mənimsənilməsini təmin edərək, təlimin səmərəliliyini artırır.

3. Alınan nəzəri, elmi bilikləri həyatla, əməklə əlaqələndirir. Mürəkkəb elmi eksperimentlərin nümayişi, dərs mövzularının şagirdlərə çatdırılması imkanlarını da genişləndirir.

4. Müvafiq bacarıq və vərdişlərin yaradılmasına imkan verir. Buraya müşahidə etməyi bacarmaq vərdişi və s. daxildir. Bu isə məlum olduğu kimi, fəaliyyətin bütün sahələri üçün vacib olan bir vərdişdir.

5. İnformasiya texnologiyaları elmi və onun bütün sahələrinə dair suallara cavab tapmaqda şagirdlərə kömək göstərir.

6. Ümumiyyətlə götürdükdə informasiya texnologiyaları dərsin səmərəliliyini, təlimin sürətini artırır, proqram materialının mənimsənilməsinə sərf olunan vaxtı qısaldır.

7. İnformasiya texnologiyalarının tətbiqi müəllimi texniki işin ağırlığından xilas edir. İmkan verir ki, fəaliyyətin yaradıcı tərəfinə daha çox vaxt ayıra bilsin. Nəticədə faktik materiala dair biliklərin yoxlanması üçün mürəkkəb olmayan müxtəlif nəzarətedici vasitələr müvəffəqiyyətlə tətbiq olunur. Beləliklə, tədris materialı üzrə şagirdlər arasında sürətlə və vaxta qənaət etməklə sorğu aparmaq imkanı yaranır.

Ədəbiyyat

1. “Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 102№-li 25 iyun 2007-ci il tarixli qərarı.
2. Məmmədzadə R.H. Müəllimin peşə etikası. Bakı: Maarif, 1992, 112 s.

BÜRQERS TİPLİ PARABOLİK TƏNLİKLƏR SİSTEMİ ÜŞÜN BİR TƏRS MƏSƏLƏ HAQQINDA

Axundov Ədalət Yavuz oğlu, Paşayev Nahid Cəlal oğlu
Azərbaycan Respublikası ETN Riyaziyyat və Mexnika İnstitutu, Lənkəran Dövlət Universiteti
adalatakhund@gmail.com, umud-96@mail.ru

İşdə Bürqers tipli parabolik tənliklər sistemində naməlum sağ tərəflərin tapılması haqqında tərs məsələyə baxılır. Naməlum funksiya zaman dəyişənindən asılıdır və onun tapılması üçün təklif oluan əlavə şərt inteqral şəklindədir. Baxılan məsələnin yeganəliyi və dayanaqlığı haqqında teorem isbat olunmuşdur.

$\{f_k(t), u_k(x,t), k=\overline{1,m}\}$ funksiyalar cütlərinin aşağıdakı sistemdən tapılması məsələsinə baxılır:

$$u_{kt} - u_{kxx} + \sum_{i=1}^{m} u_i u_{ix} = f_k(t) g_k(x), (x,t) \in D = (0,1)\times(0,t], \tag{1}$$

$$u_k(x,0) = \varphi_k(x), x \in [0,1]; \tag{2}$$

$$u_k(0,t) = \psi_{0k}(t), u_k(1,t) = \psi_{1k}(t), t \in [0,T], \tag{3}$$

$$\int_0^1 u_k(x,t)dx = h_k(t), t \in [0,T], \tag{4}$$

burada $g_k(x), \varphi_k(x), \psi_{0k}(t), \psi_{1k}(t), h_k(t) -$ aşağıdakı şərtləri ödəyən verilmiş funksiyalardır:

A. $g_k(x) \in C^{\alpha}[0,1], \int_0^1 g_k(x)dx = g_{ko} \neq 0; \varphi_k(x) \in C^{2+\alpha}[0,1]; h_k(t), \psi_{0k}(t),$

$\psi_{1k}(t) \in C^{1+\alpha}[0,1], \varphi_k(0) = \psi_{0k}(0), \varphi_k(1) = \psi_{1k}(0), \alpha \in (0,1), T = const > 0.$

Tərif 1. $\{(f_k(t), u_k(x,t)), k=\overline{1,m}\}$ funksiyalar cütlərinə o zaman məsələ (1)-(4)-ün həlli deyəcəyik ki: 1) $f(t) \in C^{\alpha}[0,T]$; 2) $u(x,t) \in C^{2+\alpha, 1+\alpha/2}(\overline{D})$; 3) bu funksiyalar cütləri üşün (1)-(4) münasibətləri adi qaydada ödənilir.

(1)-(4) məsələsi özünə ekvivalent olan (1), (2) (3) və

$$f_k(t) = \left[h_{kt} - u_{kx}(1,t)u_{kx}(0,t) + \frac{u^2(1,t)}{2} - \frac{u^2(0,t)}{2}\right] \Big/ g_{k0}, k=\overline{1,m}, \tag{5}$$

məsələsinə (məsələ M) gətirilərək araşdırılır.

İki komplekt ilkin verilənlər – $\{g_k(\cdot), \varphi_k(\cdot), \psi_{0k}(\cdot), \psi_{1k}(\cdot), h_k(\cdot)\}$,
$\{\overline{g}_k(\cdot), \overline{\varphi}_k(\cdot), \overline{\psi}_{0k}(\cdot), \overline{\psi}_{1k}(\cdot), \overline{h}_k(\cdot), k=\overline{1,m}\}$ üçün M məsələsini uyğun olaraq

I_1 və I_2 işarə edək. Fərz edək ki, I_1 və I_2 məsələlərinin uyğun olaraq $\{(f_k(t),u_k(x,t)),k=\overline{1,m}\}$ və $\{(\overline{f}_k(t),\overline{u}_k(x,t)),k=\overline{1,m}\}$ kimi həlləri vardır.

Teorem. Fərz edək ki: 1) $\{g_k(\cdot),\varphi_k(\cdot),\psi_{0k}(\cdot),\psi_{1k}(\cdot),h_k(\cdot)\}$, $\{\overline{g}_k(\cdot),\overline{\varphi}_k(\cdot),\overline{\psi}_{0k}(\cdot),\overline{\psi}_{1k}(\cdot),\overline{h}_k(\cdot),k=\overline{1,m}\}$ ilkin verilənləri A şərtlərini ödəyir;

2) I_1 və I_2 məsələlərinin tərif 1 mənada həlləri vardır və bu həllər $K_\alpha=\{(f,u)\mid f(t)\in C^\alpha[0,T],|f(t)|\le c_1,t\in[0,T],u(x,t)\in C^{2+\alpha,1+\alpha/2}(\overline{D}),|u|,|u_x|,|u_{xx}|\le c_2,$ $(x,t)\in\overline{D},c_1,c_2=const>0\}$, çoxluğuna daxildir.

Onda elə $T^*(0<T^*\le T)$ vardır ki, $(x,t)\in[0,1]\times[0,T^*]$ qiymətləri üçün məsələ (1)-(4)-ün həlli yeganədir və dayanaqlıq qiymətlənməsi doğrudur:

$$\|u-\overline{u}\|_D^{(0)}+\|f-\overline{f}\|_T^{(0)}\le C_3\left[\|g-\overline{g}\|_{[0,1]}^{(0)}+\|\varphi-\overline{\varphi}\|_{[0,1]}^{(0)}+\|\psi_0-\overline{\psi_0}\|_{[T]}^{(0)}+\|\psi_1-\overline{\psi_1}\|_{[T]}^{(0)}+\|h-\overline{h}\|_{[T]}^{(1)}\right],$$

burada $c_3>0$, I1 , I2 məsələlərinin ilkin verilənlərindən və K_α çoxluğundan asılı sabitdir,

$$\|z-\overline{z}\|_B^{(l)}=\sup_B\sum_{l=0}^{2}\sum_{k=1}^{m}\left|z_{kx}^{(l)}-\overline{z}_{kx}^{(l)}\right|,\quad \|q-\overline{q}\|_B^{(l)}=\sup_{[0,T]}\sum_{l=0}^{2}\left|q_{kt}^{(l)}-\overline{q}_{kt}^{(l)}\right|$$

İSTİLİYİN DAİRƏVİ LÖVHƏDƏ YAYILMASI MƏSƏLƏSİNİN ARAŞDIRILMASI

Babacanova Vüsalə Həmzə qızı, Qədirova Bilqeyis İlqar qızı
Sumqayıt Dövlət Universiteti
Vusala11@gmail.com

Fərz edək ki, radiusu R olan bircinsli dairəvi lövhə qızdırılaraq, dairə daxilində $u_0>0$ temperaturu yaradılmışdır. Dairənin konturunda isə temperatur sıfra bərabərdir. Dairə daxilində istiliyin yayılması prosesini araşdıraq.

Baxılan məsələnin həlli riyazi olaraq polyar koordinat sistemində simmetrik olduğuna görə

$$\frac{\partial u(r,t)}{\partial t}=a^2\left(\frac{\partial^2u(r,t)}{\partial r^2}+\frac{1}{r}\frac{\partial u(r,t)}{\partial r}\right)\tag{1}$$

tənliyinin həllinə gətirilir. Deməli (1) tənliyinin

$$u(r,0)=u_0,\quad u(R,t)=0,$$

şərtlərini ödəyən həllini tapmaq lazımdır. Tənliyi

$$F(p)=\int_0^\infty f(t)e^{-pt}dt$$

Laplas çevirməsinin köməyi ilə həll edəcəyik. Əgər Laplas çevirməsini (1) tənliyinə tətbiq etsək və başlanğıc şərti nəzərə alsaq,

$$p\bar{u}(r,p)-u_0=a^2\left(\frac{\partial^2 u(r,p)}{\partial r^2}+\frac{1}{r}\frac{\partial u(r,p)}{\partial r}\right)$$

tənliyini alarıq. Burada $\bar{u}(r,p)$kompleks dəyişənli funksiyadır və $u(r,t)$-həqiqi dəyişənli funksiyasının Laplas obrazıdır. p-Laplas çevirməsinin parametridir. Sonuncu tənliyi

$$r\frac{d^2\bar{u}(r,p)}{\partial r^2}+\frac{d\bar{u}(r,p)}{\partial r}-\frac{rp}{a^2}\bar{u}(r,p)=r\frac{u_0}{a^2}$$

şəklində yazmaq olar.

Tənliyi həll etsək və $r=0$ olduqda həllin məhdud olduğunu nəzərə alsaq, onu aşağıdakı şəkildə təyin edirik.

$$\bar{u}(r,p)=CJ_0\left(\frac{r\sqrt{p}}{a}\right)+\frac{u_0}{p} \tag{2}$$

Deməli baxılan məsələnin həllinin surəti (2) şəklində təyin olunur. Burada C -sabitdir və sərhəd şərtindən tapılır. $J_0(z)$ -Bessel funksiyasıdır.

Əgər sərhəd şərtini (2) tənliyində nəzərə alsaq,

$$C=-\frac{u_0}{pJ_0\left(\frac{R\sqrt{p}}{a}\right)}$$

olar. C-nin bu qiymətini (2) tənliyində nəzərə alsaq, baxılan məsələnin həllinin obrazı

$$\bar{u}(r,p)=\frac{u_0}{p}\left[1-\frac{J_0\left(\frac{r\sqrt{p}}{a}\right)}{J_0\left(\frac{R\sqrt{p}}{a}\right)}\right] \tag{3}$$

olar. Əgər burada

$$\bar{F}(p,r)=\frac{J_0\left(\frac{r\sqrt{p}}{a}\right)}{J_0\left(\frac{R\sqrt{p}}{a}\right)}\cdot e^{pt}$$

əvəz etsək $\bar{F}(p,r)$ - funksiyası üçün $p=0,\ p=-\frac{a^2\mu_n^2}{R}$ $(n=1,2,3,...)$ nöqtələri sadə polyuslar olar. Burada μ_n $(n=1,2,3,...)$ ədədləri $J_0(z)$ -Bessel funksiyasının kökləridir.

Çıxıqlar nəzəriyyəsindən istifadə edib $\bar{F}(p,r)$ funksiyasının çıxıqlarını hesablasaq,

$$\operatorname*{Re}_{p=0} s\,\bar{F}(p)=1,$$

$$\operatorname*{Re}_{p=l_n} s\,\bar{F}(p)=\frac{2\exp\left[-l_k^2\right]J_0\left(\frac{\mu_n r}{R}\right)}{\mu_n\, J_n(\mu_n)}$$

alarıq. Əgər bu qiymətləri (3) bərabərliyində nəzərə alsaq, baxılan məsələnin həllini

$$u(r,t) = 2u_0 \sum_{n=1}^{\infty} \frac{J_0\left(\frac{\mu_n r}{R}\right) \exp\left[-\lambda_n^2\right]}{\mu_n J_n(\mu_n)}$$

şəklində təyin edirik. Burada $\lambda_n^2 = -\frac{a^2 \mu_n^2}{R^2}$ işarə edilmişdir.

Ədəbiyyat

1. Piskunuov N.S. Diferensial və inteqral hesabı, II hissə. - M.: 1970.
2. Məmmədov R.H. Ali riyaziyyat kursu, III hissə. - Bakı, 1984.
3. Qurbanov N.T. Laplas çevirməsinin tədrisinə aid metodik göstəriş.- Sumqayıt, 2002.

SİNQULYAR POTENSİALLI YARIM XƏTTİ ELLİPTİK TƏNLİYİN ZƏİF HƏLLİNİN VARLIĞI

Bağırov Şirmayıl Həsən oğlu, Səlimov Qüdrət Malik oğlu

Bakı Dövlət Universiteti

sh_bağırov@yahoo.com, selimov.qudret1999@gmail.com

Məhdud D oblastında aşağıdakı məsələyə baxaq.

$$\begin{cases} -\Delta U - \frac{C_0}{|x|^2} U = f(u), & x \in D \\ U = 0, & x \in \partial D \end{cases} \tag{1}$$

$n \geq 3,\ 0 \leq C_0 < \left(\frac{n-2}{2}\right)^2$ və $f(z)$ hamar funksiyadır və $1 < p < \frac{n+2}{n-2}$ bərabərsizliyini ödəyən p ədədi üçün aşağıdakı qiymətləndirmələr doğrudur.

$$|f(z)| \leq C(1+|z|^p),\ |f'(z)| \leq C(1+|z|^{p-1}),\ C = const > 0 \tag{2}$$

$F(z) := \int_0^z f(s)ds$ işarə etsək, qəbul edəcəyik F(z) üçün aşağıdakı şərtlər ödənilir. $\exists \gamma < \frac{1}{2},\ 0 < a \leq A$ sabitləri var ki,

$$0 \leq F(z) \leq \gamma \cdot f(z) \cdot z \tag{3}$$

$$a|z|^{p+1} \leq |F(z)| \leq A|z|^{p+1} \tag{4}$$

Qeyd edək ki, qoyduğumuz şərtlərdən çıxır ki, $f(0) = 0$. Asanlıqla göstərə bilərik ki, $f(z) = |z|^{p-1} \cdot z$ yuxarıdakı şərtləri ödəyir. (1) məsələsinin həllinin tərifini verək. Bunun üçün $a(u;v) = \int_D \nabla u \cdot \nabla v\, dx - C_0 \int_D \frac{u \cdot v}{|x|^2} dx$ skalyar hasilinə baxaq. $a(u;u) = \|u\|^2$ norması ilə $C_0^\infty(D)$ tamamlanmasından alınan fəzanı $\bar{H}_0^1$ ilə işarə edək. Məlumdur ki, $\forall 1 \leq q < \frac{2n}{n-2},\ \bar{H}_0^1 \subset L_q(D)$.(1) məsələsinin həlli dedikdə elə $u(x) \in \bar{H}_0^1$ başa düşəcəyik ki, $\forall \varphi(x) \in \bar{H}_0^1(D)$ üçün

$$\int_D u\cdot\nabla\varphi\,dx - C_0\int_D \frac{u\cdot v}{|x|^2}\,dx = \int_D f(u)\varphi\,dx$$

inteqral eyniliyi ödənilsin.Mauntain Pass [1] teoremindən aşağıdakı teoremin doğruluğu alınır.

Teorem: Tutaq ki, $n \geq 3,\ 0 \leq C_0 < \left(\frac{n-2}{2}\right)^2$ və $f(z)$ (2), (3) və (4) şərtlərini ödəyir. Onda (1) məsələsinin heç olmazsa bir zəif həlli var.

Ədəbiyyat

1. L.Evans, Partial Diferential Equations, Department of Matematics, University of California, Berkley, 2010

BUL CƏBRLƏRİNDƏ QEYRİ-SƏLİS TOPOLOGİYA

Bayramov Sədi Andəm oğlu, Təmrazlı Vüsalə Təmraz qızı
Baki Dövlət Universiteti
baysadi@gmail.com, vusaletamrazli@gmail.com

S Bul cəbri olsun.

Tərif 1: Əgər $\tau : S \to [0\,;\,1]$ inikası üçün

1) $\tau(0) = \tau(1) = 1$

2) $\tau(a \wedge b) \geq \tau(a) \wedge \tau(b), \forall\, a, b \in S$ üçün

3) $\tau(\vee_{i\in\Delta} a_i) \geq \wedge_{i\in\Delta}\, \tau(a_i), \forall\, a_i \in S$ üçün şərtləri ödənirsə, $\tau -$ ya S üzərində qeyri-səlis topologiya, $(S\,;\,\tau)$ ikilisinə isə Bul cəbrinin qeyri- səlis topologiyası deyilir.

Teorem 1: $(S\,;\,\tau)$ Bul cəbrinin qeyri-səlis topologiyası olsun.Onda $\forall\, r \in (0\,;\,1]$ üçün

$$\tau_r = \{a \in S \,/\, \tau(a) \geq a\}$$

ailəsi S üzərində bir topologiyadır və bu topologiyalar azalandır.

Teorem 2: Əgər $\{\tau_r\}_{r\in(0\,;\,1]}$ S üzərində azalan topologiyadırsa , onda

$$\tau(a) = \vee\,\{r \,/\, a \in \tau_r\}$$

S üzərində qeyri-səlis topologiyadır.

Tərif 2: $(S\,;\,\tau)$ qeyri-səlis topologiya olsun.

a) $\beta : S \to [0\,;\,1]$ o zaman τ - nun bazisi adlanır ki, β aşağıdakı şərti ödəsin:

$$\forall\, a \in S, \tau(a) = \vee_{\cup_{i\in\Delta} b_i = a} \wedge_{i\in\Delta} \beta(b_i)$$

b) $\varphi : S \to [0\,;\,1]$ o zaman τ – nun alt bazası adlanır ki,

$\tilde{\varphi}(a) = \vee_{\cap_{j\in J} b_j = a} \wedge_{j\in J} \varphi(b_j)$ və J sonlu çoxluq olduqda $\tilde{\varphi} : S \to [0\,;\,1]$ bir bazis olsun.

Teorem 3: Əgər $\beta : S \to [0\,;\,1]$ inikası aşağıdakı şərtləri ödəyərsə,

a) $\beta(0) = \beta(1) = 1$

b) $\beta(a \,\tilde{\cap}\, b) \geq \beta(a) \wedge \beta(b), \forall\,(a, b) \in S$

Onda $\tau_\beta(a) = \vee_{\cup_{j\in J} b_j = a} \wedge_{j\in J} \beta(b_j)$ qeyri-səlis topologiyadır və β, τ_β– nın bazisidir.

Teorem 4: $(S\,;\,\tau)$ Bul cəbrinin qeyri-səlis topologiyası və $S' \subset S$ Bul alt cəbri olsun.

$\tau_{S'}(a) = \vee\{\tau(b): a = b \,\tilde{\cap}\, S', \ (b) \in S\}$ düsturu ilə verilən $\tau_{S'}: S' \to [0;1]$ inikası S' üzərində qeyri-səlis topologiyadır.

Ədəbiyyat

1. Sikorsky R., Boolean algebras , Springer Verlog, Berlin and New York , Third edition 198-201 (1969).
2. Trans. Natl. Acad. Sci. Azerb. Ser. Phys.-Tech. Math. Sci. Mathematics, 41 (1), 85-97(2021).

SOFT TOPOLOJİ FƏZALARIN SİNQULYAR HOMOLOJİ QRUPLARI

Bayramov Sədi Əndam oğlu, Təmrazli Vüsalə Təmraz qızı

Baki Dövlət Universiteti

vusaletamrazli@gmail.com , baysadi@gmail.com

(X,τ,E) soft topoloji fəza , $I=[0,1]$ və I^n - n – ölçülü kub olsun. I_n kubu bir parametrli soft fəza kimi verək. Hər bir $(T,\psi):(I^n,\tau_{I^n},*)\to(X,\tau,E)$ soft kəsilməz inikasa $n-$ ölçülü sinqulyar kub adı verək. Z tam ədədlər qrupu üçün $C_n((X,\varepsilon,E),Z)$ ilə sinqulyar $n-$ kublardan doğuran sərbəst Abel qrupunu göstərək.

$A_i^0,\ A_i^1: I^{n-1}\to I^n$ inikaslarını

$$A_i^0(x_1,x_2,...,x_{n-1})=(x_1,...,x_{i-1},\ 0\ ,x_i,...,x_{n-1})$$
$$A_i^1(x_1,x_2,...,x_{n-1})=(x_1,...,x_{i-1},1\ ,x_i,...,x_{n-1})$$

düsturlarla verək. Onda $\partial_n: C_n((X,\tau,E),Z)\to C_{n-1}((X,E,E),Z)$ sərhəd operatorunu

$\partial_n(T,\psi)=\sum_{i=1}^n(-1)^i\left[A_i^1(T,\psi)-A_i^0(T,\psi)\right]$ düsturla təyin edək.

Lemma 1 : $\partial_{n-1}-\partial_n=0$

Teorem 1 : $(X,\tau,E)\to\{C_n((X,\tau,E),Z),\partial_n\}$ qarşı gəlməsi soft topoloji fəzalar kateqoriyasından zəncir komplekslər kateqoriyasına gedən bir funktordur.

$\{C_n((X,\tau,E),Z),\partial_n\}$ zəncir kompleksin homoloji qrupunu $H_n((X,\tau,E),Z)$ ilə göstərək.

Teorem 2 : $(X,\tau,E)\to H_n((X,\tau,E),Z)$ qarşı gəlməsi soft topoloji fəzalar kateqoriyasından qruplar kateqoriyasına gedən bir funktordur.

Tərif 4 : Əgər $(F,\varphi)(x_e,0)=(f,\varphi)(x_e,(F,\psi)(x_e,1))=(g,\varphi)(x_e)$ şərtini ödəyən $(F,\psi):(X,\tau,E)\times(I,\tau_I,*)\to(Y,\tau',E')$ inikası varsa , soft topoloji fəzaların $(f,\varphi),(g,\psi):(X,\tau,E)\to(Y,\tau',E')$ kəsilməz inikasları homotop adlanır.

Teorem 3 : Əgər $(f,\varphi),(g,\varphi)$ homotopdursa , onda $(f,\varphi)_{*n}=(g,\varphi)_{*n}: H_n((X,\tau,E),Z)\to H_n((Y,\tau',E'),Z)$.

Ədəbiyyat

1. Bayramov S. , Gunduz C. , Mdzinarishvili L. , Singulyar homology teory in the category of soft topological spaces / / Georgian Math J. 22(4) , 2015 , pp 457 – 467

Bayramov Sədi Əndam oğlu, Cəbr və həndəsə kafedrasının professoru, r.e.d.
Təmrazlı Vüsalə Təmraz qızı, Cəbr və həndəsə kafedrsı, magistr

MÜSBƏT MÜƏYYƏN MATRİSİN ƏN KİÇİK MƏXSUSİ ƏDƏDİNİN AŞAĞIDAN QİYMƏTLƏNDİRİLMƏSİ

Eyvazov Elşad Hətəm oğlu, Həsənova Şəhanə Şahin qızı
Bakı Dövlət Universiteti, AR ETN Riyaziyyat və Mexanika İnstitutu
eyvazovelshad@gmail.com, *sehanehesenova1999@gmail.com*

Tutaq ki, $A(x) = \left(a_{ij}(x)\right)_{i,j=1}^{n}$ n ölçülü Evklid fəzasının hər hansı bir G oblastında təyin olunmuş müsbət müəyyən matrisdir, yəni ona uyğun kvadratik forma müsbət müəyyəndir. Dəyişən əmsallı xüsusi törəməli elliptik tip diferensial tənliklər üçün qoyulmuş sərhəd məsələlərinin həllində baş hissəyə uyğun olan matrisin ən kiçik məxsusi ədədinin aşağıdan qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir(bax, məsələn,[1]). Bu işdə müsbət müəyyən $A(x)$ matrisinin

$$\Delta(\lambda, x) = a_n(x) - a_{n-1}(x)\lambda + a_{n-2}(x)\lambda^2 - \ldots + (-1)^{n-1}a_1(x)\lambda^{n-1} + (-1)^n\lambda^n$$

xarakteristik çoxhədlisinin yalnız $a_{n-1}(x)$ və $a_n(x)$ əmsallarından istifadə etməklə $A(x)$ matrisinin ən kiçik məxsusi ədədi üçün aşağıdan qiymətləndirmə alınmışdır.

$\lambda_*(x)$ ilə $\Delta(\lambda, x)$ çoxhədlisiniin $\lambda_1(x), \lambda_2(x), \ldots, \lambda_n(x)$ köklərinin, yəni $A(x)$ matrisinin məxsusi ədədlərinin ən kişiyini işarə edək. $A(x)$ matrisinin müsbət müəyyən olmasından şıxır ki, onun məxsusi ədədləri müsbətdir. Onda Dekart teoremindən alınır ki, $\Delta(\lambda, x)$ çoxhədlisinin $a_k(x)$, $k = 1, 2, \ldots, n$, əmsallarının hamısı müsbətdir. Digər tərəfdən məlumdur ki, (bax, məsələn, [2, səh.153]) $\Delta(\lambda, x)$ çoxhədlisinin $a_i\,(x)(i = 1,2, \ldots, n)$ əmsalları $A(x)$ matrisinin i tərtibli baş minorlarının cəminə bərabərdir. Xüsusi halda

$$a_n(x) = |A(x)| = \lambda_1\,(x) \cdot \lambda_2(x) \cdot \lambda_3(x) \cdot \ldots \cdot \lambda_n(x)\,,$$

$$a_{n-1}(x) = \lambda_2(x) \cdot \lambda_3(x) \cdot \ldots \cdot \lambda_n(x) + \lambda_1(x) \cdot \lambda_3(x) \cdot \ldots \cdot \lambda_n(x) + \ldots +$$
$$+\lambda_1(x) \cdot \lambda_3(x) \cdot \ldots \cdot \lambda_{n-1}(x)$$

Teorem. *n ölçülü Evklid fəzasının hər hansı bir G oblastında təyin olunmuş müsbət müəyyən n tərtibli müsbət müəyyən $A(x)$ matrisinin ən kiçik məxsusi ədədi $\lambda_*(x)$ üçün*

$$\lambda_*(x) > \frac{a_n(x)}{a_{n-1}(x)}$$

bərabərsizliyi doğrudur.

Ədəbiyyat

1. Ю.В. *Егоров.Линейные* дифференциальные уравнения *главного типа*, М:, Наука, 1984, 360 с.
2. Х.Д. Икрамов, Задачник по линейной алгебре, М:, Наука, 1975, 320с.

DÜZBUCAQLI MEMBRANIN RƏQSİNİN ARAŞDIRILMASI

Eyvazlı Günel Mübariz qızı
Sumqayıt Dövlət Universiteti
aliyeva_gunel93@mail.ru

Membran çevik sonsuz nazik lövhədir. Burada qəbul edirik ki, onun qalınlığı sabitdir və bircins materialdan hazırlanmışdır. Əgər bu şərtlər daxilində membranın Oxy müstəvisi ilə üst-üstə düşdüyünü qəbul etsək onun hərəkət tənliyini

$$\frac{\partial^2 u(x,y,t)}{\partial t^2} = a^2\left[\frac{\partial^2 u(x,y,t)}{\partial x^2} + \frac{\partial^2 u(x,y,t)}{\partial y^2}\right] + f(x,y,t) \tag{1}$$

şəklində təyin edə bilərik. Burada $u(x,y,t)$-yerdəyişmə, $a^2 = \frac{\bar{l}_0}{\rho}$ dalğanın yayılma sürətidir. $f(x,y,t)$-xarici təsir qüvvəsidir və məlum hesab olunur.

(1) tənliyi membranın məcburi rəqs tənliyidir. Əgər $f(x,y,t)=0$ olsa, onda (1) tənliyi

$$\frac{\partial^2 u(x,y,t)}{\partial t^2} = a^2\left[\frac{\partial^2 u(x,y,t)}{\partial x^2} + \frac{\partial^2 u(x,y,t)}{\partial y^2}\right] \tag{2}$$

olar. Biz membranın sərbəst rəqs tənliyinin həllini araşdıracağıq. Fərz edək ki, membran düzbucaqlı şəklindədir və aşağıdakı sərhəd şərtləri ödənir:

$$\begin{aligned} &u(x,y,t)\big|_{x=0} = 0;\ u(x,y,t)\big|_{y=0} = 0;\\ &u(x,y,t)\big|_{x=a} = 0;\ u(x,y,t)\big|_{y=b} = 0 \end{aligned} \tag{3}$$

Bu şərtlər membranın konturlarının tərpənməz bağlanmasını göstərir. Burada a və b sabit ədədlərdir və membranın ölçülərini təyin edir.

Başlanğıc şərt isə

$$u(x,y,0) = \varphi_1(x,y);\ \frac{\partial u(x,y,0)}{\partial t} = \varphi_2(x,y) \tag{4}$$

şəklində qəbul edək.

Deməli, baxılan məsələnin həlli (2) tənliyinin (3) sərhəd və (4) başlanğıc şərtlərini ödəyən həllinin tapılmasına gətirilir.

Tənliyə dəyişənlərinə ayırma üsulunu tətbiq etsək, yəni həlli

$$u(x,y,t) = T(t)Z(x,y) \tag{5}$$

şəklində axtarsaq, (2) tənliyindən

$$T''(t) + a^2\lambda T(t) = 0 \tag{6}$$

$$V''(x) + \chi V(x) = 0 \tag{7}$$

$$W''(y) + \mu W(y) = 0 \tag{8}$$

tənliklərini alırıq.

Deməli məsələni həll etmək üçün (6) tənliyinin

$$T(t)\big|_{t=0} = \varphi_1(x,y);\ T'(t)\big|_{t=0} = \varphi_2(x,y) \tag{9}$$

şərtlərini ödəyən həllini tapmaq lazımdır.

(7) tənliyinin $V(x)\big|_{x=0}=0; V(x)\big|_{x=a}=0$ şərtlərini ödəyən həllini, (8) tənliyinin isə $W(y)\big|_{y=0}=0; W(y)\big|_{y=b}=0$ şərtlərini ödəyən tənliyi tapılmalıdır.

Əvvəlcə Laplas çevirməsinin köməy i ilə (6) tənliyini həll edək. əgər Laplasın inteqral çevirməsini (6) tənliyinə tətbiq etsək və (9) şərtlərini nəzərə alsaq, onda operator tənlik aşağıdakı şəkildə olar.

$$\overline{T}(p)-pT(0)-T'(0)+a^2\lambda\overline{T}(p)=0$$

Buradan

$$\overline{T}(p)=\frac{p\varphi_1(x,y)+\varphi_2(x,y)}{p^2+a^2\lambda} \tag{10}$$

alarıq. Əgər Laplasın tərs çevirməsini (10) bərabərliyinə tətbiq etsək, (9) tənliyinin həllini

$$T(t)=\varphi_1(x,y)\cos a\sqrt{\lambda}t+\frac{\varphi_2(x,y)}{a\sqrt{\lambda}}\sin a\sqrt{\lambda}t \tag{11}$$

şəklində təyin edirik. (7) və (8) tənliklərinin həllinin tapılması isə Liuvil-Ştrum məsələsidir və məlumdur, yəni $Z(x,y)=c_{n,m}\sin\frac{\pi n}{a}x\sin\frac{\pi m}{b}y$ şəklində təyin olunur. Onda baxılan məsələnin həlli

$$u(x,y,t)=\sum_{n=1}^{\infty}\sum_{m=1}^{\infty}\left(A_{nm}\cos\sqrt{\lambda_{nm}}at+B_{nm}\sin\sqrt{\lambda_{nm}}at\right)Z_{nm}(x,y)$$

şəklində təyin olunur.

Burada $c_{n,m}=\sqrt{\frac{n}{ab}};\ \lambda_{nm}=\left(\frac{\pi n}{a}\right)^2+\left(\frac{\pi m}{b}\right)^2$ işarə edilmişdir.

Ədəbiyyat

1. Л.В. Крылов “Приближенные методы математического анализа”. Ленинград. “Физмат из”. 1964.
2. А.Д. Кудрявиев “Курс математического анализа”. Москва. “Высшая школа”. 1981.

BİR SİNİF DİSKRET ŞTURM-LİUVİLL OPERATORUNUN SPEKTRİ HAQQINDA

Eyvazlı Güllü Sahil qızı
Bakı Dövlət Universiteti
eyvaligullu194@gmail.com

Fərz edək ki, A_n, B_n həqiqi qiymətli ardıcıllıqlardır və müəyyən N natural ədədi üçün

$$A_{n+N}=A_n>0,\ B_{n+N}=B_n,\ n=0,\pm1,\pm2,...,$$

periodiklik şərtini ödəyir. $\ell_2(-\infty,+\infty)$ fəzasında

$$(ly)_n=a_{n-1}y_{n-1}+b_ny_n+a_ny_{n+1}$$

diferensial ifadəsinin doğurduğu L operatoruna baxaq, belə ki, $a_n>0, b_n$ əmsalları həqiqi olub

$$\sum_{n=-\infty}^{+\infty}\{|a_n - A_n| + |b_n - B_n|\} < \infty$$

şərtini ödəyir. Qeyd edək ki, bu operator diverqent formalı Şturm-Liuvill operatorunun diskret analoqudur. Təqdim olunan iş L operatorunun spektrinin öyrənilməsinə həsr olunmuşdur. Qeyd edək ki, $a_n \equiv A_n$, $b_n \equiv B_n$ olduqda L operatorunun spektral xassələri [1], [2] işlərində tədqiq edilmişdir.

$\varphi_n = \varphi_n(\lambda)$ və $\theta_n = \theta_n(\lambda)$ ilə

$$A_{n-1}y_{n-1} + B_n y_n + A_n y_{n+1} = \lambda y_n, n = 0, \pm 1, \pm 2, \ldots,$$

tənliyinin $\varphi_0 = \theta_1 = 0$, $\varphi_1 = \theta_0 = 1$ şərtlərini ödəyən həllərini işarə edək. Tutaq ki, $\Delta(\lambda) = \dfrac{\varphi_{N+1}(\lambda) + \theta_N(\lambda)}{2}$. Aydındır ki, $\Delta(\lambda)$ funksiyası λ-ya nəzərən N dərəcəli çoxhədlidir. $\Delta(\lambda)$ funksiyasına Hill diskriminantı deyilir. Məlum olduğu kimi $\Delta^2(\lambda) - 1$ çoxhədlisinin kökləri həqiqidir və köklərin təkrarlanma tərtibi ikidən böyük ola bilməz. Bundan başqa $\Delta^2(\lambda) - 1$ çoxhədlisinin kökləri $\lambda_1 < \lambda_2 \le \lambda_3 < \lambda_4 \le \ldots < \lambda_{2N-2} \le \lambda_{2N-1} < \lambda_{2N}$ şəklində nömrələnə bilər(bax [1]-[3]).

Teorem. *L operatorunun kəsilməz spektri $\sigma_r = [\lambda_{2r-1}, \lambda_{2r}], r = 1, \ldots, N$ parçalarını doldurur. Kəsilməz spektrin kənarında L operatorunun yalnız sonlu sayda məxsusi ədədi ola bilər. Bu məxsusi ədədlər sadə və həqiqidir.*

Ədəbiyyat

1. Жернаков Н.В. Прямая и обратная задачи для периодической якобиевой матрицы //Укр.мат.журн., 1986, т.38, №6, с.785-788.
2. Teschl G. Jacobi operators and completely integrable nonlinear lattices // Math. surv.and monographs, AMS, Providence, 2000, v.72.
3. Ханмамедов А.Х. Обратная задача рассеяния для разностного оператора Шредингера, заданного на полуоси// Доклады Академии Наук (Россия), 2006, т.409, №4, с.451-454.

RİYAZİYYATIN TƏDRİSİNDƏ İNNOVATİV METODLAR VƏ TEXNOLOGİYALAR

Əbdürəhimli Gülşən Habil qızı

Qərbi Kaspi Universiteti

gulsen2018111@gmail.com

Riyaziyyatın tədrisində informatika ilə inteqrasiya müvafiq standartlara əsaslanır. Hər iki fənnin məzmun xətlərinin təlim nəticələrini əks etdirən əsas standartlar, alt- standartların mahiyyətinə uyğun bilik və fəaliyyət müəllim üçün anlaşıqlı olmalıdır. "İnformasiya texnologiyaları" dedikdə, elektron resurslar vasitəsi ilə toplanılmış informasiyaların emalı, təqdimatı və informasiyadan istifadə üsul və vasitələri, prosesləri nəzərdə tutulur. Müəllim fənnin tədrisində adaptasiya, interaktiv, fərdi prinsiplərdən qarşılıqlı əlaqədə istifadə etməlidir.

Adaptasiya prinsipi mürəkkəbliyi, əhatə dairəsi və məzmunu əyani vəsaitlərlə, tədris materialını fərqləndirməklə müxtəlif səviyyələrdə həyata keçirilməsidir. Bu prosesdə interaktiv metodların tətbiqi mühüm əhəmiyyət kəsb edir. “İnteraktiv” sözü mahiyyətcə pedaqoji prosesin son dərəcə dinamik fəallaşdırılmasına yönəlir və dərsin bütün mərhələlərində həyata keçirilməlidir. İnteraktiv təlimə tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu kimi baxmaq olar. İnteraktiv təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir: müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması; problemin həlli prosesində tələbələrin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması; tələbələr üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim tələbələrin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman tələbələr müəllimin rəhbərliyi altında xüsusi seçilmiş, asan başa düşülən və yaddaqalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxartmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi tələbələrin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin,yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. İnteraktiv təlim prosesində öyrənənin mövqeyi – “kəşf edən”, “tədqiqatçı”, “araşdırıcı” mövqeyidir, o, gücü çatdığı məsələ və problemlərlə üzləşərkən bunları müstəqil tədqiqat prosesində həll edir. Tələbələr təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən bir subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir, bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər. Müəllimin mövqeyi – fasilitator (“bələdçi”, “aparıcı”) daha çox istiqamətverici mövqeyindədir. O, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, tələbələr qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir.

Riyaziyyat dərslərində İKT-dən istifadə motivasiyanı artırır, vaxta qənaət edilir, bilik və bacarıqların hərtərəfli mənimsənilməsi fəallaşdırılır. İnformasiya texnologiyalarından dərslərdə istifadənin müxtəlif növləri vardır: dərs-mühazirə; dərs hazırlanması və problemlərin həlli; yeni materialın dərsə tətbiqi; inteqrativ dərslər və s.

Fikrimcə, müəyyən bilik və bacarıq tələb edən yeni anlayışlar, nümayiş modelləri kimi Mathlab, Matematik, Texnolojik, Ceo-cebra, Wolfhram saytları müasir təhsil standartlarına tam uyğundur. Bu tədris metodları - məlumat və qəbul, reproduktiv, problem, araşdırma necə öyrənmək prosesinə imkan verir. Bu saytların imkanlarından tələbələr suallara cavab tapmaq, ümumiləşdirmək və biliklərini sistemləşdirmək, yüksək akademik qabiliyyət, müxtəlif idrak və düşüncə tərzini genişləndirmək, biliklərini dərinləşdirmək üçün istifadə edirlər.

Riyaziyyatda İKT-dən istifadə təcrübəsi ən effektiv üsul hesab edilə bilər. Eyni kompüter sinfindən istifadə, multimedia alətləri ilə təşkil olunan interaktiv dərslər səmərəliliyi dəfələrlə artırır, təhsilalan yalnız bir passiv tamaşaçı və ya dinləyici olmur, o, fəal təlim prosesinə cəlb olunur.

Ədəbiyyat

1. Jo Boaler, "Mathematical Mindsets: Unleashing Students' Potential through Creative Math, Inspiring Messages and Innovative Teaching"
2. John Hattie, "Visible Learning for Mathematics, Grades K-12: What Works Best to Optimize Student Learning".

RİYAZİYYAT TƏLİMİNDƏ ŞAGİRDLƏRİN FƏAL ZEHNİ FƏALİYYƏTƏ CƏLB EDİLMƏSİ ÜSULLARI

Əfəndi Sadəddin Nəsrəddin oğlu, Məmmədova Aksana Rəhim qızı

Baki Dövlət Universiteti

sadeddinefendi@mail.ru

Riyaziyyat təhsili şagirdlərin riyazi bacarıqlarını gücləndirmək, həmçinin analitik təfəkkür, problem həll etmək və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Bununla belə, passiv öyrənmə yanaşması şagirdlərin riyaziyyat anlayışlarını adekvat başa düşməsinə mane ola bilər. Ona görə də riyaziyyat təhsilində şagirdlərin fəal zehni fəaliyyətə cəlb edilməsi vacibdir. Fəal zehni fəaliyyət şagirdlərin riyazi təfəkkür bacarıqlarından istifadə etmələrini, öz biliklərini qurmalarını və riyazi anlayışları mənalı şəkildə tətbiq etmələrini nəzərdə tutur. Şagirdlərin riyaziyyatla qarşılıqlı əlaqədə olması və öz öyrənmə prosesində fəal iştirak etməsi onlara daha dərindən başa düşmək və davamlı bilik əldə etməyə kömək edir. Bu məqsədlə riyaziyyat tədrisində müxtəlif üsullardan istifadə edə bilərlər. Biz araşdırmamızda aşağıdakı üsullarla haqqında ətraflı məlumat verəcəyik:

Problem əsaslı öyrənmə şagirdlərə riyaziyyat kimi mücərrəd mövzuları real dünya problemlərinə bağlamağa kömək etmək üçün effektiv üsuldur. Bu yanaşma şagirdlərə riyazi mövzuları daha yaxşı başa düşməyə və tətbiq etməyə kömək edə bilər. Bu yanaşmanı tətbiq etməklə müəllimlər şagirdlərə aşağıdakı yollarla kömək edə bilərlər:

1. Təlim prosesində şagirdlərin qarşılarına çıxan problemi təhlil etmək və riyazi bacarıqlarından istifadə edərək həll etmək imkanı verməklə, onlar konkret kontekstdə mücərrəd anlayışları öyrənə bilərlər.
2. Şagirdlərə təkcə problemləri həll etmək deyil, həm də nəticələri təhlil etmək və şərh etmək bacarıqlarını inkişaf etdirmək şansı vermək vacibdir. Bu, tənqidi düşünmə qabiliyyətini gücləndirə bilər.
3. Real problemləri həll etməklə riyazi mövzuları öyrənmək şagirdlərə bu mövzuların praktikada necə istifadə oluna biləcəyini anlamağa kömək edə bilər. Bu, onların motivasiyasını artırır,onları zehni fəaliyyətə cəlb edir.

Bu yollarla problem əsaslı öyrənmə şagirdlərin riyaziyyatı və digər fənləri daha dərindən dərk etmələrinə və bu bacarıqlardan gündəlik həyatlarında istifadə etmələrinə kömək edən effektiv təlim yanaşmasıdır.

Şagird bir anlayışı başqalarına öyrətməyə çalışdıqda, onu daha yaxşı başa düşmək və aydınlaşdırmaq imkanı əldə edir. Bu, onların riyaziyyatı daha dərindən qavramasına kömək edə bilər. Şagirdlərin ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edir. Riyazi fikirlərin izahı və müzakirəsi şagirdlərin özünü daha yaxşı ifadə etməsinə şərait yaradır.

Şagirdlərə açıq suallar vermək onların riyazi təfəkkürünü inkişaf etdirir. Bu, şagirdlərə yalnız bir nəticəyə deyil, müxtəlif vasitələrlə əldə edilə bilən nəticələrə diqqət yetirməyə imkan verir. Bu, şagirdlərə riyaziyyata bir sıra qaydaların yadda saxlanmalı olduğu bir fənn kimi deyil, məntiqi təfəkkür prosesi kimi perspektiv inkişaf etdirməyə kömək edir.

Bundan əlavə, açıq suallar şagirdlərə problem həll etmə bacarıqlarını təkmilləşdirmək imkanı verir. Problemləri həll etmək üçün müxtəlif strategiyaların işlənib hazırlanmasını və tətbiqini tələb edir. Bu, şagirdlərə tənqidi düşünmə və analitik bacarıqlar verir. Riyazi məsələlərin həlli zamanı yaradıcı olmaq şagirdlərin riyazi təfəkkür bacarıqlarını daha geniş kontekstə gətirir və bu bacarıqların digər sahələrə tətbiqini asanlaşdırır. Bununla belə, sual-cavab texnikasından istifadə edərkən diqqətli tarazlıq tələb olunur. Əgər suallar çox çətin olarsa və ya tələbələrin biliyi az olduğundan cavab verilə bilmirsə, şagirdlərin motivasiyası azala bilər. Ona görə də müəllimlər şagirdlərin səviyyələrinə uyğun suallar verməyə diqqət etməli və lazım gəldikdə onlara rəhbərlik etməlidirlər.

Şagirdlərə rəqəmlər, naxışlar, həndəsə və problem həlli ilə bağlı əsas anlayışları öyrədir, eyni zamanda şagirdlərə bu anlayışları konkret şəkildə yaşamağa imkan verir. Məsələn, riyaziyyat oyunu şagirdlərə əlavə və ya çıxmağı öyrənərkən bu əməliyyatları həyata keçirmək imkanı təklif edə bilər. Riyaziyyat oyunları həm də əməkdaşlıq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün bir yoldur. Şagirdlər qruplarda və ya rəqabətli oyunlarda oynadıqda, problem həll etmə bacarıqlarını bölüşmək və başqaları ilə qarşılıqlı əlaqə qurmaq imkanı əldə edirlər. Bu, riyaziyyat dərslərini daha sosial təcrübəyə çevirir. Bundan əlavə, riyaziyyat oyunları şagirdlərə səhv etmək imkanı verir və onları bu səhvlərdən öyrənməyə təşviq edir. Səhvlər öyrənmənin təbii bir hissəsidir və riyaziyyat oyunları şagirdlərə bu səhvləri etmək və sonra onları düzəltmək imkanı verir. Bu, onların özünə inamını artıra və riyaziyyatla daha müsbət münasibət qurmağa kömək edə bilər [4, s. 9].

Riyaziyyat təlimində şagirdlərin fəal zehni fəaliyyətə cəlb olunmasında çalışma həllinin rolu böyükdür

Ədəbiyyat

1. Q. Qoqişvili və b. Riyaziyyat müəlliminin kitabı. Tbilisi-2020.
2. Черкасов Р.С., Столяр.А.А Методика преподавания математики, Москва 1985.

RİYAZİYYAT TƏLİMİ KEYFİYYƏTİNİN YÜKSƏLMƏSİNDƏ MƏSƏLƏ HƏLLİNİN ROLU

Əfəndi Sadəddin Nəsrəddin oğlu, Məmmədova Aysel Tofiq qızı

Bakı Dövlət Universiteti
effendi_sadeddin@mail.ru

Müasir riyaziyyat təlimində öyrənmə və öyrətmə vasitəsi olan, müxtəlif funksiyaları icra edən məsələ həllinin riyaziyyat təlimində rolu böyükdür. Məsələnin təhsil funksiyası şagirdlərdə riyazi bilik, bacarıq və vərdişlər sisteminin formalaşmasına xidmət edir. Məsələ həlli şagirdlərdə riyazi təfəkkürün inkişafına kömək edir. Dərsin əsas didaktik məqsədlərinə uyğun olaraq sistemli şəkildə seçilmiş məsələ riyazi anlayışların şagirdlər tərəfindən mükəmməl mənimsəmələrinə kömək edir. Qeyd edək ki, belə məsələlər sistemini seçərkən məsələlər sadədən mürəkkəbə doğru seçilməlidir. Müxtəlif üsullarla həll oluna bilən məsələ şagirdlərin fəal zehni fəaliyyətə cəlb olunmasında və şagirdlərin müstəqilliyə nail olmalarında çox ciddi vasitədir.

Təlim prosesində şagirdlərin müstəqilliyi onların fəaliyyətinin ali formasıdır. Təlim prosesində şagird fəallığının təmin olunması onların müstəqilliyə nail olmalarından çox asılıdır. Bu isə şagirdin riyazi təfəkkürünün əsasını təşkil edir. Bilirik ki, hər bir məsələ bir çox pedoqoji, didaktik və təlim məqsədləri üçün nəzərdə tutulur.

Həndəsənin tədrisi prosesində həndəsə məsələlərinin həllinin həndəsi fiqurların xassələrinin öyrənilməsində böyük rolu var. Həndəsə məsələlərinin həlli şagirdlərdə müstəqillik, öyrənməyə maraq və müxtəlif zehni fəaliyyət formaları yaradır. Həndəsə məsələlərinin həlli şagirdlərin məntiqi mühakiməsinin formalaşmasına ciddi təsir göstərir. Həndəsə məsələləri şagirdlərin öyrəndikləri nəzəri materialın daha şüurlu mənimsəmələrinə kömək etməklə bərabər onların fəza təsəvvürünü inkişaf etdirir. Bunun nəticəsində şagirdlərin tədris-idrak fəaliyyəti fəallaşır.

RİYAZİYYAT TƏLİMİ PROSSESİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ FORMALAŞMASINDA ÇALIŞMA HƏLLİNİN ƏHƏMİYYƏTİ

Əfəndi Sadəddin Nəsrəddin oğlu, Məmmədova Sevinc Murad qızı
Bakı Dövlət Universiteti
effendi_sadeddin@mail.ru

Müəllim və şagirdlərin birgə fəaliyyət forması olan müstəqil işləri yerinə yetirərkən şagirdlər qazandıqları bilik, bacarıq və vərdişlər üzərində fəal əməliyyat aparır, axtarır fəaliyyəti tamamlayır. Bunun nəticəsi olaraq bu cür müstəqil fəaliyyətdə şagirdin müstəqilliyi, fəallığı artır və möhkəmlənir. Bu səbəbdən şagirddə yüksək səviyyəli şüurluluq yaranır. Şüurlu mənimsəmə zamanı biliklərin öyrənilməsi və tətbiqinə yaradıcı münasibət formalaşır. Eyni zamanda şagirdlərin məntiqi təfəkkürü formalaşır. Riyaziyyat tədrisində şagirdlərin çalışma həll etmələrinin əhəmiyyəti olduqca böyükdür. Bu işlər təlimdə şagirdlərin idrak fəallığını artırır, mənimsəmənin və biliyin şüurlu qazanılmasına, şagirdlərin məntiqi mühakimə yürütməsinə ciddi təsir edir. Hər bir şagirdin sərbəst işləmə vərdişlərinin keyfiyyətini artırır.

Aydındır ki, şagirdlərin həll etdikləri çalışma hədləri zamanı yaxşı nəticə verir ki, bunlar proqram mövzularının öyrənilməsi ilə sıx əlaqədə yerinə yetirilsin. Təlim prosesində həll edilən çalışmalar şagirdlərin gücünə uyğun olmalıdır. Tapşırıqların çətinlik dərəcəsi tədricən artırılmalıdır.

Təlim prosesində çalışmaların çətinliklərinin tədricən artırılması şagirdlərdə çalışmaları yerinə yetirmə bacarığını artırır.

Əqli gərginlik və iradi səylə xarakterizə olunan şagirdlərin təlimdə idrak fəallığı biliklərin əldə olunması nəticəsində yaranır. Təlim prosesində şagirdlərin əqli fəallığı anlayışların formalaşdırılmasında xüsusi rol oynayır. Şagirdlərin fəallıq və şüurluluğunun ali forması idraki müstəqillikdir. Ona görə də təlimdə şüurluluq və fəallığın həyata keçirilməsi şagirdlərdə əsas şəxsi keyfiyyət sayılan idrak müstəqilliyi formalaşdırır.

Qeyd edək ki, idraki müstəqilliyi formalaşdırmaq üçün çalışma həllinin əhəmiyyəti böyükdür.

c_0 ARDICILLIQLAR FƏZASINDA TƏSİR EDƏN DÖRD BƏNDLİ OPERATOR - MATRİSİN SPEKTRİNİN TƏDQİQİ

Əhmədov Əli Mustafa oğlu, Bəşirova Rəmziyyə Şahin qızı
Bakı Dövlət Universiteti
ali.akhmedov@rambler.ru, bashirova_remziyye@mail.ru

Məlumdur ki, sonsuz fərq operator-matrisin spektral xassələrinin öyrənilməsi bir çox riyaziyyat və təbiət məsələlərinin həllində mühüm rol oynayır. Məsələlərdən asılı olaraq fərq

$$\Delta = \begin{bmatrix} 1 & 0 & 0 & 0 & \dots \\ -1 & 1 & 0 & 0 & \dots \\ 0 & -1 & 1 & 0 & \dots \\ - & - & - & - & \dots \\ - & - & - & - & \dots \end{bmatrix}$$

matrisin doğurduğu operator [1] kifayət qədər öyrənilmişdir. Qeyd edək ki, c_0 - sıfıra yığılan ədədi ardıcıllıqların doğurduğu Banax fəzasıdır, $\Delta : c_0 \to c_0$ məhduddur, $\|\Delta\| = 2$.

Eyni zamanda Δ operatorunun spektri

$$\sigma(\Delta) = \{\lambda : \lambda \in C;\ |\lambda - 1| \le 1\}$$

şəklindədir.

Bu işdə bu nəticənin bir ümumiləşməsi öyrənilir. Aşağıdakı operator-matrisə baxaq:

$$V(r,s,t,u)=\begin{bmatrix} r & s & t & u & 0 & 0 & 0 & .... \\ 0 & r & s & t & u & 0 & 0 & .... \\ 0 & 0 & r & s & t & u & 0 & .... \\ 0 & 0 & 0 & r & s & t & u & .... \\ - & - & - & - & - & - & - & ..... \end{bmatrix}$$

Fərz edək ki, r,s,t və u ümumiyyətlə kompleks kəmiyyətlər olmaqla eyni zamanda 0 deyildirlər.

Aşağıdakı nəticələr alınmışdır:

Teorem 1. $V(r,s,t,u): c_0 \to c_0$ məhduddur və

$$\|V(r,s,t,u)\| = |r| + |s| + |t| + |u|$$

Teorem 2. $V(r,s,t,u)$ operator-matrisin spektri üçün aşağıdakı ifadə doğrudur:

$$\sigma(V(r,s,t,u)) = \{\lambda : \lambda \in C;\ |\lambda - r| \le |s| + |t| + |u|\}$$

Alınan nəticələr [1]- [3] işlərindəki nəticələrin ümumiləşməsidir.

Ədəbiyyat

1. M.Akhmedov, F.Bashar, On the fine spectra of the difference operator Δ over the sequence space $lp(1 \le p < \infty)$, Demonstratio Math, 39(2006).
2. B.Altay, F.Bashar, On the fine spectrum of the difference operator on c_0 and c, Inform.Sci.168(2004) 217-224.
3. Əhmədov Ə.M., Bəşirova R.Ş. c_0 fəzasında təsir edən üç bəndli üçbucaq operator-matrisin spektri haqqında, Bakı Dövlət Universiteti, Bakı və region gənclərinin I elmi konfransı, 20 aprel 2023, 160-161 s.

ÜMUMİLƏŞMİŞ SÜRÜŞMƏ HALINDA BÜKMƏ TİPLİ OPERATORLAR ÜÇÜN İKİÇƏKİLİ QİYMƏTLƏNDİRMƏLƏR

Əkbərov Asim Ələsgər Oğlu

Bakı Dövlət Universiteti

asimakbarov@mail.ru

Tutaq ki, R_n - n ölçülü Evklid fızasıdır. $(n \ge 1)$

$$R^{+}_{m+3,3} = \left\{ \left(x_1, ... x_m, x_{m+1}, x_{m+2}, x_{m+3} \right) \in R_{m+3} : x_{m+1} > 0, x_{m+2} > 0, x_{m+3} > 0 \right\},$$

$$T^{y}u(x) = c_v \int_0^{\pi}\int_0^{\pi}\int_0^{\pi} u\Big(x' - y', \sqrt{x^2_{m+1} - 2x_{m+1}\cdot y_{m+1}\cdot\cos\alpha_{m+1} + y^2_{m+1}},$$
$$\sqrt{x^2_{m+2} - 2x_{m+2}\cdot y_{m+2}\cdot\cos\alpha_{m+2} + y^2_{m+2}}, \sqrt{x^2_{m+3} - 2x_{m+3}\cdot y_{m+3}\cdot\cos\alpha_{m+3} + y^2_{m+3}} \Big)$$

$$\times\sin\alpha_{m+1}^{2v_{m+1}-1}\cdot\sin\alpha_{m+2}^{2v_{m+2}-1}\cdot\sin\alpha_{m+3}^{2v_{m+3}-1}\cdot d\alpha_{m+1}\cdot d\alpha_{m+2}\cdot d\alpha_{m+3}$$

isə Ümumiləşmiş sürüşmə operatorudur, burada

$x=(x',x_{m+1},x_{m+2},x_{m+3}),\ y=(y',y_{m+1},y_{m+2},y_{m+3}),\ x',y'\in R^m,\ v_{m+1}>0, v_{m+2}>0, v_{m+3}>0, c_v>0$ - sabitdir.

Fərz edək ki,

$$L_{p,v}\left(\omega,R_{m+3,3}^{+}\right)\overset{df}{=}\left\{u-ölç.\|u\|_{L_{p,v(\omega)}}^{p}=\int_{R_{m+3,3}^{+}}\left(|u(x)|\omega(|x_i|)\right)^{p}d\mu(x)<+\infty\right\},$$

burada $1\le p<\infty, d\mu(x)=\prod_{i=1}^{m+3}d\mu(x_i),\ d\mu(x_i)=\begin{cases}dx_i,\ i=\overline{1,m}\\ y_i^{2v_i}dx_i,\ i=\overline{m+1,m+3}\end{cases}.$

S.K.Abdullayevin işlərinə əsasən $K_v(p,q), v>0, 1<p\le q<\infty$ sinfini təyin edək.

$1<p\le q<\infty$ üçün $K_v(p,q)$ sinfi $L_{p,v}$-dən $L_{q,v}$ fəzasına məhdud təsir edən

$$(Au)(x)\overset{df}{=}\int_{R_{m+3,3}^{+}}K(y)T^{y}u(x)\cdot y_{m+1}^{2v_{m+1}}\cdot y_{m+2}^{2v_{m+2}}\cdot y_{m+3}^{2v_{m+3}}dy$$

şəklində inteqral operatorlar sinifidir, burada

$$|K(y)|\le c\cdot|y|^{-(m+3+2|v|-\alpha)},\ y\ne 0, \alpha=(m+3+2|v|)\left(\frac{1}{p}-\frac{1}{q}\right).$$

Qeyd edək ki, $p\ne q$ üçün $K_v(p,q)$ sinfi Riss və Bessel potensiallarını, $p=q$ olduqda isə

$$Au(x)=v.p\int_{R_{m+3,3}^{+}}\frac{f(\theta)}{|y|^{m+3+2|v|}}\left[T^{s}f(x)\right]y_{m+1}^{2v_{m+1}}\cdot y_{m+2}^{2v_{m+2}}\cdot y_{m+3}^{2v_{m+3}}dy$$

şəklində sinqulyar inteqral operatorları özündə saxlayır, burada

$$\theta=\frac{y}{|y|}, |v|=v_{m+1}+v_{m+2}+v_{m+3}.$$

$1<p\le q<\infty,\ \alpha\ge 0, i=\overline{1,m+3}.\ \ \omega_{p,q,i}$ ilə aşağıdakı şərtləri ödəyən (ω,ω_1) şəklində müsbət funksiyalar cütünü işarə edək:

$$\sup_{t>0}\left[\int_t^{\infty}\left(\xi^{-\frac{a_i+1}{p'}}\omega_1(\xi)\right)^{q}\frac{d\xi}{\xi}\right]^{\frac{1}{q}}\cdot\left[\int_0^{t}\left(\xi^{-\frac{a_i+1}{p'}}\omega(\xi)\right)^{-p'}\frac{d\xi}{\xi}\right]^{\frac{1}{p'}}<\infty,$$

$$\sup_{t>0}\left[\int_0^{t}\left(\xi^{\frac{a_i+1}{p'}}\omega_1(\xi)\right)^{q}\frac{d\xi}{\xi}\right]^{\frac{1}{q}}\cdot\left[\int_0^{\infty}\left(\xi^{\frac{a_i+1}{p'}}\omega(\xi)\right)^{-p'}\frac{d\xi}{\xi}\right]^{\frac{1}{p'}}<\infty,$$

burada $p'=p/p-1,\ a_i=\begin{cases}2v_i,\ \overline{m+1,m+3}\\ 0,\ \ i=\overline{1,m}\end{cases}$

Teorem. Tutaq ki, $A\in K_v(p,q), 1<p\le q<\infty,\ \alpha\ge 0$ və $\omega_1(t),\ \omega(t)$ funksiyaları $(0,\infty)$-da müsbət funksiyalardır. Əgər

1) $\exists c>0\quad \forall t\in(0,\infty)\ \sup_{t\le\tau\le 8t}\omega_1(\tau)\le c\inf_{t\le\tau\le 8t}\omega(\tau);$

2) $(\omega,\omega_1)\in\omega^{v}_{p,q,i}$

olarsa, onda $\forall u\in L_{p,v}\left(\omega,R^{+}_{m+3,3}\right)$ üçün $Au\in L_{q,v}\left(\omega_1,R^{+}_{m+3}\right)$ və

$$\left(\int_{R^{+}_{m+3,3}}\left|(Au)(x)\omega_1(|x_i|)\right|^{q}d_{\mu}(x)\right)^{\frac{1}{q}}\le c\left(\int_{R^{+}_{m+3,3}}\left|u(x)\omega(|x_i|)\right|^{p}d_{\mu}(x)\right)^{\frac{1}{p}}$$

bərabərsizliyi doğrudur, buradan c-sabiti u -dan asılı deyil.

Ədəbiyyat

1. Абдуллаев С.К., Акперов А.А. Весовые оценки сингу-лярных и слабо сингуляр-ных интегралов, ассоци-ированных обобщенным сдвигом / Azərbaycan Ümumilli lideri Heydər Əliyevin 85 illik yubleyinə həsr olunmuş tələbə, magistrant və gənc tədqiqatçıların Respublika elmi konfransı, 2008, s. 3-4.

BİR SƏRHƏD MƏSƏLƏSİNİN ƏDƏDİ HƏLLİNƏ YARILAQRANJ ÜSULUNUN TƏTBİQİ

Əliyev Aydın Yunus oğlu, Həsənova Xanımnaz Vüqar qızı
Bakı Dövlət Universiteti
aydin_aliyev66@mail.ru , nazhsnova@gmail.com

Tutaq ki, D=[0,1] ⊂R baxdığınız oblastdır. Q_T{(t,x)|0<t<T,x**϶**D} oblastında aşağıdakı tənliyə baxaq:

$$\frac{\partial\rho}{\partial t}+\frac{\partial(u\rho)}{\partial x}=f(t,x),\forall(t,x)\in Q_T \quad , \qquad (1)$$

burada u(t,x) və f(t,x) . Q_T-dən olan kifayət qədər hamar funksyalardır.

Məchul ρ(t,x) funksiyası bütün $\overline{D}$ oblastında zamanın başlanğıc anında məlumdur.

$$\rho(0,x)=\rho_{init}(x),\forall t\epsilon[0,T] \qquad (2)$$

və x=0 halında zamanın ixtiyari tamında Ω

$$\rho(t,0)=\rho_{in}(t),\forall t\epsilon[0,T] \qquad (3)$$

$\overline{Q_T}$ –də t_K=kτ,x_i=ih düyün nöqtələri çoxluğu ilə müntəzəm şəbəkə quraq ,burada h=1/N ilə (N>2) fəza dəyişəni üzrə ,τ=T/k ilə isə (k≤1) zaman üzrə şəbəkə addımlarını işarə edirik.

(1)-(3) məsələsinin həllini şəbəkənin (t_k,x_i) düyün nöqtələrində təyin olunmuş ρ^h diskret funksiyası şəklində axtaracağıq.(3) şərtinə əsasən ρ funksiyası zamanın başlanğıc anında şəbəkənin bütün düyün nöqtələrində məlumdur.Ədədi sxemin qurulması üçün fərz edəcəyik ki, t=t_{k-1} halında ρ^h ədədi həlli məlumdur və axtarılan funksiyanın zaman üzrə k-cı laydakı qiymətini hesablamaq tələb olunur.

Burada şəbəkənin x_i (i=1,....,N-1) daxili düyün nöqtələrində ədədi həllin yarılaqranj üsulu ilə qurulması inteqral eyniliyə əsaslanır.

Teorem: Əgər ρ məsələnin kifayət qədər hamar həllidirsə,onda

$$\int_{\Omega}\rho(t_k,x)dx=\int_{Q}\rho(t_{k-1},x)dx+\int_{tk-1}^{tk}\int_{Q}f(t,x)dxdt+I(Q_{in}) \qquad (4)$$

Burada Ω ⊂R , t_k layındakı parça ,Q⊂R isə t_{k-1} layındakı parçadır.

I(Q_{in})= $\int$ $u(t,0)\rho_{in}$(t,0)dt($Q_{in} \neq \emptyset$) sərhəd üzrə inteqraldır.

Ədəbiyyat

1. Е.В.Кучунова Полулагранжевый метод для уравнения неразрывности и уравнения адвекции-диффузии /Кучунова Е.В., Кери А.С., Малыцева Е.С.//Информационные технологии в науке,образовании и управлении -2018,-№5(9)-С.38-46
2. Q.Lil constrained interpolation profile conservative semi-lagrangian scheme based on thrid-order polynomial functions and essentially non-oscillatory scheme /Q.Lil,S.Omar ,D.Xi,K.Yokoi// Commun.Comput.Phys-2017,-Vol.22,№ 3-pp.765-788

ELASTIKI MÜHITLƏRDƏ UZUNUNA VƏ ENINƏ DALĞALAR HAQQINDA

Əliyev Alı Bakir oğlu, Rəhimova Kəmalə Razim qızı, Məlikova Sevinc Abdulalı qızı

Bakı Dövlət Universtiteti

melikovasevinc@icloud.com

Xətti – elastik mühitlərdə heyəcanlanmaların yayılma məsələsinə baxaq. Xarici həcmi qüvvələrin heyəcanlamasını nəzərə almayan, xəttiləşmiş hərəkət tənliklərini x,y,z oxları üzrə proyeksiyalarda yazaq:

$$(\Lambda + G)\frac{\partial e}{\partial x} + G\ \Delta U = \rho\frac{\partial^2 u}{\partial t^2}, \quad (\Lambda + G)\frac{\partial e}{\partial z} + G\ \Delta W = \rho\frac{\partial^2 w}{\partial t^2} \tag{1}$$

Burada Λ və G Lame əmsallarıdır.

Tutaq ki, deformasiya zamanı hissəciklərin fırlanması baş vermir : $\omega_X = \omega_y = \omega_z = 0$. Onda mühitin istənilən elementinin fırlanması üçün məlum

$$\omega_x = \frac{1}{2}\left(\frac{\partial w}{\partial y} - \frac{\partial \upsilon}{\partial z}\right),\ \omega_y = \frac{1}{2}\left(\frac{\partial u}{\partial z} - \frac{\partial w}{\partial x}\right),\ \omega_z = \frac{1}{2}\left(\frac{\partial \upsilon}{\partial x} - \frac{\partial u}{\partial y}\right) \tag{2}$$

ifadələrindən alırıq ki,

$$\frac{\partial \upsilon}{\partial x} = \frac{\partial u}{\partial y},\ \frac{\partial w}{\partial y} = \frac{\partial \upsilon}{\partial z},\ \frac{\partial u}{\partial z} = \frac{\partial w}{\partial x} \tag{3}$$

Elə bir φ funksiyası götürək ki,

$$u = \frac{\partial \varphi}{\partial x},\ \upsilon = \frac{\partial \varphi}{\partial y},\ w = \frac{\partial \varphi}{\partial z} \tag{4}$$

o (2) münasibətlərini ödəmir. (4) əvəzləməsinin köməyi ilə (1) sistemini aşağıdakı şəklə gətirək.

$$(\Lambda + 2G)\ \Delta u = \rho\frac{\partial^2 u}{\partial t^2}$$

$$(\Lambda + 2G)\ \Delta \vartheta = \rho\frac{\partial^2 \vartheta}{\partial t^2}$$

$$(\Lambda + 2G)\ \Delta w = \rho\frac{\partial^2 w}{\partial t^2}$$

Bu tənliklərlə təsvir olunan dalğalar mexanikada burulğansız və ya həcmi dalğalar adlanır.

ARTAN POTENSİALLI ŞREDİNGER TƏNLİYİİN YOST TİPLİ HƏLLƏRİ

Əliyev Murad Səxavət oğlu
Bakı Dövlət Universiteti
mliyev008@gmail.com

Aşağıdakı tənliyə baxaq:

$$-y'' + Q(x)y + q(x)y = \lambda y, \qquad -\infty < x < \infty \tag{1}$$

burada λ spektral parametrdir,

$$Q(x) = \begin{cases} -x^2, x < 0 \\ x, x \geq 0 \end{cases},$$

$q(x)$ isə həqiqi qiymətli funksiya olub

$$\int_{-\infty}^{0} (1+|x|)e^{2x^2}|q(x)|dx + \int_{0}^{\infty} (1+|x|)|q(x)|dx + < \infty . \tag{2}$$

şərtini ödəyir. Tutaq ki, $f_+^0(x,\lambda) = \pi^{\frac{1}{2}} \mathrm{A}i(x-\lambda)$, burada $\mathrm{A}i(x)$ birinci növ Eyri funksiasıdır(bax [1]). Həmçinin $f_-^0(x,\lambda) = D_{\frac{i\lambda}{2}-\frac{1}{2}}\left(-\sqrt{2}e^{-\frac{i\pi}{4}}x\right)$ funksiyasını daxil edək, burada $D_\nu(z)$ Veber funksiyadır(bax [1]]). (1) tənliyinin

$$f_\pm(x,\lambda) = f_\pm^0(x,\lambda)[1+o(1)], x \to \pm\infty$$

şərtlərini ödəyən həllərinə Yost tipli həllər deyilir. T\qdim olunan işdə Yost tipli həllərin varlığı isbat olunur və onların inteqral göstərilişləri tapılır. Qeyd edək ki, oxşar məsələlər $Q(x) = x$ olduqda [2], [3]] işlərində, birinci $Q(x) = -x^2$ olduqda isə [4] işində baxılmışdır.

Aşağıdakı funksiyaları daxil edək:

$$\sigma^+(x) = \int_x^\infty |q(t) + Q(t) - t|dt, \ \sigma_1^+(x) = \int_x^\infty \sigma^+(t)dt,$$

$$\sigma^-(x) = \int_{-\infty}^x |q(t) + Q(t) + t^2|dt, \ \sigma_1^-(x) = \int_{-\infty}^x \sigma^-(t)dt.$$

Teorem. *Əgər $q(x)$ funksiyası (2) şərtini ödəyərsə, onda (1) tənliyinin Yost tipli həlləri var, yeganədir və aşağıdakı kimi göstərilə bilər:*

$$f_\pm(x,\lambda) = f_\pm^0(x,\lambda) \pm \int_x^{\pm\infty} K^\pm(x,t)\, f_\pm^0(t,\lambda)dt,$$

burada $K^\pm(x,t)$ nüvələri kəsilməz funksiyalardır və aşağıdakı münasibətləri ödəyir:

$$\left|K^\pm(x,t)\right| \leq \frac{1}{2}\sigma_0^\pm\left(\frac{x+t}{2}\right)e^{\sigma_1^\pm\left(\frac{x+t}{2}\right)},$$

$$K^{\pm}(x,x)=\pm\frac{1}{2}\int_{x}^{\pm\infty}\left[q(t)+Q(t)\mp t^{1+\frac{1\mp 1}{2}}\right]dt\,.$$

Ədəbiyyat

1. М. Абрамович, И. Стиган, *Справочник по специальным функциям*, Наука, Москва (1979).
2. Li. Yishen, *One special inverse problem of the second order differential equation on the whole real axis*, *Chin. Ann. of Math.*, **2**, №2,147-155 (1981).
3. А. Х. Ханмамедов, М.Г.Махмудова, *Об операторе преобразования для уравнения Шредингера с дополнительным линейным потенциалом*, Функциональный анализ и его приложения, **54**,№1,93–96 (2020).
4. М.Г.Гасымов, Б.А. Мустафаев, *Обратная задача рассеяния для ангармонического уравнения на полуоси*, ДАН СССР*,* **228**: №1, 321-323 (1976).

E_3 -DƏ MİNİMAL SƏTHLƏR VƏ BU SƏTHLƏRLƏ ƏLAQƏLİ BƏZİ MƏSƏLƏLƏR

Əliyev Nəcəf Yaqub oğlu, Məmmədli Turanə Ruslan qızı

Baki Dövlət Universitetİ

mmmdlituran8@gmail.com

Fərz edək ki, üç ölçülü Evklid fəzası E_3-də iki ölçülü V_2 səthi verilmişdir. Ümumi halda,bu səth iki həqiqi arqumentdən asılı üç həqiqi funksiya vasitəsilə verilir.Bunun üçün bizə fəzanın 0 nöqtəsinə R tərpənməz reperinə gətirək:

$$R=\{0,e_1,e_2,e_3\}.$$

Bu halda səthin vektorial tənliyi aşağıdakı kimi olacaq:

$$r(u,v)=x(u,v)i+y(u,v)j+z(u,v)k.$$

$$x(u,v),y(u,v),z(u,v) \tag{1}$$

səthin tənlikləri olacaqdır. Bu səthin üzərində metrik məsələləri həll etmək üçün səthin metrik forması adlanan bir forma daxil etmək lazımdır .

$$dr^2=\mu_{11}du^2+2\mu_{12}dudv+\mu_{22}dv^2$$

μ əyrisi boyunca səthin bu metrik forması aşağıdakı kimi mənaya malikdir :

$$dr^2=ds^2\,,$$

$$ds^2=\mu_{11}du^2+2\mu_{12}dudv+\mu_{22}dv^2\,.$$

Səthin koordinat xətləri aşağıdakı qayda ilə təyin edilir. $u(v=0)$ olduqda u xətti boyunca səthin birinci kvadratik forması aşağıdakı kimi olacaq:

$$dr^2=\mu_{11}du^2\,.$$

$v(u=0)$ olduqda v xətti boyunca səthin birinci kvadratik forması aşağıdakı kimi olacaq:

$$dr^2=\mu_{22}dv^2\,.$$

Səthin ikinci kvadratik forması dedikdə isə biz belə bir kvadratik forma başa düşürük :

$$\Phi = b_{11}du^2 + 2b_{12}dudv + b_{22}dv^2 .$$

Səthin birinci kvadratik forması həmişə müsbət müəyyəndir.Ancaq bunu ikinci kvadratik forma üçün demək olmaz.Səthin birinci və ikinci kvadratik formadan istifadə edərək səth üzərində 2 əyrilik tapmaq olar :səthin tam əyriliyi,səthin orta əyriliyi.

Tam əyrilik :

$$k = \frac{b_{11}b_{22} - b_{12}^2}{\delta_{11}\delta_{22} - \delta_{12}^2}$$

Orta əyrilik:

$$H = \frac{1}{2}\frac{\begin{vmatrix} \delta_{11} & b_{12} \\ \delta_{21} & b_{22} \end{vmatrix} + \begin{vmatrix} b_{11} & \delta_{12} \\ b_{21} & \delta_{22} \end{vmatrix}}{\delta_{11}\delta_{22} - \delta_{12}^2} .$$

Orta əyriliyi 0 olan səthlər minimal səthlər adlanır. $\delta_{11}\delta_{22} - \delta_{12}^2$ həmişə 0-dan böyükdür, çünki sahə ifadə edir.

$$\begin{vmatrix} \delta_{11} & b_{12} \\ \delta_{21} & b_{22} \end{vmatrix} + \begin{vmatrix} b_{11} & \delta_{12} \\ b_{21} & \delta_{22} \end{vmatrix} = 0 .$$

$\delta_{11}b_{22} - \delta_{21}b_{12} + b_{11}\delta_{22} - \delta_{12}b_{21} = 0$ bu şərt ümumi halda V_2 səthinin minimallıq şərtidir.Müxtəlif tip şəbəkələr daşıyan səthlər üçün bu şərt sadələşir.Əgər səthin koordinat xətləri ortoqonaldırsa,onda $\mu_{12} = 0$ olarsa, $\delta_{11}b_{22} - b_{11}\delta_{22} = 0$ olar.Digər tərəfdən əgər koordinat şəbəkəsi qoşma şəbəkədirsə, onda $b_{12} = 0$ olarsa, $\delta_{11}b_{22} + b_{11}\delta_{22} = 0$ olar.Beləliklə,biz belə bir nəticəyə gəlirik.Həm ortoqonal şəbəkə,həm də qoşma şəbəkə daşıyan V_2 səthinin minimal səth olması üçün səthin birinci və ikinci formanın əmsalları aşağıdakı şərti ödəməlidir :

$$\delta_{11}b_{22} + b_{22}\delta_{11} = 0 .$$

Ədəbiyyat

1. Базылев В.Т., Дуничев К.И.Геометрия, часть 2: Учебник.М. Изд-во «Просв»,1975,367с.
2. Abbasov N.T.,Salayeva B.H.,Cəlimov A.A., Tenzor hesabı və onun tətbiqi. Bakı, Univer.nəşr.,1988, 96 s.

ZOLAQDA KOŞI-RIMAN TƏNLIYI ÜÇÜN KARLEMAN ŞƏRTI ÖDƏNILMƏYƏN SƏRHƏD MƏSƏLƏSININ HƏLLI

Əliyev Nihan Ə oğlu, Ramin M.Zeynalov

Bakı Dövlət Universiteti, AR ETN-nin İdarəetmə Sistemləri İnstitutu

nihan@aliev.info, raminz.math@gmail.com

İşdə Koşi-Riman tənliyi üçün bir sərhəd məsələsi nəzərdən keçirilir. Baxılan tənliyin fundamental həllindən istifadə etməklə məsələnin həlli araşdırılır[1].

Aşağıdakı məsələyə baxaq:

$$\frac{\partial u(x)}{\partial x_2}+i\frac{\partial u(x)}{\partial x_1}=0 \qquad x=(x_1,x_2), \quad x_1\in R, \quad x_2\in(0,1), \tag{1}$$

$$u(x_1,0)+u(-x_1,1)=\varphi(x_1), \quad x_1\in R, \tag{2}$$

$$\lim_{x_1\to-\infty}u(x)=\lim_{x_1\to\infty}u(x), \quad x_2\in[0,1], \tag{3}$$

(1) tənliyinin fundamental həlli aşağıdakı kimidir [2]:

$$U(x-\xi)=\frac{1}{2\pi\left(x_2-\xi_2+i(x_1-\xi_1)\right)}. \tag{4}$$

Əsas münasibət:

$$\frac{1}{2\pi}\int_R\frac{u(x_1,1)}{1-\xi_2+i(x_1-\xi_1)}dx_1+\frac{1}{2\pi}\int_R\frac{u(x_1,0)}{\xi_2-i(x_1-\xi_1)}dx_1=\begin{cases}u(\xi),\ \xi\in D,\\ \frac{1}{2}u(\xi),\xi\in\partial D,\end{cases} \tag{5}$$

Zəruri şərtlər:

$$\left.\begin{aligned}u(\xi_1 0)&=\frac{1}{\pi}\int_R\frac{u(x_1,1)}{1+i(x_1-\xi_1)}dx_1+\frac{i}{\pi}\int_R\frac{u(x_1,0)}{x_1-\xi_1}dx_1,\\ u(-\xi_1 1)&=\frac{i}{\pi}\int_R\frac{u(-x_1,1)}{x_1-\xi_1}dx_1+\frac{1}{\pi}\int_R\frac{u(x_1,0)}{1-i(x_1-\xi_1)}dx_1.\end{aligned}\right\} \tag{6}$$

Requlyarizasiya:

$$\begin{aligned}u(\xi_1 0)+u(-\xi_1 1)&=\frac{i}{\pi}\int_R\frac{u(x_1,0)+u(-x_1,1)}{x_1-\xi_1}dx_1+\frac{1}{\pi}\int_R\frac{u(x_1,1)}{1+i(x_1-\xi_1)}dx_1+\\ &+\frac{1}{\pi}\int_R\frac{u(x_1,0)}{1-i(x_1-\xi_1)}dx_1=\frac{i}{\pi}\int_R\frac{\varphi(x_1)}{x_1-\xi_1}dx_1+\frac{1}{\pi}\int_R\frac{u(x_1,1)}{1+i(x_1-\xi_1)}dx_1+\\ &+\frac{1}{\pi}\int_R\frac{u(x_1,0)}{1-i(x_1-\xi_1)}dx_1.\end{aligned} \tag{7}$$

Alınan (7) requlyar ifadəsinin sol tərəfi verilmiş sərhəd şərtinin sol tərəfi ilə üst-üstə düşdüyündən (2) və (7) ifadələri fredholmluq üçün kafi şərt vermir. Səbəb Karleman şərtinin ödənilməməsidir. Onun üçün əlavə şərt verməliyik

$$u(x_1,0)=\varphi_1(x_1), \quad x_1\in R, \tag{8}$$

Onda (7) dən alarıq

$$k(x_1,1)=\varphi(-x_1)-\varphi_1(-x_1), \quad x_1\in R, \tag{9}$$

(8) və (9)-u (5) əsas münasibətlərində nəzərə almaqla (1)-(3), (8)-in həllini

$$u(\xi)=\frac{1}{2\pi}\int_R\frac{\varphi(-x_1)-\varphi_1(-x_1)}{1-\xi_2+i(x_1-\xi_1)}dx_1+\frac{1}{2\pi}\int_R\frac{\varphi_1(x_1)}{\xi_2-i(x_1-\xi_1)}dx_1, \tag{10}$$

şəklində almış oluruq.

Teorem. Əgər $\varphi(x_1)$ və $\varphi_1(x_1)$ kəsilməz funksiyalardırsa, onda (1)-(3), (8) məsələsinin həlli (10) şəklində verilir.

Ədəbiyyat

1. N.Ə.Əliyev, R.M.Zeynalov. Birinci tərtib elliptik tip tənlik üçün Steklov məsələsi. Bakı Universitetinin Xəbərləri, fizika-riyaziyyat elmləri seriyası, № 2.2012, s.13-20.
2. В.С. Владимиров Уравнения математической физики, Москва: Мир, 1981. 512 с.

BƏZİ CƏBRİ MƏSƏLƏLƏRİN HƏLLİNƏ HƏNDƏSİ YANAŞMA

Əliyev Səməd Cahangir oğlu, İsgəndərova Gülnar Nizaməddin qızı,
Mirzəzadə Əsmər Rasim qızı
Bakı Dövlət Universiteti
samed59@bk.ru

Bir sıra cəbri məsələlərin (tənliklərin, bərabərsizliklərin, tənliklər və bərabərsizliklər sistemlərinin, funksiyanın ən böyük və ən kiçik qiymətlərinin tapılmasının, parametr daxil olan tənlik və bərabərsizliklərin və s.) həndəsi interpretasiyaları əhəmiyyətli dərəcədə şərtlərin (verilənlərin) analizini asanlaşdırır, onların həllinə “açar” verir. Belə məsələlərin həlli zamanı məsələ cəbri dildən (“düsturlar dilindən”) həndəsi dilə (“məsafələr dilinə”) keçirilir ki, bu daha effektiv olur [1].

Bəzi bərabərsizliklərin həllində vektorial yanaşma uğurlu olur. Məsələn,

$$3x\sqrt{x+2}+4\sqrt{x+2}\geq\sqrt{9x^2+x+2}\cdot\sqrt{x+18}$$

bərabərsizliyin sol tərəfində $\vec{a}(3x;\sqrt{x+2})$ və $\vec{b}(\sqrt{x+2};4)$ vektorlarının skalyar hasili, sağ tərəfində isə bu vektorların uzunluqları hasili yer almışdır. Orta bərabərsizliyi

$$\vec{a}\cdot\vec{b}\geq|\vec{a}|\cdot|\vec{b}|$$

şəklində yazmaq olar.

İstənilən $\vec{a}$ və $\vec{b}$ vektorları üçün $\vec{a}\cdot\vec{b}\leq|\vec{a}|\cdot|\vec{b}|$ olduğundan $\vec{a}\cdot\vec{b}=|\vec{a}|\cdot|\vec{b}|$ alarıq, yəni $\vec{a}$ və $\vec{b}$ kollinear vektorlardır və

$$\frac{\sqrt{x+2}}{3x}=\frac{4}{\sqrt{x+2}}$$

olar. Burada $x=\dfrac{2}{11}$ tapılar.

Şagirdlərin çətinliklə həll etdikləri parametr daxil olan məsələlərin bəziləri həndəsi yanaşma ilə asanlıqla həll olunur. Belə məsələlər tədqiqat xarakterlidir və şagirdlərdə məntiqi təfəkkürün və riyazi mədəniyyətin formalaşmasında böyük rol oynayır. Deyilənləri aşağıdakı məsələnin həllində şərh edək.

a parametrinin elə ən kiçik qiymətini tapaq ki,

$$\sqrt{x^2-8x+17}+\sqrt{x^2-10x+34}=a$$

tənliyinin heç olmazsa bir kökü olsun.

Bu məsələnin törəmə vasitəsi ilə həlli uzun hesablamalara gətirir. Məsələnin şərtlərini “düsturlar dilindən” “məsafələr dilinə” çevirək. Bunun üçün kökaltı ifadələrdə tam kvadratları ayıraq və sol tərəfə bir funksiya kimi baxaq:

$$f(x)=\sqrt{(x-4)^2+1}+\sqrt{(x-5)^2+9}\,.$$

Məsələni həll etmək üçün $f(x)$ funksiyasının ən kiçik qiymətini tapmaq lazımdır. $\vec{p}(4-x;1)$ və $\vec{q}(x-5;3)$ vektorlarını daxil edək, onda

$$|\vec{p}|=\sqrt{(x-3)^2+1},\quad |\vec{q}|=\sqrt{(x-2)^2+4}$$

olar. $\vec{p}+\vec{q}$ vektorunun koordinatları $(-1;4)$-dür və

$$|\vec{p}+\vec{q}|=\sqrt{(-1)^2+4^2}=\sqrt{17}\,.$$

$|\vec{p}|+|\vec{q}|\geq|\vec{p}+\vec{q}|$ və $a\geq\sqrt{17}$ münasibətlərindən çıxır ki, sonuncu bərabərsizlik $\vec{p}$ və $\vec{q}$ eyni istiqamətli olduqda ödənilir, yəni

$$\frac{4-x}{x-5}=\frac{1}{3}$$

olar. Buradan $x=\dfrac{17}{4}$ tapılar.

Deməli, ən kiçik qiymət $x=\dfrac{17}{4}$ və $a=\sqrt{17}$ olduqda alınır.

İndi isə [2] işində təklif olunan parametrdən asılı bərabərsizliklər sistemini həndəsi yanaşma ilə həll edək.

p parametrinin elə qiymətlərini tapaq ki,

$$\begin{cases} x^2+y^2+2x+8y\leq p^2-17 \\ x^2+y^2-8x-16y\geq 9p^2+24p-64 \end{cases}$$

bərabərsizliklər sisteminin yeganə həlli olsun.

Sistemin bərabərsizliklərini aşağıdakı kimi yazaq:

$$\begin{cases} (x+1)^2+(y+4)^2\leq p^2 \\ (x-4)^2+(y-8)^2\geq(3p+4)^2 \end{cases}$$

$p=0$ olduqda sistem

$$\begin{cases} (x+1)^2+(y+4)^2\leq 0 \\ (x-4)^2+(y-8)^2\geq 4^2 \end{cases}$$

şəklinə düşər və onun yeganə $A(-1;-4)$ həlli vardır.

$p \neq 0$ olduqda sistemin birinci bərabərsizliyi $|p|$ radiuslu və $A(-1;-4)$ mərkəzli dairəni, ikinci bərabərsizliyi isə $|3p+4|$ radiuslu və $B(4;8)$ mərkəzli çəvrə və onun xarici oblastını ifadə edir.

$$AB = \sqrt{(4+1)^2 + (4+8)^2} = 13.$$

Sistemin yeganə həlli o zaman olar ki, A mərkəzli dairə B mərkəzli dairənin daxilində yerləşsin və ona toxunsun. Onda onların toxunma nöqtəsinin koordinatları sistemin yeganə həllini verir. Bu o halda mümkündür ki,

$$|3p+4| - |p| = 13$$

olsun. Tənliyi həll etsək $p = -\frac{17}{2}$ və $p = \frac{9}{2}$ qiymətlərini taparıq. Beləliklə, $-\frac{17}{2}; 0; \frac{9}{2}$ qiymətlərində bərabərsizliklər sisteminin yeganə həlli vardır.

Ədəbiyyat

1. Əliyev S.C., Namazov F.M., Tahirov B.Ö. Elementar riyaziyyat. Bakı: Ləman nəşriyyatı, 2017, 560 s.
2. Namazov F.M. Məktəb riyaziyyat kursunda tənliklərin həlli üsulları. Bakı: Nur, 2008, 543 s.

HƏNDƏSƏ MƏSƏLƏLƏRİNİN HƏLLİ PROSESİNDƏ ÇERTYOJLARIN QURULMASI METODİKASI

Əliyev Səməd Cahangir oğlu, Namazov Faiq Mirzəli oğlu, Əliyeva Sara Güloğlan qızı

Baki Dövlət Universiteti

samed59@bk.ru

Həndəsə məsələlərinin həlli prosesində çertyoj çox mühyüm rol oynayır. Çertyojlardan yeni anlayışların izahı zamanı illüstrativ material kimi istifadə edilir, həmçinin onlar istənilən həndəsə məsələsinin həllində vizual dəstək verir (istənilən həndəsə məsələsinin həlli çertyojun qurulması ilə başlayır). Çertyojların qurulması şagirdlərin fəza təsəvvürlərini və məntiqi təfəkkürlərini inkişaf etdirir [1].

Pedaqoji təcrübə göstərir ki, bəzi şagirdlər həndəsə məsələlərinin həllərinin öhdəsindən ona görə gələ bilmirlər ki, çertyoju necə yerinə yetirməyi və məsələnin həllinə necə yanaşmağı bacarmırlar. Məsələnin çertyojunun qurulması prosesində faydalı olacaq bəzi müddəaları vurqulayaq.

1. Çertyojun (şəklin) ölçüsü kifayət qədər böyük olmalıdır.

Bu heç də o demək deyil ki, çertyoju rəsm alətlərinin köməyi ilə qurmaq lazımdır, müəyyən vərdişlərdən sonra çertyoj əllə yerinə yetirilə bilər.

2. Çertyoj lakonik olmalıdır.

Həndəsi fiqurların yalnız "işlək" hissələri təsvir edilməlidir. Məsələn, əgər üçbucağın hər üç təpə nöqtəsindən çəkilmiş hündürlüklərlə tənbölənlər arasındakı bucaqların cəmini tapmaq tələb olunursa, üçbucağın bir təpə nöqtəsindən hündürlük və tənbölən çəkərək onlar arasındakı bucağı tapmaq kifayətdir (digərləri analogiya ilə tapılır); əgər məsələnin şərtlərində çevrənin nöqtələrindən bəhs edilirsə, onda çevrəni təsvir etmək faydalı olar.

3. Məsələnin həllinin başlanğıc mərhələsində çertyojun qurulması ilə bağlı problemlərin qurtardığını düşünmək olmaz. Kifayət qədər məsələ vardır ki, onların həlli prosesində ardıcıl olaraq baxılan konfiqurasiyanın xüsusiyyətlərini aydınlaşdırmaq, uyğun şəkildə çertyoju tamamlamaq və dəyişdirmək lazımdır.

4. Bəzən bir məsələnin həllində iki çertyojun qurulması zərurəti yaranır: biri düzgün, digəri isə düzgün olmayan.

5. Əgər məsələdə ümumi şəkildəki fiqurlardan bəhs edilirsə (məsələn, ixtiyari üçbucaqdan və ya dördbucaqlıdan), onda çəkilən çertyoj müəyyən xarakterik xassələrə malik olmamalıdır, xüsusi halda üçbucaq düzbucaqlı üçbucaq, bərabəryanlı üçbucaq, bərabərtərəfli üçbucaq kimi çəkilməməlidir, dördbucaqlı isə paraleloqram kimi və s.

6. Müəyyən həndəsi fiqur üçün qoyulmuş məsələni, bəzən bu fiqurun xüsusi hallarının hər birində baxmaq əlverişli olur. Məsələn, əgər məsələ üçbucaq üçün qoyulmuşsa, onda məsələyə itibucaqlı, düzbucaqlı və korbucaqlı üçbucaqlarda baxmaq da olar.

7. Çertyojun həddindən artıq mürəkkəbləşdirilməsindən çəkinmək lazımdır.

8. Məsələdə verilənlər və həll prosesində tapılan xətti kəmiyyətlər dərhal çertyoja qeyd edilməlidir.

9. Planimetriya məsələlərinin çertyojlarında düz bucaq düz bucaq kimi çəkilməlidir, məsələnin şərtindəki kəmiyyətlərlərin nisbətinə diqqət edilməlidir ki, bu məsələnin həllinə kömək edən həndəsi fiqurun xassələrini görməyə kömək edə bilər.

10. Dərsdə fəza fiqurlarının müstəvi üzərində qurulmasına xüsusi diqqət yetirmək lazımdır. Şagirdlər belə şəkilləri başa düşməkdə çətinlik çəkirlər, çünki bu çertyojlarda bucaqların ölçüləri, parçaların uzunluqları və s. təhrif oluna bilər.

Həndəsə təlimində praktika onu göstərir ki, bir qrup şagird çertyojun qurulmasına əhəmiyyət vermirlər, ya da çəkilmiş çertyoj üzərində bütün hesablamaları apararaq, çertyojun rolunu çox şişirirlər və çertyojdakı görünən münasibətlər haqqında nəticə çıxarırlar, çıxardıqları nəticələri elmi şəkildə ciddi əsaslandırılmırlar [2]. Həndəsə fənnini tədris edən hər bir müəllimin vəzifələrindən biri bu nöqsanların qarşısını almaqdır.

Ədəbiyyat

1. Зыкова И.Г. Алгоритмический подход к решению геометрических задач. Просвещение, 1989, 270 с.
2. Иванов С.И. Поиски решения задач. Наука, 1999, 347.

RİYAZİYYAT TƏLİMİNDƏ AXTARIŞ-TƏDQİQAT XARAKTERLİ MƏSƏLƏLƏRİN ROLU

Əliyev Səməd Cahangir oğlu, Namazov Faiq Mirzəli oğlu, Səmədova Pərvanə İlham qızı

Bakı Dövlət Universiteti

samed59@bk.ru

Adətən, təklif olunan riyazi məsələlərin çoxunda məqsəd aydın şəkildə göstərilir: tələb olunanın hesablanması, və ya qurulması, və ya isbatı. Riyaziyyata maraq göstərən şagirdlərlə iş zamanı riyazi məsələlərin belə dar çərçivədə ifadə edilməsi şagirdlərin yaradıcı aktivliyini və fəaliyyət müstəqilliyini məhdudlaşdırır. Təcrübə onu göstərir ki, şagirdlərə sinifdənxaric məşğələlərdə standart tipli məsələlərlə yanaşı axtarış-tədqiqat xarakterli məsələlərin də təklif edilməsi məqsədəuyğundur [1]. Aydındır ki, belə məsələlərlə iş zamanı şagirdlərin aldıqları nəticələr əhəmiyyətli dərəcədə fərqli ola bilər.

Son illər riyaziyyat müsabiqələrində sistematik olaraq müəyyən ümumi problemin tərkib hissələri məsələlər seriyası kimi təklif olunur [2]. Belə məsələlərin həlli zamanı şagirdlər tədqiqat bacarıqlarını daha da dərinləşdirirlər. Təbii ki, ilk başlarda şagirdlərə təklif olunan məsələlər kifayət qədər sadə olmalıdır. Məsələn, yeddinci sinifdə ədədi bərabərsizliklərin xassələri tədris edildikdən sonra riyaziyyat dərnəyində şagirdlərə belə bir məsələ təklif oluna bilər:

Məsələ 1. Müsbət kəsrin surət və məxrəcinə əlavə edilmiş eyni bir natural ədədin onu necə dəyişdiyini tədqiq etməli.

Şagirdlərin əksəriyyəti konkret kəsrlər üzərində müəyyən əməliyyatlar apardıqdan sonra ümumi nəticəyə gəlirlər. Amma, xüsusi hallardan bu şəkildə ümumi nəticə çıxarmaq səhv ola bilər. Tədricən şagirdlər ümumi isbatın zəruriliyinə inanmağa başlayırlar. Bu işin ən maraqlı hissəsi həllin kollektiv şəkildə müzakirəsindən ibarətdir. Aşağıda məsələnin qısa həllini verək.

Tutaq ki, a,b,c natural ədədlərdir. Kəsrlərin fərqinə baxaq:

$$\frac{a+c}{b+c}-\frac{a}{b}=\frac{ab+bc-ab-ac}{b(b+c)}=\frac{c(b-a)}{b(b+c)}.$$

$b>a$ olduqda bu fərq müsbətdir və $b<a$ olduqda isə mənfidir. Buna görə ümumi nəticə belə ifadə edilə bilər: düzgün kəsrin surət və məxrəcinə eyni bir natural ədəd əlavə edildikdə kəsr artır, düzgün olmayan kəsrin surət və məxrəcinə eyni bir natural ədəd əlavə edildikdə isə kəsr azalır.

Bəzi hallarda şagirdlərin tələb olunan tədqiqatları aparmaqları ilə yanaşı, bu tədqiqatların əsasında müstəqil olaraq belə məsələlər tərtib etmələri məqsədəuyğundur. Deyiləni aşağıdakı məsələ ilə şərh edək.

Məsələ 2. Ardıcıl iki natural ədədin hasilinin müəyyən xassələrini tədqiq etməli və bu xassələrə əsasən məsələlər tərtib etməli.

Belə məsələlərin həlli təcrübəsi qazanılana qədər şagirdlərə istiqamətverici suallar verməklə kömək etmək lazımdır. Bu halda, məsələn, belə bir sual yönəltmək olar: ardıcıl iki natural ədədin hasili hansı rəqəmlə qurtara bilər? Suala cavab vermək üçün istənilən natural ədədi $n=10k+r$ şəklində yazaraq

$$10k(10k+1),\ \ (10k+1)(10k+2),\ \ (10k+2)(10k+3),\ \ \dots,$$
$$(10k+8)(10k+9),\ \ (10k+9)(10k+10)$$

hasillərinə baxaq, burada $k \in N_0$, $r = 0,1,2,\dots,9$ və k ilə r eyni zamanda sıfıra bərabər deyillər. Asanlıqla yoxlamaq olar ki, ardıcıl iki natural ədədin hasili 0,2,6 rəqəmlərindən biri ilə qurtarır.

Ardıcıl iki natural ədədin hasılının başqa bir xassəsini də isbat edək.

Məlumdur ki, ardıcıl iki natural ədəddən yalnız biri 3-ə bölünə bilər, ya da hər ikisi də 3-ə bölünməz. İkinci halda $n(n+1)$ hasilini $(3k+1)(3k+2)$ şəklində yazmaq olar, buradan

$$(3k+1)(3k+2) = 9k^2 + 9k + 2 = 9k(k+1) + 2 \qquad (k \in N_0)$$

alarıq, yəni baxılan ədədin $9-a$ bölünməsindən alınan qalıq 2-dir. Beləliklə, ardıcıl iki natural ədədin hasili ya 3-ə bölünür (əgər vuruqlardan biri 3-ə bölünürsə), ya da 9-a böldükdə qalıq 2 olur (əgər vuruqların ikisi də 3-ə bölünmürsə).

Göstərilən xassələrdən bir sıra məsələlər tərtib etmək olar. Məsələn, $n(n+1)$ şəklindəki ədədlər 0,2,6 rəqəmlərindən biri ilə qurtardığı üçün, deyə bilərik ki, n^2+n+1 şəklindəki ədədlər həmişə 1,3,7 ədədlərindən biri ilə qurtaracaqdır, yəni bu ədədlər 5-ə bölünmürlər. Beləliklə, aşağıdakı məsələni almış olduq:

Məsələ 3. İsbat etməli ki, istənilən n natural ədədi üçün n^2+n+1 ədədi 5-ə bölünmür.

Burada ümumi məsələnin həlli yeni məsələnin şərtlərinin meydana gəlməsinə səbəb oldu. Bu üsul məsələlərin tərtib olunmasında çox istifadə edilir. Olimpiada məsələlərinin bəziləri bu üsulla hazırlanmışdır.

Yuxarıda göstərilən xassəyə əsaslanaraq bir məsələni də qeyd edək.

Məsələ 4. İsbat etməli ki, 13579148 ədədinin rəqəmlərinin yerlərini dəyişdirməklə alınan ədədlərin hər biri ardıcıl iki natural ədədin hasili kimi göstərilə bilməz.

Ardıcıl iki natural ədədin hasilinin yalnız 0,2,6 ilə qurtardığını bilən hər bir şagird üçün bu məsələnin həlli aydındır, belə ki, verilmiş ədədin rəqəmləri arasında məhz 0,2,6 rəqəmləri yoxdur. Amma, bu xassəni bilməyənlər üçün məsələnin həlli heç də asan deyildir.

Ədəbiyyat

1. Əliyev S.C., Namazov F.M., Tahirov B.Ö. Elementar riyaziyyat. Bakı: Ləman nəşriyyatı, 2017, 560 s.
2. Kərimov N., Quliyev Ə., Mirzəyev V. Beynəlxalq riyaziyyat olimpiadaları, Bakı Universiteti nəşriyyatı, Bakı,1998, 262 s.

İKİ KRİTERİYALI XƏTTİ PROQRAMLAŞMANIN KONUSA GÖRƏ OPTİMAL VARİANTLARININ QURULMASININ BİR YOLU

Əliyev Ziya Xudamirzə oğlu

Bakı Dövlət Universiteti

ziyaeliyev2001@mail.ru

Məsələnin qoyuluşu:

$$Ax = b,\ x \ge 0,\ y_1 = \langle c^1, x \rangle \to \max.,\ y_2 = \langle c^2, x \rangle \to \max. \qquad (1)$$

kimi iki kriteriyalı məsələ verilir. Burada $A-(n \times m)$ matrisdir, $x, b, c^1, c^2 \in E_m$. (1)-in

$$Y = \left\{ (y_1, y_2) \,\middle|\, y_1 = \langle c^1, x \rangle,\ y_2 = \langle c^2, x \rangle,\ x \in X \right\}$$

qiymətləndirmələr çoxluğuna baxaq. $Y \subset E_2$. E_2-də $a = (a_1, a_2)$, $d = (d_1, d_2)$ doğuranlarına görə qurulmuş

$$\Lambda = \left\{ y \in E_2 \mid y = \alpha_1 a + \alpha_2 d,\ \alpha_1 \ge 0,\ \alpha_2 \ge 0 \right\}$$

konusuna baxaq.

$y^1, y^2 \in Y,\ \lambda^0 \in \Lambda$. $y^1 = y^2 + \lambda^0$ olduqda deyirlər ki, y^2-ni y^1 Λ-ə görə üstələyir. İşdə məqsəd Y-in Λ-ə görə üstələnməyən variantlar çoxluğunu qurmaqdır. Y-in məhdud olduğunu fərz edəcəyik. Onda Y-in Λ qabarıq olduğunu və onun sərhəddinin bir hissəsinin Λ optimal nöqtələrdən təşkil olunduğunu deyə bilərik. Bu hissəni Y^Λ kimi işarə edək. $X^\Lambda = \left\{ x \in X \,\middle|\, \left(\langle c^1, x \rangle, \langle c^2, x \rangle \right) \subset Y^\Lambda \right\}$ çoxluğu Λ optimal həllər çoxluğudur. Təqdim olunan işdə Λ – optimal həllər və qiymətləndirmələr çoxluqlarının [1]-dəki kimi effektiv yolla qurulmasının mümkünlüyü göstərilmişdir.

$$B = \begin{pmatrix} a_1 & a_2 \\ d_1 & d_2 \end{pmatrix},\ \alpha = \begin{pmatrix} \alpha_1 \\ \alpha_2 \end{pmatrix},\ C = \begin{pmatrix} c_1^1 & \cdots & c_m^1 \\ c_1^2 & \cdots & c_m^2 \end{pmatrix},\ x = \begin{pmatrix} x_1 \\ \vdots \\ x_m \end{pmatrix}$$

kimi işarələmələrin köməyi ilə y^1, y^2 variantlar arasında üstələməni $y^1 = y^2 + B\alpha,\ \alpha \ge 0,\ \alpha \ne 0$ kimi də yaza bilərik. Buradan alırıq: $B^{-1}y^1 = B^{-1}y^2 + \alpha,\ \alpha \ge 0,\ \alpha \ne 0$ və ya $B^{-1}Cx^1 = B^{-1}Cx^2 + \alpha,\ \alpha \ge 0,\ \alpha \ne 0$. $\overline{c^1}$ və $\overline{c^2}$ ilə uyğun olaraq, $B^{-1}C$ matrisinin birinci və ikinci sətrlərini göstəririk. $\overline{c^1}$ və $\overline{c^2}$-lərin köməyi ilə (1) məsələsini ona ekvivalent olan aşağıdakı kimi də yaza bilərik:

$$Ax = b,\ x \ge 0,\ \overline{c^1}x \to \max.,\ \overline{c^2}x \to \max. \qquad (2)$$

(2) məsələsinin Paretoya görə effektiv variantlarının çoxluğu (1) məsələsinin verilmiş konusa görə optimal variantları çoxluğu ilə eyni çoxluq olacaqdır. (2)-nin Paretoya görə effektiv variantlarının qurulmasını [1]-dəki alqoritmlə icra edə bilərik. (1) məsələsinin (2) məsələsinə gətirilməsi xüsusi həll üsullarının (bax. [2]) [1]-dəki alqoritmin köməyi ilə icrasına imkan yaradır.

Ədəbiyyat

1. Hamidov R.H., Construction pareto bound for multiobjective problems, Izvestia ANA, Ser. Fiz. Math. Nauk, No.3-4, 1999, pp.37-43.

2. Мееров М.В., Исследование и оптимизация многопараметрических систем, М., Наука, 1986, 235с.

KONSTRUKTİV TƏLİMİN TARİXİ VƏ ƏHƏMİYYƏTİ

Əliyeva Könül Həmid qızı, Əliyeva Ülviyyə Sanqan qızı
Sumqayıt Dövlət Universiteti
rkeliyeva78@gmail.com

Müasir təhsildə Amerika və inkişaf etmiş Avropa ölkələrinin yaradıcı öyrənməyə əsaslanan pedaqoji texnologiyalarının xüsusi rolu vardır. Yeni pedaqoji texnologiyalar, İKT–nin inkişafı, informasiya cəmiyyətinin formalaşması zamanla tədrisin forma və məzmununu dəyişir. Təhsil genişlənərək bəşəri xarakter alır və dünya evində yeni təhsil sistemi yaradır. Bu sistemdə yer tutmaq üçün ölkəmizdə təhsil islahatları aparılır. İslahatların əsas məqsədlərindən biri ənənəvi yaddaş məktəbini təfəkkür məktəbinə çevir-məkdir. Təfəkkürə əsaslanan pedaqoji texnologiyalardan biri konstruktiv təlimdir. Konstruktiv təlimin əsasında konstruktivizm nəzəriyyəsi durur (Konstruktivizm - konstruktor sözündən götürülüb. "Yaradıcı öyrənmə" deməkdir. Konstruktiv təlim böyük Azərbaycan filosofu və alimi N.Tusinin pedaqoji traktına, İsveç alimi jan Piajenin "İdrakın inkişafı" konsepsiyasına və Amerika alimi Spenser Kaqanın kooperativ təliminə əsaslanır. N.Tusinin "Əxlaqi- Nasiri"n-də hər bir insanın əxlaqının saflaşması, onun nəfsinin, xasiyyətinin milli və sivil qaydalara uyğun inkişaf etməsi əsasları götürülür. Konstruktiv təlim prosesində tərbiyənin inkişafı ön plana çəkilir və davranış özü daxili görümün, daxili biliyin xarici görünüşü kimi qəbul olunur. J.Piajenin idrakın inkişaf nəzəriyyəsində fərdin və ya şagird idrakının, təfəkkürünün inkişafı, anadan olandan yetkinlik çağınadək üç səviyyədən keçərək formal əməliyyat quruluşunda olur və bu proses insan ömrünün axırınadək inkişaf edir. Bu fikir Məhəmməd peyğəmbərin (s.ə.s.) beşikdən qəbrə kimi öyrənmək kəlamı ilə üst-üstü düşür. Amerikalı alim Spenser Kaqanın yaratdığı 100-dən çox fəaliyyət strukturlarında işləyən şagird və fərdin inkişafı sosial mühitdən, qarşılıqlı əlaqədən və bu inkişafa təkan verən müəllimin seçdiyi fəaliyyət strukturundan asılıdır. Başqa sözlə desək, sosial-mədəni biliklərin ötürülməsində, şagird və ya fərdin inkişafında sosial şəraitin, yəni ətraf mühitin böyük rolu vardır. XXI əsr- idrak əsri, şəxsiyyətin fərdiyyətçiliyi və texnologiyalar əsridir. İnformasiya əsri insanı öz məlumatlar axını ilə hər tərəfdən əhatə edir, ona təzyiq edir. Yalnız yaddaş qabiliyyətilə- aktiv, passiv yaddasaxlama ilə bunun öhdəsindən gəlmək isə çox çətindir. Hər şeyin, o cümlədən yaddaşın da həddi var. Müasir məktəb biliklərin yadda saxlanılması mövqeyindən çətinliklə uzaqlaşır, ona görə ki, didaktikanın təklif etdiyi hər şey XIX – XX əsrlərin öyrətmə üsullarının davamı, təkmilləşdirilməsi, şəkildəyişməsidir.

Konstruktiv təlim şagird təfəkkürünün yardımı ilə qazanılmış, qazanılmaqda olan və qazanılacaq yeni biliklərin bütövlüyü deməkdir. Konstruktiv təlim fəlsəfəsi amerikalı alim Cerom Brunerin konstruktivizm fəlsəfəsi ilə səsləşir. Qeyd etmək lazımdır ki, C. Brunerin konstruktivizm təlimində fərd öz şəxsi dərkinin nəticəsini, cəmiyyətin əvvəlcədən əldə etdiyi təcrübələrlə əlaqələndirməyə və əsaslandırmağa çalışaraq yeni bilik qazanır.Bünyatovanın konstruktiv təlim fəlsəfəsi həm də Şərq-Qərb təlim sisteminin sintezində ehtiva olunur. Bu təlim fəlsəfəsi hissədən tama, yaxud da tamdan hissəyə çıxmağa, şagirdlərin əldə olunmuş bilikləri ilə yeni qazanılacaq biliklərin birləşməsinə, qovuşmasına əsaslanır. Bu da öz növbəsində şagird biliyinin tamlıq sxemini yaradır. Təfəkkür əməliyyatları üzərində qurulan məntiqi bilik strukturları ilə təmasda olan hər bir şagird idrakı verilən biliklə qarşılıqlı əlaqəyə girərək, öz strukturlarının məntiqi əsaslarını qurur. Məntiqi düşüncəyə sahib olan hər bir şagird düzgün düşünməyə, əsaslı nəticəyə gəlməyə, bir nəticədən o biri nəticəyə çıxma vərdişinə yiyələnmiş olurlar.

Mahiyyətcə konstruktiv təlim şagirdi özünü inkişaf yoluna salır, ona təlimdən və sosial mühitdən qazandığı bilikləri öyrəndiyi və öyrənəcəyi biliklərlə birləşdirməyə, əsaslandırmağa və özü üçün yeni, yüksək formalı bilik qazanmağa şərait yaradır. Çağdaş dünyamızda hər bir fərdin yaradıcı olması, öz bacarığından çıxış edərək yeni fikir, yeni ideya yaradıb, onu həyata tətbiq etməyi önəmli, dəyərli bir bacarıqdır.

Deməli, konstruktiv təlim yaradıcı, səciyyəli əməliyyat təlimidir.Bu təlimdə şagirdlər öz daxili duyğu və idrak səviyyələrindən çıxış etməklə, bilikləri üzərində apardıqları məntiqi əməliyyat nəticəsində yeni bilik qazanaraq yaradıcı olurlar.Həmin yaradıcılıq həm fərdi, həm də kooperativ (yəni birgə fəaliyyət) xarakteri daşıyır. Yəni bu yaradıcılıq uşağın-şagirdin fərdi, yaxud qrup halındakı işindən, fəaliyyətindən asılıdır.

Konstruktiv təlim hər bir şagirdin bir şəxsiyyət kimi, bir vətəndaş kimi özünü dərk edərək, əxlaqını saflaşdıraraq böyüməsinə xidmət edir.. Şagirdin xarici davranışı daxili görümün əksi olduğu üçün müəllim bu davranışı milli mənəviyyat və sivil qaydalar üzrə qurmalıdır. Müəllimin proyektləşdirdiyi hər bir dərsdə ən birinci məqsəd şagirdin tərbiyəsinin, mənəviyyatının saflaşdırılmasına xidmət etməkdir. Bu işdə müəllimə böyük mütəfəkkir filosof Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində şərhini verdiyi əxlaqın saflaşdırma yolları kömək edir. Digər tərəfdən də, şagirdin öz daxili qüvvəsindən çıxış edərək, özü inkişafa, özü dərketməyə, özü bilik qazanmağa sövq etməkdir. Bu məqsədə çatmaq üçün konstruktiv təlim üsulu ilə dərs keçən hər bir müəllim konstruktiv təlimin prinsiplərinə riayət edərək dərsi inkişaf etdirici, düşündürücü xətdə qurmalıdır. Müəllim şagirdlərin qarşısına qoyduğu məsələnin bütün cavablarını qəbul edib ümumiləşdirərək onları yeni bir sualla keyfiyyətcə yüksək bir anlayış tərzinə gətirir. Şagirdlər yeni yaranan öz təfəkkür tərzlərini keçmiş səviyyə ilə əlaqələndirərək daha da yüksək təfəkkür səviyyəsinə keçid edirlər.

Konstruktiv təlim – yaradıcı, operasional təlimdir. Onun məqsədi biliklərin anlaşılması və dərk edilməsi üçün onların konstruktiv dəyişilməsindən ibarətdir.

Konstruktiv təlim – şagirdlərin kooperasiyada təfəkkürün dərk etmə fəaliyyətinin köməyilə əldə edilmiş, indi və gələcəkdə əldə edilən (qazanılan) biliklərin vəhdətidir. Təhsil sistemində konstruktiv öyrətmə Amerika alimləri Devey və C. Brunerin, italyan madam Montessori, isveçli Piaje və rus psixoloqu Vıqotskinin nəzəri və praktik əsərlərindən başlanmışdır. Təklif edilən konstruktiv təlimin fəlsəfəsi yuxarıda qeyd etdiyimiz kimi İsveç alimi J. Piaje ilə çiyin — çiyin tədqiqatlar aparan C. Brunerin pedaqogika və psixologiya fəlsəfəsi ilə asossiasiya edilir. Bu təhsilin fəlsəfəsi – Şərq və Qərb təhsil fəlsəfəsinin sintezidir. (Bütövlükdən xüsusiyə, yaxud xüsusilikdən bütövlüyə çıxış). Təklif edilən konstruktiv təlimin əsas mənbələri XIV əsr Azərbaycan filosofu,riyaziyyatçısı Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» fəlsəfi pedaqoji traktatı, J.Piaje psixoloji məktəbi və Amerikalı psixoloq S.Kaqanın kooperativ fəaliyyət strukturlarıdır. Bu əsaslar dünya şöhrətli alim Lütfi-zadəni qeyri-səlist məntiqi ilə möhkəmlənərək yeni çalarlar və görümlər yaratmışdı. Keçən əsrin 80-ci illərinin axırında orta məktəbdə müəllim-şagird, şagird-şagird qarşılıqlı əməkdaşlığından yaranan bu təlim prosesi tədricən pedaqoji və psixoloji elmində öz mənbələrini taparaq, konstruktiv təlim kimi pedaqoji mühitdə inkişaf edib, bir çox müəllimlər tərəfindən təlim prosesinə tətbiq olunaraq özünə məxsus yer tutur. Bu yerin aliliyi ondan ibarətdir ki, əgər bəşər övladı ömrünün axırınadək kamilliyə can atırsa,bu pedaqoji məkanda ona kamilliyə çatmaq üçün yol göstərirlər,bu yolda hər bir addımın necə atılması öyrədilir. Konstruktiv təlimin başqa təlimlərdən fərqi burada insan, fərd, şagird amilinin aliliyidir. Vıqotskinin inkişafetdirici təlimi əsasən pedaqoji prosesdə şagirdin inkişafını nəzərdə tutur və yaxud inkişaf ancaq pedaqoji prosesdə gedir. Bu da ondan irəli gəlir ki, müəllim şagirdin sosial mühitdə qazandığı, əldə etdiyi biliyi nəzərə almır. Dərs proqramından asılı olan müəllim şagirdin irəliləyişinə, proqramdan qabaq düşməsinə nə şərait yarada bilir, nə də ki, proqramın quruluş strukturu buna imkan verir. Konstruktiv təlimdə didaktik bilik strukturları üfiqi şəkildə tamlıq çərçivəsində və yaxud tamlıq sxemində qurulduğu üçün şagird müəllimin məntiqi keçdiklərinə əsaslanaraq öz inkişafından və daxili enerjisindən asılı olaraq özünə bilik qazanmaq üçün şərait tapır.

SONSUZ DİFERENSİALLANAN FUNKSİYALAR FƏZASINDA İNTEQRAL OPERATORUN KOMPAKTLIĞI HAQQINDA

Əsədov Tofiq Babulla oğlu, Qumaşova Nuranə Hafiz qızı
Bakı Dövlət Universiteti
nurane.qumasova@gmail.com

Tutaq ki, kompleks müstəvinin vahid çevrəsində (Γ) təyin olunmuş, H Hilbert fəzasında qiymətlər alan bütün vektor funksiyalardan ibarət fəzanı $C_H^\infty(\Gamma)$ ilə işarə edək. Bu fəzada norma

$$\|\varphi\|_n = \sum_{k=0}^{n} \max\left\|\varphi^{(k)}(t)\right\|_H, \qquad n \ge 0 \tag{1}$$

kimidir. H Hilbert fəzasında verilmiş xətti (kompakt) operatorlar fəzasını $L(H)$ ilə işarə edək. Tutaq ki, $k(t,\tau)$ funksiyası sonsuz diferensiallanan iki dəyişənli funksiyadır. $C_H^\infty(\Gamma)$ fəzasından olan aşağıdakı operatora baxaq.

$$(K\varphi)(t) = \int_{\Gamma} k(t,\tau)\varphi(\tau)d\tau \tag{2}$$

Aydındır ki, $C_H^{\infty}(\Gamma)$ fəzasının $n-$ci normaya nəzərən tamamlanması, Γ-də $n-$ci tərtib də daxil olmaqla kəsilməz törəmələri olan $C_H^{(n)}(\Gamma)$ fəzasıdır. H Hilbert fəzası sonlu olduqda $C_H^{(n+1)}(\Gamma) \subset C_H^{(n)}(\Gamma)$. $C_H^{\infty}(\Gamma)$ fəzasında istənilən məhdud çoxluq nisbi kompaktdır.

Göstərmək olar ki, H Hilbert fəzası sonsuz olduqda da K operatoru kompaktdır.

Tutaq ki, X fəzasında aşağıdakı bərabərsizliyi ödəyən cüt-cüt uzlaşdırılmış hesabi normalar sistemi verilmişdir.

$$\|x\|_0 \le \|x\|_1 \le \|x\|_2 \le \ldots \le \|x\|_n \le \ldots \tag{3}$$

Qeyd edək ki, əgər X xətti fəzasının elementlərindən düzələn hər bir ardıcıllıq X xətti fəzasında verilmiş $\|\cdot\|_1$ və $\|\cdot\|_2$ normalarının hər ikisinə nəzərən fundamentaldırsa və onlardan hər hansı birinə nəzərən sıfra yığılmasından digərinə nəzərən də sıfra yığılması alınırsa, onda bu normalar uzlaşmış hesab olunurlar. Eyni zamanda onu da qeyd edək ki, X xətti fəzası yalnız və yalnız $X = \bigcap_{n=1}^{\infty} X_n$ olduqda doludur və bu halda X fəzasına hesabi normalı fəza deyilir.

(1) normasına nəzərən X xətti fəzasının tamamlanması Banax fəzasıdır və onu X_n ilə işarə edək. H Hilbert fəzası sonsuz olduqda K operatorunun kompakt olduğunu göstərmək üçün əvvəlcə bizə lazım olan aşağıdakı lemmanı verək.

Lemma. Tutaq ki, X (3) normalar sistemi ilə hesabi normalı fəzası və onun (1) normasına nəzərən tamamlanması olan X_n Banax fəzası verilmişdir. Tutaq ki, $T: X_0 \to X_n$ xətti kompakt operatordur. Onda T operatorunun X xətti fəzasına daralması X-də kompakt operatordur.

Bu lemmadan istifadə edərək aşağıdakı teoremi isbat etmək olar.

Teorem. Tutaq ki, $k(t,\tau)$ operator-funksiyası $L(X)$ xətti fəzasında sonsuz diferensiallanan operator funksiyadır. Onda $C_H^{\infty}(\Gamma)$ fəzasında (2) münasibəti ilə müəyyən olunan K operatoru kompaktdır.

Ədəbiyyat

1. Антоневич, А.Б. Функциональный анализ и интегральные уравнения : учебник / А.Б. Антоневич, Я.В. Радыно. 2-е изд., перераб. и доп. Минск : БГУ, 2006. 430 с.
3. Колмогоров, А.Н, Фомин, С.В. Элементы теории функций и функционального анализа :учебник / А.Н. Колмогоров, С.В. Фомин. 4-е изд., перераб. М., :Наука, 1976. 544 с.
4. Березанский, Ю.М. Функциональный анализ. Курс лекций : учеб. пособие / Ю.М. Березанский, Г.Ф. Ус, З.Г. Шефтель. К., :Выща шк., 1990. 600 с.
5. Ахиезер Н.И., Глазман И.М. Теория линейных операторов в гильбертовом пространстве. М.:Наука, 1966. 544 с.

YÜKLƏNMİŞ İSTİLİKKEÇİRMƏ TƏNLİYİ ÜÇÜN İNTEQRAL ŞƏRTLİ BİR MƏSƏLƏNİN TƏDQİQİ

Əzizova Səbinə Rafail qızı
Bakı Dövlət Universiteti
sabinaazizova2000@mail.ru

Yüklənmiş istilikkeçirmə tənliyi üçün aşağıdakı məsələyə baxaq:

$$\frac{\partial u(x,t)}{\partial t} = a^2 \frac{\partial^2 u(x,t)}{\partial x^2} + bu(x,t) + b_1 u(x,\bar{t}_1) + b_2 u(x,\bar{t}_2) + f(x,t),\ 0 < x < l,\ 0 < t \le T \quad (1)$$

tənliyinin

$$\int_0^l c_1(x) u(x,t) dx = \mu_1(t),\ \int_0^l c_2(x) u(x,t) dx = \mu_2(t),\ 0 \le t \le T \quad (2)$$

inteqral şərtlərini və

$$u(x,0) = \phi(x),\ 0 \le x \le l \quad (3)$$

başlanğıc şərtini ödəyən həllini tapmalı.

Burada $a > 0, b, b_1, b_2$-həqiqi ədədlər, $\bar{t}_1, \bar{t}_2 \in (0,T),\ f(x,t), \mu_1(t), \mu_2(t)$ və $\phi(x)-$öz arqumentlərinin məlum kəsilməz funksiyalarıdır.Fərz olunur ki, $c_1(x)$ və $c_2(x)$ funksiyaları aşağıdakı diferensial tənlikləri ödəyir:

$$\begin{cases} c_1''(x) = a_1 c_1(x), \\ c_2''(x) = a_2 c_2(x). \end{cases} \quad (4)$$

Burada $a_1, a_2 -$ ixtiyari həqiqi ədədlərdir.

(2)-dəki birinci inteqral şərtin hər iki tərəfini $t-$yə nəzərən diferensiallayaq:

$$\int_0^l c_1(x) \frac{\partial u}{\partial t} dx = \mu_1'(t).$$

Bu inteqralda $\frac{\partial u}{\partial t}$ törəməsini (1) tənliyinin sağ tərəfi ilə əvəz etsək,sadə çevirmələrdən sonra,aşağıdakı bərabərliyi alarıq:

$$a^2 \int_0^l c_1(x) \frac{\partial^2 u(x,t)}{\partial x^2} dx + b\int_0^l c_1(x) u(x,t) dx + b_1 \int_0^l c_1(x) u(x,\bar{t}_1) dx + b_2 \int_0^l c_1(x) u(x,\bar{t}_2) dx + \int_0^l c_1(x) f(x,t) dx = \mu_1'(t) \quad (5)$$

Bu bərabərlikdə iştirak edən birinci inteqrala iki dəfə hissə-hissə inteqrallama düsturunu tətbiq etsək və alınmış bərabərlikdə (4)-dəki birinci şərti və sonrakı üç inteqralda (2)-dəki birinci inteqral şərtini nəzərə alsaq,sadə çevirmələrdən sonra

$$c_1(l) \frac{\partial u(l,t)}{\partial x} - c_1(0) \frac{\partial u(0,t)}{\partial x} - c_1'(l) u(l,t) + c_1'(0) u(0,t) = \bar{\mu}_1(t) \quad (6)$$

bərabərliyini alarıq. Burada $\bar{\mu}_1(t)$ funksiyası

$$\bar{\mu}_1(t) = \frac{1}{a^2}\left[\mu_1'(t) - b\mu_1(t) - b_1\mu_1(\bar{t}_1) - b_2\mu_1(\bar{t}_2) - \int_0^l c_1(x) f(x,t) dx\right] - a_1\mu_1(t)$$

bərabərliyi ilə təyin olunur.

Analoji qaydada ikinci inteqral şərtindən və (4)-dəki ikinci şərtdən istifadə edərək,aşağıdakı şərti alarıq:

$$c_2(l) \frac{\partial u(l,t)}{\partial x} - c_2(0) \frac{\partial u(0,t)}{\partial x} - c_2'(l) u(l,t) + c_2'(0) u(0,t) = \bar{\mu}_2(t) \quad (7)$$

$$\bar{\mu}_2(t)=\frac{1}{a^2}\left[\mu_2'(t)-b\mu_2(t)-b_1\mu_2(\bar{t}_1)-b_2\mu_2(\bar{t}_2)-\int_0^l c_2(x)f(x,t)dx\right]-a_2\mu_2(t)$$

(6) və (7) şərtlərindən, əvvəlcə $\frac{\partial u(l,t)}{\partial x}$ törəməsini,sonra isə $\frac{\partial u(0,t)}{\partial x}$ törəməsini yox etsək bu şərtləri aşağıdakı şərtlərlə əvəz edə bilərik:

$$\begin{cases}\dfrac{\partial u(0,t)}{\partial x}+\alpha_{11}u(0,t)+\alpha_{12}u(l,t)=\tilde{\mu}_1(t),\\ \dfrac{\partial u(l,t)}{\partial x}+\alpha_{21}u(0,t)+\alpha_{22}u(l,t)=\tilde{\mu}_2(t).\end{cases} \quad (8)$$

Bu şərtlərdə iştirak edən əmsallar və sağ tərəfdəki funksiyalar məlum ədədlər və funksiyalardır.

Beləliklə biz (1)-(4) məsələsini (1),(8),(3) məsələsinin həllinə gətirdik.

Ədəbiyyat

1. З. Ф. Ханкишиев. Решение одной задачи для линейного нагруженного дифференциального уравнения параболического типа с интегральными условиями. Вестник Бакинского Университета, серия физико - математических наук, 2021, № 4, с. 25-38.

MÜƏSSISƏDƏ AVTOMATLAŞDIRILMIŞ INFORMASIYA AXTARIŞ SISTEMININ IŞLƏNMƏSI

Fətəliyev Fuad İsmayıl oğlu

Qərbi Kaspi Universiteti

fuad.feleli2@gmail.com

Müəssisədə avtomatlaşdırılmış məlumat axtarış sistemi dedikdə, təşkilat daxilində müxtəlif mənbələrdən məlumatı səmərəli şəkildə toplamaq, təşkil etmək və təqdim etmək üçün nəzərdə tutulmuş proqram təminatı və ya sistem nəzərdə tutulur. Bu sistemlər böyük həcmdə məlumatların idarə edilməsi və işçilər, qərar qəbul edənlər və müxtəlif maraqlı tərəflər üçün müvafiq məlumatlara sürətli çıxış imkanı yaratmaq üçün çox vacibdir. Müəssisədə avtomatlaşdırılmış məlumat axtarış sistemi üçün əsas komponentlər və mülahizələr bunlardır:

İndeksləmə və Saxlama : Məlumat axtarış sistemləri adətən məlumatları təşkil etmək və saxlamaq üçün indeksləşdirmə mexanizmlərindən istifadə edir. Bu, strukturlaşdırılmış indeksin və ya məlumat kataloqunun yaradılmasını nəzərdə tutur ki, bu da xüsusi məlumatların əldə edilməsini asan və sürətli edir.

Məlumat Mənbələrinin İnteqrasiyası : Müəssisələr verilənlər bazası, sənədlər, e-poçtlar, sosial media və s. kimi müxtəlif mənbələrdən məlumatları toplayır. Effektiv sistem bu müxtəlif mənbələrdən məlumatı problemsiz şəkildə birləşdirə və əldə edə bilməlidir.

Axtarış Alqoritmləri və Axtarış Texnikaları : Alınan məlumatın dəqiqliyini və uyğunluğunu artırmaq üçün səmərəli axtarış alqoritmlərindən (məsələn, açar sözə əsaslanan, semantik axtarış, təbii dil emalı) istifadə edin.

Metadata İdarəetmə : Məlumat daxilolmalarına metadata (teqlər, açar sözlər, təsvirlər kimi) təyin etmək və idarə etmək daha dəqiq axtarışı və kateqoriyalara ayırmağı asanlaşdırır.

Təhlükəsizlik və Girişə Nəzarət : Həssas məlumatların qorunmasını təmin etmək üçün güclü təhlükəsizlik tədbirləri həyata keçirin. Giriş nəzarəti, şifrələmə və istifadəçinin autentifikasiyası mühüm komponentlərdir.

İstifadəçi İnterfeysi və İstifadəçi Təcrübəsi (UI/UX) : İstifadəçi dostu interfeys asan naviqasiya və axtarış sistemindən səmərəli istifadə üçün vacibdir. İntuitiv dizayn və funksionallıq işçilər arasında qəbul nisbətlərini yaxşılaşdırır.

Maşın Öyrənməsi və AI İnteqrasiyası : Qabaqcıl sistemlər axtarış nəticələrini davamlı olaraq təkmilləşdirmək, müvafiq məzmunu tövsiyə etmək və zamanla istifadəçi seçimlərini başa düşmək üçün maşın öyrənməsi və AI üsullarını özündə birləşdirə bilər.

Ölçeklenebilirlik və Performans : Sistem sürət və dəqiqlik baxımından optimal performansı qoruyarkən artan həcmli məlumat və istifadəçiləri idarə etmək üçün miqyaslana bilən olmalıdır.

Monitorinq və Analitika : İstifadə nümunələrini, axtarış meyllərini və sistem performansını izləmək üçün analitik alətləri birləşdirin. Bu məlumatlar sistemi optimallaşdırmağa və məlumat axtarışını yaxşılaşdırmağa kömək edə bilər.

Uyğunluq və İdarəetmə : Sistemin, xüsusən məlumatların məxfiliyi və saxlanması ilə bağlı müvafiq sənaye qaydalarına və daxili idarəetmə siyasətlərinə uyğun olmasını təmin edin.

Davamlı Təkmilləşdirmə və Yeniləmələr : Sistemi effektiv və təhlükəsiz saxlamaq üçün onu müntəzəm olaraq yeni funksiyalar, təkmilləşdirmələr və təhlükəsizlik yamaları ilə yeniləyin.

Təlim və Dəstək : Sistemin səmərəliliyini və effektivliyini artırmaq üçün istifadəçilərə adekvat təlim və dəstək verin.

Müəssisədə avtomatlaşdırılmış məlumat axtarış sisteminin tətbiqi diqqətli planlaşdırma, texnoloji mülahizələr və təşkilatın xüsusi ehtiyacları və məqsədləri ilə uyğunlaşdırılmasını nəzərdə tutur.

Ədəbiyyat

1. Manning, C. D., Raghavan, P., & Schütze, H. (2008). "Introduction to Information Retrieval." Cambridge University Press.
2. Baeza-Yates, R., & Ribeiro-Neto, B. (2011). "Modern Information Retrieval." Addison-Wesley.
3. Chowdhury, G. G. (2010). "Introduction to Modern Information Retrieval." Facet Publishing.
4. Grossman, D. A., & Frieder, O. (2004). "Information Retrieval: Algorithms and Heuristics." Springer.
5. Press, R. E., & Stalder, S. (2014). "Enterprise Information Systems: A Pattern-Based Approach." Springer.

RİMAN ÇOXOBRAZLISI ÜZƏRİNDƏ (1,1) TİPLİ TENZOR LAYLANMASININ (2,0) TİPLİ TENZOR LAYLANMASINA BİR DİFEOMORFİZMİNƏ DAİR

Fəttayev Habil Dövlət oğlu, Əliyeva Aytən Tapdıq qızı
Bakı Dövlət Universiteti
h-fattayev@mail.ru, aytanaliyeva.21@gmail.com

İ.Satonun [1] məqaləsində Riman çoxobrazlısının toxunan və kotoxunan laylanmaları arasında difeomorf uyğunluq qurulmuş və bu uyğunluğun köməyi ilə bəzi diferensial-həndəsi strukturların toxunan laylanmadakı liftlərinin kotoxunan laylanmada obrazları öyrənilmişdir (bax, həmçinin, [2]). Reper və koreper laylanmaları üçün analoji məsələyə A.Səlimovun və H.Fəttayevin [3] məqaləsində baxılmışdır.

$n-$ölçülü (M,g) Riman çoxobrazlısının (1,1) tipli $T_1^1(M)$ tenzor laylanmasına baxılır. $T_1^1(M)$ tenzor laylanmasının (2,0) tipli $T_0^2(M)$ tenzor laylanmasına $g^1 : T_1^1(M) \to T_0^2(M)$ təbii difeomorfizmi lokal koordinatların köməyi ilə

$$x^I = (x^i, x^{\bar{i}}) = (x^i, t_i^j) \to \tilde{x}^K = (\tilde{x}^k, \tilde{x}^{\bar{k}}) = (\delta_i^k x^i, t^{k_1k_2} = g^{k_1m} t_m^{k_2})$$

şəklində təyin olunur, burada $g^{jk} - g$ Riman metrik tenzorunun tərs tenzorunun komponent-ləridir. İsbat olunur ki, g^1 təbii difeomorfizminin Yakobi matrisi

$$(g_*^1) = \left(\frac{\partial \tilde{x}^K}{\partial x^I} \right) = \begin{pmatrix} \delta_i^k & 0 \\ t_m^{k_2} \partial_i g^{k_1m} & g^{k_1i} \delta_j^{k_2} \end{pmatrix}$$

strukturuna malikdir.

Müəyyən edilir ki, $\forall X \in \mathfrak{I}_0^1(M)$ vektor meydanının $T_1^1(M)$ və $T_0^2(M)$ tenzor laylanmalarına, uyğun olaraq, ${}^C X_{T_1^1}$ və ${}^C X_{T_0^2}$ tam liftləri arasında

$$g_*^1 {}^C X_{T_1^1} = {}^C X_{T_0^2} + \gamma(L_X g^{-1})$$

münasibəti vardır, burada $\gamma(L_X g) - T_0^2(M)$ tenzor laylanmasında şaquli vektor meydanıdır.

$g_*^1 {}^C X_{T_1^1}$ vektor meydanı X vektor meydanının $T_0^2(M)$ tenzor laylanmasına tam $g-$lifti adlandırılır.

Teorem. Tutaq ki, (M,g) Riman çoxobrazlısıdır, ${}^C X_{T_1^1}$ və ${}^C X_{T_0^2}$ X vektor meydanının uyğun olaraq, $T_1^1(M)$ və $T_0^2(M)$ tenzor laylanmalarına tam liftləridir. Onda $g_*^1 {}^C X_{T_1^1}$ tam $g-$liftinin ${}^C X_{T_0^2}$ tam lifti ilə üst-üstə düşməsi üçün zəruri və kafi şərt $L_X g^{-1} = 0$ bərabərliyinin ödənilməsidir.

Ədəbiyyat

1. I.Sato. Complete lifts from a manifold to its cotangent bundle. Kodai Math. Sem. Rep. 20 (1967), 458-468.

2. A.A.Salimov, R.Çakan. Problems of g-lifts. Proc. of IMM of NAS of Azerb. 43 (1) (2017), 161-170.
3. A.A. Salimov, H.D.Fattayev. On a new class of lifts in the coframe bundle. Comptes rendus de l'Acade'mie bulgare des Sciences. 71(6) (2018), 743-750.

KOREPER LAYLANMASINDA SANKİ KOMPLEKS STRUKTURLARIN BİR SİNFİ HAQQINDA

Fəttayev Habil Dövlət oğlu
Bakı Dövlət Universiteti
h-fattayev@mail.ru

$n-$ölçülü M Riman çoxobrazlısının $F^*(M)$ koreper laylanmasına baxılır. Bu laylanmada Çiger-Qromol metrikası H.Fəttayev tərəfindən təyin edilmişdir [1]. ${}^{CG}g$ Çiger-Qromol metrikası $\forall X,Y \in \Im_0^1(M), \forall \omega,\theta \in \Im_1^0(M)$ üçün aşağıdakı şərtləri ödəyir:

$${}^{CG}g({}^H X, {}^H Y) = {}^V(g(X,Y)) = g(X,Y)\circ\pi,$$

$${}^{CG}g({}^{V_\alpha}\omega, {}^H Y) = 0,$$

$${}^{CG}g({}^{V_\alpha}\omega, {}^{V_\beta}\theta) = 0,\ \alpha \neq \beta,$$

$${}^{CG}g({}^{V_\alpha}\omega, {}^{V_\alpha}\theta) = \frac{1}{1+r_\alpha^{\ 2}}(g^{-1}(\omega,\theta) + g^{-1}(\omega, X^\alpha) g^{-1}(\theta, X^\alpha)),$$

burada $r_\alpha^{\ 2} = \left|X^\alpha\right|^2 = g^{ij} X_i^\alpha X_j^\alpha$.

$F^*(M)$ koreper laylanmasında ${}^{CG}g$ Çiger-Qromol metrikasına adaptə olunmuş $J_\beta, \beta = 1,2,...,n,$ sanki kompleks strukturları $\forall X \in \Im_0^1(M), \forall \omega \in \Im_1^0(M)$ üçün aşağıdakı şərtlərin köməyi ilə təyin edilir:

$$J_\beta {}^H X = \sqrt{h_\beta}\,{}^{V_\beta}\tilde{X} - \frac{1}{\sqrt{h_\beta}+1} X^\beta(X)^{V_\beta} X^\beta,$$

$$J_\beta {}^{V_\gamma}\omega = 0,\ \beta \neq \gamma$$

$$J_\beta {}^{V_\beta}\omega = -\frac{1}{\sqrt{h_\beta}}\left({}^H\tilde{\omega} + \frac{1}{\sqrt{h_\beta}+1} g^{-1}(X^\beta, \omega)\, {}^H\tilde{X}^\beta\right),$$

burada $h_\beta = 1 + r_\beta^{\ 2}, \tilde{X} = g\circ X, \tilde{\omega} = g^{-1}\circ\omega$ işarə olunmuşdur.

Teorem 1. $(F^*(M), {}^{CG}g, J_\beta)$ üçlüyü istənilən $\beta = 1,2,...,n$ üçün sanki Ermit çoxobrazlısıdır.

Teorem 2. Hər bir $\beta = 1,2,...,n$ üçün J_β sanki kompleks strukturu onda və yalnız onda inteqrallanandır ki, $N_{J_\beta}({}^H X, {}^H Y) = 0$ bərabərliyi ödənilmiş olsun., burada N_{J_β} – Nijenhuis tenzorudur [2,s. 118] və $X,Y \in \Im_0^1(M)$.

Ədəbiyyat

1. H. Fattayev. On the differential geometry of coframe bundle with Cheeger-Gromoll metric. Int. Electr. Journ. of Geom. 15(2) (2022), 287-303.
2. K. Yano, S. Ishihara. Tangent and cotangent bundles. Marcel Dekker Inc., N.Y., 1973.
3. A. Salimov, F. Agca. Some notes concerning Cheeger-Gromoll metrics. Hacet. Journ. of Math. and Stat. 42(5) (2013), 533-549.

YAN TƏRƏFLƏRİ BƏRK BAĞLANMIŞ LÖVHƏNİN ƏYİLMƏ MƏSƏLƏSİ

Fətullayeva Laura Faiq qızı, Cəfərli Arzu Əliəskər qızı
Bakı Dövlət Universiteti
ceferliarzu2000@gmail.com

Müasir konstruksiya və maşınların layihələşdirilməsi zamanı onların deformasiyaya məruz qalmış elementlərinin əyilmə və qabarma məsələlərinin tədqiqi aktual problemlərdən biridir. Tədqim olunan işdə yan tərəfləri bərk bağlanmış lövhənin əyilmə məsələsi araşdırılmış və əyilmə funksiyası qurulmuşdur.

Müntəzəm $q = const$ intensivliyinə malik olan yükün təsiri altında olan və en kəsiyinin ölçüsü 2a olan kvadrat şəkilli lövhənin əyilməsi məsələsinə baxaq.Lövhənin orta səthinin əyilməsini $W(x, y)$ ilə işarə etsək,aydındır ki,

$$\Delta^2 W(x, y) = \frac{q}{D} \qquad \frac{q}{D} = p \tag{1}$$

Burada D-lövhənin silindrik sərtliyini xarakterizə edən kəmiyyətdir.

Müəyyənlik üçün fərz edək ki, yan tərəfləri sərt bağlanıb:

$$W|s = 0 \ ; \ \frac{\partial W}{\partial \nu}\bigg| s = 0 \tag{2}$$

(1)-(2) məsələsinin həlli, minimal funksional haqqında teorəmə əsasən, aşağıdakı kimi təyin edilmiş

$$\int_a^{-a} dx \int_a^{-a} \left\{ (\Delta W)^2 - 2pW \right\} dy \tag{3}$$

funksionalının (2) şərtini ödəyən funksiyalar sinfində minimalının tapılması məsələsinə gətirilir. [1, 2, 3]

Sonuncu məsələni Rits üsulu ilə həll edək.

Koordinat funksiyalarını aşağıdakı qaydada seçmək olar:

$$\left(x^2 - a^2\right)^2 \left(y^2 - a^2\right)^2 \left(a_1 + a_2 x^2 + a_3 y^2 + \ldots\right) \tag{4}$$

Qeyd edək ki, $W(x, y)$ funksiyası x və y dəyişənlərinə nəzərən cüt funksiya olduğundan (4)-də x və y-in tək dərəcələrini yazmırıq.

(4)-ə əsasən koordinat funksiyalarını aşağıdakı qaydada seçək:

$$\varphi_1 = \left(x^2 - a^2\right)^2 \left(y^2 - a^2\right)^2; \varphi_2 = x^2 \varphi_1 \; ; \varphi_3 = y^2 \varphi_1 \; ;$$

Aşağıdakı kimi işarələmə aparaq:

$$W \approx W_3 = a_1\varphi_1 + a_2\varphi_2 + a_3\varphi_3 \; ;$$

Rits üsulunu tətbiq etməklə, Rits sistemini tərtib edək:

$$\sum_{k=1}^{3} \left(\Delta\varphi_k ; \Delta\varphi_m\right) a_k = p\left(1; \varphi_m\right) \left(m = 1;2;3\right) \tag{5}$$

(5)-i müəyyən sadələşdirmədən sonra aşağıdakı kimi yazmaq olar:

$$\begin{cases} \frac{18}{7} a_1 + \frac{18}{77} a^2 a_2 + \frac{18}{77} a^2 a_3 = \frac{7}{128 a^4} p \\ \frac{18}{77} a_1 + \frac{502}{1001} a^2 a_2 + \frac{2}{77} a^2 a_3 = \frac{1}{128 a^4} p \\ \frac{18}{77} a_1 + \frac{2}{77} a^2 a_2 + \frac{502}{1001} a^2 a_3 = \frac{1}{128 a^4} p \end{cases} \tag{6}$$

(6)-nı həll etsək,

$$W \approx W_3 = pa^{-4}\left(x^2 - a^2\right)^2 \left(y^2 - a^2\right)^2 \left(0{,}02067 + 0{,}0038\, a^{-2}\left(x^2 + y^2\right)\right)$$

olduğunu alarıq.

Ədəbiyyat

1. Е.А.Андреева. Вариационное исчисление и методы оптимизации.Учебное пособие для университетов / Е.А. Андреева, В.М. Цирулева. – М.: Высшая школа, 2006, 583 с.
2. Л.Э.Эльсгольц. Вариационное исчисление.Учебник для физических и физико-математических факультетов университетов / Л.С. Эльсгольц. – М.: URSS, 2008, 205 с.
3. R.Yu.Amenzade, G.Yu.Mekhtiyeva, L.F.Fatullaeva.Variational method of nonlinear hereditary mechanics of solids // Bulletin of the Chuvash State Pedagogical University. A series "Mechanics of the limiting state", 2010, № 2 (8), p.42-53.

ORTA MƏKTƏBLƏRDƏ HƏNDƏSİ MATERİALLARIN ÖYRƏNİLMƏSİNƏ İKT ASPEKTİNDƏN BAXIŞ

Sərməsli Fidan Süleyman qızı

Bakı Dövlət Universiteti

fidan.sarmasli@bsu.edu.az

Elementar həndəsənin konsepsiyası biliyin qavrayış formasına əsasən "təbiət modeli" adlanan elmi anlayışlarla təmsil olunur. Yəni bu konsepsiya dedikdə, orta ümumtəhsil məktəblərində riyaziyyat fənninin həndəsə məzmun xətti qavrayışının şagirdlər tərəfindən mənimsənilməsini “Mücərrəd olmayan həndəsi cisimlər modeli” anlayışıyla eyni götürmək olar. Burada həndəsi fiqurların növləri onların bərabərlik və oxşarlıq əlaqələri, fiqurların müstəvidə və fəzada nisbi yerləşməsi, həndəsi kəmiyyətlərin növləri, həndəsi çevrilmələrin növləri kimi anlayışlarla xarakterizə olunur. Bunlar Evklid tərəfindən həyat təcrübəsinə əsaslanaraq tərtib edilmişdir. Konseptual forma məhz anlayışlar və kateqoriyalar kompleksi kimi nəzərə alınaraq, məntiq qanunları ilə bağlı olan anlayışlar arasında müxtəlif münasibətlərə əsaslanır. Bu təlim modelinə əsasən tədrisin məqsədi - şagirdlərə müəyyən bir fənn üzrə idrak və öyrənmə prosesində anlayışlar arasında əlaqə yaratmağıümumiləşdirmə, sistemləşdirmə və müqayisə etmək yolu ilə öyrətməkdir [1].

Həndəsə məzmun xəttinin elementlərinin mənimsənilməsi üçün tədris vəsaitlərinin və istinad materiallarının tam bazasının işlənib hazırlanmasına və həndəsə kursunun bütün mövzuları üzrə onlayn dərslərin dərc olunmasına baxmayaraq, maraq itkisi ilə əlaqədar şagirdlər (tələbələr) tərəfindən bu mövzunun başa düşülməsində konseptual böhran problemi mövcuddur.

Bu vəziyyət göstərir ki, problem məhz konseptual biliyə yiyələnməməkdən, öz bilik və ideyalarını mücərrədləşdirə bilməməkdən yaranır.

Bütün siniflərdə həndəsə məzmun xətti dərsliklərində nəzəri material (tərif, teorem, aksiom, isbat) şəkillərlə (qrafiklərlə) tamamlanır. Elmi anlayışların nəzəri formalaşdırılmasını tamamlayan şəkillər nəzəriyyənin bütün məzmunlu aspektlərini izləməyə imkan verir və bu elm sahəsində istiqamət götürməyə kömək edir [2].

Şagirdlərin öz-özünə qura bildiyi həndəsi rəsmlər mətn məlumatlarını asan başa düşülən formada şərh etməyə imkan verir.

Riyazi anlayışların, o cümlədən, həndəsənin tədrisi zamanı iki amilin təsiri altında vizual təfəkkür formalaşır və istifadə olunur.

Birincisi, bu, anlayışların məzmunu, tədqiq olunan faktların nümayiş etdirilməsi şərtləri və formalarıdır.

İkincisi, obrazla işləmək üçün subyektiv seçicilik, bilinən faktlara idraki münasibət. Məzmunun görünməsi şagirdlərin (tələbələrin) vizual təfəkkür ehtiyatlarından istifadə etməyə imkan verir.

Həndəsi anlayışları mənimsəyərkən vizual təfəkkürün spesifikliyi müxtəlif növ və formalı vizual təsvirlər (müxtəlif həndəsi fiqurlar, onların xassələri, əlamətləri, fəza cisimlərin nisbi mövqeləri) əsasında yaradılmış təsvirlərin yenidən işlənib hazırlanmasıdır.

Həndəsi cisimlərin əyani təsvirləri həm öyrənmə predmeti, həm də həndəsə məzmun xətti tədrisi vasitəsi kimi xidmət edə bilər.

Həndəsə məzmun xəttində işləməyə xüsusi diqqət yetirilməlidir, çünki bu halda əldə edilən nəzəri biliklər həndəsi məsələləri həll etmək və mövcud teoremləriisbat etmək üçün istifadə olunur.

Bununla belə, bütün həndəsi təsvirləri başa düşmək , xüsusən də orta məktəbdə stereometriyanı öyrənərkən problemi həll etməyə kömək etmir. Məsələn, lövhənin və ya noutbukun müstəvisindəki təsvirlər dinamik xüsusiyyətlərə malik deyil. Şagirdlərin əksəriyyəti müstəvidə şəkilə baxır və cisimlərin fəzadakı nisbi mövqeyinin təsviri haqqında çox az qavrayışa malik olurlar. Bu sadalanan situasiyalar artıq tarix olmağa başlayır. İKT bacarıqlarını genişləndirmək həm fiziki olaraq rahat, həm də maddi baxımdan daha əlverişlidir. Ona görə də həndəsi materialların hazırlanmasında İKT dəstəkli proqramdan istifadə labüdlüyü artır.

Ədəbiyyat

1. John A.Adam, Mathematics in Nature: Modeling Patterns in the Natural World, Copyright Date: 2003 Published by: Princeton University Press, 416p.
2. Patricio Herbst, Teaching geometry with problems: Negotiating instructional situations and mathematical tasks, Journal for Research in Mathematics Education July 2006, 37(4), p.313-347

FURYE SIRASININ BİHARMONİK TƏNLİKLƏRƏ TƏTBİQİ

Hadıyeva Sevinc Sabir qızı

Sumqayıt Dövlət Universiteti

Smsff125@mail.ru

Fərz edək ki,

$$\frac{\partial^4\varphi(x,y)}{\partial x^4}+2\frac{\partial^4\varphi(x,y)}{\partial x^2\partial y^2}+\frac{\partial^4\varphi(x,y)}{\partial y^4}=0 \tag{1}$$

tənliyinin həllini tapmaq tələb olunur. Tənliyin həllini Furyenin triqonometrik sırasının köməyi ilə təyin edəcəyik, yəni həlli

$$\varphi(x,y)=g(y)\sin\frac{\pi mx}{e} \tag{2}$$

şəklində axtaracağıq. Burada m-ixtiyari tam ədəddir, $g(y)$-isə yalnız y-dəyişəninndən asılı funksiyadır.

Əgər (2) bərabərliyini (1) tənliyində nəzərə alsaq,

$$g^{IV}(y)-2\alpha^2g''(y)+\alpha^4g(y)=0 \tag{3}$$

tənliyini alarıq. Burada $\alpha=\frac{\pi m}{e}$ işarə edilmişdir. (3) tənliyi dördüncü tərtib sabit əmsallı adi diferensial tənlikdir. Bu tənliyin ümumi həlli

$$g(y)=c_1ch\alpha y+c_2sh\alpha y+c_3ych\alpha y+c_4ysh\alpha y \tag{4}$$

şəklində təyin olunur. (4) bərabərliyində iştirak edən c_1,c_2,c_3 və c_4 əmsallarını tapmaq üçün sərhəd şərtlərini aşağıdakı kimi qəbul edək. Tutaq ki,

$$\begin{aligned} &y=c\,olduqda\frac{\partial^2\varphi(x,y)}{\partial x\partial y}=0;\frac{\partial^2\varphi(x,y)}{\partial x^2}=-B\sin\alpha x\\ &y=-c\,olduqda\frac{\partial^2\varphi(x,y)}{\partial x\partial y}=0;\frac{\partial^2\varphi(x,y)}{\partial x^2}=-A\sin\alpha x \end{aligned} \tag{5}$$

şərtləri ödənir.

Əgər (4) həllini (5) sərhəd şərtlərindən ilk bircins bərabərliklərində nəzərə alsaq,

$$c_4 = -c_1 \frac{\alpha sh\alpha c}{sh\alpha c + \alpha c ch\alpha c}; c_3 = -c_2 \frac{\alpha ch\alpha c}{ch\alpha c + \alpha c sh\alpha c} \qquad (6)$$

bərabərliklərini alarıq. Əgər (5) sərhəd şərtlərində qeyri-bircins şərtlərdən istifadə etsək, c_1 və c_2, c_3 və c_4 əmsallarını təyin etmək üçün

$$\alpha^2 \left(c_1 ch\alpha c + c_2 sh\alpha c + c_3 c ch\alpha c + c_4 c sh\alpha c\right) = B$$
$$\alpha^2 \left(c_1 ch\alpha c - c_2 sh\alpha c - c_3 c ch\alpha c + c_4 c sh\alpha c\right) = B$$

tənliklər sistemini alarıq. Əgər (6) bərabərliklərini sonuncu sistemdə nəzərə alsaq, inteqrallama sabitlərini aşağıdakı şəkildə təyin edirik:

$$c_1 = \frac{A+B}{\alpha^2} \cdot \frac{sh\alpha c + \alpha c ch\alpha c}{sh 2\alpha c + 2\alpha c}; c_2 = -\frac{A-B}{\alpha^2} \cdot \frac{ch\alpha c + \alpha c sh\alpha c}{sh 2\alpha c - 2\alpha c}$$
$$c_3 = \frac{A-B}{\alpha^2} \cdot \frac{\alpha ch\alpha c}{sh 2\alpha c - 2\alpha c}; c_4 = -\frac{A+B}{\alpha^2} \cdot \frac{\alpha sh\alpha c}{sh 2\alpha c + 2\alpha c}$$

Əgər sabitlərin bu qiymətlərini (4) bərabərliyində nəzərə alsaq, (1) tənliyinin (5) sərhəd şərtlərini ödəyən həllini

$$\varphi(x,y) = \sin \alpha x \left[\frac{A+B}{\alpha^2} \frac{sh\alpha c ch\alpha y + \alpha c ch\alpha c ch\alpha y - \alpha y sh\alpha c sh\alpha y}{sh 2\alpha c + 2\alpha c} + \right.$$
$$\left. + \frac{A-B}{\alpha^2} \frac{\alpha y ch\alpha c ch\alpha y - ch\alpha c sh\alpha y - \alpha c sh\alpha c sh\alpha y}{sh 2\alpha c - 2\alpha c} \right]$$

şəklində təyin edirik. Həlli daha sadə şəklə salmaq üçün fərz edək. $A = B$-dir, onda sonuncu bərabərlikdən həlli

$$\varphi(x,y) = \frac{2A}{\alpha^2} \sin \alpha x \frac{sh\alpha c ch\alpha y + \alpha c ch\alpha c ch\alpha y - \alpha y sh\alpha c sh\alpha y}{sh 2\alpha c + 2\alpha c}$$

alırıq. Əgər $y = 0$ olduğunu qəbul etsək sonuncu bərabərlikdən

$$\varphi(x,y) = 2A \frac{\alpha c ch\alpha c + sh\alpha c}{sh 2\alpha c + 2\alpha c} \sin \alpha x$$

alarıq. Bu bərabərlikdə chz və shz-funksiyasının ayrılışından yəni

$$sh\alpha c = \alpha c + \frac{(\alpha c)^3}{6} + \frac{(\alpha c)^5}{120} + \ldots, ch\alpha c = 1 + \frac{(\alpha c)^2}{2} + \frac{(\alpha c)^4}{24} + \ldots$$

ayrılışlartından istifadə etsək və m-ədədi böyük olduqda $\frac{m\pi c}{e}$-ədədi kiçik olduğundan tənliyin təqribi həllini

$$\varphi(x,y) \approx A \sin \frac{\pi m x}{e} \left[1 - \frac{(\alpha c)^4}{24} \right]$$

şəklində təyin edirik. Bu düstur tənliyin həllini araşdırmaq üçün daha münasibdir.

Ədəbiyyat

4. Л.В. Канторович, В.И. Крылов “Приближенные методы высшего анализа”. М. “Физмат из”. 1962.

5. А.Д. Кудрявиев “Курс математического анализа”. I и II том. Москва. “Высшая школа”. 1981.

BİR TƏRTİB SİNQULYAR İNTEQRAL TƏNLİKLƏR SİSTEMİNİN HƏLLİNİN STRUKTURU HAQQINDA

Hüseynli Aynur Fizuli qızı, Hasilova Fidan Kamil qızı

Bakı Dövlət Universiteti

aynurhuseynli88@gmail.com , hasilovafidan9@gmail.com

Aşağıdakı tənliklər sisteminə baxılır:

$$\varphi(x) = \frac{1}{\pi}\int_1^\infty \frac{b(s)\varphi(s)ds}{s-x} + \frac{1}{\pi}\int_1^\infty \frac{c(s)\varphi(s)ds}{s+x} = f(x),\ \ x \in [-\infty;\infty], \qquad (1)$$

burada, b və c m- ölçülü kvadrat matrislərdir və $xf\left(xf_1, xf_2, \ldots, xf_m\right)$ vektor funksiyaları uyğun olaraq $[1;\infty]$və $[-\infty;\infty]$ intervallarında Hölder mənada kəsilməzdirlər , yəni kifayət qədər böyük x_1 və x_2 üçün $\left|f(x_1) - f(x_2)\right| \le const\left|\frac{1}{x_1} - \frac{1}{x_2}\right|^\alpha$, $\alpha > 0$.

Əgər a və b dioqanal matrislər olarsa və

$$\varphi(x) + \frac{1}{\pi i}\int_1^\infty \frac{b(s)\varphi(s)ds}{s-x} = f_1 \equiv f(x) - \frac{1}{\pi i}\int_1^\infty \frac{c(s)\varphi(s)ds}{s+x} = f(x),\ \ x \in [1;\infty) \qquad (2)$$

tənliyi həll olunandırsa, onda (1) sistemini onunla ekvivalent ikinci növ Fredholm inteqral tənliyinə gətirmək olar.

Əgər a və b dioqanal matrislər deyilsə, onda (2) tənliyinin həllini ümumiyyətlə desək qapalı formada almaq mümkün deyil (bax [1]). Lakin sinqulyar inteqral tənliklərin ümumi nəzəriyyəsi həllin mümkün strukturu-həllin hamarlıq dərəcəsi, müəyyən nöqtələrdə mövcudluğu haqıında fikir yürütməyə imkan verir. Bu istiqamətdə aşağıdakı teorem doğrudur.

Teorem. (1) tənliyinin $\int_1^\infty \left|\frac{\varphi_j(x)}{x}\right| dx < \infty$ şərtini ödəyən ixtiyari $\varphi(\varphi_1, \varphi_2, \ldots, \varphi_m)$ həllinin sonsuzluqda sıfıra getmə tərtibi $x^{-\mu}$, $\mu > 0$ tərtibindən az deyil, ədəd oxunun $x = \pm 1$ nöqtələri istisna olmaqla istənilən sonlu nöqtəsində Hölder mənada kəsilməzdir, $x = \pm 1$ nöqtələrinin ətrafında isə

$$\left|\varphi_j(x)\right| < \frac{const}{\left|x \pm 1\right|^\alpha},\ \ \alpha < 1,\ \ j = 1, 2, \ldots, m$$

bərabərsizliyi ödənilir.

Ədəbiyyat

1. Векуа Н. П.- В кн.: Труды Тбилисского математического института АН ГрузССР, 1957, 24, 135-147.

KƏSR – XƏTTİ NƏQLİYYAT MƏSƏLƏSİNİN STANDART NƏQLİYYAT MƏSƏLƏSİ KİMİ HƏLLİNİN BİR YOLU

Həmidov Rafael Hüseyn oğlu, Şərifova Hilal Rəhim qızı
Bakı Dövlət Universiteti
saharifovasarifova@gmail.com

Standart yolla kəsr-xətti proqramlaşdırma məsələsinin həlli məhdudiyyətlər şərtinin ilkin formasının pozulması ilə nəticələnən yeni alınan xətti proqramlaşdırma məsələsinin həlininköməyi ilə bərpa olunur [1]. Lakin böyük ölçülüvə xətti kriteriyalı halda effektiv yolla həll olunan belə məsələ üçün bu cür həll yolu çox vaxt arzu olunan nəticəni vermir. Çünki effektivlik adətən məsələnin şərtlərinin spesifikasını nəzərə almaqla əldə olunur. Kəsr-xətti nəqliyyat məsələsi də belə məsələlərdəndir.

Təqdim olunan işdə kəsr-xətti nəqliyyat məsələsinin həllinin ilkin məhdudiyyətli nəqliyyat məsələsi kimi həll olunmasının mümkünlüyü göstərilir.

Məsələnin qoyuluşu aşağıdakı kimidir:

$$\frac{y_1(x)}{y_2(x)} \to \min ., x \in X \tag{1}$$

Burada X mümkün həllər çoxluğu olub aşağıdakı münasibətlərin köməyi ilə təyin olunur:

$$\sum_{j=1}^{m} x_{ij} = a_i,$$

$$\sum_{i=1}^{n} x_{ij} = b_j,$$

$$x_{ij} \geq 0, i = \overline{1,n}, \; j = \overline{1,m}$$

$$y_1(x) = \sum_{j=1}^{m}\sum_{i=1}^{n} c_{ij}^1 x_{ij} + c^1,$$

$$y_2(x) = \sum_{j=1}^{m}\sum_{i=1}^{n} c_{ij}^2 x_{ij} + c^2.$$

Ümumiliyi pozmadan, ödənilməsi həmişə asanlıqla təmin oluna bilən aşağıdakı şərtlərin ödənildiyini fərz edəciyik:

1) $\sum_{i=1}^{n} a_i = \sum_{j=1}^{m} b_j,$

2) $y_1(x) > 0, \; y_2(x) > 0, \; x \in X$

$Y = \{ y(x) = (y_1(x), y_2(x)) \mid x \in X \}$ olsun.

1) şərti məsələ (1)-in həllinin varlığını təmin edir.

2) şərti isə $Y \subset R^2$ çoxluğunun R^2 – nin birinci rübündə yerləşən çoxbucaqlı olduğunu göstərir. Koordinat başlanğıcından keçib Y çoxluğunu özündən sağda saxlayan dayaq $y^2 = k^* y^1$ düz xəttinin hər hansı $y^* = (y_1^*(x^*), y_2^*(x^*)) \in Y$ nöqtəsini götürək. Onda $k = y_1^* / y_2^*$ olduğunu və $x^* \in X$ optimal variantının məsələnin həlli olduğunu hökm edirik.

<u>x^* həllinin qurulması</u>

1) [2]-dəki sxemə əsaslanaraq əvvəlcə məsələ (1)-in hər hansı ilkin $x^1 \in X$ mümkün variantını seçirik (məsələn, şimal – qərb üsulunun köməyi ilə)

2) $y^1 = \left(y_1\left(x^1\right), y_2\left(x^1\right)\right) \in R^2$ – nin köməyi ilə $y_2^1 y_1(x) - y_1^1 y_2(x) \to \max., x \in X$ nəqliyyat məsələsinin x^2 optimal həllini qururuq və $y^2 = \left(y_1\left(x^2\right), y_2\left(x^2\right)\right)$ ilə y^1 arasında $y_1^1 / y_2^1 = y_1^2 / y_2^2$ bərabərliyinin doğruluğunu yoxlayırıq. Cavab müsbət olduqda $x^* = x^2$ olaraq qəbul edirik və keçid alırıq 3)-ə. Əks halda $x^1 = x^2$ qəbul edib keçid alırıq 1)-ə.

3) son.

Beləliklə sonlu sayda X məhdudiyyətli nəqliyyat məsələsini həll etməklə verilmiş (1) məsələsini həll etmiş oluruq. Prosesin sonlu olması ciddi monotonluğun, yəni $y_1^{i+1} / y_2^{i+1} > y_1^i / y_2^i$ ödənilməsinin və seçimin bazis həllər içərisindən aparılmasının nəticəsidir.

Ədəbiyyat

1. Акулич И.Л. Математическое программирование в примерах и задачах. – М.: Высшая школа, 1986. – 319с.
2. Гамидов Р. Г. Построение поретовой границы многокритериальных задач. Изв. АНА, серия физ.тех. и мат. наук, 1999, № 3-4, стр. 37-44.

RİYAZİYYATIN TƏDRİSİ PROSESİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN İSTİFADƏSİNƏ MÜASİR YANAŞMALAR

Həsənova Xalidə Sidqəli qızı, Heydərova Məftun Nizami qızı

Sumqayıt Dövlət Universiteti

hesenova_1975@list.ru , *meftun.heyderova.82@mail.ru*

İnformasiya texnologiyaları uzun müddətdir ki, riyaziyyatın tədrisi vasitələri arasında mühüm yer tutur. Multimedia təqdimatlarının, test tapşırıqlarının, elektron dərsliklərin, funksiyaların və ya həndəsi cisimlərin qurulması üçün tətbiq olunan proqramların istifadəsi riyaziyyatın tədrisi prosesinin ayrılmaz hissəsinə çevrilmişdir.

Riyaziyyat fənninin tədrisi zamanı informasiya texnologiyalarının tədris prosesində istifadəsi üçün böyük imkanlar vardır. Bunlar həm tədris prosesinin müxtəlif mərhələlərində (yeni materialı öyrənərkən, əvvəllər öyrənilmiş məlumatları sistemləşdirərkən, materialı ümumiləşdirərkən və təkrarlayarkən), həm də dərsin müxtəlif mərhələlərində (öyrənilən bilikləri yeniləyərkən, təqdim edərkən), eyni zamanda təlim prosesinin ayrılmaz hissəsi olan sinifdənkənar işlərdə istifadə edilə bilər.

Riyaziyyatın tədrisi prosesində ənənəvi olaraq istifadə olunan əsas informasiya texnologiyaları vasitələrinə aşağıdakılar daxildir:

- nəzəri materialın öyrənilməsini və onun ilkin möhkəmləndirilməsini ən çox müşayiət edən multimedia təqdimatları;

- yerləşdirilmiş video klipləri, test sualları və özünə yoxlama sualları olan elektron dərsliklər;

- riyaziyyatın tədrisi prosesində istifadə olunan proqramlar (PhET, Excel, Mathematica, Graphing Calc, MathCad və s.);

- həndəsənin tədrisində istifadə olunan virtual konstruktorlar (Geogebra, WinGeom, Stereokonstruktor və s.);

- test tapşırıqları.

Dünyada, eyni zamanda təlim prosesində uğurla istifadə edilə bilən informasiya texnologiyalarının hazırkı sürətli inkişafı bu siyahını əhəmiyyətli dərəcədə yeniləyir.

Aşağıdakı çətinliklər riyaziyyat müəllimlərinin informasiya texnologiyalarını tədris prosesinə gətirməsi prosesini əngəlləyir:

- lazımi maddi-texniki dəstəyin olmaması: məktəblərdə hər zaman lazımi avadanlıqlar olmur (əsasən informatika otaqları təchiz olunur) və ya tədris prosesində istifadə olunan avadanlıqlar informasiya texnologiyalarının mövcud imkanlarının reallaşmasına imkan vermir;

- müəllimlərin müasir informasiya texnologiyalarından istifadəyə dair lazımi təliminin olmaması;

- informasiya texnologiyalarının istifadəsinə yönəlmiş müasir yanaşmaların metodik cəhətdən kifayət qədər işlənməməsi və tədris materiallarının müstəqil hazırlanmasına sərf olunan vaxtın məhdudluğu.

Sosial-iqtisadi yeniliklər, akademik fənlərin tərkibində və həcmində sistematik dəyişikliklər, habelə müasir müəllimin rolunun dəyişməsi Azərbaycan təhsilində bütün fənlərin, o cümlədən riyaziyyat fənninin tədrisində yeni İKT vasitələrinin istifadəsinəyeni yanaşmalar tələb edir.

R.S.Xatayeva və D.A.Abdullaevin qeyd etdikləri kimi, rəqəmsal təhsil mənbələrinin aktiv istifadəsi təhsilin məzmununun, tədris texnologiyasının və təhsil prosesi iştirakçıları arasındakı münasibətlərin dəyişməsinə gətirib çıxarır, təliminin tələbələrin qabiliyyət və qavrayış tempinədaha uyğun olmasına imkan verir.

Bu baxımdan, informasiya texnologiyalarının müasir imkanlarını öyrənmək və onların məktəbdə, daha sonra orta ixtisas və ali təhsil müəssisələrində riyaziyyatın tədrisi prosesində tətbiqi üçün təlimatların hazırlanması ehtiyacından ibarət olan bir problem ortaya çıxır.

Bu problemin həlli müəllim və şagirdlər arasında qarşılıqlı əlaqələrin yeni yollarından, metod və üsullarından istifadə etməyi və pedaqoji fəaliyyətin nəticəsinə effektiv nail olmağı təmin edəcək müasir texnologiyaların tədris prosesində tətbiqindən danışmağa imkan verəcəkdir.

Məqalənin məqsədi müasir informasiya texnologiyaları vasitələrini təhlil etmək, riyaziyyatın tədrisi prosesində informasiya texnologiyalarının tətbiqi üçün müasir istiqamətləri nəzərdən keçirməkdən ibarətdir.

Təhsil sahəsindəki yeniliklər informasiya texnologiyalarından istifadə daxil olmaqla müxtəlif şərtlərlə əlaqələndirilə bilər. V.A.Krasilnikova qeyd etdiyi kimi: "... tədrisin kompüter texnologiyaları müasir təhsil texnologiyalarının əsasına çevrilir, çünki təhsil və davamlı peşə inkişafı şagirdin fərdi istəklərinin yerinə yetirilməsinə, şəxsiyyət kimi inkişafını təmin etməyə və onun əlçatanlıq səviyyəsini artırmağa imkan verir.

İnternetin artan imkanlarını nəzərə alaraq, təhsil sistemindəki informasiya texnologiyaları qlobal şəbəkənin texniki vasitələri və imkanları məcmusu kimi başa düşüləcək, öyrənənlərin biliklərini genişləndirmək məqsədilə istifadə etmək üçün məlumatların davamlı qəbulunu və işlənməsini təmin edəcəkdir. S.A.Sokolovanın verdiyi məlumata görə, müasir informasiya texnologiyaları ümumi məlumatların şəxsi bilik və bacarıqlara çevrilməsinə kömək edən informasiya texnologiyaları və interaktiv avadanlıqlardan istifadə edərək müəllim və şagirdlər arasında qarşılıqlı əlaqə və metodlardan istifadə edilməsinə yönəlmiş tədris və öyrənmə metodlarıdır.

İnnovativ informasiya texnologiyalarını nəzərə alan S.A.Sokolova təhsil fəaliyyətində aşağıdakı yenilikləri müəyyənləşdirir: məlumat təqdim etmək üçün hipermətn texnologiyaları; interaktiv avadanlıqların (elektron lövhələrin) istifadəsi; təqdimatların yaradılması və nümayişi; distant təhsil texnologiyalarının istifadəsi, videokonfranslar; interaktiv təhsil komplekslərinin inkişafı.

Beləliklə, riyaziyyatın tədrisində informasiya texnologiyalarının istifadəsinə müasir yanaşmalar dedikdə, təhsil prosesinin bütün iştirakçılarının interaktivliyini, məsafəsini və hərəkətliliyini təmin edən kompüter proqramlarının, xüsusi tətbiqetmələrin və internet resurslarının istifadəsi nəzərdə tutulur.

Təhsil prosesi iştirakçıları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsinin yeni yollarına internetin müxtəlif onlayn xidmətlərini, interaktiv onlayn lövhələri, müxtəlif növ funksiyaları birləşdirə bilən təhsil platformalarını və s. aid etmək olar. Sadalananların bir neçə səbəbi var: birincisi, burada hər bir tələbənin zehni fəaliyyəti nəzərdə tutulur; ikincisi, təhsil müəssisəsinin yerləşməsindən asılı olmayaraq hər bir tələbənin təhsil almaq imkanı olur; üçüncüsü, təhsil müəssisələrində istifadə edilə bilən pulsuz proqram təminatı siyahısı ilə əlaqəli informasiya texnologiyaları vasitələrinin istifadəsindəki məhdudiyyətləri aradan qaldırır.

Qeyd etmək lazımdır ki, müasir informasiya texnologiyalarından istifadə öyrənənlərin təkcə müəyyən bir bilik və fənn bacarıqları sistemini deyil, həm də orta ixtisas və ali təhsil müəssisələrində təhsillərini davam etdirərkən istifadə edə biləcəkləri zəruri İKT bacarıqlarının formalaşmasına imkan verəcəkdir.

SİNQULYAR İNTEQRAL OPEERATORUN BİR ƏDƏDİ APPROKSİMASİYASI HAQQINDA

Hüseynli Aynur Fizuli qızı, Hasilova Fidan Kamil qızı

Bakı Dövlət Universiteti

aynurhuseynli88@gmail.com , hasilovafidan9@gmail.com

Sinqulyar inteqral tənliklərin konstruktiv həllini araşdırarkən bəzi hallarda inteqralaltı funksiyanın nisbi sıxlığının minimal hamarlıq şərti daxilində , məsələn, nisbi sıxlığın $H(\alpha,\Gamma),\ 0<\alpha\le 1$ Hölder sinfinə daxil olduğu halda təqribi həll olunması məsələsinə baxılır. (bax [1])

Tutaq ki, ucları a və b nöqtələrində, uzunluğu L olan Γ qövsü verilmişdir. Γ qövsünü $a=t_1,t_2,\dots,t_{n+1},t_{n+2}=b,\ |t_{j+1}-t_j|=|t_j-t_{j-1}|,\ j\ne n+1,\ |t_{n+2}-t_{n+1}|\le|t_{n+1}-t_n|$ nöqtələri vasitəsilə hissələrə bölək. t nöqtəsinin qövsi hissəsini s, $\max\limits_{t,t_0\in\Gamma}\left|\dfrac{s-s_0}{t-t_0}\right|$ ədədiniisə M ilə işarə edək və fərz edək ki, $|t_{j+1}-t_j|=\dfrac{L}{4n},\ j\ne n+1,\ |t_{j+1}-t_j|\le|t_k-t_j|,\ k\ne j$ və (t_j,t_{j+1}) qövsündə $|s_j-s|\le 2|t_j-t|\le 4|t_j-t_{j+1}|$.

Aşağıdakı teorem doğrudur.

Teorem. Yuxarıda deyilən şərtlər və işarələmələr daxilində ixtiyari $\varphi(t)\in H(\alpha,\Gamma)$ funksiyası üçün

$$\Delta=\left|\frac{1}{\pi i}\int_\Gamma\frac{\varphi(t)}{t-t_k}dt-\frac{1}{\pi i}\varphi(t_k)\ln\frac{b-t_k}{t_k-a}-\sum_{j=1}^{n+1}\frac{\varphi(t_j)-\varphi(t_k)}{t_j-t_k}\cdot\frac{1}{\pi i}\left(t_{j+1}-t_j\right)\le\right|$$
$$\le\frac{8}{\pi}H_\varphi^\alpha\left(\frac{1}{\alpha}+M\ln 2n\right)\left(\frac{L}{n}\right)^\alpha$$

bərabərsizliyi ödənilir,burada $\sum$ bütün $j\ne k,k-1;\ k=1,2,\dots,n+1$ indeksləri üzrə cəmləməni işarə edir.

Ədəbiyyat

1. В.В. Иванов, Теория приближенных методов и ее применение к численному решению сингулярных интегральных уравнений, Издательство «Наукова Думка», Киев-1968.

QEYRİ-MÜƏYYƏNLİK ŞƏRAİTİNDƏ TƏBİİ VƏ TEXNOLOJİ PROSESLƏRƏ UYĞUN MƏSƏLƏLƏRİN TƏDQİQİ HAQQINDA

İbrahimova Məlahət Şahnur qızı
Qərbi Kaspi Universiteti
Melahetibrahimova500@gmail.com

Ətraf mühitin vəziyyətinin monitorinqinə getdikcə daha çox diqqət yetirilir. Çox vaxt bu proses bir və ya bir neçə həssas göstərici növünün seçilməsini və onlardan ümumi ətraf mühitin sağlamlığının ölçüsü kimi istifadə edilməsini nəzərdə tutur. Bununla belə, onların hamısına birbaşa nəzarət etmək üçün çoxlu ekoloji amillər və şərtlər var.

Təbii ehtiyatların idarə edilməsində qeyri-müəyyənlik təbiətin alternativ vəziyyətlərinin və təbii proseslərin zamanla proqnozlaşdırılmasında xas dəyişkənlikdən irəli gəlir. O, adətən mərkəzi meyl ölçüsü (orta) və bu orta ilə bağlı alternativ nəticələrin dispersiyası (variasiya) ilə xarakterizə olunan ehtimal bölgüsü ilə xarakterizə olunur. Müxtəlif nəticələrin paylanmasının müqayisəsi alternativlərin ətraf mühit həddini keçib-aşmadığına dair səlahiyyətli mühakimə yürütməyin və ya bir neçə proqnozlaşdırılan alternativlərdən ən etibarlını müəyyən etməyin yeganə yoludur. Qeyri-müəyyənliyin qiymətləndirilməsinin, yəni məlumatlarda, alətlərdə və nəticə sistemlərində qeyri-müəyyənliyin bütün mənbələrinin qiymətləndirilməsinin dəyəri ondan ibarətdir ki, o, nəticələnən proqnozların və ya alternativlərin etibarlılığının müqayisəsi üçün real əsas verir.

Bu yazının məqsədi qeyri-müəyyənliyi təsvir etmək üçün istifadə olunan terminlər, onu qiymətləndirmək üçün istifadə olunan bir neçə ümumi metodlar və qərar qəbulu prosesində qeyri-müəyyənliyin kontekstinə və əhəmiyyətinə dair əsas anlayışı təmin etməkdir.

Ədəbiyyat

1. Aven, T. (2016). Risk assessment and risk management: Review of recent advances on their foundation. European Journal of Operational Research, 1(16), 1-13.
2. Das, D., Kannadhasan, M., & Bhattacharyya, M. (2019). Do the emerging stock markets react to international economic policy uncertainty, geopolitical risk and financial stress alike? The North American Journal of Economics and Finance, 48, 1-19

İKIDƏYIŞƏNLI HAMAR FUNKSIYALARIN RIDGE FUNKSIYALARINCƏMI ŞƏKLİNDƏTƏSVIRI HAQQINDA

İsgəndərli Fidan Müşviq qızı

Bakı Dövlət Universiteti

fidanisgandarli100@gmail.com

Fərz edək ki, $f: R \to R$ birdəyişənli funksiya və $\mathrm{a} = (a_1,...,a_d) \in R^d \setminus \{0\}$ qeyd olunmuş vektordur,

$$F(\mathrm{x}) = f(\mathrm{a} \cdot \mathrm{x}) = f(a_1 x_1 + ... + a_d x_d)$$

şəklində olan $F: R^d \to R$ çoxdəyişənli funksiyasına ridge funksiyası deyilir, burada $\mathrm{x} = (x_1,...,x_d) \in R^d$ (bax [1,2]).

Fərz edək ki, ikidəyişənli $F(x, y)$ funksiyası R^2 fəzasında təyin edilib. Aşağıdakı məsələyə baxaq:

Hansı şərt daxilində $F(x, y)$ funksiyasını

$$F(x, y) = \sum_{k=1}^{n} f_k(a_k x + b_k y) \tag{1}$$

ridge funksiyaların cəmi şəklində göstərmək olar, burada $l_k=(a_k,b_k)$, $k=\overline{1,n}$ vektorları cüt-cüt xətti-asılı olmayan vektorlardır.

$n=1$ və $n=2$ halında məsələnin həlli trivialdır. $n=1$ halında $l_1=(a_1,b_1)$ vektoruna perpendikulyar $l_1^{\perp}=(-b_1,a_1)$ vektoru götürsək $F(x,y)$ üçün (1) ayrılışının ödənilməsi $\forall\lambda,x,y\in R$ ədədləri üçün

$$\Delta_{\lambda l_1^{\perp}}F(x,y)=0 \qquad (2_1)$$

şərtinin ödənilməsi ilə eynigüclüdür. $n=2$ halında $l_1=(a_1,b_1)$ və $l_2=(a_2,b_2)$ vektorlarına perpendikulyar olan $l_1^{\perp}=(-b_1,a_1)$ və $l_2^{\perp}=(-b_2,a_2)$ vektorlarını götürsək $F(x,y)$ funksiyası üçün (1) ayrılışının ödənilməsi $\forall\lambda_1,\lambda_2,x,y\in R$ ədədləri üçün

$$\Delta_{\lambda_1 l_1^{\perp}}\Delta_{\lambda_2 l_2^{\perp}}F(x,y)=0 \qquad (2_2)$$

şərtinin ödənilməsi ilə eynigüclüdür.

$n\geq 3$ halında məsələ kifayət qədər qəlizləşir. Belə ki, $n\geq 3$ halında $F(x,y)$ funksiyasının (1) ayrılışını ödəməsi üçün (2_1) və (2_2) şərtlərinin ümumiləşməsi olan $\forall\lambda_1,\ldots,\lambda_n,x,y\in R$ ədədləri üçün

$$\Delta_{\lambda_1 l_1^{\perp}}..\Delta_{\lambda_n l_n^{\perp}}F(x,y)=0 \qquad (2)$$

şərti zəruri olsa da, kafi deyil, burada $l_k^{\perp}=(-b_k,a_k)$, $k=\overline{1,n}$ Məsələn, $n=3$, $l_1=(1,0)$, $l_2=(0,1)$, $l_3=(1,1)$ götürsək ixtiyari biadditiv funksiya $\forall\lambda_1,\lambda_2,\lambda_3,x,y\in R$ üçün

$$\Delta_{(0,\lambda_1)}\Delta_{(\lambda_2,0)}\Delta_{(\lambda_3,-\lambda_3)}F(x,y)=0$$

şərtini ödəyir. Lakin hər bir biadditiv funksiyanı $f_1(x)+f_2(y)+f_3(x+y)$ şəklində göstərmək olmur.

Bu onu göstərir ki, $n\geq 3$ halında (1) ayrılışının ödənilməsi (2) şərti ilə eynigüclü deyil. Buradan aşağıdakı təbii sual meydana gəlir:

Hansı hamarlıq siniflərində (1) ayrılışının ödənilməsi (2) şərti ilə eynigüclü olur? Başqa sözlə desək, $F(x,y)$ funksiyası hansı hamarlıq sinfinə daxil olduqda (2) şərtindən $F(x,y)$ funksiyası üçün (1) ayrılışının ödənilməsi alınır?

Asanlıqla yoxlaya bilərik ki, əgər $F\in C^{(n)}(R^2)$ olarsa, onda (2) şərtindən (1) ayrılışının ödənilməsi alınır, yəni $C^{(n)}(R^2)$ sinfində (1) ayrılışı ilə (2) şərti eynigüclüdür. Doğrudan da, əgər $F\in C^{(n)}(R^2)$ funksiyası üçün (2) şərti ödənilərsə, onda (2) bərabərliyinin hər tərəfini $\lambda_1\cdot\ldots\cdot\lambda_n$ hasilinə bölüb, $\lambda_1\to 0,\ldots,$ $\lambda_n\to 0$ şərtləri daxilində limitə keçsək, alarıq ki, $\forall x,y\in R$ üçün

$$\frac{\partial^n F}{\partial l_1^{\perp}..\partial l_n^{\perp}}(x,y)=0 \qquad (3)$$

bərabərliyi ödənilir. (3) diferensial tənliyini həll etməklə alarıq ki, $F(x,y)$ funksiyası üçün (1) ayrılışı ödənilir.

Məqsədimiz (1) ayrılışının (2) şərti ilə eynigüclü olduğu daha geniş siniflər tapmaqdır. Biz göstərəcəyik ki, $n \geq 3$ halında $C^{(n-3)}(R^2)$ sinfindən olan funksiyalar üçün də (1) ayrılışı ilə (2) şərti eynigüclüdür.

Teorem. Fərz edək ki, $l_k = (a_k, b_k)$, $k = \overline{1,n}$ vektorları cüt-cüt xətti-asılı olmayan vektorlardır. Onda $F \in C^{(n-3)}(R^2)$ funksiyasının (1) ayrılışı şəklində göstərilə bilməsi üçün zəruri və kafi şərt $\forall \lambda_1, \ldots, \lambda_n, x, y \in R$ üçün (2) bərabərliyinin ödənilməsidir.

Ədəbiyyat

1. Pinkus, A.: Ridge functions. Cambridge Tracts in Mathematics, 205. Cambridge University Press, 2015, 207 pp.
2. Ismailov, V.E.: Ridge Functions and Applications in Neural Networks. AMS book series: Mathematical surveys and monographs, vol. 263 (2021), 186 pp.

HIPERBOLIK TƏNLIKLƏR SISTEMI ÜÇÜN YARIMOXDA TƏRS MƏSƏLƏNIN HƏLLININ YEGANƏLIYI

İsgəndərov Nizaməddin Şirin oğlu, Əhmədov Etibar Məhəmməd oğlu

Bakı Dövlət Universiteti

nizameddin_isgenderov@mail.ru, etibar.aze03@gmail.com

Aşağıdakı

$$A\frac{\partial\psi(x,t)}{\partial t} - \frac{\partial\psi(x,t)}{\partial x} = C(x,t)\,\psi(x,t)\,, \tag{1}$$

tənliklər sisteminə baxaq, burada

$A = diaq\{\xi_1, .., \xi_n\}$, $\psi(x,t) = \{\psi_1(x,t), ..., \psi_n(x,t)\}\ t-$ transponirə işarəsidir,

$C(x,t) = \left\|C_{ij}(x,t)\right\|_{i,j=1}^{n}$, $C_{ii}(x,t) = 0$,

$\xi_1 > .. > \xi_{n-2} > 0 > \xi_{n-1} > \xi_n$ və

$$\left|C_{ij}(x,t)\right| \leq C\left[(1+|x|)(1+|t|)\right]^{-1-\varepsilon} \tag{2}$$

$C_{ij}(x,t)$, $(i,j = \overline{1,n})$kompleks dəyişənli ölçülən funksiyalardır. Yarımoxda

$$\{\psi_1^k(x_i,t), \ldots, \psi_{n-2}^k(x,t)\}^t = \{a_1(t+\xi_1 x), \ldots, a_{n-2}(t+\xi_{n-2}x)\}^t + o(1), x \to +\infty \tag{3}$$

və

$$\psi_{n-1}^k(0,t) = \sum_{\substack{j=1 \\ j\neq k}}^{n-2}\psi_j^k(0,t),\quad \psi_n^k(0,t) = \psi_k^k(0,t),\quad k = \overline{1,n-2}. \tag{4}$$

şərtlərini ödəyən $n-2$ sayda səpilmə məsələsinə baxılır. Göstərmək olur ki, $x \to \infty$ üçün

$$\{\psi_{n-1}^k(x,t), \psi_n^k(x,t)\}^t = \{b_{n-1}^k(t+\xi_{n-1}x), b_n^k(t+\xi_n x)\}^t + o(1) \tag{5}$$

Asimptotikası doğrudur. Onda

$$\{a_1(t),\ldots,a_{n-2}(t)\}\xrightarrow{S^k}\{b_{n-1}^k(t),b_n^k(t)\}\,,k=\overline{1,n-2} \tag{6}$$

$S=(S',\ldots,S^{n-2})$, səpilmə operatoru təyin olunur.

Çevirmə operatorlarının köməyi ilə göstərilir ki,

$$\{a_1(t),\ldots,a_{n-2}(t)\}^t\xrightarrow{R^k}\{b_n^k(t),b_{n-1}^2(t)-b_{n-1}^1(t),,\ldots,b_{n-1}^{n-2}(t)-b_{n-1}^1(t)\},k=\overline{1,n-2}$$

operatorları və onların baş minorlarının tərsi var, onların müəyyən elementləri və kombinasiyaları faktorizasiya oluna biləndirlər. Bu operatorların və onun faktorizasiya elementlərinin köməyi ilə tərs səpilmə məsələsi birqiymətli həll olunur və konstruktiv alqoritm verilir. $n-1$ gələn və bir səpilən dalğa halına [1] – də baxılıb.

Ədəbiyyat

1. Н.Ш.Искендеров. Нестационарные обратные задачи рассеяния для системы гиперболических уравнений первого порядка, Баку, Элм, 2000, 185 с.

ÜCÜNCÜ TƏRTİB YARIMXƏTTİ PSEVDOPARABOLİK TƏNLİK ÜÇÜN QARIŞIQ MƏSƏLƏNİN HƏLLİNİN VARLIĞI

İsmayılov Arif İbat oğlu, Paşayeva Nəzrin Ehtibar qızı

Bakı Dövlət Universiteti

ismayılovarif@icloud.com, pyevanezrin00@gmail.com

İşdə birölçülü yarimxətli xüsusi törəməli tənlik üçün qarışıq məsələnin varlığı tədqiq olunmuşdur. Üçüncü tərtibtənlik üçün aşağıdakı kimi qarışıq məsələyə baxaq:

$$u_t(t,x)-\alpha\cdot u_{txx}(t,x)=F(t,x,u(t,x),u_x(t,x),u_{xx}(t,x)) \quad (0\le t\le T,\ 0\le x\le 1), \tag{1}$$

$$u(0,x)=\varphi(x) \qquad (0\le x\le \pi), \tag{2}$$

$$u(t,0)=u(t,\pi)=0 \qquad (0\le t\le T), \tag{3}$$

harada ki, $\alpha>0$ verilmiş ədəd, $0<T<+\infty$; F,φ- məlum funksiyalar, $u(t,x)$ axtarılan funksiyadır.

(1)-(3) məsələsinin sanki hər yerdhəlli dedikdə aşağıdakını başa düşürük:

a) $u(t,x),\ u_x(t,x),\ u_t(t,x),\ u_{tx}(t,x)\in C\,([0,T]\times[0,\pi])$;

$u_{xx}(t,x),\ u_{txx}(t,x)\in C([0,\pi]:L_2(0,\pi))$;

b) (2) və (3) şərtləri adi mənada ödənilir;

v) (1) tənliyi $[0,T]\times[0,\pi]$-də sanki hər yerdə ödənilir.

İşdə ümumiləşmiş sıxılmış inikas prinsipini tərpənməz nöqtə haqqında Şauder prinsipi ilə kombinasiya etməklə (1)-(3) məsələsinin sanki hər yerdə lokal həllinin varlığı haqqında aşağıdakı teorem isbat edilir.

Teorem. Tutaq ki,

1. $\varphi(x)\in C^{(1)}([0,\pi])$, $\varphi''(x)\in L_2(0,\pi)$ və $\varphi(0)=\varphi(\pi)=0$.

2. $F(t,x,u_1,u_2,u_3) \in C\left([0,T]\times[0,\pi]\times(-\infty,\infty)^3\right)$.

3. İstənilən $R>0$ üçün $[0,T]\times[0,\pi]\times[-R,R]^2\times(-\infty:\infty)$ oblastında

$|F(t,x,u_1,u_2,u_3)-F(t,x,u_1,u_2,\tilde{u}_3)| \le C_R\cdot|u_3-\tilde{u}_3|$,

burada $C_R>0$ sabitdir.

Onda T-nin kafi qədər kiçik qiymətləri üçün (1)-(3) məsələsi sanki hər yerdə hədlə malikdir.

Ədəbiyyat

1. А.И.Кожанов, Смешанная задача для одного класса квазилинейных эволюционных уравнений третьего порядка// «Краевые задачи для нелинейных уравнений», Новосибирск, 2013, с.118-128.

QRAND LEBEQ FƏZALARINDA QÜVVƏT ÇƏKİLİ EKSPONENSİAL SİSTEMİNBANAX FREYMLİYİ HAQQINDA

İsmayılov Miqdad İmdad oğlu, Terçiyeva Pitimat Labazan qızı

Bakı Dövlət Universiteti

migdad-ismailov@rambler.ru, pitimatterchieva@gmail.com

Tutaq ki, $L_{p)}(-\pi,\pi)$, $p>1$, qrand Lebeq fəzasıdır, $G_{p)}(-\pi,\pi)$ isə $L_{p)}(-\pi,\pi)$ fəzasının bu fəzada sürüşmə operatorun doğurduğu alt fəzasıdır. Təqdim edilən işdə $G_{p)}(-\pi,\pi)$, $p>1$ fəzasında $\{e^{int}\}_{n\in Z}$ sitemin uyğun əmsallar fəzalarına nəzərən

$$\{\rho(t)e^{int}\}_{n\in Z} \tag{1}$$

sisteminBanax freymliyiöyrənilir, buradaçəki funksiyası

$$\rho(t)=\prod_{k=0}^{r}|t-t_k|^{\alpha_k}$$

şəklindədir və$t_k\in[-\pi,\pi]$,$\overline{k=0,r}$, müxtəlif nöqtələrdir. (1) sistemin $L_p(-\pi,\pi)$, $p>1$, Lebeq fəzalarında freymlik xassələri [1-3] işlərində öyrənilmişdir.

Məlumdur ki ([4]), klassik $\{e^{int}\}_{n\in Z}$ eksponensial sistemi $G_{p)}(-\pi,\pi)$, $p>1$ fəzasında bazis əmələ gətirir. $K_{p)}$ ilə $G_{p)}(-\pi,\pi)$, $p>1$ fəzasında $\{e^{int}\}_{n\in Z}$ bazisin əmsallar fəzasını işarə edək.

Aşağıdakı teorem doğrudur.

Teorem. (1) sistemin $G_{p)}(-\pi,\pi)$ fəzasında Banax $K_{p)}$-freymi olması üçün zəruri və kafi şərt $\alpha_k=0$,$\overline{k=0,r}$,olmasıdır.

Ədəbiyyat

1. Е.С. Голубева, Фреймы экспонентсо степенным весом, Вестник СамГУ, Естественнонаучная серия ,2011, №2(83), 15-25.
2. G.J. Yoon, C. Heil, Duals of Weighted Exponential Systems. Acta Appl Math 119, 2012, 97–112.

3. B. T. Bilalov and Z. V. Mamedova, On the frame properties of some degenerate trigonometric systems, Dokl. Nats. Akad. Nauk Azerb., 68(5) (2012), 14–18.
4. M.I.Ismailov , Y. Zeren , Acar K, Aliyarova I., On basicity of exponential trigonometric systems in grand Lebesque spaces, J. Math, 2022, 1-11.

QÜVVƏT ÇƏKİLİ EKSPONENSİAL SİSTEMİN K−FREYMLİYİ HAQQINDA

İsmayılov Miqdad İmdad oğlu, Cəfərof Elsevər Ceyhun oğlu
Bakı Dövlət Universiteti
migdad−ismaılov@rambler.ru, cfrovelsevr@gmail.com

Tutaq ki, $L_2(-\pi,\pi)$ Lebeq fəzasıdır, və K bu fəzada məhdud operatordur. $L_2(-\pi,\pi)$ fəzasında çəkili eksponensial

$$\{\rho(t)e^{int}\}_{n\in Z} \tag{1}$$

sistemə baxaq, burada çəki funksiyası

$$\rho(t)=\prod_{k=0}^{r}|t-t_k|^{\alpha_k},$$

$-\pi=t_0<t_1<\cdots<t_r=\pi$, şəklindədir. [1] işin nəticələrinə əsasən (1) sistemi yalnız və yalnız $\alpha_k=0$, $\overline{k=0,r}$ ödəndikdə $L_2(-\pi,\pi)$ fəzasında freym əmələ gətirir. İşdə (1) sistemin K-freymliyi öyrənilir.

Aşağıdakı teorem doğrudur.

Teorem. Tutaq ki,K operatoru $ImK=L_2(-\pi,\pi)$ şərtini ödəyir. Onda (1) sistemin $L_2(-\pi,\pi)$ fəzasında K-freym olması üçün zəruri və kafi şərt $\alpha_k=0$,$\overline{k=0,r}$,olmasıdır.

Ədəbiyyat

1. .J. Yoon, C. Heil, Duals of Weighted Exponential Systems. Acta Appl Math 119, 2012, 97–112.
2. O. Christensen, An Introduction to Frames andRiesz Bases, Birkhäuser, 2003.
3. L.Gavruta, Frames for Operators, Appl . comput. Harmon. Anal. 32 (2012),139-144.

KOMPÜTER ŞƏBƏKƏLƏRİNİN VƏ TEXNOLOGİYALARININ MÜHAFİZƏSİNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ.

İsmayılova Fidan Abdurəhim qızı
Bakı Dövlət Universiteti
fidanismayilova980@gmail.com

Müasir dünyada informasiya texnologiyalarının inkişafı, kompüter şəbəkələrinin və texnologiyalarının mühafizəsi məsələsini daha da aktual və vacib edir. Kompüter şəbəkələri və texnologiyaların mühafizəsi günümüzün informasiya cəmiyyətində əhəmiyyətli bir məsələdir. Bu mühafizə, təhlükəsizlik tədbirləri və texnolojik rifahı birləşdirənperspektivdə yanaşılan bir sahədə tədqiqat və inkişaf mövzusudur. Məqalə, texnologiya infrastrukturlarının təhlükəsizliyini təmin etmək və texnolojik rifahi dəstəkləmək üçün müstəqil tədbirlərin və tədbirlər bütünü ilə bağlı araşdırmalara həsr olunmuşdur.

Kompüter şəbəkələrinin mühafizəsi, fərqli təhlükə faktorları ilə mübarizə üçün ən son tədbirlərə nəzarət etməyi tələb edir. Viruslar, malver təhlükəsi, kiber hücumlar və identifikasiya qurğuları kimi əsas təhlükə faktorlarına qarşı mübarizə üçün ən effektiv və güncəl tədbirlərin araşdırılması bu mövzunun əsasını təşkil edir. Mövcud mühafizə tədqiqatlarının və texnologiya təhlükəsizliyi standartlarının müzakirəsi aparılır. Həmçinin, bu standartların və yanaşmaların güncəllənməsi və effektivliyin qiymətləndiirlməsi üçün nəzərdə tutulan aktual problemlər və həll yolları araşdırılır. Kompüter şəbəkələrinin mühafizəsi, fərqli təhlükə faktorları ilə mübarizə üçün ən son tədbirlərə nəzarət etməyi tələb edir. Kriptoqrafiya tədbirləri, antivirüs proqramları, firewall sistemləri və sürətli təhlükəsizlik yüksəltmək üçün yeni ideyalar bu mövzuda ətraflı şəkildə təhlil olunur. Kompüter şəbəkə və texnologiyalarının mühafizəsinin təkmilləşdirilməsi üçün müasir və innovativ yanaşmaların tətbiqi üçün potensial sahələr vurğulanır. Bu süni intellekt, maşın öyrənməsi və avtomatlaşdırma texnologiyalarını əhatə edir.

Təhlükəsizlik tədbirləri inkişaf etdikcə, texnologiyaların da inkişaf etməsi tələb olunur. Texnologiya sahəsindəki sürətli inkişaf, eyni zamanda müxtəlif təhlükələri də artırır. Bu baxımdan, mühafizə tədbirlərinin əhəmiyyəti daha da artmaqdadır. Təhlükəsizlik yenilikləri, digər texnologiya sahələrində olduğu kimi, müasir təhlükələrə qarşı qoruma tədbirlərini daha effektiv və dayanıqlı hala gətirmək üçün aparılan inkişaf və tədqiqatları əhatə edir. Təhlükəsizlik sahəsindəki yeniliklər, şəbəkələrdə, proqramlarda, məlumatların saxlanılmasında və istifadəçi təcrübəsində qorunmanın təminatını artırmağı hədəfləyir. Sürətli təhlükəsizlik vasitələri, müxtəlif mənbələrdən gələn təhlükəsizlik məlumatlarını sürətli şəkildə icma edərək təhlükələrin yaranmasını və yayılmasının qarşısının alınmasına nail olur. Potensial təhlükələrin qısa zamanda təyin edilməsinə və anında müdafiə tədbirlərinin görülməsinə kömək edir. Təhlükəsizlik yenilikləri, müasir texnologiyaların inkişafına paralel olaraq müəyyən təhlükələrə qarşı daha effektiv müdafiə tədbirlərini təmin etməyə nail olur. İstifadə olunan yeni texnologiyalar və tədbirlər, təhlükəsizlik sahəsindəki mübarizəni daha da gücləndirir və müasir təhlükəsizlik standartlarını artırır.

Bu məqalə təhlükəsizlik sahəsindəki ən son inkişafları təhlil edərək, giriş nəzarəti, məlumat şifrələməsi və firewall sistemləri kimi əsas təhlükəsizlik prinsipləri ətrafında birləşmişdir. Sürətli təhlükəsizlik iraqiyyəsi və təhlükəsizlik təhlil alətləri ilə birgə işləyən inkişaf edən texnologiyaların tətbiqi, potensial təhlükələrə qarşı proaktiv müdafiəni daha da möhkəmləndirir. Biometrik təhlükəsizlik modelləri, istifadəçilərin biometrik parametrlərini tətbiq edərək məlumatlara qarşı daha effektiv bir müdafiə təmin edir. Blockchain və məlumat zənciri təhlükəsizliyi isə məlumatın təhlükəsiz bir şəkildə şifrələnməsi və dağılmasının qarşısını alan əsas proseslərdir. Sürətli təhlükəsizlik tədbirləri, müasir təhlükəsizlik standartlarını artırmağa kömək edir. İşçilərin və istifadəçilərin yeniliklərdən xəbərdar olması üçün yüksək səviyyədə keçirilmiş təlimlər təhlükəsizlik tədbirlərinin effektiv şəkildə tətbiq olunması üçün əhəmiyyətli bir faktordur.

Ən əsası, bu məqalə, mühafizə və təhlükəsizlik sahəsində aparılan yenilikləri təhlil edərək, kompüter şəbəkələri və texnologiyalarının hər bir təhlükəyə qarşı daha möhkəmlənmiş bir versiyatəqdim etmək məqsədini daşıyır. Bu yeniliklər, müstəqil və dörd bir tərəfli müdafiə tədbirləri ilə müasir informasiya təhlükəsizliyini daha da artırmağa nail olur.

Ədəbiyyat

1. X. Wang, S. Zhang., "Research about Optimization of Campus Network Security System", Procedia Engineering, CEIS 2011, Vol. 15, 1802-1806, 2011.
2. E. Karaarslan, A. Teke, H. Şengonca, "Bilgisayar Ağlarında Güvenlik Politikalarının Uygulanması", İletişim Günleri, 2003.

SİMİN MƏCBURİ RƏQSİ HƏRƏKƏT TƏNLİYİNİN HƏLLİNİN ARAŞDIRILMASI

İsmayılova Günay Qəfil qızı
Sumqayıt Dövlət Universiteti
Gunay_ismayilova_83@mail.ru

Tətbiqi elmlərin bir sıra məsələlərinin həlli xüsusi törəməli diferensial tənliklərin həllinə gətirilir. Simin məcburi rəqsi aşağıdakı şəkildə xüsusi törəməli iki tərtibli diferensial tənliyin həllinə gətirilir.

Tutaq ki, simə xarici $f(t)$ qüvvəsi təsir edir. Onda rəqsi hərəkəti təsvir edən tənlik

$$\frac{\partial^2 u(x,t)}{\partial t^2} = a^2 \frac{\partial^2 u(x,t)}{\partial x^2} + f(t) \tag{1}$$

olar. Tutaq ki, simin ucları möhkəm bərkidilmişdir, yəni uclar tərpənməzdir. Onda sərhəd şərtlərini

$$u(x,t)\big|_{x=0} = 0\,;\; u(x,t)\big|_{x=l} = 0 \tag{2}$$

şəklində yaza bilərik. Əgər xarici qüvvə $t = 0$ anında təsir etmişdirsə, başlanğıc şərti

$$u(x,t)\big|_{t=0} = g(x);\; \left.\frac{\partial u(x,t)}{\partial t}\right|_{t=0} = \varphi(x) \tag{3}$$

şəklində qəbul edirik. Burada $u(x,t)$-axtarılan funksiya, a-dalğanın yayılma sürəti, $f(x)$, $g(x)$ və $\varphi(x)$-funksiyaları isə həqiqi dəyişənli məlum funksiyalardır. Deməli, baxılan məsələnin həlli (1) tənliyinin (2) və (3) şərtini ödəyən həllinin tapılmasından ibarətdir. Əgər Laplasın inteqral çevirməsini t-yə görə

$$\overline{F}(p) = \int_0^\infty f(t) e^{-pt} dt$$

(1) tənliyinə tətbiq etsək, uyğun operator tənliyi aşağıdakı kimi təyin edirik.

$$\frac{d^2 \overline{u}(x,p)}{dx^2} - \frac{p}{a^2}\overline{u}(x,p) = \overline{z}(p,x) - p\varphi(x) \tag{4}$$

Burada p-Laplas çevirməsinin parametridir və $\bar{z}(p,x)=-\bar{f}(p)-g(x)$ (4) tənliyi qeyri-bircins adi diferensial tənlikdir. Onu həll etmək üçün əvvəlcə bircins tənliyi

$$\frac{d^2\bar{u}(x,p)}{dx^2}-\frac{p}{a^2}\bar{u}(x,p)=0$$

həll edək. Onun həlli

$$\bar{u}_1(x,p)=c_1e^{-\frac{p}{a}x}+c_2e^{\frac{p}{a}x} \tag{5}$$

şəklində təyin edilir. Burada c_1 və c_2 inteqrallama sabitləridir və sərhəd şərtlərindən tapılır.

$$c_1=\frac{1}{2}f(p)e^{\frac{pl}{a}}+\frac{a}{2p}\int_0^l(g(x)+p\varphi(x))e^{\frac{px}{a}}dx$$

$$c_1=\frac{1}{2}f(p)e^{-\frac{pl}{a}}-\frac{a}{2p}\int_0^l(g(x)+p\varphi(x))e^{-\frac{px}{a}}dx$$

(6)

olar. Bu qiymətləri (5) bərabərliyində nəzərə alsaq, həllin surətini təyin etmiş olarıq. həllin orjinalını hesablamaq üçün fərz edək ki, başlanğıc şərtlər $t=0$ anında

$$g(x)=c=const;\ \varphi(x)=d=const$$

şəklində verilmişdir. Onda c_1 və c_2 sabitləri üçün (6) bərabərliklərindən

$$c_1=e^{\frac{pl}{a}}\left(\frac{a^2}{2p^2}f(p)+\frac{a^2}{2p^2}c+\frac{a^2}{2p^2}d\right)=\frac{a^2}{2}e^{\frac{pl}{a}}\left(\frac{1}{p^2}f(p)+\frac{1}{p^2}c+\frac{1}{p^2}d\right)$$

$$c_1=\frac{a^2}{2}e^{\frac{pl}{a}}\left(\frac{1}{p^2}f(p)-\frac{1}{p^2}c-\frac{1}{p^2}d\right)$$

alarıq. Onda (5) bərabərliyindən

$$\bar{u}_1(x,p)=\frac{a^2}{2}M_1e^{-\frac{p}{a}(x-l)}+\frac{a^2}{2}M_1e^{-\frac{p}{a}(l-x)}$$

olar. Burada $M_1(p)=\frac{1}{p^2}f(p)+\frac{1}{p^2}c+\frac{1}{p^2}d$, $M_2(p)=\frac{1}{p^2}f(p)-\frac{1}{p^2}c-\frac{1}{p^2}d$ işarə edilmişdir. Əgər funksiyaların gecikmə xassəsindən istifadə etsək, həllin orjinalını

$$u(x,t)=\frac{a^2}{2}\left[M_1\left(t-\frac{x-l}{a}\right)+M_2\left(t-\frac{l-x}{a}\right)\right]$$

şəklində təyin edirik.

Ədəbiyyat

1. Н.С. Пискунов "Дифференциальное и интегральное исчисления". Том второй. М. "Наука". 1985.
2. А.Н. Тихонов, А.А. Самарский "Уравнение математической физики". Москва. "Наука". 1977.
3. Л.В. Канторович, В.И. Крылов "Приближенные методы высшего анализа". М. "Физмат из". 1962.

4. Г. Деч “Руководство и практическому применению преобразования Лапласа”. Москва. “Физмат из”. 1958.

KOMPÜTER ŞƏBƏKƏLƏRİNDƏ VERİLƏNLƏRİN ÖTÜRÜLMƏSİ PROTOKOLLARININ ANALİZİ VƏ TƏTBİQİ HAQQINDA

İsmayılzadə Müşgünaz Mehman qızı
Qərbi Kaspi Universiteti
mawa_qurbanova97@mail.ru

Kompüter şəbəkələri mühüm rol oynayan protokol və standartlardan asılıdır, bu da müxtəlif qurğular və sistemlər arasında bir-biri ilə əlaqə yaratmağa və məlumatların problemsiz şəkildə paylaşılmasını təmin edir. Şəbəkə protokolu şəbəkənin müxtəlif komponentlərinin bir-biri ilə uyğunluğunu, etibarlılığını və birlikdə işləməsini təmin edir.

Şəbəkə protokolunun bir neçə növü mövcuddur:

- Şəbəkə Layeri Protokolları: Şəbəkə səviyyəsinin protokolları paketlərin marşrutlaşdırılması, ötürülməsi və bütün şəbəkə daxilində məlumat paketlərinin ünvanlanması üçün cavabdehdir. IP və ICMP şəbəkə səviyyəsinin protokollarıdır.
- Nəqliyyat səviyyəsinin protokolları : Nəqliyyat səviyyəsinin protokolları müxtəlif cihazlarda tətbiqlər arasında məlumat ötürülməsini təmin edən uçdan-uca xidmət göstərən nəqliyyat qatında işləyir.TCP və UDP ən məşhur nəqliyyat təbəqəsi protokollarıdır.
- Simsiz Protokollar: Əsasən simsiz rabitədə istifadə olunan simsiz protokollar simsiz şəbəkələr vasitəsilə məlumat ötürməyə imkan verir. Bluetooth, Wi-Fi və LTE protokolları buna misaldır.
- Təhlükəsizlik Protokolları: təhlükəsizlik protokolu məlumatların şəbəkə üzərindən ötürülməsi zamanı məlumatların məxfiliyini, bütövlüyünü və həqiqiliyini qoruyur.
- İnternet Protokolları:İnternet protokolu unikal ünvanlama sxemi ilə məlumat paketlərinin bir cihazdan digərinə yönləndirilməsi və yönləndirilməsi vasitəsilə məlumat rabitəsini təmin edir.

Ədəbiyyat

1. Xu, Hong Yun. "Analysis and Research of Financial Network Security Architecture." *Advanced Materials Research* 108-111 (May 2010): 168–71.
2. Cricelli, Livio, Francesca Di Pillo, Massimo Gastaldi, and Nathan Levialdi. "Pricing Analysis in International Interconnected Networks." In *Operations Research/Computer Science Interfaces Series*, 17–36. Boston, MA: Springer US, 2006

MİKROSTRUKTURLU MÜHİTLƏRDƏ YAYILAN DALĞALARIN PERİODUNUN ARTMASI HAQQINDA

Lətifov Fuad Seyfəddin oğlu, Əliyev Alı Bakir oğlu, Balayeva Səkinə Ağərzə qızı
Bakı Dövlət Universiteti
balayevasekine9@gmail.com

Fərz edək ki , bütöv mühitin həyəcanlanması zamanı onun hissəcikləri mikrodönməyə məruz qalır. Belə mühitlər üçün kəsilməzlik , qüvvə impulsları , implus momentləri və enerji tənlikləri ödənməlidir [1].

$$\frac{d\rho}{dt} + \rho\frac{d\vartheta_i}{\partial X_i} = 0 ,$$

$$\rho\frac{d\vartheta_i}{dt} = \frac{\partial P_{ij}}{\partial X_j} + f_i ,$$

$$\frac{d}{dt}(\varepsilon_{ijk}X_j\rho\vartheta_k + J\Omega) + (\varepsilon_{ijk}X_j\rho\vartheta_k + J\Omega)\frac{\partial\vartheta_l}{\partial X_l} = \frac{\partial}{\partial X_j}(\varepsilon_{ijk}X_kP_{ij} + \Pi_{ij}) + \varepsilon_{ijk}X_jf_k + h_i + M_i$$

$$\frac{d}{dt}(K+\rho U) + (K+\rho U)\frac{\partial\vartheta_l}{\partial X_l} = \frac{\partial(\vartheta_l P_{ij})}{\partial X_j} + \frac{\partial(\Omega_l\Pi_{ij})}{\partial X_j} + f_i\vartheta_i + h_i\,\Omega_i - \frac{\partial q_i}{\partial X_i} + \varepsilon$$

Burada t-zaman , X_i-dekart koordinatdır. ρ-mühitin sıxlığı , ϑ_i-makroskopik hərəkətin sürəti , P_{ij}-daxili qüvvələrin gərginlik tenzoru , f_i-xarici həcmi qüvvələr , J-mühit hissəciklərin ətalət momentinin sıxlığı olub , sabit qəbul edilir , Ω_i-hissəciklərin fırlanmasında tam bucaq sürəti , M_i-daxili qüvvələrin momenti , Π_{ij}-gərginliklərin səthi cütlərinin momentlərinin simmetrik tenzoru , h_i-xarici cüt qüvvələrin momenti , K-kinetik enerjinin sıxlığı , U-vahid kütləyə düşən daxili enerji , q-istilik seli , ε-vahid həcmdən ayrılan istilikdir.

$$\mathrm{K} = \frac{1}{2}(\rho\,\vartheta_i\vartheta_i + J\Omega_i\Omega_i)$$

$$\frac{d\vartheta_i}{dt} = \frac{\partial\vartheta_i}{dt} + \vartheta_j\frac{\partial\vartheta_i}{\partial x_j}$$

(1) sistemində dinamik sahənin səkkiz parametri naməlumdur:

$$\rho = \rho(t,x_j)\,,\quad U_i = U_i(t,x_j)\,,\quad \varphi_i = \varphi_i(t,x_j)\,,\quad \mathrm{T} = \mathrm{T}(t,x_j)$$

Burada U_i, φ_i – yerdəyişmə və dönmə vektorlarının komponentləri , $\vartheta_i = \frac{dU_i}{dt}$,

$\Omega_i = \frac{d\varphi_i}{dt}$, T -mühitin mütləq temperaturudur. Məsələnin tam həlli üçün P_{ij}, Π_{ij}, q_i, U kəmiyyətlərinin verilməsi zəruridir .

Əgər U_i, φ_i kəmiyyətlərinə görə xətti toplananlarının ifadələrində xətti və qeyri-xətti toplananların əmsalları müqayisə olunandırsa , onda qeyri-xətti hədləri atmaq olar.Bu halda mühitin sürətinin komponentləri və bucaq sürəti üçün $\vartheta_i = \frac{\partial U_i}{\partial t}, \Omega_i = \frac{\partial \varphi_i}{\partial t}$ yazmaq olar.

Tezlik və amplitud dəyişərkən hər hansı ilkin periodun ikiqat artımının bifurkasiya ardıcıllığı baş verə bilər.

Ədəbiyyat

1.Ерофеев В.U. Волновые процессы в твердых телах с микроструктурой.Uзгат . Московского Универ . ,1999 . , 328 с .

ELASTİKİ TƏBƏQƏ VƏ YARIM MÜSTƏVİDƏN İBARƏT SİSTEM ÜÇÜN LEMB MƏSƏLƏSİ

Mahmudzadə Təhminə Mahmudağa qızı
Bakı Dövlət Universiteti
tehminemahmudzade1996@gmail.com

İşdə müxtəlif materiallardan olan elastiki təbəqə və yarım müstəvidən ibarət sistemlərdə Lemb məsələsinin mürəkkəb bir növü nəzərdən keçirilir. Qeyri-bircins mühitin mövcudluğu analitik həllin alınması prosesini xeyli çətinləşdirir. Problem Lemb məsələsinin ilkin formasında olduğu kimi Laplas və Furye inteqral çevrilmələrindən istifadə etməklə həll edilir. Ancaq həqiqi dəyişənlərə qaytarmaq üçün xüsusi texnikadan istifadə olunur. Bu texnika elastiki cisimlərin qeyri-stasionar dinamikasının digər məsələlərinin həllində uğurla istifadə edilmişdir[1]. Burada [2] və digər işlərdə olduğu kimi yerdəyişmə vektorunu

$$\vec{U} = grad\Phi + rot\left(\vec{\Psi} e_3\right) \tag{1}$$

şəklində axtarırıq. Burada $\Phi, \vec{\Psi} e_3$ – uyğun potensiallardır.

Hər bir mühit üçün potensialların ifadəsini aşağıdakı kimi seçə bilərik:

$$\begin{aligned} \Phi^{*(1)} &= A_1 e^{y\upsilon_1^{(1)}} + D_1 e^{-y\upsilon_1^{(1)}} \\ \Psi^{*(1)} &= B_1 e^{y\upsilon_2^{(1)}} + E_1 e^{-y\upsilon_2^{(1)}} \\ \Phi^{*(2)} &= A_2 e^{y\upsilon_1^{(2)}} \\ \Psi^{*(2)} &= B_2 e^{y\upsilon_2^{(2)}} \end{aligned} \quad , \tag{2}$$

burada $\upsilon_i^{(j)} = \dfrac{\sqrt{p^2 + c_i^{(j)} q^2}}{c_i^{(j)^2}}$ .Uyğun olaraq, məsələnin sərhəd şərtlərini yazaq:

$$\begin{array}{lll} u_1 = u_2 & ; \quad \sigma_{yy}^{(1)} = \sigma_{yy}^{(2)} & ; \; y = -b \\ v_1 = v_2 & ; \quad \sigma_{xy}^{(1)} = \sigma_{xy}^{(2)} & , \\ \sigma_{yy}^{(1)} = -I & ; \quad \sigma_{xy}^{(1)} = 0 & ; \; y = 0 \end{array} \tag{3}$$

burada $I-$impulsiv qüvvədir.

Bütün bunları nəzərə alaraq prosesin ilkin mərhələ olaraq impulsiv qüvvənin təsir anında dalğa dinamikası üçün analitik həllər aşkar şəkildə əldə edilmişdir.

Ədəbiyyat

1. Rassoulova N.B. On dynamic of bar of rectangular cross section // Trans. of ASME, J. of Appl. Mech. (2001), V.68. pp. 662-666
2. Поручиков В. Б. Методы динамической теории упругости. M., 1985, 321 c.

SÜNİ İNTELLEKT ELEMENTLƏRİNİN VERİLƏNLƏRİN EMALI

Mədətov Kənan Eldəniz oğlu
Qərbi Kaspi Universiteti
kenanmedetov1@gmail.com

Böyük Məlumatlar üçün Süni İntellekt, tez-tez Big Datada AI və ya Data Analytics üçün AI kimi istinad edilir, iki qabaqcıl texnologiyanın birləşməsidir: Süni İntellekt və Böyük Məlumat. Bu, böyük və mürəkkəb məlumat dəstlərindən təsirli fikirləri təhlil etmək, şərh etmək və əldə etmək üçün süni intellektlə idarə olunan alqoritmlərdən və maşın öyrənmə üsullarından istifadə etməyi əhatə edir. Big Data-da AI-nin əsas məqsədi məlumatların təhlili prosesini avtomatlaşdırmaq və təkmilləşdirmək, onu daha sürətli, daha dəqiq və miqyaslana bilən etməkdir.

Big Data və AI sadəcə bir-birini tamamlayan deyil; bir-birindən asılıdırlar. Big Data, süni intellektin sehrini işləməsi üçün xammal, geniş məlumat dəstləri təmin edir. İkisi arasındakı sinerji aşağıdakı addımlarla təsvir edilə bilər:

1. Məlumatların toplanması: Böyük verilənlər müxtəlif mənbələrdən, o cümlədən sensorlar, sosial media, müştərilərlə qarşılıqlı əlaqə və s. çoxlu strukturlaşdırılmış və strukturlaşdırılmamış məlumatların toplusunu əhatə edir.
2. Məlumatların saxlanması və emalı: Hadoop və Spark kimi Big Data texnologiyaları kütləvi məlumat toplularının saxlanmasını və işlənməsini asanlaşdırır.
3. Məlumatların əvvəlcədən işlənməsi: AI məlumatları təhlil etməzdən əvvəl, tez-tez əvvəlcədən emal tələb edir. Bu addım məlumatların maşın öyrənmə modelləri üçün uyğun olması üçün onların təmizlənməsini, dəyişdirilməsini və strukturlaşdırılmasını əhatə edir.

4. Süni intellektin modelləşdirilməsi: Bu alqoritmlərə proqnozlaşdırma üçün nəzarət edilən öyrənmə, nümunənin tanınması üçün nəzarətsiz öyrənmə və qərar qəbul etmək üçün gücləndirici öyrənmə daxil ola bilər.
5. Təlim və Nəticə: Süni intellekt modelləri nümunələri və münasibətləri öyrənmək üçün tarixi məlumatlar əsasında hazırlanır. Təlim keçdikdən sonra onlar real vaxt rejimində yeni, daxil olan məlumatlar əsasında proqnozlar və ya qərarlar verə bilərlər.
6. Insight Generation: Bu prosesin son nəticəsi hərəkətə keçə bilən fikirlərdir. Süni intellekt alqoritmləri məhsul və xidmətlərin təkmilləşdirilməsindən tutmuş biznes əməliyyatlarının optimallaşdırılmasına qədər müxtəlif məqsədlər üçün istifadə oluna bilən Big Datadan gizli nümunələri, anomaliyaları, tendensiyaları və proqnozları aşkar edir.

Ədəbiyyat

1. Xu, Bo. "Artificial Intelligence Teaching System and Data Processing Method Based on Big Data." *Complexity* 2021 (May 5, 2021): 1–11
2. Jiang, Xingnan, Yueying Wang, and Bowen Deng. "Application of artificial intelligence in data processing." *IOP Conference Series: Materials Science and Engineering* 914

MƏXSUSİ İDARƏEDİCİNİN MATRİS İMPULSLARI VASİTƏSİLƏ TƏDQİQİ

Mərdanov Misir Cumayıl oğlu, Mirzəlizadə Elmir Tariverdi oğlu

Bakı Dövlət Universiteti

elmirmirzli@gmail.com

Fərz edək ki, idarə olunan obyekt aşağıdakı tənliklə təsvir olunur:

$$\dot{x} = f(x,u,t),\ x(t_0) = x_{0,}\ t \in T = [t_0, t_1], \tag{1}$$

burada $x = (x_1, x_2,...x_n)'$ obyektin vəziyyətini xarakterizə edən n ölçülüvektor, t-zaman, $u(t) = (u_1(t), u_2(t),...u_r(t))'$ - r ölçülü idarəedici funksiya olub, qiymətləri U çoxluğunadaxil olan və $[t_0, t_1]$ parçasında hissə-hissə kəsilməz funksiyadır:

$$u(t) \in U \subset E_r,\ t \in T. \tag{2}$$

Məsələnin qoyuluşu: T parçasında hissə-hissə kəsilməz, (2) şərtlərini ödəyən $u = u(t)$ funksiyaları içərisindən eləsini tapaq ki, o (1) məsələsinin həlli ilə birlikdə

$$J(u) = \varphi(x(t_1)), \tag{3}$$

funksiolanına ən kicik qiymət versin. Burada E_r-r ölçülü Evklid fəzası, T- verilmiş həqiqi ədəd, $\varphi(x)$- ckalyar, $f(x,u,t)$-isə n ölçülüvektor funksiyadır. Eyni zamanda fərz olunur ki, hər bir hissə-hissə kəsilməz və (2) şərtlərini ödəyən (belə $u = u(t)$ funksiyasına gələcəkdə mümkün idarəedici deyəcəyik) $u = u(t)$, $t \in T$ funksiyasına (1) məsələsinin T parçasında təyin olunmuş yeganə, hissə hissə diferensiallanan uyğun $x = x(t)$ həlli vardır.

Optimal idarəetmə nəzəriyyəsindən məlumdur ki, əgər $u = u(t)$ optimal idarəedici və $x = x(t)$ (1) məsələsinin ona uyğun olan həllidirsə, elə n ölçülü hissə-hissə diferensiallanan $\psi = \psi(t)$ vektor funksiyası vardır ki, aşağıdakı şərtlər ödənilir:

$$\max_{v \in U} H(x(t), \psi(t), v, t) = H(x(t), \psi(t), u(t), t) \ , \tag{4}$$

$$\dot{\psi}(t) = -\frac{\partial H}{\partial x}(x(t)\psi(t), u(t), t), \qquad \psi(t_1) = -\frac{\partial \varphi}{\partial x}(x(t_1)) \ . \tag{5}$$

(5) məsələsinə qoşma məsələ, (4) şərtinə isə maksimum şərti, bütövlükdə bu hökmə isə Pontryaginin maksimum prinsipi deyilir.

Onu da qeyd etmək lazımdır ki, maksimum prinsipi optimallıq üçün zəruri şərtdir. Başqa sözlə əgər $u = u(t)$ optimal idarəedicidirsə, o maksimum şərtini ödəyir, ancaq həmin şərti ödəyən hər bir idarəedici optimal olmaya da bilər.

Təbiətdə elə məsələlərə də rast gəlinir ki, həmin məsələlər üçün (4) maksimum şərti eynilik kimi ödənilir və ondan optimal idarəedicinin tapılması üçün istifadə etmək olmur. Belə hallara məxsusi hal, ona uyğun olan idarəediciyə isə məxsusi idarəedici deyilir.

Təqdim olunan işdə məxsusi idarəedicinin optimallığı üçün matris impulsunun köməyi ilə ikinci tərtib zəruri şərt isbat olunur.

Teorem. Tutaq ki, $f(x,u,t)$, $\varphi(x)$, $\frac{\partial f}{\partial x}, \frac{\partial^2 f}{\partial x^2}, \frac{\partial \varphi}{\partial x}, \frac{\partial^2 \varphi}{\partial x^2}$ funksiyalar kəsilməzdir və $u = u(t)$ idarəedici funksiyası $t \in \omega \subset T$ hissəsində məxsusi idarəedicidir. Onda $\psi = \psi(t)$ vektor funksiyası və $\Psi = \Psi(t)$ matris funksiyası vardır ki, aşağıdakı şərtlər ödənilir:

1. $T \setminus \omega$ çoxluğunda (4) maksimum şərti;
2.

$$\begin{aligned}
&\Delta_v f'(x(t), u(t), t)\psi(t)\Delta_v f(x(t), u(t), t) + \\
&+ \psi'(t)\frac{\partial \Delta_v f(x(t), u(t), t)}{\partial x}\Delta_v f(x(t), u(t), t) \le 0, \ \ \forall v \in \Phi(t), t \in \omega;
\end{aligned} \tag{6}$$

3. $\psi = \psi(t)$ vektor funksiyası (5) tənliyinin həllidir;
4. $n \times n$ ölçülü $\Psi = \Psi(t)$ matris funksiyası isə

$$\begin{aligned}
&\dot{\Psi}(t) = -\frac{\partial f'}{\partial x}(x(t), u(t), t)\Psi(t) - \Psi(t)\frac{\partial f(x(t), u(t), t)}{\partial x} - \\
&- \Psi'(t)\frac{\partial^2 f(x(t), u(t), t)}{\partial x^2}; \quad \Psi(t_1) = -\frac{\partial^2 \varphi}{\partial x^2}\left(x(t_1)\right)
\end{aligned}$$

məsələnin həllidir.

Burada $\Delta_v f(x,u,t) \equiv f(x,v,t) - f(x,u,t)$ işarə olunmuşdur.

Ədəbiyyat

1. Р.Габасов, Ф.М.Кириллова, “Особые оптимальные управления”, Изд. "Наука", 1973г. – 256 стр.

İQTİSADİ ARTIMIN DOMAR MODELİNİN AZƏRBAYCAN İQTİSADİYYATI TİMSALINDA REALİZASİYASI

Möhsümov İbrahim Şakir oğlu
Bakı Dövlət Universiteti
mohsumovibrahim9999@gmail.com

DOMAR MODELİ. Domar modeli iqtisadi artımın sadə keyns modeli hesab edilir. Model aşağıdakı şəkildədir:

$$\frac{\Delta Y_t^S}{Y_{t-1}^S} = \sigma * S_y \qquad (1)$$

burada; $\frac{\Delta Y_t^S}{Y_{t-1}^S}$ — t dövründə iqtisadi artımın sürəti; σ — kapitalın son hədd məhsuldarlığı; S_y — yığıma son hədd meylliyidir.

Modelin dəyişənləri – kapitalın son hədd məhsuldarlığı və qənaətə son hədd meylliyi uyğun olaraq aşağıdakı tənliklər əsasında müəyyən olunur:

$$\Delta Y_t = a + \sigma I_t \qquad (2)$$

$$S_t = b + s_y Y_t \qquad (3)$$

burada; ΔY_t — t dövründə buraxılışın artımı; I_t — t dövründə əsas kapitala qoyulan investisiyalar və ya əsas fondların artımı;S_t — t dövründə yığımın həcmi; Y_t — t dövründə buraxılışın həcmi; a, b — sabitlərdir.(bax.[1])

Azərbaycan iqtisadiyyatı üçün Domar modelinin qiymətləndirilməsini nominal göstəricilər əsasında aparaq:

2017-2021-ci il Dövlət Statistika komitəsinin (bax.[2]) nominal göstəriciləri əsasında (2) və (3) tənliklərinin qiymətləndirilməsi nəticəsində alınan ekonometrik modellər aşağıdakı kimi olmuşdur:

2017-2021-ci illər üzrə nominal göstəricilər əsasında qənaətə son hədd meylliyinin hesablanması

1.1. Ümummilli qənaət əsasında

$$\boldsymbol{S = 20212,92 + 0,433812 * Y(4)}$$

$t \qquad (1,330337) \qquad (2,282695)$

$\boldsymbol{R} = 0,796632;\ R^2 = 0,634623;\ R^{*2} = 0,512831; D - W = 1,207165$

2017-2021-ci illər üzrə nominal göstəricilər əsasında kapitalın son hədd məhsuldarlığının hesablanması:

1.2. Balans dəyəri ilə iqtiadiyyatda əsas fondlar əsasında

$$\boldsymbol{\Delta Y_T = 15224,52 + 0,591927 * \Delta K_T(5)}$$

$T \qquad (0,942595) \qquad (-0,658005)$

$\boldsymbol{R} = 0,421851;\ R^2 = 0,177959;\ R^{*2} = -0,233061; D - W = 2,738038$

1.3. Əsas fondlara yönəldilmiş investisiyalar əsasında

$$\boldsymbol{\Delta Y_T = -161999,9 + 6,796167 * I_T(6)}$$

$T \qquad (-1,917617) \qquad (1,987010)$

$\boldsymbol{R} = 0{,}814717;\ R^2 = 0{,}663764;\ R^{*2} = 0{,}495646; D - W = 0{,}922554$

1.4. Bütün mənbələr üzrə ümumi investitsiyalar əsasında

$$\Delta \boldsymbol{Y_m} = \boldsymbol{-43819{,}84 + 3{,}298375 * I_m(7)}$$

$$t \qquad (-0{,}627515) \qquad (0{,}711565)$$

$\boldsymbol{R} = 0{,}449465;\ R^2 = 0{,}202019;\ R^{*2} = -0{,}196972; D - W = 2{,}017785$

1.5. Əsas fondların ümumi yığımı əsasında

$$\Delta \boldsymbol{Y_T} = \boldsymbol{167227{,}1 + 9{,}833875 * I_T(8)}$$

$$t \qquad (1{,}143844) \qquad (-1{,}106278)$$

$\boldsymbol{R} = 0{,}616136;\ R^2 = 0{,}379624, R^{*2} = 0{,}069436; D - W = 2{,}584072$

Ekonometrik modellərin parametrlərinin qiymətlərinin altında mötərizə içərisində yazılmış ədədlər uyğun parametrin t-statistikası, R-korelyasiya əmsalı, R^2-determinasiya əmsalı, R^{*2}-dəqiqləşdirilmiş determinasiya əmsalı, D-W-Darbin-Vatson statistikasıdır. Belə ki, (5)-da 2017-2021-ci illərdə nominal Ümumi Daxili Məhsulun artımının (□$\boldsymbol{Y_t}$) dəyişməsinin yalnız 17,7%-i həmin illərdəki əsas fondların balans dəyərinin dəyişməsi (□$\boldsymbol{K_t}$) hesabına, yerdə qalan 82,3% isə tamamilə nəzərə alınmayan faktorlar hesabına baş vermişdir. Eyni fikri (6)-(8) modelləri haqqında da söyləmək olar. (6)-da 2017-2021-ci illərdə nominal Ümumi Daxili Məhsulun artımının (□$\boldsymbol{Y_t}$) dəyişməsinin yalnız 66,3%-i həmin illərdəki əsas fondlara yönəldilmiş investisiyaların dəyişməsi (□$\boldsymbol{I_t}$) hesabına, yerdə qalan 33,7% isə tamamilə nəzərə alınmayan faktorlar hesabına baş vermişdir. (7)-da 2017-2021-ci illərdə nominal Ümumi Daxili Məhsulun artımının (□$\boldsymbol{Y_m}$) dəyişməsinin yalnız 20,2%-i həmin illərdəki bütün mənbələr üzrə ümumi investitsiyaların dəyişməsi (□$\boldsymbol{I_m}$) hesabına, yerdə qalan 79,8% isə tamamilə nəzərə alınmayan faktorlar hesabına baş vermişdir. (8)-da 2017-2021-ci illərdə nominal Ümumi Daxili Məhsulun artımının (□$\boldsymbol{Y_t}$) dəyişməsinin yalnız 37,9%-i həmin illərdəki əsas fondların ümumi yığımının dəyişməsi (□$\boldsymbol{I_t}$) hesabına, yerdə qalan 62,1% isə tamamilə nəzərə alınmayan faktorlar hesabına baş vermişdir.

Ədəbiyyat

1. Milli iqtisadiyyatın problemləri (I buraxılış), Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Bakı – 2005.
2. Azərbaycanin milli hesablari - Statistik məcmuə - Bakı – 2022, 128s

RİYAZİ MODELLƏŞDİRMƏ ÜMUMİ İNTELLEKTUAL BACARIQLARIN MÜHÜM NÖVÜ KİMİ

Namazov Faiq Mirzəli oğlu, Tahirova Gülnarə Mahir qızı,

Məmmədova Aysel Habil qızı

Bakı Dövlət Universiteti

neikoos@yahoo.com

Şagirdlərin öyrənmək fəaliyyətini sürətləndirmək ən mühüm didaktik prinsip-lərdən biridir. İnkişafetdirici təlim şəraitində onun rolu xeyli artmışdır. Modelləş-dirmə elmi idrakın ən mühüm metodu olmaqla, şagirdlərin ətraf aləmi dərketmə fəaliyyətində çox güclu vasitədir.

Orta məktəbdə modelləşdirilmənin öyrənilməsi probleminin tədqiqi ilə V.A.Ştoff, L.M.Fridman, V.V.Davıdov, N.Q.Koçetkova, T.A.İvanova və başqaları məşğul olmuşlar. Bu tədqiqatlarda modelləşdirmədən riyaziyyat təliminin təkmilləşdirilməsiprosüsində istifadənin mümkünlüyü müəyyən edilmişdir. Son vaxtlar modelləşdirmə şagirdlərin yaradıcı dərketmə fəaliyyətini aktivləşdirmək və onların intellektual bacarıqlarını inkişaf etdirmək vasitəsi olduğunu göstərmək istiqamətində tədqiq olunur [1,2].

Qeyd etmək lazımdır ki, modelləşdirmə insan fəaliyyətinin müxtəlif sahələrində geniş tətbiq olunur. Ona görə də orta məktəb, şagirdlərdə modelləşdirmə bacarığını adekvat şəkildə formalaşdırmağa hazır olmalıdır. Modellər şagirdlərin məntiqi təfəkkürünü formalaşdırır, tədris materialını mənimsəməyə kömək edir.

Modelləşdirmə prosesi çoxsaylı fikri əməliyyatı icra etməyi tələb edir (analiz, müqayisə, mühüm əlamətlərin seçilməsini və s.).

Modellərin müxtəlif təsnifatı vardır. Modelləri formasına görə aşağıdakı növlərə ayırmaq olar:

- fiziki model;
- söz modeli (verbal model);
- qrafik model;
- işarələrlə qurulan model (obyekt işarələrlə təsvir olunur).

İşarələrlə qurulan modellərin bir növü riyazi modeldir.

Riyazi model (və ya riyazi təsvir) öyrənilən obyekti və ya hadisəni təsvir edən riyazi münasibətlər sistemidir. Riyazi modelin qurulması prosesini aşağıdakı mərhələlərə bölmək olar:

1) tədqiq olunan obyekt və hadisənin söz modelinin qurulması (problemin məzmunlu qoyuluşu);
2) problemin riyazi qoyuluşu;
3) modelin korrekt olduğunun yoxlanılması;
4) problemin qurulmuş riyazi modeli daxilində həlli metodunun seçilməsi və onun əsaslandırılması;
5) həll alqoritminin qurulması və icrası;
6) alınan nəticələrin adekvatlığının yoxlanılması;
7) modelin praktik tətbiqi.

Riyaziyyatda modelləşdirilən obyekt kimi düsturlar, cəbri tənliklər, diferensial tənliklər, həndəsi fiqurlar, qrafiklər, qraflar və s. göstərilə bilər.

Riyazi modelləşdirmənin aşağıdakı didaktik funksiyalarını göstərmək olar:

1) tədqiq olunan obyektin öyrəniləcək obrazını formalaşdırmaq funksiyası. Bu funksiya öyrənilən obyektin ən qısa və ən əlverişli üsulla mənimsənilməsinə xidmət edir.
2) şagirdin fəaliyyətinə istiqamət vermə funksiyası. Riyazi modelləşdirmə, istiqamətvermə, nəzarətetmə və ünsiyyət fəaliyyətlərini asanlaşdırır. İstiqamət-etmə fəaliyyətinə misal

olaraq verilən tələbləri ödəyən qrafikin qurulmasını, ona əlavə edilməsini göstərmək olar. Nəzarətetmə fəaliyyətinə misal olaraq qurulmuş qrafikdə onu dərslikdə verilmiş qrafiklə müqayisə etməklə tapılan səhvələrin aşkar edilməsini, aparılan çevirmələrdə səhvlərin aşkar edilməsini və s. göstərmək olar.

3) idarəetmə funksiyası. Məlumdur ki, eyni bir obyekti müxtəlif modellərlə təsvir etmək olar. Məsələn, çevrəni mərkəzi və radiusu ilə, koordinat oxlarına görə yazılmış tənliklə, certyoju və ya şəkli ilə ifadə etmək olar.
4) evristika funksiyası; Riyazi model obyekti dərindən öyrənmək imkanı yaradır.
5) diqqətin məqsədəuyğun idarəolunması funksiyası materialın yadda saxlanması və təkrarlanması zamanı diqqətin idarə olunmasına xidmət edir.

Riyazi modelləşdirmənin bir neçə funksiyasından istifadə etmək şagirdin tədris fəaliyyətinin daha məhsuldar olmasını təmin edə bilər [9]. Konkret məsələnin həlli zamanı riyazi modelləşdirmə prosesinin mərhələləri ilə tanış olaq:

Məsələ. Pəncərənin çərçivəsi yuxarı hissəsi yarım dairə şəklində olan düzbucaqlı formasındadır. Perimetri sabit olan pəncərə hansı ölçülərə malik olduqda ən çox işıq buraxar?

Həlli. I mərhələ. Məsələnin söz modeli yazılmışdır.

II mərhələ. Məsələnin riyazi modelini quraq. Şərtə görə sahəsi ən böyük olan pəncərənin ölcülərini tapmaq tələb olunur. Yarım çevrənin radiusunu r-lə, h-la pəncərənin hündürlüyünü işarə etsək, onda düzbucaqlının oturacağı $2r$ olar. Onda pəncərənin $p = 2r + 2h + \pi r$ olar. Pəncərənin sahəsini S ilə işarə edək. $S = \frac{\pi r^2}{2} + 2hr$ ifadəsini r ilə ifadə etmək daha əlverişlidir:

$$h = \frac{P - (\pi + 2)r}{2}, \quad S = \frac{\pi r^2}{2} + r(P - (\pi + 2)r);$$



$S = \frac{\pi r^2}{2} + \mathrm{Pr} - (\pi + 2)r^2$ qoyulmuş məsələnin riyazi modelidir; $0 < r < \frac{P}{\pi + 2}$.

III mərhələ. Problemin qurulmuş model üçün həlli.

$S = \frac{\pi r^2}{2} + Pr - (\pi + 2)r^2$ funksiyası r- ə nəzərən kvadrat funksiyadır. Bu funksiya özünün ən böyük qiymətini yeganə böhran nöqtəsində alır. Bu nöqtəni tapaq:

$$S'(r) = \pi r + P - 2(\pi + 2)r = 0.$$

Sonuncu münasibətdən $r = \frac{P}{\pi + 4}$ və $h = \frac{P}{\pi + 4}$ taparıq.

IV mərhələ. Alınan nəticəni qoyulmuş məsələnin dilinə köçürək: $r = h$ olduqda pəncərənin sahəsi verilmiş perimetr üçün ən böyük olar.

Qeyd edək ki, məktəb riyaziyyat kursunda riyazi modelləşdirmə prosesinin üç əsas mərhələsi vacib hesab olunur: 1) qoyulmuş məsələni riyazi dilə çevirmək; 2) qu-rulmuş riyazi model daxilində qoyulmuş məsələnin həlli; 3) Alşnan nəticənin qoyul-muş məsələnin dilinə çevirmək.

Şagirdlər bu mərhələlərin hər birinin əhəmiyyətini və mahiyyətini anlamalıdır. Müəllim çalışmalıdır ki, şagirdlər riyazi modelləşdirməni mücərrəd elm sahəsi kimi yoz, ümumi intellektual bacarıqlardan biri kimi mənimsəsinlər.

Ədəbiyyat

1. Фридман Л.М. Логико-психологический анализ школьных учебных задач. М.: Педагогика, 1977, 289 с.
2. Давыдов В.В. Теория развивающего обучения. М.: ИНТОР, 1996, 544 с.

FIRLANMA SƏTHLƏRİNİN ƏYRİLİKLƏRİ HAQQINDA

Nurməmmədli Aytən Elşən qızı
Bakı Dövlət Universiteti
aytennurmemmedli5@gmail.com

Hər hansı bir müstəvi əyrisinin, onun müstəvisində yerləşən bir düz xətt ətrafında fırlanması ilə əldə edilən səthə fırlanma səthi deyilir.

Tutaq ki, fırlanma səthinin parametrik tənliyi verilib:

$$x = \eta(t)\cos\varphi \qquad y = \eta(t)\sin\varphi \qquad z = \xi(t)$$

I kvadratik forma aşağıdakı kimidir:

$$I = \left(\eta'^2 + \xi'^2\right)dt^2 + \eta^2 d\varphi^2$$

II kvadratik forma isə bu bu şəkildədir.

$$II = \frac{1}{\sqrt{\xi'^2 + \eta'^2}}\left(\eta'\xi'' + \eta''\xi'\right)dt^2 + \eta\xi' d\varphi^2$$

I və II kvadratik formanın köməyilə Qaus və Orta əyriliklərinin ümumi düsturları tapılmışdır.

$$K = \frac{\xi'^2\eta'' + \eta'\xi'\xi''}{\left(\eta'^2 + \xi'^2\right)^2\eta}$$

$$H = \frac{1}{2}\frac{\eta\eta'\xi'' - \eta\eta''\xi' + \eta'^2\xi' + \xi'^3}{\left(\eta'^2 + \xi'^2\right)^{3/2}\cdot\eta}.$$

Ədəbiyyat

1. Səlimov A. Diferensial həndəsə, Ali məktəblər üçün dərs kitabı, BDU Nəşriyyatı, Bakı, 278 s., 2022, ISBN: 978-9952-546-54-5
2. Kreyszig E., Differential Geometry, Dover Publications, Ine, Newyork, 1991.

BÖYÜK ELASTİK-PLASTİK DEFORMASİYALAR VƏ BƏZİ TƏTBİQİ MƏSƏLƏLƏR

Pirməmmədov İlham Teymur oğlu , Camirzəyev Samral Zahid oğlu
Bakı Dövlət Universiteti
pirmamedov@yahoo.com, *samral.camirzeyev@gmail.com*

Elastiki və plastiki materiallar və deformasiya olunan mühitlər üçün sonsuz kiçik, kiçik və sonlu deformasiyalar üçün kinematika və dinamikanın ümumi məsələlərinin həllinə çoxlu sayda məqalələr həsr edilmişdir. Bu işdə təyinedici fiziki qanunlar nəzəriyyəsinin bir sıra ümumi müddəaları təqdim edilir, daha sonra böyük plastik deformasiyalar halında materialların elastoplastik davranışları təsvir etmək üçün həmin fiziki qanunlar konkretləşdirilir. Təyinedici münasibətlərin ümumi qanunları real materialların deformasiya prosessini riyazi ümumi təyinedici nəzəriyyə aparılmış mümkün ekspermentlərin nəticələrinə uyğun gəlməlidir[1]. Əks təqdirdə səhvlərin yaranması, prossesin fiziki mahiyyətinə zidd olan təyinedici münasibətlərə yol açar.

Təyinedici münasibətlər nəzəriyyəsinin tətbiq olunan müddəalarını K.Trusdell[3], A.A.İlyuşin[2], A.İ.Lurye, C.Astarid və C.Maruçin öz monoqrafiyalarında aşağıdakı aksiomlar kimi şərh edirlər:

1. Münasibətlərin tenzorlarla olması prinspi.

Bu şərt yalnız təyinedici münasibətlərə deyil, həm də mexanikanın digər əsas tənliklərinə aiddir. Təyinedici münasibətlər müşahidəçinin kordinat sistemini dəyişməsinə nəzərən invariant olmalıdır. Buütün tenzorlar münasibətdə toplananlar olaraq eyni valentliyə və eyni fiziki ölçülərə malik olmalıdırlar. Yazılışın tenzor formasında olması öyrənilənən hadisəyə məxsus, vacib olanları göstərir, konkret kordinat sistemin seçilməsi ilə bu münasibətlərə daxil olmuş kəmiyyətləri kənarlaşdırılır.

2. Determinizm prinspi.

Aktual konfiqurasiya olan K_t də maddi hissəciyin gərginlik vəziyyəti t zaman anına uyğun olmaqla hesablama konfiqurasiyasında $\overrightarrow{R_0}(\xi^1,\xi^2,\xi^3)$radius vektorlarına malik olur, həmin gərginlik vəziyyəti hərəkətin əvvəlki halı və cisimdə qeyri-mexaniki parametrlərin dəyişməsi t zaman anına qədər olan müddətdə birqiymətli təyin edir. (Qeyri-mexaniki parametrlər olaraq əksər halda tempratur götürülür.) Gərginlik tenzoru $\sigma(\vec{r}(\xi^1,\xi^2,\xi^3;t)$ cismin əvvəlki deformasiya müddətində tempratur dəyişməsinin, hissəciyin maddi kordinatlarının və zaman funksionalı olar. Onun riyazi yazılışı

$$\sigma(\vec{r}(\overrightarrow{R_0};t)=\vec{F}(\chi_t;\theta_t;\xi^1,\xi^2,\xi^3,t)$$

Burada γ_t mexaniki hərəkətin əvvəlki dövrünü göstərir.

Bircins mühitlər üçün təyinedici münasibətlər cismin bütün maddi hissəcikləri üçün eyni olur, hissəciklərin kordinatları (ξ^1, ξ^2, ξ^3) isə təyinedici münasibətlərə daxil olmur. Bəzən sadələşdirmək üçün proses və situasiyada tempratur meydanı əvvəlki xarakteristikası yox baxılan maddi hissəciyin verilmiş anda tempraturunun qiyməti daxil edilir.

3. Lokal təsir prinspi.

Baxılan hissəciyin zamanın ixtiyari anında gərginlik həmin hissəciyin müəyyən kiçik ətrafının deformasiyasının əvvəlki dövründən birqiymətli təyin edilir. Determinizm prinspində istəlinən hissəciyin ixtiyari gərginliyin qiyməti kifayət qədər minimum hesab edilir. Amma lokal təsir prinspində isə bu imkan maddi hissəciklərin qarşılıqlı təsirlərinin bilavasitə kontaktında baş verməsi səbəbinə görə mümkün hesab edilmir. Lokal təsir prinspi qarşılıqlı təsirlərin bircins olması şərtini nəzərə almır. Əksinə gərginliyin deformasiyanın tarixindən asılılığı fərqli maddi hissəciklər üçün müxtəlif ola bilər.

Lokal təsir prinspinin vacib xüsusi halını götürək:

Baxılan hissəciyin yaxın ətrafının deformasiya keçmişi (tarixi) deformasiya qradienti ilə təyin olunur.

Bu o deməkdir ki, aşağıdakı döğrudur:

$$\sigma(\vec{r}(\overrightarrow{R_0};t)) = \vec{F}(\overset{0}{\nabla}\vec{r}(\overrightarrow{R_0};\tau),\ \theta(r,t),t),\ -\infty < \tau \le t \qquad (1)$$

Bu fərziyyə məsələnin ümumiliyini məhdudlaşdırır. Beləki prinspdə deformasiyanın yüksək tərtibli qradientləridə nəzərə alına bilər.

Təyinedici münasibətlərdə deformasiya qradienti materialın yüksək tərtibli dərəcəsini təyin edir. Birinci dərəcəli material sadə materiallardır. A.İ.Luryev və K.Trusdell qeyd edirlər ki, sadə materiallar nəzəriyyəsi tətbiqi əhəmiyyəti olan bütöv mühit mexanikasının nəzəriyyələrini əhatə edir. Beləki, sadə materiallar olaraq yalnız klassik materiallar: Elastiki cisim, elastiki-plastiki cisim , özülü maye və həmdə digər çox cisimlər daxildir. “Sadə olmayan materiallar isə ikinci dərəcəli material olaraq moment gərginliklərin polyar materiallar”. Bu materialların nəzərə alınması vacib hesab edilir.

Bu işdə materialları sadə materiallar olaraq qəbul edəcəyik.

4. Maddi indifferentlik (obyektivlik) prinspi.

Təyinedici münasibətlərin əsas xassələrindən biri bu münasibətlər müşahidəçinin hesablama sistemini, hətta, bu sistem zamandan asılı olmasa belə, dəyişdikdə dəyişməz qalmalıdırlar. Materialların xüsusiyyətinin obyektlivliyi fəzanın izotropluğunu və bircinsliyini nəzərdə tutur: Müşahidəçinin hesablama sistemini dəyişməsi matirealın fiziki xassəsinə təsir etmir. Fəzanın izotropluğu şərti materialın izotropluğu ilə əlaqəli deyil, beləki anizatrop materiallar üçündə bu prinsip doğru ola bilər.

5. Sönən yaddaş prinspi.

Bu prinsipə görə öncəki dövrdəki deformasiyaların cari gərginlik vəziyyətinə təsiri bunları ayıran zaman müddəti böyük olduqca zəifləyir. Bu prinsp təklif olunan nəzəriyyənin ekstirimal yoxlanılmasına imkan verər. Doğurdanda, deformasiyanın bütün tarixi heç vaxt bəlli olmur. Sönən yaddaş prinspi isə sonlu müddətli ekspremenlərin aparılmasına imkan yaradır. Bu müddətin sonunda istəlinən deformasiyanın ekspriment başlayan ana qədər olan qiyməti eksprimentin sonuna uyğun olan gərginliyə təsiri nəzərə alınmayacaq dərəcədə kiçik olur. Bu prinspə əsasən "təbii zaman" anlayışı istəlinən verilmiş material üçün daxil edilə bilər. Bu zaman müddətindən kənarda deformasiya gərginlik vəziyyətinə təsir etmir. Bu zaman müddətindəki gərginlik vəziyyətinə ondan sonrakı müddətdəki deformasiya təsir etmir.

Elastiki cisimlər və özülü mayelər üçün "təbii zaman" sıfıra bərabərdir.

Ədəbiyyat

1. Амензаде Ю.А. Теория упругости- Изд. М., «Высшая школа», -1976, -272 с.
2. Ильющин А.А. Пластичность. Основы общей математической теории. М: Изд-во АН СССР, 1963, 272 с.
3. Трусделл К. Первоначальный курс рациональной механики сплошных сред. М.: Мир, 1975, 592 с.

DÜZBUCAQLI MEMBRANIN RƏQSİNİN ARAŞDIRILMASI

Qarayeva Afaq

Sumqayıt Dövlət Universiteti

garayevaafaq@gmail.com

Membran çevik sonsuz nazik lövhədir. Burada qəbul edirik ki, onun qalınlığı sabitdir və bircins materialdan hazırlanmışdır. Əgər bu şərtlər daxilində membranın Oxy müstəvisi ilə üst-üstə düşdüyünü qəbul etsək onun hərəkət tənliyini

$$\frac{\partial^2 u(x,y,t)}{\partial t^2} = a^2\left[\frac{\partial^2 u(x,y,t)}{\partial x^2} + \frac{\partial^2 u(x,y,t)}{\partial y^2}\right] + f(x,y,t) \tag{1}$$

şəklində təyin edə bilərik. Burada $u(x,y,t)$-yerdəyişmə, $a^2 = \frac{\bar{l}_0}{\rho}$ dalğanın yayılma sürətidir. $f(x,y,t)$-xarici təsir qüvvəsidir və məlum hesab olunur.

(1) tənliyi membranın məcburi rəqs tənliyidir. Əgər $f(x,y,t)=0$ olsa, onda (1) tənliyi

$$\frac{\partial^2 u(x,y,t)}{\partial t^2} = a^2\left[\frac{\partial^2 u(x,y,t)}{\partial x^2} + \frac{\partial^2 u(x,y,t)}{\partial y^2}\right] \tag{2}$$

olar. Biz membranın sərbəst rəqs tənliyinin həllini araşdıracağıq. Fərz edək ki, membran düzbucaqlı şəklindədir və aşağıdakı sərhəd şərtləri ödənir:

$$\begin{aligned} &u(x,y,t)\big|_{x=0} = 0;\ u(x,y,t)\big|_{y=0} = 0; \\ &u(x,y,t)\big|_{x=a} = 0;\ u(x,y,t)\big|_{y=b} = 0 \end{aligned} \tag{3}$$

Bu şərtlər membranın konturlarının tərpənməz bağlanmasını göstərir. Burada a və b sabit ədədlərdir və membranın ölçülərini təyin edir.

Başlanğıc şərt isə

$$u(x,y,0)=\varphi_1(x,y);\ \frac{\partial u(x,y,0)}{\partial t}=\varphi_2(x,y) \tag{4}$$

şəklində qəbul edək.

Deməli, baxılan məsələnin həlli (2) tənliyinin (3) sərhəd və (4) başlanğıc şərtlərini ödəyən həllinin tapılmasına gətirilir.

Tənliyə dəyişənlərinə ayırma üsulunu tətbiq etsək, yəni həlli

$$u(x,y,t)=T(t)Z(x,y) \tag{5}$$

şəklində axtarsaq, (2) tənliyindən

$$T''(t)+a^2\lambda T(t)=0 \tag{6}$$

$$V''(x)+\chi V(x)=0 \tag{7}$$

$$W''(y)+\mu W(y)=0 \tag{8}$$

tənliklərini alırıq.

Deməli məsələni həll etmək üçün (6) tənliyinin

$$T(t)\big|_{t=0}=\varphi_1(x,y);\ T'(t)\big|_{t=0}=\varphi_2(x,y) \tag{9}$$

şərtlərini ödəyən həllini tapmaq lazımdır.

(7) tənliyinin $V(x)\big|_{x=0}=0;\ V(x)\big|_{x=a}=0$ şərtlərini ödəyən həllini, (8) tənliyinin isə $W(y)\big|_{y=0}=0;\ W(y)\big|_{y=b}=0$ şərtlərini ödəyən tənliyi tapılmalıdır.

Əvvəlcə Laplas çevirməsinin köməy i ilə (6) tənliyini həll edək. əgər Laplasın inteqral çevirməsini (6) tənliyinə tətbiq etsək və (9) şərtlərini nəzərə alsaq, onda operator tənlik aşağıdakı şəkildə olar.

$$\overline{T}(p)-pT(0)-T'(0)+a^2\lambda\overline{T}(p)=0$$

Buradan

$$\overline{T}(p)=\frac{p\varphi_1(x,y)+\varphi_2(x,y)}{p^2+a^2\lambda} \tag{10}$$

alarıq. Əgər Laplasın tərs çevirməsini (10) bərabərliyinə tətbiq etsək, (9) tənliyinin həllini

$$T(t)=\varphi_1(x,y)\cos a\sqrt{\lambda}t+\frac{\varphi_2(x,y)}{a\sqrt{\lambda}}\sin a\sqrt{\lambda}t \tag{11}$$

şəklində təyin edirik. (7) və (8) tənliklərinin həllinin tapılması isə Liuvil-Ştrum məsələsidir və məlumdur, yəni $Z(x,y)=c_{n,m}\sin\frac{\pi n}{a}x\sin\frac{\pi m}{b}y$ şəklində təyin olunur. Onda baxılan məsələnin həlli

$$u(x,y,t)=\sum_{n=1}^{\infty}\sum_{m=1}^{\infty}\left(A_{nm}\cos\sqrt{\lambda_{nm}}at+B_{nm}\sin\sqrt{\lambda_{nm}}at\right)Z_{nm}(x,y)$$

şəklində təyin olunur.

Burada $c_{n,m}=\sqrt{\frac{n}{ab}};\ \lambda_{nm}=\left(\frac{\pi n}{a}\right)^2+\left(\frac{\pi m}{b}\right)^2$ işarə edilmişdir.

Ədəbiyyat

1. Л.В. Крылов “Приближенные методы математического анализа”. Ленинград. “Физмат из”. 1964.

2. А.Н. Тихонов, А.А. Самарский "Уравнение математической физики". Москва. "Наука". 1977.
3. А.Д. Кудрявиев "Курс математического анализа". Москва. "Высшая школа". 1981.
4. 2. Ə.M.Hüseynov. İnteqral tənliklər. Bakı, "Elm", 1978
5. 2. Qurbanov N.T. Laplas çevirməsinin tətbiqləri.- Sumqayıt, "Votum", 2002.
6. Ə.T. Hüseynov "İnteqral tənliklər". Bakı. "Maarif". 1975.
7. А.Н. Тихонов, А.А. Самарский "Уравнение математической физики". Москва. "Наука". 1977.
8. N.T. Qurbanov "Laplas çevirməsinin tədrisinə aid metodik vəsait". Sumqayıt. "Votum". 2002.

İKİ ÖLÇÜLÜ DALĞA TƏNLİYİ ÜÇÜN BİR QARIŞIQ MƏSƏLƏNİNÜMUMİLƏŞMİŞ HƏLLİNİN VARLIĞI VƏ YEGANƏLİYİ

Qasımov Telman Mehdi oğlu, Hüseynova Xanım Tofiq qızı

Bakı Dövlət Universiteti

qasimov.telman83@mail.ru,xanimh77@gmail.com

Tutaq ki, $Q = \Omega \times [0, T]$, $\Omega = \{0 < x < 1,\ 0 < y < 1\}$ oblastında aşağıdakı kimi məsələ verilmişdir.

$$z_{tt} = z_{xx} + z_{yy} + f(x, y, t) \quad (x, y, t) \in Q \tag{1}$$

$$z(x, y, 0) = z_0(x, y) \quad z_t(x, y, o) = z_1(x, y), \quad (x, y \in \overline{\Omega}) \tag{2}$$

$$\begin{aligned} &z(0, y, t) = 0, \quad z_x(0, y, t) = z_x(1, y, t), \quad 0 \le y \le 1,\ 0 \le t \le T, \\ &z(x, 0, t) = 0, \quad z_y(x, o, t) = z_y(x, 1, t), \quad 0 \le x \le 1,\ 0 \le t \le T, \end{aligned} \tag{3}$$

burada $f(x, y, t)$, $z_0(x, y)$, $z_1(x, y)$ məlum funksiyalar, $z = z(x, y, t)$ axtarılan funksiyadır.

Təqdim olunan işdə aşağıdakı kimi teorem isbat olunur.

Teorem: Tutaq ki, $z_0(x, y) \in W_{2,0}^1(\overline{\Omega})$, $z_1(x, y) \in L_2(\overline{\Omega})$, $u(x, y, t) \in L_2(\overline{Q})$. Onda (1)-(3) məsələsinin $W_{2,0}^1(\overline{Q})$ sinifinə daxil olan yeganə ümumiləşmiş həlli var.

Ədəbiyyat

3. ИонкинН.И. Решение одной краевой задачи теории теплопроводности с неклассическим краевым условием «Дифферен. Ур-я» 1977, т.XIII, №2, стр.295-304
4. Ладыженская О.А. Смешанная задача для гиперболического уравнения. М., 1953, 280 с.

HOM Lİ CƏBRİNDƏ DİFERENSİALAMAYA ENDOMORFİZMLƏ TƏSİRİN BƏZİ XASSƏLƏRİ

Qasımov Vaqif Əli Muxtar oğlu, Hüseynova Afaq Əziz qızı, Cəfərova Kəmalə Elçin qızı
Bakı Dövlət Universiteti
kavagif@mail.ru, ceferovak678@gmail.com

$HOM\ L\dot{I}$ cəbrləri Li cəbri anlayışının ümumiləşmələrindən biridir. Ümumiyyətlə $HOM\ L\dot{I}$ Cəbri struktur anlayışları qeyri assosiativ cəbri struklarındandır. Bu tip cəbri strukturlar xüsusi sinif vektor meydanları və coxobrazlılar üzərində diferensial hesabı məsələlərini tədqiq edərkən ortaya çıxır.

$HOM\ L\dot{I}$ cəbrində burulma homomorfizminin bəzi xassələrini [1] işində araşdırmışdıq. Li cəbrində $[X,Y]$-Li mötərizəsinə müəyyən təsir etməklə fərqli $HOM\ L\dot{I}$ cəbrlərini əldə etmək olar. Bu təsirlərdən biri diferensial struktur vasitəsi ilə reallaşdırılır. [1] işində məhz belə təsirin bir nümunəsi araşdırılıraq aşağıdakı xassə verilir.

Əgər $(g;\ [\cdot,\cdot];\ \alpha)$ *Hom-Li cəbri* g *-də* $D: g \to g$ *diferensiallanması verilmişsə, onda* $(g;\ [\cdot,\cdot];\ D\circ\alpha)$ *- üçlüyü də Hom-Li cəbridir.*

Li cəbrində Yakobi eyniliyinin deformasiyası-kommutatorun burulması vasitəsi ilə, yəni diferensiallamanın diskretizasiyası ilə alınan multiplikativ deformasiya ümumi qəbul edilmiş

$$D(X,Y) = D(X)Y + XD(Y)$$

Leybnits qaydasının fərqli analogiyalarını doğurur. Sonsuz ölçülü Vitt cəbri, Heyzenberq cəbri və digərlərində Li kommutatoruna müəyyən endomorfizmlə təsir etməklə yuxarıda qeyd olunan deformasiya kommutatorun burulmasını müşahidə edə bilərik. Li cəbrinin daşıyıcısı hamar çoxobrazlıdır. Li cəbrlərinin homomorfizmlərində bu məsələni araşdırmaq üçün əvvəlcə hamar çoxobrazlıların inikasları üçün araşdıraq. Tutaq ki, A,B,C hamar coxobrazlıları və $g: A\times C \to B$ hamar inikası verilmişdir, belə ki, $\forall c\in C$ üçün yeni $g_c : A \to B$ inikası

$$g_c(a) = g(a,c) \quad (*)$$

düsturu ilə təyin olunur. Fərz edək ki, $g_c : A \to B$ inikası A hamar çoxobrazlısının B hamar çoxobrazlısına difeomorfizmidir.

$\forall (b,c)\in B\times C$ üçün $h: B\times C \to A$ inikasını

$$h(b,c) = g_c^{-1}(b) \quad (**)$$

düsturu ilə təyin edək. Məlumdur ki, yuxarıdakı şərtlər daxilində $h: B\times C \to A$ inikası hamardır [2], [3].

Hər bir $(a,c)\in A\times C$ nöqtəsi üçün $g: A\times C \to B$ hamar inikası aşağıdakı

$$\mathrm{T}: \mathrm{T_a}\,(\mathrm{A}) \oplus \mathrm{T_c}\,(\mathrm{C}) \to \mathrm{T_b}\,(\mathrm{B}) \oplus \mathrm{T_c}\,(\mathrm{C}) \quad (1)$$

xətti inikasına baxaq, burada $b = g(a,c)$. Qeyd edək ki, $T_x(X)\oplus T_y(Y)$ ilə toxunan fəzaların düz cəmi işarə edilmişdir. (1) inikası $(\alpha,\beta,\gamma,\delta)$ dördlüyü ilə verilir: burada,

$\alpha = T_a(A) \to T_b(B)$, $\beta = T_c(C) \to T_b(B)$, $\gamma = T_a(A) \to T_c(C)$ və $\delta = T_c(C) \to T_c(C)$ inikasları müvafiq xətti inikaslardır. Yeni inikasları uygun olaraq (*) və (**) inikasları vasitəsi ilə təyin edək:

$G: A \times C \to B \times C$ inikası; $G(a,c) = (g(a), c)$;

$H: B \times C \to A \times C$ inikası $H(b,c) = (g_c^{-1}(b), c)$.

Xassə. $G: A \times C \to B \times C$ inikasının diferensialı (1) inikasını təyin edən $(\alpha, \beta, \gamma, \delta)$ dördlüyü ilə təyin olunur.

Ədəbiyyat

1. V.Ə. Qasımov, A.Ə. Hüseynova, K.E. Cəfərova. Hom Li cəbrində burulma homomorfizminin bir xassəsi, Akademik İ.İbrahimovun anadan olmasının 110 illik yubileyinə həsr olunmuş Funksional analiz,funksiyalar nəzəriyyəsi və onların tətbiqlər mövzusunda Respublika Elmi Konfransının materialları., 29-29 noyabr 2022, Bakı ş. Səh.206-207.
2. N. Jacobson, Li algebras, İnterscience Publishers New York-London 1961.
3. Хамфрис Дж. Введение в теорию алгебр Ли и их представлений — М.: МЦНМО, 2003.

PARALELOQRAMIN XASSƏLƏRİNİN ÖYRƏDİLMƏSİ METODİKASI

Qasımov Elmağa Ağaqasım oğlu, Hacızadə Vüsalə Laçın qızı

Bakı Dövlət Universiteti

gasymov-elmagha@rambler.ru

Fərz edək ki, bizə $ABCD$ fəza dördbucaqlısı verilib (şəkil 1).

Teorem. Verilmiş $ABCD$ fəza dördbucaqlısının paraleloqram olması üçün zəruri və kafi şərt:

i) onun qarşı tərəfləri bərabər olmalıdır:

$$AB = CD = a; \;\; AD = BC = b \qquad (1)$$

(a və b müəyyən müsbət ədədlərdir);

ii) onun diaqonallarının kvadratlarının cəmi tərəflərinin kvadratlarının cəminə bərabər olmalıdır:

$$AC^2 + BD^2 = AB^2 + BC^2 + CD^2 + AD^2, \qquad (2)$$

şərtlərinin ödənməsidir.



Şəkil 1.

İsbatı. Zərurilik. Fərz edək ki, verilmiş $ABCD$ dördbucaqlısı paraleloqramdır. Onda orta məktəb həndəsə kursundan (1) və (2) düsturlarının doğruluğu məlumdur.

Kafilik. Göstərək ki, əgər (1) və (2) düsturları doğrudursa, onda $ABCD$ fəza dördbucaqlısı müstəvi fiqur olan paraleloqramdır. Yəni sübut etmək lazımdır ki, bu halda dördbucaqlının bütün təpələri ($A; B; C; D$ - nöqtələri) eyni bir müstəvi üzərində yerləşir.

Əksini fərz edək: yəni fərz edək ki, elə $ABCD$ fəza dördbucaqlısı var ki, onun üçün i) və ii) şərtləri ödənir, lakin bu dörd A, B, C, D - nöqtələri eyni bir müstəvi üzərində deyil. i) şərtindən çıxır ki, (üçbucaqların bərabərliklərinin 3-cü əlamətinə görə)

$$\Delta ABC = \Delta CDA. \tag{3}$$

ABC üçbucağının yerləşdiyi müstəvini π ilə işarə edək (belə müstəvi var və yeganədir). Fərziyyəmizə görə D nöqtəsi π müstəvisinə aid deyil, deməli BD parçası π müstəvisinə aid deyil. AC parçasının orta nöqtəsini M ilə işarə edək:

$$AM = MC. \tag{4}$$

Fərziyyəmizdən çıxır ki, M nöqtəsi BD parçasına aid deyil və deməli MBD fiquru müstəvi üçbucaqdır. Ona görə

$$BD < BM + DM \tag{5}$$

olmalıdır.

BM parçası ABC üçbucağının, DM parçası isə CDA üçbucağının medianıdır:
Median üçün məlum düstura görə

$$BM = \frac{1}{2}\sqrt{2AB^2 + 2BC^2 - AC^2}$$

olur. Buradan

$$BM = \frac{1}{2}\sqrt{2a^2 + 2b^2 - AC^2}\,. \tag{6}$$

(3) bərabərliyinə əsasən

$$DM = BM \tag{7}$$

bərabərliyi ödənir.

(7)-ni (5)-də nəzərə alsaq

$$BD < 2BM \tag{8}$$

olur. Buradan

$$BD^2 < 4BM^2 \tag{9}$$

bərabərsizliyini alırıq.

(6) düsturunu (9) bərabərsizliyində nəzərə alsaq

$$BD^2 < 4 \cdot \frac{1}{4}(2a^2 + 2b^2 - AC^2)$$

olar. Buradan

$$AC^2 + BD^2 < 2a^2 + 2b^2\,. \tag{10}$$

(10) bərabərsizliyi (2) bərabərliyinə ziddir. Bu isə bizim fərziyyəmizin doğru olmadığını göstərir. Yəni, D nöqtəsinin π müstəvisi üzərində yerləşmədiyi fərziyyəsinin yalan olduğunu göstərir.

Beləliklə, biz göstərdik ki, əgər i) və ii) şərtləri ödənirsə, onda $ABCD$ dördbucaqlısı müstəvi dördbucaqlısıdır və (1) şərtləridə ödəndiyi üçün bu müstəvi dördbucaqlısı paraleloqram olacaq.

Teorem isbat olundu.

İNTEQRAL SƏRHƏD ŞƏRTLİ BİR DİFERENSİAL OPERATORUN SPEKTRAL XASSƏLƏRİ

Qasımov Telman Benser oğlu, Tağıyeva Reyhan Calal qızı, İbrahimli Katya İbrahim qızı
Bakı Dövlət Universiteti
telmankasumov@rambler.ru , reyhanabasli2015@gmail.com ,
ibrahimlikatya@gmail.com

Təqdim olunan işdə $L_P(0,1)$, $1 < p < \infty$, fəzasında ikinci tərtib

$$l(y) = -y'' + q(x)y \tag{1}$$

diferensial ifadəsi və

$$U_\nu(y) = \int_0^1 g_\nu(t)y(t)dt = 0, \qquad \nu = 1,2, \tag{2}$$

inteqral sərhəd şərtləri ilə təyin olunan L diferensial operatoruna baxılır; burada $q(x) \in L_1(0,1)$, $g_1(t), g_2(t) \in C[0,1]$. $\delta = g_1(0)g_2(1) - g_1(1)g_2(0)$ işarə edək.

Tərif. Əgər $g_1(t)$ və $g_2(t)$ funksiyaları xətti asılı deyilsə və $\delta \neq 0$ şərti ödənərsə, onda (2) sərhəd şərtlərinə requlyar sərhəd şərtləri deyəcəyik. Əgər xarakteristik determinantın sıfırları asimptotik sadə və ayrılmış olarlarsa, onda onda (2) sərhəd şərtlərinə güclü requlyar sərhəd şərtləri deyəcəyik.

Aşağıdakı fəzanı daxil edək:

$$\mathfrak{X} = \{y \in L_P(0,1): U_1(y) = U_2(y) = 0\}.$$

Aydındır ki, $\mathfrak{X}$ fəzası $L_P(0,1)$ fəzasının koölçüsü 2 olan altfəzasıdır. $\mathfrak{X}$ fəzasında L operatorunu belə edək: $D(L) = \{y \in W_p^2(0,1) \cap \mathfrak{X}: l(y) \in \mathfrak{X}\}$ və $y \in L$ olduqda $Ly = l(y)$. Onda L operatoru $\mathfrak{X}$ –də təyin oblastı hər yerdə sıx qapalı operator, onun $R(\lambda, L) = (L - \lambda I)^{-1}$ rezolventi isə $\mathfrak{X}$ –də təsir edən kompakt operator olacaqdır. Aşağıdakı teoremlər doğrudur.

Teorem 1. Kompleks λ- müstəvisində müəyyən şüalar üzərində $|\lambda|$ −nın kifayət qədər böyük qiymətlərində aşağıdakı qiymətləndirmə doğrudur:

$$\| R(\lambda, L) \| \leq \frac{C}{|\lambda|}.$$

Teorem 2. Əgər (2) sərhəd şərtləri requlyardırsa, onda L operatorunun məxsusi və qoşulmuş funksiyaları sistemi $\mathfrak{X}$ fəzasında mötərizəli bazis, sərhəd şərtləri güclü requlyar olduqda isə adi bazis təşkil edir.

Teorem 1-ə əsasən λ_0 müsbət ədədini elə seçmək olar ki, $A = L - \lambda_0 I$ operatoru pozitiv operator olar. Onda məlumdur ki, A operatorunun A^z kompleks qüvvətlərini təyin etmək olar (bax [1]) və $A^z, -\infty < Rez < 0$, kompleks qüvvətləri sol yarımmüstəvidə analitik olan, güclü kəsilməz yarımqrup təşkil edər. Bundan başqa A^z kompleks qüvvətləri üçün $\| A^z \| \leq Ce^{\pi|Imz|}, -\infty < Rez < 0$, qiymətləndirməsi doğrudur; burada C sabiti z- dən asılı deyil. Buradan xüsusi halda alırıq ki, A operatorunun $A^{i\beta}$ sırf xəyali qüvvətləri üçün

$\| A^{i\beta} \| \leq Ce^{\pi|\beta|}, -\infty < \beta < \infty$, qiymətləndirməsi doğrudur. Onda [2] işinin nəticələrinə əsaslanaraq aşağıdakı teoremin doğruluğunu alırıq.

Teorem 3. Kompleks qüvvətlərin təyin oblastları üçün aşağıdakı münasibət doğrudur:

$$\mathrm{D}\left(\mathrm{A}^{\theta+i\beta}\right) = [\mathfrak{X}, \mathrm{D}(\mathrm{L})]_{\theta}, 0 < \theta < 1, -\infty < \beta < \infty,$$

burada $[\ ,\ ]_{\theta}$ ilə kompleks metoda uyğun olan interpolyasiya fəzaları işarə edilib.

Nəticə. Əgər (2) sərhəd şərtləri requlyardırsa, onda L operatorunun məxsusi və qoşulmuş funksiyaları sistemi $\mathfrak{X}_{\theta} = [\mathfrak{X}, \mathrm{D}(\mathrm{L})]_{\theta}, 0 < \theta < 1$, fəzalarında mötərizəli bazis, sərhəd şərtləri güclü requlyar olduqda isə adi bazis təşkil edir.

Qeyd edək ki, oxşar məsələlər [3,4] işlərində də tədqiq olunmuşdur.

Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir-**Qrant No AEF-MCG-2023-1(43)-13/06/1-M-06**

Ədəbiyyat

1. Крейн С.Г. Линейные дифференциальные операторы в банаховом пространстве. М.: «Наука», 1967. 464 с.
2. Seeley R. Norms and domains of complex powers $\mathrm{A}_{\mathrm{B}}^{\mathrm{z}}$ //Amer.J.Math. 1971., V.93, p.299-309.
3. Сенцов Ю.Г. Матем. заметки. 1999, т.65, вып.6, с.948-952.
4. Gallardo J. Rocky Mountain J. Math. 2000, v.30, No4, p.1265-1291.

GECİKƏN ARQUMENTLİ DİFERENSİAL TƏNLİKLƏR ÜÇÜN KOŞİ MƏSƏLƏSİNİN HƏLLİNİN VARLIĞI VƏ YEGANƏLİYİ

Qasımov Telman Mehdi oğlu, Hüseynova Xanım Tofiq qızı, Əmrahlı Fatimə Ziya qızı

Bakı Dövlət Universiteti

qasimov.telman83@mail.ru

Tutaq ki, gecikən arqumentli

$$\dot{x}(t) = f(t, x(t)), x(t-\tau(t)),\ \ t > t_0 \tag{1}$$

tənliyinin

$$x(t) = \varphi_0(t),\ t \in E_{t_0}, \tag{2}$$

başlanğıc şərtini ödəyən həllini tapmaq tələb olunur, burada $E_{t_0} = \{z : z = t - \tau(t) < t_o,\ \ t_0 < t < T\}$.

Təqdim olunan işdə aşağıdakı kimi teorem isbat olunur:

Teorem. Tutaq ki,

1) $\varphi_0(t)$ başlanğıc funksiyası E_{t_0} çoxluğunda kəsilməzdir;

2) Müəyyən $h > 0$ ədədi üçün $\tau(t)$ funksiyası $\left[t_{o,} t_o + h\right]$ parçasında kəsilməzdir və $\tau(t) \geq 0$;

3) $f(t, x, y)$ funksiyası qapalı

$$D=\{t_o \le t \le t_0 + h,\ \ \varphi_0(t_o) - b \le x \le \varphi_0(t_o) + b,$$

$$\varphi_0(t_o) - b \le y \le \varphi_0(t_o) + b\}$$

oblastında kəsilməzdir və x, y arqumentlərinə nəzərən Lipşis şərtini ödəyir.

$$|\, f(t,x,y) - f(t,x_1,y_1)| \le L\big[|x - x_1| + |y - y_1|\big]$$

Onda (1), (2) məsələsinin $[t_{o,} t_o + \alpha]$ parçasında təyin olunan yeganə həlli var, burada $\alpha = \min\left\{h, \dfrac{b}{M}\right\},\ M = \max\limits_D |\, f(t,x,y)|.$

Teoremin isbatı sıxılmış inikas prinsipinin köməyi ilə aparılır.

Ədəbiyyat

5. Р.З.Беллман, К.Л.Кук, Дифференциально-разностных уравнения. Москва: Мир 1967, 548с.
6. Крамер Г.Д. Об управлении линейными системами с запаздыванием// Механика 2003 № 4.

KƏSİLMƏ NÖQTƏSİNƏ MALİK BİR SPEKTRAL MƏSƏLƏNİN MƏXSUSİ FUNKSİYALARININ LEBEQ VƏ ÇƏKİLİ LEBEQ FƏZALARINDA BAZİSLİYİ

Qasımov Telman Benser oğlu, Əliyeva Zəhra Elşən qızı
Bakı Dövlət Universiteti
telmankasumov@rambler.ru, eliyevazehra2001@gmail.com

Aşağıdakı spektral məsələyə baxılır:

$$y''(x) + \lambda y(x) = 0, \qquad x \in \left(0;\frac{1}{2}\right) \cup \left(\frac{1}{2};1\right) \tag{1}$$

$$\begin{cases} y'(0) = y'(1) = 0 \\ y\left(\dfrac{1}{2} - 0\right) = ay\left(\dfrac{1}{2} + 0\right) \\ y'\left(\dfrac{1}{2} - 0\right) = by'\left(\dfrac{1}{2} + 0\right) \end{cases} \tag{2}$$

burada λ spektral parametrdir, a və b isə $a + b \ne 0$ şərtini ödəyən ixtiyari kompleks ədədlərdir. Bu tipli spektral məsələlərin məxsusi funksiyalarının bazislik xassələri daha ümumi şəkildə [1,2] işlərində öyrənilmişdir. Xüsusi halda [1] işindən çıxır ki, (1), (2) məsələsinin məxsusi funksiyaları sistemi $L_2(0;1)$ fəzasında Riss bazisi, [2] işindən çıxır ki, bu sistem $L_p(0;1),\ \ 1 < p < \infty,$ fəzasında bazis əmələ gətirir.

Bu işdə (1), (2) məsələsinin Lebeq və çəkili Lebeq fəzalarında ekvivalent bazisliyi haqqında teoremlər isbat edilmişdir. $Z^+ = N \cup \{0\}$ işarə edək.

Teorem 1. (1), (2) məsələsinin məxsusi ədədləri $\lambda_n = (\pi n)^2, \quad n \in Z^+$, şəklindədir. λ_{2k}, $k \in Z^+$ məxsusi ədədlərinə uyğun məxsusi funksiyalar

$$y_{2k}(x) = \begin{cases} a\cos 2\pi kx, & x \in \left(0; \dfrac{1}{2}\right) \\ \\ \cos 2\pi kx, & x \in \left(\dfrac{1}{2}; 1\right) \end{cases}$$

şəklində, $\lambda_{2k+1}, k \in Z^+$ məxsusi ədədlərinə uyğun məxsusi funksiyalar isə

$$y_{2k+1}(x) = \begin{cases} b\cos(2k+1)\pi x, & x \in \left(0; \dfrac{1}{2}\right) \\ \\ \cos(2k+1)\pi x, & x \in \left(\dfrac{1}{2}; 1\right) \end{cases}$$

şəklindədirlər.

Xatırladaq ki, Banax fəzasında verilmiş iki sistem o zaman ekvivalent adlanırlar ki, özü və tərsi məhdud olan elə operator olsun ki, bu sistemlərdən birini digərinə çevirsin.

Teorem 2. (1), (2) məsələsinin $\{y_n(x)_{n\in Z^+}\}$ məxsusi funksiyalar sistemi $L_p(0;1), \quad 1 < p < \infty$, fəzasında $\{\cos \pi nx\}_{n\in Z^+}$ triqonometrik sisteminə ekvivalent bazis əmələ gətirir.

Tutaq ki, X Banax fəzası, $\{x_n\}_{n\in Z^+}$ bu fəzada bazis, $\{x_n^*\}_{n\in Z^+} \subset X^*$ isə onun biortoqonal qoşma sistemidir. Əgər, $\exists \ C > 0, \ \exists \ r \in (1;+\infty) \quad \forall \ x \in X$

$$\left(\sum_{n=0}^{\infty} \left| < x; \ x_n^* > \right|^r\right)^{\frac{1}{r}} \le C\|x\|$$

şərti ödənərsə, $\{x_n\}_{n\in Z^+}$ sistemi r - bazis adlanır.

Nəticə1. $\{y_n(x)_{n\in Z^+}\}$ sistemi $L_p(0;1), \quad 1 < p < \infty$, fəzasında r - bazis təşkil edir; burada $r = \max\{p, q\}, \ \dfrac{1}{p} + \dfrac{1}{q} = 1.$

Nəticə 2. $p = 2$ olduqla, $\{y_n(x)_{n\in Z^+}\}$ sistemi $L_p(0;1)$ fəzasında Riss bazisi əmələ gətirir.

Tutaq ki, $L_{p,w}(0;1), \quad 1 < p < \infty$,

$$\| f \|_{L_{p,w}} = \left(\int_0^1 | f(x)|^p w(x)dx\right)^{\frac{1}{p}}$$

Norması ilə verilən çəkilən Lebeq fəzasıdır; fərz edək ki, $w(x)$ çəki funksiyası Makenhaupt şərtini ödəyir: $w(x) \in A_p$ [3].

Teorem 3. (1), (2) məsələsinin $\{y_n(x)_{n\in Z^+}\}$ məxsusi funksiyalar sistemi $L_{p,w}(0;1)$, çəkili Lebeq fəzasında $\{\cos \pi nx\}_{n\in Z^+}$ triqonometrik sisteminə ekvivalent bazis əmələ gətirir.

Ədəbiyyat

1. Муравей Л.А. Базисы Рисса в $L_2(-1,1)$ // Граничные задачи для дифференциальных уравнений, Сборник работ. Тр. МИАН СССР, 91, 1967, с.113-135; Proc. Steklov Inst. Math. 91(1967) p.117-136.
2. Касумов Т.Б. Дробные степени разрывных квазидифференциальных операторов и теоремы о базисности // Рук.деп. в ВИНИТИ 16.121987, N 8902, 74 с.
3. Hunt R. Muckenhoupt B., Wheeden R. Weighted norm inequalities for the conjugate function and Hilbert transform // Trans. of AMS V.176(1973), p.227-251.

CƏBR VƏ KOCƏBR ANLAYIŞLARININ İKLİYİ

Qasımov Vaqif Əli-Muxtar oğlu, Hüseynova Afaq Əziz qızı

Bakı Dövlət Universiteti

kavagif@mail.ru

Binar cəbri strukturlar binar cəbri əməl anlayışına əsaslanır. Hər hansı A çoxluğunda cəbri əməl $\mu: A \times A \to A$ inikasının verilməsi ilə müəyyən olunur. μ inikasının assosiativliyi şərti $\mu(x, \mu(y,z)) = \mu(\mu(x,y), z)$ aşağıdakı

$\mu \circ id: A \times A \times A \to A \times A$ inikası ilə $\mu: A \times A \to A$ inikasının

və $id \circ \mu: A \times A \times A \to A \times A$ inikası ilə $\mu: A \times A \to A$ inikasının

$(\mu \circ id) \circ \mu$ və $(id \circ \mu) \circ \mu$ kompozisiyalarının bərabər olması ilə verilə bilər:

$$(\mu \circ id) \circ \mu = (id \circ \mu) \circ \mu \ (1).$$

Eyni qayda ilə, vahidin varlığı şərti elə $e: A \to A$ inikasının verilməsini tələb edir ki, $e \circ id: A \times A \to A \times A$ və $id \circ e: A \times A \to A \times A$ inikaslarının μ inikası ilə uyğun $\mu \circ (id \circ e)$ və $\mu \circ (e \circ id)$ kompozisiyaları bərabər olsun

$$\mu \circ (id \circ e) = \mu \circ (e \circ id) \ (2).$$

Komutativlik şərtini isə yerdəyişmə inikasının köməyi ilə vermək olar:

$\pi: A \times A \to A \times A$ inikası $\pi(x,y) = (y,x)$ qaydası ilə təyin olunur.

Onda $\pi: A \times A \to A \times A$ inikası ilə $\mu: A \times A \to A$ inikasının kompozisiyası üçün $\mu \circ \pi = \mu$ (3) şərtinin ödənməsi tələb olunur.

Əgər biz $\mathbb{k}$ meydanı üzərində verilmiş cəbrdə vahidin varlığını tələb etmək istəyiriksə onda yuxarıda deyilənlərə müəyyən $\varepsilon: \mathbb{k} \to A$ inikasının verilməsini də əlavə etmək lazımdır. Belə ki, $\varepsilon \circ id: \mathbb{k} \times A \to A \times A$ və $id \circ \varepsilon: A \times \mathbb{k} \to A \times A$ inikaslarının $\mu: A \times A \to A$ inikası ilə $\mu \circ (\varepsilon \circ id)$ və $\mu \circ (id \circ \varepsilon)$ kompozisiyaları müvafiq olaraq

$$\mu \circ (\varepsilon \circ id) : \mathbb{k} \times A \simeq A \text{ və } \mu \circ (id \circ \varepsilon): A \times \mathbb{k} \simeq A \ (4)$$

izomorfizmləri ilə üst-üstə düşür. Beləliklə, $\mathbb{k}$ meydanı üzərində A cəbri yuxarıdakı şərtləri ödəyən $(A; \mu, \varepsilon)$ üçlüyünə deyilir.

Indi isə, kocəbrlər üçün qeyd olunan şərtlərin necə dəyişəcəyini göstərək. Kocəbr $\mathbb{k}$ meydanı üzərində verilmiş H fəzası, $\Phi: H \to H \times H$ kohasili və $c: H \to \mathbb{k}$ inikasları ilə verilən $(H; \Phi, c)$ üçlüyünə deyilir, belə ki, Φ kohasili və c kovahidi üçün 1-4 şərtlərinə ikili olan şərtlərin ödənməsi tələb olunur. Bu şərtlərdən bəziləri aşağıdakı şəkildədir:

$$(id \circ \Phi) \circ \Phi = (\Phi \circ id) \circ \Phi \quad (1^*)$$

koasosiativlik şərti (1) şərti ilə ikilidir.

$$(id \times c) \circ \Phi \simeq H \text{ və } (c \times id) \circ \Phi \simeq H \ (4^*)$$

kovahidin varlığı şərti (4*) şərti ilə ikilidir.

$\mathbb{k}$ meydanı öz üzərində cəbr təşkil etdiyi kimi, həm də kocəbrdir. Bu $(\mathbb{k}; \Phi, c)$ cəbrində $c(1) = 1$şərti ödənir [1].

Teorem. Sonluölçülü cəbrə ikili olan fəza kocəbr strukturuna malikdir.

Ədəbiyyat

1. R.M.Switzer, Algebraic topology-homotopy and homology., Springer-Verlag.,1975

İZİ SIFIR OLAN MATRİSLƏR CƏBRİNİN $\mathfrak{sl}(2)$ Lİ CƏBRİNİN BƏZİ XASSƏLƏRİ

Qasımov Vaqif Əli-Muxtar oğlu, Əhmədova Nigar Sabit qızı
Bakı Dövlət Universiteti
kavagif@mail.ru

Li qruplarının təsnifatı məsələsi Li cəbrlərinin təsnifatı ilə sıx əlaqədədir. Ümumən bu əlaqələr Li nəzəriyyəsinə əsaslanır.

Li Teoremi. *Hər bir Li cəbri müəyyən local Li qrupunun Li cəbridir.*

Məsələn, Li nəzəriyyəsinə görə $\mathfrak{gl}(n,\mathbb{C})$ Li cəbri $GL(n,\mathbb{C})$ ümumi xətti qrupuna, $\mathfrak{sl}(n,\mathbb{C})$ Li cəbri $SL(n,\mathbb{C})$ xüsusi xətti qrupuna, $\mathfrak{ol}(n,\mathbb{C})$ Li cəbri $OL(n,\mathbb{C})$ ortoqonal qrupuna uyğun gəlir. Daha doğrusu, əgər $\mathfrak{g}$ Li qrupunun Li cəbrini $\mathcal{L}(\mathfrak{g})$ ilə işarə etsək, onda $\mathcal{L}(GL(n,\mathbb{C})) = \mathfrak{gl}(n,\mathbb{C})$, $\mathcal{L}(SL(n,\mathbb{C})) = \mathfrak{sl}(n,\mathbb{C})$, $\mathcal{L}(OL(n,\mathbb{C})) = \mathfrak{ol}(n,\mathbb{C})$ münasibətlərini alarıq. Lokal Li qrupu isə, öz Li cəbri ilə müəyyən izomorfizm dəqiqliyi ilə müəyyən olunur. Buna səbəb isə aşağıdakı faktdır:

G və H lokal Li qruplarının uyğun Li cəbrlərinin hər hansı $\varphi: \mathcal{L}(G) \longrightarrow \mathcal{L}(H)$ homomorfizmi $\varphi = (df)_e$ şəklindədir, burada f bu lokal Li qruplarının müəyyən $f: G \longrightarrow H$ homomorfizmidir.

İstinad etdiyimiz fakt Li cəbrləri və Li qruplarının uygun fəzalarda diferensiallama operatoru ilə sıx əlaqədə olduğunu nümayiş etdirir. Məqsəd bu nəticələrin kateqoriya və funktorlar nəzəriyyəsinin dilində analoqlarını almaqdır. Məsələn Xoxşild kohomologiyaları üçün aşağıdakı teorem doğrudur.

Teorem. $\mathbb{R}[G]$ qrup cəbrinin Xoxşild kohomologiyaları daşıyıcıları G qrupunun $\mathcal{G}_r$ qruppoidinə qoşulmuş təsirinin $B\mathcal{G}_r$ təsnifat fəzasının $(\mathcal{B}\mathcal{G}_r)^{[n]}$ n −skeletlərində doğurduğu kohomologiyalarna izomorfdur:

$${}_H H^n(\mathbb{R}[G]) \approx H^n{}_{\Phi_n}(B\mathcal{G}_r\,; \mathbb{R}).$$

Burada qeyd edək ki, Li qrupları lokal qruplara aid nümunə olaraq qlobal Li qrupları sinfindən daha genişdir və onlar üçün yuxarıdakı teoremin hökmü daha zəif şəkildə olacaq.

Hər bir $\mathfrak{g}$ $Li\ c\text{ə}bri$ ilə müəyyən $U(\mathfrak{g})$ –universal bürüyən cəbri əlaqələndirmək olar. $\mathfrak{g}$ -nin $T(\mathfrak{g})$ tenzor cəbrinin $ab - ba - [a, b]$ şəklində olan bütün elementlərinin doğurduğu idealı $I(\mathfrak{g})$ ilə işarə edək, burada $a, b \in \mathfrak{g}$. $T(\mathfrak{g})$ cəbrinin $I(\mathfrak{g})$ idealına nəzərən faktor cəbri $T(\mathfrak{g})$ ilə işarə olunur və $\mathfrak{g}$ Li cəbrinin universal bürüyən cəbri adlanır. $\mathfrak{g}$ $Li\ c\text{ə}bri$nin Universal bürüyən cəbrini $U(\mathfrak{g})$ ilə işarə edirlər: $U(\mathfrak{g}) = T(\mathfrak{g})\ /\ I(\mathfrak{g})$.

$\mathcal{Algebra}$ və $\mathcal{LeeAlgebra}$ ilə müvafiq olaraq cəbrlər və Li cəbləri kateqoriyalarını işarə ədək. Onda bu iki koteqoriyanın morfizmləri arasında aşağıdakı uyğunluq doğrudur.

Teorem. Əgər $\mathfrak{g}$ Li cəbri və istənilən assosiativ A cəbri verilmişsə, onda $\mathfrak{g}$ Li cəbrindən A cəbrinə uyğun $\mathcal{L}(A)$ Li cəbrinə təsir edən bütün $Hom_{\mathcal{LeeAlgebra}}(\mathfrak{g}, \mathcal{L}(A))$ morfizmlər çoxluğu ilə $\mathfrak{g}$ $Li\ c\text{ə}bri$nin Universal bürüyən $U(\mathfrak{g})$ cəbrindən A cəbrinə təsir edən bütün $Hom_{\mathcal{Algebra}}(U(\mathfrak{g}), A)$ morfizmlər çoxluğu biyektivdirlər.

Ədəbiyyat

1. N. Jacobson, Li algebras, İnterscience Publishers New York-London 1961.
2. Хамфрис Дж. Введение в теорию алгебр Ли и их представлений — М.: МЦНМО, 2003.

BÜKÜLMƏ NÖV İNTEQRAL TƏNLİKLƏRİN HƏLLİNİN ARAŞDIRILMASI

Qədirli Nigar Azad qızı, Mirzəxanlı Çinarə Məhəmməd qızı

Sumqayıt Dövlət Universiteti

cinaremirzexanli@gmail.com

Müasir dövrdə tətbiqi məsələlərin həlli inteqeral tənliklərin həllinə gətirildiyindən onların həllinin tətqiqi aktuallıq kəsb edir. Ona görədə işdə bükülmnə tip inteqral tənliyin həlli tədqiq edilir.

Bükülmə tip inteqral tənlik Volterra tipli tənliyə aiddir və ikinci növ bükülmə tip inteqral tənlik aşağıdakı şəkildədir.

$$u(t) = \int_0^t K(t-\xi)u(\xi)d\xi + F(t) \tag{1}$$

Burada $u(t)$-axtarılan funksiya, $K(t)$ və $F(t)$ verilmiş funksiyalardır. $K(t)$-tənliyin nüvəsi adlanır, $F(t)$-isə sərbəst həddir.

Fərz edək ki, (1) tənliyinə daxil olan funksiyalar Laplasın inteqral çevirməsinin şərtlərini ödəyir. Onda Laplas çevirməsini (1) tənliyinə tətbiq etsək, və funksiyalar bağlısından istifadə etsək:

$$\overline{u}(p) = \overline{K}(p)\overline{u}(p) + \overline{F}(p)$$

tənliyini alarıq. Buradan axtarılan funksiyanın surətini

$$\bar{u}(p)=\frac{\bar{F}(p)}{1-\bar{K}(p)} \tag{2}$$

şəklində təyin edirik. Burada $\bar{u}(p),\bar{K}(p)$ və $\bar{F}(p)$ uyğun olaraq $u(t)$, $K(t)$ və $F(t)$ funksiyalarının surətidir. Bu bərabərlikdən həllin surətini tapmaq üçün onu

$$\bar{u}(p)=\bar{V}(p)+\frac{\bar{F}(p)}{1-\bar{K}(p)}\bar{V}(p)$$

şəklində yazaq. Əgər burada

$$\bar{g}(p)=\frac{\bar{F}(p)}{1-\bar{K}(p)} \tag{3}$$

əvəz etsək

$$\bar{u}(p)=\bar{V}(p)+\bar{g}(p)\bar{V}(p) \tag{4}$$

olar. Sonuncu bərabərliyə laplasın tərs inteqral çevirməsini tətbiq etsək həllin orjinalını

$$u(t)=V(t)+g(t)*V(t)$$

yaxud

$$u(t)=V(t)+\int_0^t g(t-\tau)V(\tau)d\tau \tag{5}$$

bərabərliyi ilə təyin etmək olar.

$g(t)$-funksiyasını hesablamaq üçün onu yəni(3) bərabərliyini sıraya ayıraq. Onda

$$\bar{g}(p)=\sum_{n=1}^{\infty}[K(s)]^n$$

olar. Buradan isə

$$K_1(t)=K(t),$$

$$K_2(t)=K(t)*K_1(t)=\int_0^t K(t-\tau)K(\tau)d\tau=\int_0^t K_1(t-\tau)K(\tau)d\tau=\int_0^t K(t-\tau)K_1(\tau)d\tau,$$

$$K_3(t)=K(t)*K_2(t)=\int_0^t K(t-\tau)K_2(\tau)d\tau,$$

$$\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots,$$

$$K_n(t)=K(t)*K_{n-1}(t)=\int_0^t K(t-\tau)K_{n-1}(\tau)d\tau$$

işarə etməklə

$$g(t)=\sum_{n=1}^{\infty}K^{(n)}(t)$$

bərabərliyini alırıq.

Deməli verilmiş inteqral tənliyin həlli Neyman sırasının köməyi ilə təyin edilir.

Ədəbiyyat

1. N.T. Qurbanov "Laplas çevirməsinin tətbiqinə aid metodik göstəriş". Smqayıt. "Votum".2002.

2. А.Н. Тихонов, А.А. Самарский “Уравнение математической физики”. Москва. “Наука”. 1977.
3. Ə.T. Hüseynov “İnteqral tənliklər”. Bakı. “Maarif”. 1975.
4. Л.В. Канторович, В.И. Крылов “Приближенные методы высшего анализа”. М. “Физмат из”. 1962.
5. А.Д. Кудрявиев “Курс математического анализа”. Том II. Москва. “Высшая школа”. 1981.

ELASTİK LÖVHƏNİN RƏQSLƏRİ TƏNLİYİ ÜÇÜN PAYLANMIŞ İDARƏEDİCİ VƏ FİNAL MÜŞAHİDƏ MƏSƏLƏSİ

Quliyev Hamlet Fərman oğlu, Cavadova Almaz Əbdül qızı

Bakı Dövlət Universiteti

hamletquliyev51@gmail.com, almazcavadova05@gmail.com

Məlumdur ki, elastik lövhələrin rəqsləri tənliyi

$$\rho h \frac{\partial^2 u}{\partial t^2} + \Delta\left(D\Delta u\right) = \vartheta(x,y,t), \quad (x,y,t) \in Q = \Omega \times (0,T) \tag{1}$$

şəklindədir. Bu tənlik üçün

$$\begin{gathered} u(x,y,0) = u_0(x,y), \quad (x,y) \in \Omega, \\ \frac{\partial u}{\partial t}(x,y,0) = u_1(x,y), \quad (x,y) \in \Omega, \end{gathered} \tag{2}$$

$$\begin{gathered} u(0,y,t) = 0, \quad (y,t) \in (0,b)\times(0,T), \qquad u(a,y,t) = 0, \quad (y,t) \in (0,b)\times(0,T), \\ u(x,0,t) = 0, \quad (x,t) \in (0,a)\times(0,T), \qquad u(x,b,t) = 0, \quad (x,t) \in (0,a)\times(0,T), \\ \frac{\partial u}{\partial x}(0,y,t) = 0, \ (y,t) \in (0,b)\times(0,T), \qquad \frac{\partial u}{\partial x}(a,y,t) = 0, \ (y,t) \in (0,b)\times(0,T), \\ \frac{\partial u}{\partial y}(x,0,t) = 0, \ (x,t) \in (0,a)\times(0,T), \qquad \frac{\partial u}{\partial y}(x,b,t) = 0, \ (x,t) \in (0,a)\times(0,T) \end{gathered} \tag{3}$$

başlanğıc və sərhəd şərtləri verilir. Burada $\Omega = (0,a)\times(0,b)$, $u(x,y,t)$ -lövhənin əyilməsi, $h(x,y)$ lövhənin qalınlığı, $D = \dfrac{E \cdot h^3}{12\cdot(1-\nu^2)}$ silndrik möhkəmlik, $\rho(x,y)$ lövhənin sıxlığı, ν - Puasson əmsalıdır. Burada ϑ mümkün idarəedicidir və $L_2(Q)$ -də qapalı qabarıq V çoxluğuna daxildir. $V \subset L_2(Q)$ sinfindən elə $\vartheta(x,y,t)$ idarəedici tapmaq tələb olunur ki, o (1)-(3) məsələsinin həlli ilə birlikdə

$$J(\vartheta) = \frac{1}{2}\int_{\Omega}\left(u(x,y,T.\vartheta) - z(x,y)\right)^2 dxdy + \frac{N}{2}\int_{Q}\vartheta^2 dxdydt \tag{4}$$

funksionalına minimum qiymət versin, burada $z(x,y) \in L_2(\Omega)$ verilmiş məlum funksiyadır, N isə verilmiş müsbət ədəddir.

$u_0 \in W_2^2(\Omega)$ $u_1 \in L_2(\Omega), z \in L_2(\Omega)$- verilmiş funksiyalardır.

Qeyd edək ki, hər bir $\rho, h, \vartheta, u_0, u_1$ üçün (1)-(3) məsələsinin $W_2^{2,1}(Q)$ fəzasında həlli var və yeganədir. Baxılan işdə əvvəlcə optimal idarəedicinin varlığı və yeganəliyi isbat edilir. Sonra isə v_0(*x,y,t)* idarəedisinin optimallığı üçün variasional bərabərsizlik şəklində aşağıdakı zəruri və kafi şərt çıxarılır:

$$\int_Q \left(\psi(x,y,t) + N\vartheta_0(x,y,t)(\vartheta(x,y,t) - \vartheta_0(x,y,t)\right)dxdydt \geq 0 \quad \forall \vartheta \in V,$$

burada $\psi(x,y,t)$ aşağıdakı qoşma məsələnin həllidir:

$$\rho h \psi_{tt} + \Delta(D\Delta\psi) = 0 \quad (x,y,t) \in Q, \tag{5}$$

$$\psi(x,y,T) = 0, \quad \rho h \psi_t(x,y,T) = u(x,y,T,\vartheta_0) - z(x,y), \ (x,y) \in \Omega, \tag{6}$$

$$\psi(0,y,t) = 0, \quad (y,t) \in (0,b) \times (0,T), \qquad \psi(a,y,t) = 0, \quad (y,t) \in (0,b) \times (0,T),$$

$$\psi(x,0,t) = 0, \quad (x,t) \in (0,a) \times (0,T), \qquad \psi(x,b,t) = 0, \quad (x,t) \in (0,a) \times (0,T),$$

$$\frac{\partial \psi}{\partial x}(0,y,t) = 0, \ (y,t) \in (0,b) \times (0,T), \qquad \frac{\partial \psi}{\partial x}(a,y,t) = 0, \ (y,t) \in (0,b) \times (0,T),$$

$$\frac{\partial \psi}{\partial y}(x,0,t) = 0, \ (x,t) \in (0,a) \times (0,T), \qquad \frac{\partial \psi}{\partial y}(x,b,t) = 0, \ (x,t) \in (0,a) \times (0,T).$$

Ədəbiyyat

1. Ж.-Л.П.Арман Приложения теории оптимального управления системами с распределенными параметрами к задачам оптимизации конструкций. М.: Мир, 1966, 144с.
2. Ж.-Л.Лионс Оптимальное управление системами описываемыми уравнениями с частными производными М.: Мир, 1972, 416с.

SİNQULYAR POTENSİALLI YARIM-XƏTTİ QEYRİ STASİONAR TƏNLİKLƏRİN QLOBAL HƏLLƏRİNİN VARLIĞI

Quluyeva Könül Əlövsət qızı

Bakı Dövlət Universiteti

konul.555@mail.ru

$$B_R = \{x: |x| < R\}, \ B_R' = R^n \setminus \overline{B}_R, \ B_{R,R_1} = \{x : R < |x| < R_1\},$$

$$Q_R' = B_R' \times (0, +\infty), \ |x| = \sqrt{x_1^2 + \ldots + x_n^2}$$

işarə edək.

$Q_R^{'}$ oblastında belə bir məsələyə baxaq:

$$\frac{\partial^k u}{\partial t^k}=\sum_{i,j=1}^{n}\frac{\partial}{\partial x_i}\left(a_{ij}(x)\frac{\partial u}{\partial x_j}\right)+\frac{C_0}{|x|^2}u+|x|^{\sigma}|u|^{q}, \tag{1}$$

$$u^{(k-1)}\Big|_{t=0}=u_0^{k-1}(x)\geq 0,\ u^{(k-2)}\Big|_{t=0}=u_0^{k-2}(x),\ldots,u\Big|_{t=0}=u_0(x). \tag{2}$$

harada ki, $a_{ij}(x)=\delta_{ij}+\gamma\frac{x_i x_j}{|x|^2},\quad \delta_{ij}=\begin{cases}1, & i=j,\\ 0, & i\neq j,\end{cases}\quad \gamma>-1,\quad q>1,\quad \sigma>-2,$

$$0\leq C_0\leq(\gamma+1)\left(\frac{n-2}{2}\right)^2,\ u_0^i(x)\in L_{\infty,loc}(B_R'),\ i=0,1,\ldots,k-1.$$

(1)-(2) məsələsinin mənfi olmayan qlobal həllinin varlığı məsələsi araşdırılır. (1)-(2) məsələsinin qlobal həlli dedikdə, zəif həll başa düşülür. $u(x,t)$ funksiyası (1)-(2) məsələsinin o zaman zəif həlli adlanır ki, $\forall T\geq 0$, $R_1>R$, $u(x,t)\in W_2^{1,k}(B_{R,R_1}\times(0,T))\cap L_{\infty,loc}(Q_R')$ və $\forall\ \varphi(x,t)\in W_{2,loc}^{1,k}(B_{R,R_1}\times(0,T))$, $\varphi\Big|_{|x|=R}=\varphi\Big|_{|x|=R_1}=0$, $\frac{\partial\varphi^i}{\partial t^i}(x,T)=0$, $i=0,1,\ldots,k-1$ üçün

$$(-1)^k\int_0^T\int_{B_{R,R_1}}u(x,t)\frac{\partial^k\varphi(x,t)}{\partial t^k}dxdt+\int_0^T\int_{B_{R,R_1}}\sum_{i,j=1}^{n}a_{i,j}(x)\frac{\partial u}{\partial x_j}\frac{\partial\varphi}{\partial x_i}dxdt-\int_0^T\int_{B_{R,R_1}}\frac{C}{|x|^2}u\varphi dxdt\ +$$

$$+\sum_{i=0}^{k-1}(-1)^k\int_{B_{R,R_1}}u_0^{k-1-i}(x)\frac{\partial^i\varphi(x,0)}{\partial t^i}dx=\int_0^T\int_{B_{R,R_1}}|x|^{\sigma}|u|^{q}\varphi dxdt$$

$D=\left(\frac{n-2}{2}\right)^2-\frac{C_0}{\gamma+1},\quad \lambda_{\pm}=-\frac{n-2}{2}\pm\sqrt{D}$ işarə edək.

Qlobal həllin yoxluğu haqqında aşağıdakı teorem doğrudur.

Teorem. Tutaq ki, $n\geq 3,\ q>1, \sigma>-2, \gamma>-1,\ 0\leq C_0<(\gamma+1)\left(\frac{n-2}{2}\right)^2$ və $1<q\leq 1+\dfrac{\sigma+2}{\frac{n+2}{2}+\sqrt{D}-2(1-\frac{1}{k})}$. Əgər $u(x,t)$ funksiyası (1)- (2) məsələsinin mənfi olmayan həllidirsə , o zaman $u(x,t)\equiv 0$ olar.

Qeyd edək ki, $k=1$ halına [1,2] işlərində baxılmışdır.

Ədəbiyyat

1. Quliyeva K.A. Sinqulayar potensiallı ikinci tərtib yarım- xətti parabolik tənliyin mənfi olmayan qlobal həllərinin yoxluğu.//-Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, riyaz. və təbiət elmləri ser.-2018. №1, -s.59-70.
2. Bagyrov Sh.G., Guliyeva K.A. Non existence of global solution of a semi-linear parabolic equation with a singular potential//Transactions of ANAS, ser. phys.- tech. mat. sc., -2020. v.40(1), -p.79-87.

ELEKTRON TƏHSİL RESURSLARININ TƏDRİS PROSESİNƏ TƏTBİQLƏRİ

Quluzadə Ayçilər Mübariz qızı
Qərbi Kaspi Universiteti
aycilerrquluzade@gmail.com

Təhsil sistemində E-təhsil texnologiyaları insanların yeni növ təhsilə istiqamətləndirilməsi, gələcəkdə ömür boyu təhsil almaq üçün onlarda zəruri bilik və bacarıqların inkişaf etdirilməsi üçün ən səmərəli vasitə hesab olunur. E-təhsil əmək fəaliyyəti ilə təhsil arasında körpü rolu oynayır və ömrü boyu təhsil üçün geniş imkanlar yaradır. “E-təhsil” termini yeni texnologiyaların tətbiqi ilə müasir tədris metodlarını, təlim materiallarının elektron üsulla çatdırılmasının tam spektrini əhatə edir və “distant təhsil”, “virtual təhsil”, “şəbəkə təhsili” kimi terminləri ümumiləşdirən anlayış kimi istifadə olunur.

İnformasiya resursları bazasında təlim, tələbələrin hadisələrin nəzəriyyə və obyektlərin öyrənilməsində geniş informasiya resurslarından istifadə etməklə aktiv rolunu nəzərdə tutur. Müəllim lazım olan informasiyanın və problemin həllinin axtarışı üçün tələbəyə stimul verir. İnformasiya resursları bazasında təlimdə müxtəlif resurslardan (kitab, jurnal, verilənlər bazası, şəbəkə resursları və s.) həmçinin informasiyanın axtarışı üçün müxtəlif giriş resurslarından geniş istifadə olunur.

İnformasiya resursları bazasında qurulan təlim prosesində təlimin tədqiqat metodundan istifadə olunur. Təlimin tədqiqat metodunun mahiyyəti aşağıdakılardan ibarətdir: - Müəllim tələbələrlə birlikdə həllinə müəyyən zaman ayrılan problemi formalaşdırır; - Müəllim tələbələrə bilikləri söyləmir. Tələbələr bilikləri problemin tədqiqatı prosesində müxtəlif variantlara uyğun tapılan cavabları müqayisı edərək, müstəqil olaraq əldə edirlər, - Müəllimin fəaliyyəti problemli məsələnin həlli prosesini operativ idarə olunmasına yönəldilir. - Tədris prosesi yüksək intensivliyi ilə xarakterizə olunnur, təlimə yüksək maraq müşayiət olunur, əldə olunan biliklər həqiqiliyi, dərinliyi və möhkəmliyi ilə fərqlənir. - İnformasiya resursları bazasında təlimin səmərəliliyi müəllimlərin və tələbələrin istifadə etdikləri resursların və informasiya texnologiyaların keyfiyyətindən, kəmiyyətdən asılıdır. İnformasiya resursları bazasında təlimin əsas nəticəsi tələbələrin yeni bilikləri müstəqil olaraq əldə etmələridir. Yəni tədris prosesimdə tələbə informasiya resurslarından hərtərəfli istifadə edərək müxtəlif informasiya məsələlərini həll edir. Həmçinin, tələbə yeni biliklər əldə etməyə və professional bacarıqlarını təkmilləşdirməyə imkan verən texnologiyalara yiyələnir. Elektron təhsildə informasiyalar öyrənənlərə çap materialları, elektron materiallar, elektron dərslik, video dərslər televerilişlər və s. formalarda təqdim edilir. Bu tədris informasiyalarının kitablar, disklər, kimi daşıyıcıları vardır. Elektron təhsildə təlim metodik kompleksdən, kompüter, televizor, audio-video disklər, multimedia texnikası kimi təlim vasitələrindən istifadə olunur. Biliklərin daha çevik və asan ötürülməsi üsullarından ən effektlisi elektron öyrətmə sistemidir. Məsafədən keçirilən bu təlim sistemində təlimlər televiziya kanalları, multimedia diskləri, İnternet şəbəkəsinin imkanları vasitəsi, hazır proqram paketləri ilə həyata keçirilir. Beləliklə, informasiya resurs basazı eöyrətmənin əsas elementlərindəndir. Təhsilin səviyyələrinə görə daima keyfiyyətli təhsil resursları ilə səmərəli təmin etməlidirlər, funksional və informasiya baxımından bütün təhsil portallar sistemi ilə əlaqədə olmalıdırlar

Ədəbiyyat

1. Arzu Hüseynova, Zöhrə Həsənova, Ofelya Mazanova, “Azərbaycanda ali təhsildə elektron sistemlərin tətbiqi vəziyyəti”13-14 fevral 2019, 307-313, Azərbaycan
2. "Handbook of Research on Educational Communications and Technology" - J. Michael Spector, M. David Merrill, Jan Elen, M. J. Bishop
3. "Teaching and Learning with Technology: Beyond Constructivism" - Richard E. West, Lynn H. Turner

VİRTUAL VƏ ARTIRILMIŞ REALLIQ TEXNOLOGİYALARININ SƏNAYEDƏ İSTİFADƏSİ

Qurbanov Fərid Tərlan oğlu

Baki Dövlət Universiteti

ferid.qurbanov.2010@bk.ru

Ən yaxşı proqramlaşdırma dilinin seçilməsi layihənizin xüsusi tələblərindən, şəxsi üstünlüklərinizdən və işlədiyiniz ekosistemdən asılıdır. Burada qeyd olunan ilk 5 proqramlaşdırma dili — Python, JavaScript, Java, C#,Go,— müxtəlif funksiyalar dəsti, geniş icma dəstəyi və geniş kitabxanalar və çərçivələr təklif edir. Düzgün proqramlaşdırma dilini seçməklə siz kodlaşdırma potensialınızı aça və proqram təminatı inkişaf etdirmə layihələrinizi həyata keçirə bilərsiniz.

Ədəbiyyat

1. Covington, Michael A., Roberto Bagnara, Richard A. O'keefe, Jan Wielemaker, And Simon Price. "Coding guidelines for Prolog." *Theory and Practice of Logic Programming* 12, no. 6 (June 30, 2011): 889–927.
2. Chen, Zheng Sheng, Zhi Ping Lu, and Chang Gui Li. "Storage Model of Graph Based on Variable Collection." *Advanced Materials Research* 765-767 (September 2013): 1456–60.

İKİFAZALI MÜHİTLƏRDƏ HƏYƏCANLANMANIN YARATDIĞI UZUNUNA DALĞALARIN DİNAMİKASI

Tağıyev Müsrəddin Musa oğlu, Qafarova Fidan Ənvər qızı, Əliyeva Nailə Bəylər qızı
Bakı Dövlət Universiteti
qafarova.fidan01@mail.ru

Məlumdur ki, ikifazalı sistemlər mayedə yerləşən bərk hissəciklər və ya qaz qabarcıqlarının qarışığından ibarətdir. Çoxfazalı , o cümlədən ikifazalı sistemlərin dinamikasının tədqiqi bir çox fundamental problemlərlə əlaqəli olan elm və texnikanın geniş sahəsini əhatə edir. Müxtəlif təbiətli mayelərdə həyəcanlanmaların yayılmasının, təzyiq paylanmalarının tədqiq edilməsi bütöv mühit mexanikasının (o cümlədən maye , qaz və plazma mexanikasının) ən mühim inkişaf istiqamətlərindən birini təşkil edir.

Həyəcanlanma nəticəsində əsasən iki növ dalğa yaranır: uzununa dalğalar və sonlu amplitudlu qeyri-xətti dalğalar. Monodispers suspenziyalarda həyəcanlanma nəticəsində yaranan dalğalar rezonans hadisəsinin yaranmasına gətirib çıxara bilər və nəticədə boru kəmərlərinin divarının mexaniki dağılması baş verə bilər. Yuxarıda sadalanan və sadalanmayan çoxlu sayda problemlərin həlli monodispers suspenziyalarda dalğa proseslərini daha təsvir edən adekvat riyazi modelin qurulmasını tələb edir.

Maye-bərk hissəciklər sisteminin eyni zamanda qərarlaşmış (stasionar) hərəkətini təsvir edən tənliklər P. Panton , daha ümumi halda isə R.İ. Niqmatulin tərəfindən alınmışdır. Təklif olunan modellərin heç birində fazalararası qarşılıqlı təsir qüvvəsinin ümumi şəkildə vermək mümkün olmayıb. Fazalararası qarşılıqlı təsir qüvvəsinin aşkar şəkli yalnız xüsusi hallar üçün verilə bilir.

Təklif olunan model termodinamik qüvvəni nəzərə almaqla ikifazalı mühitlərin (qatışıqların) hidrodinamikasını öyrənməyə imkan verir. Suspenziyada dispers fazaya kəsilməz mühit kimi baxmaq üçün onun iki ən yaxın hissəcikləri arasında orta məsafəsi axının makroskopik miqyası ilə müqayisədə kiçik olmalıdır. Bu isə bütöv mühit mexanikasının saxlanma qanunlarına həcmi ortalaşma üsulunu tətbiq etməyə imkan verir.

[1]-də bütöv mühit mexanikasının ümumi tənliklərindən istifadə edərək dalğa proseslərinin təsviri üçün qeyri-xətti riyazi model qurulmuşdur. Çoxfazalı sistemlərdə qeyri-xətti dalğa nəzəriyyəsinin tədqiq olunmasında riyazi modelləşdirmə əhəmiyyətli (mühim) rol oynayır. O, texnoloji təsirləri proqnozlaşdırmağa və optimallaşdırmağa, eksperiment verilənləri emal etmək və şərh etməyə imkan verir. Bununla əlaqədar olaraq işdə uzununa dalğaların sürətinin hesablanması həyata keçirilmişdir.

Uzununa dalğaların yayılma sürətini təyin etmək üçün hər bir fazanın kütləsinin və hərəkət miqdarının saxlanması qanunlarına , hər bir fazanın hal tənlikləri və dispers fazada bərk hissəciyin deformasiyasının ümumiləşdirmiş xətti özlü-elastiki reoloji tənliyi qoşulur.

Birölçülü məsələnin dinamikası kiçik parametrlər metodu ilə həll olunur. Birinci yaxınlaşmada uzununa dalğaların sürətlərini təyin etmək üçün aşağıdakı dispersiya münasibəti alınmışdır [2] :

$$B_1\left[\alpha_1^{(0)}\rho_1^{(0)}+\alpha_2^{(0)}\left(\rho_2^{(0)}+2\rho_1^{(0)}\right)\right]C^4-\left[\alpha_1^{(0)}\rho_2^{(0)}\left(1-\frac{a_0L_1}{b_0\rho_1^{(0)}}\right)+\frac{a_0\alpha_1^{(0)}B_1}{b_0}\left(1+\frac{2\alpha_2^{(0)}}{\alpha_1^{(0)}}\right)+\right.$$

$$\left.+\alpha_2^{(0)}\left(\rho_2^{(0)}+2\rho_1^{(0)}\right)+\frac{3kT\xi_1\alpha_2^{(1)}B_1}{2\pi a^3}-\left(1-\frac{a_0L_1}{b_0\rho_1^{(0)}}\right)\right]C^2+2\alpha_2^{(0)}\left[\frac{a_0}{b_0}+\frac{3kT\xi_1}{4\pi a^3}\left(1-\frac{a_0L_1}{b_0\rho_1^{(0)}}\right)\right]=0$$

burada

$$L_1=\frac{\partial\rho_1}{\partial\sigma}|\sigma_0\,,\;\; L_2=\frac{1}{2}\cdot\frac{\partial^2\rho_1}{\partial\sigma^2}|\sigma_0$$

$$B_1=\frac{\partial\rho_2}{\partial P}|P_0\;,\;\; B_2=\frac{1}{2}\cdot\frac{\partial^2\rho_2}{\partial P^2}|P_0$$

$$D_1=\alpha_2^{(0)}+\frac{\sigma-4\alpha_2^{(0)}-2\left(\alpha_2^{(0)}\right)^2}{\left(\alpha_2^{(0)}\right)^3}$$

$\alpha_1,\alpha_2,\rho_1,\,\rho_2,a_0,b_0,k,T$ - uyğun olaraq bərk və maye fazanın konsentrasiyası, sıxlıqlarıdır. P-maye fazada təzyiq, a_0 və b_0 - sabitləri özlü-elastiki mühitlərin mexaniki xassələrini xarakterizə edən parametrlər, k – Bolsman sabiti, T- mütləq temperaturdur.

Aldığımız dispersiya tənliyinin iki müsbət həlli olur. Köklərdən biri dispers fazada dalğa sürətinə, ikinci kök isə kəsilməz maye fazada dalğanın yayılma sürətinə uyğun gəlir.

Parametrlərin müxtəlif qiymətləri üçün həm təmiz su və kiçik qum daşlarında, həm də təmiz su və qumlarda uzununa dalğaların sürətləri təyin edilmişdir. Aparılmış hesablamalar göstərir ki, termodinamik qüvvə və bərk hissəciklərin relaksasiya müddəti xətti dalğaların yayılma prosesinə demək olar ki, təsir etmir.

Ədəbiyyat

1. Энгельбрехт Ю.К., Нигул У.К., Нелинейные волны деформации. М. 1981. -256с.
2. Tağıyev M.M. Dispers özlü maye ilə dolu borularda dalğa məsələsinin tədqiqi, Bakı Universitetinin xəbərləri, Fizika-riyaziyyat elmləri seriyası, №4, 2017. səh.130-138.

MONODİSPERS SUSPENZİYALARDA BİRÖLÇÜLÜ QEYRİ-XƏTTİ DALĞALARIN EVOLYUSİYA TƏNLİYİNİN KEYFİYYƏT ANALİZİ

Tağıyev Müsrəddin Musa oğlu, Tamirlanovna Səbinə Kazixanova

Bakı Dövlət Universiteti

kazikhanovasabina@gmail.com

Müxtəlif mayelərin magistral boru kəmərləri vasitəsilə nəqli kompressor-nasos stansiyalarının köməyi ilə həyata keçirilir. Belə olduqda boru kəmərlərinin daxilində yaranan kiçik və sonlu amplitudlu dalğalar müxtəlif dərəcədən borunun divarlarını zədələyir. Təcrübə göstərir ki , axın seli çox zaman bircinsli olmur və onda olan ətalətə malik hissəciklər boru kəmərlərinin divarlarına təsir edir. Bəzən bu təsir o qədər güclü olur ki , nəticədə magistral boru kəməri dağıla bilər [1] .

Burada əsas problem-axının dalğa enerjisini optimal üsulla ötürməkdən ibarətdir. Yuxarıda deyilən proseslər aşağıdakı evolyusiya tənliyi ilə təsvir olunur [2] .

$$\frac{\partial\vartheta}{\partial x}+\vartheta\frac{\partial\vartheta}{\partial\tau}-\frac{R_2}{R_1}\cdot\frac{\partial}{\partial\tau}\left(\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right)+R_4c\left(\frac{\partial^2\vartheta}{\partial\tau\partial x}-\frac{\partial^2\vartheta}{\partial\tau^2}\right)+R_6\left(\vartheta+\frac{1}{R_1}\cdot\frac{\vartheta^2}{c}\right)-R_7\sum_{l=1}^{n}S_{l+1}\cdot\frac{\partial^{l+1}\vartheta}{\partial\tau^{l+1}}=0 \qquad (1)$$

Burada R_1 , R_2 , R_4 , R_6 , R_7 - müəyyən əmsallardır ;

$$S_{l+1}=\Gamma_{m-l}\frac{a_0b_l}{b_0}-\Gamma_{n-l}a_l$$

Bundan əlavə qeyri-xəttilik əmsalı nə qədər böyük olsa, elastik enerjinin vurulması o qədər də tez dominant tezlik yaranmasına səbəb olur.

Birölçülü qeyri-xətti dalğaların evolyusiya tənliyinin keyfiyyət analizini vermək üçün tənliyinin ikinci həddi ilə tənliyin hər bir həddinin nisbətini qiymətləndiririk. Əgər $\lambda-$dalğa uzunluğu, $\mathrm{T}-$onun periodu və ϑ_0-bərk hissəciklərin xarakteristik sürəti olarsa, onda kəmiyyətlərin tərtibi

$$\left|\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right|\div\left|\frac{R_2}{R_1}\cdot\frac{\partial}{\partial\tau}\left(\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right)\right|\sim\frac{2|\mathrm{R}_1|}{|\mathrm{R}_2|}\mathrm{T}\sim\frac{|R_1|\lambda}{|R_2|c},$$

$$\left|\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right|\div\left|R_4c\frac{\partial^2\vartheta}{\partial\tau\partial x}\right|\sim\frac{\vartheta_0\lambda}{|\mathrm{R}_4|c},$$

$$\left|\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right|\div\left|R_4\cdot\frac{\partial^2\vartheta}{\partial\tau^2}\right|\sim\frac{\vartheta_0\lambda}{|R_4|c}, \qquad (2)$$

$$\left|\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right| \div \left|R_6\vartheta\right| \sim \frac{\vartheta_0}{\mathrm{T}\left|R_6\right|} \sim \frac{\vartheta_0 c}{\left|R_6\right|\lambda},$$

$$\left|\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right| \div \left|\frac{R_6}{R_1}\cdot\frac{\vartheta^2}{c}\right| \sim \frac{\left|\mathrm{R}_1\right|c}{\left|R_6\right|\lambda},$$

$$\left|\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right| \div \left|R_7 S_{l+1}\cdot\frac{\partial^{l+1}\vartheta}{\partial\tau^{l+1}}\right| \sim \frac{\left|\vartheta_0\right|}{\left|\mathrm{R}_7 S_{l+1}\right|}\cdot\left(\frac{\lambda}{c}\right)^l,$$

$$\left|\frac{R_2}{R_1}\cdot\frac{\partial}{\partial\tau}\left(\vartheta\frac{\partial\vartheta}{\partial\tau}\right)\right| \div \left|R_7 S_{l+1}\cdot\frac{\partial^{l+1}\vartheta}{\partial\tau^{l+1}}\right| \sim \frac{\left|\mathrm{R}_2\right|\vartheta_0}{\left|R_1 R_7 S_{l+1}\right|}\left(\frac{\lambda}{c}\right)^{l-1},$$

$$\left|\frac{R_6}{R_1}\cdot\frac{\vartheta^2}{c}\right| \div \left|R_7 S_{l+1}\cdot\frac{\partial^{l+1}\vartheta}{\partial\tau^{l+1}}\right| \sim \frac{\left|\mathrm{R}_6\right|\vartheta_0}{\left|R_1 R_7 S_{l+1}\right|}\left(\frac{\lambda}{c}\right)^{l+1},$$

Burada $l = 2 , 3 , ...$;

(2) münasibətlərindən görünür ki, $\mu \to 0$ və özlü hədlər inersial hədlərə görə az olur. Bu hal üçün (1) tənliyi sadələşir. Amma bu, təcrübə ilə ziddiyyət təşkil edir. Maye nə qədər kiçik özlülüyə malik olursa olsun bərk hissəciklərin səthinə yapışır. Ədəbiyyatda (tədqiqat işlərində) belə ziddiyyət sərhəd qatı anlayışı daxil edilərək aradan qaldırılır. Axırıncının qalınlıq kimi təyinindən sonra, bərk hissəciyin effektiv radius anlayışını daxil etmək olar. Qeyd edək ki, belə yanaşma problemin həllini daha da mürəkkəbləşdirir.

Baxılan işdə (1) tənliyində $l = 2,\ \mu = 0,\ S_2 = 0,\ \mathrm{T} = ct - x$ qəbul etsək və sərhəd şərtlərini

$$\vartheta(0,\mathrm{T}) = \vartheta_0(\mathrm{T}),$$
$$\vartheta(x;\infty) = 0\,,\ \vartheta(x;-\infty) = 0\,, \tag{3}$$
$$\left.\frac{\partial\vartheta}{\partial x}\right|_{\mathrm{T}\to\infty} = 0\,.$$

qəbul etsək, (1) tənliyinin avtomodel həllini tədqiq edə bilərik. Deyilənləri nəzərə alsaq, alarıq.

$$\frac{\partial\vartheta}{\partial x} + c\vartheta\frac{\partial\vartheta}{\partial\mathrm{T}} - R_8\frac{\partial^3\vartheta}{\partial\mathrm{T}^3} = 0\,, \tag{4}$$

burada $R_8 = c^3 R_7 S_3$.

Suspenziyada akustik dalğanın yayılma sürəti birinci yaxınlaşmada alınan dispersion tənlikdən tapılır. Təmiz su və kiçik qumdaşları və eləcədə təmiz su və qum olduqda hesabat aparılaraq akustik dalğanın yayılma sürəti təyin edilmişdir.

Ədəbiyyat

1. Байков В.А., Бахтизин Р.Н Распространение волн возмущений в смолосодержащих нефтях, НФЖ.Минск, 1988, т.51, №2, с.240-243.
2. M.M.Tağıyev, G.M. Sarıyeva "Xətti irsi mühitlərdə ikiölçülü evolyusiya tənliyi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş "Riyaziyyat, Mexanika və onların tətbiqləri" adlı respublika elmi konfransının materialları" Bakı, 24-25 May, 2021 ci il.

ŞAGİRDİN REFLEKSİV FƏALİYYƏTİNİN FORMALAŞDIRILMASI VASİTƏLƏRİ

Tahirov Bahadur Ömər oğlu, Həmidova Şəlalə Abdul Əhəd qızı,
Cabbarova Fidan Rəhman qızı
Bakı Dövlət Universiteti
qarabah48@mail.ru

Təlimin əsas məqsədləri arasında bu gün mühüm, əsas və xüsusi səriştələrin formalaşdırılmasını görürük. Səriştələri bilik, bacarıq və vərdişlərlə əvəz etmək olmur, lakin onlar olmadan səriştələr də mənasız olur. Ona görə də biliyin keyfiyyətinin tədqiq edilməsi problemi həmişə aktualdır.

Pedaqogikada bilik keyfiyyətlərinin tam sistemini qurmaq cəhdləri həmişə olmuşdur. Bilik keyfiyyətlərinin tam sisteminə tamlıq, dərinlik, operativlik, çeviklik, ümumiləşdirilmə, sistemlilik, mənimsənilmə və möhkəmlilik aiddir. Metodistlər təhsilin keyfiyyətlərinin üç qrupunu fərqləndirirlər:

- mövzu-məzmun;
- məzmun-fəaliyyət;
- məzmun-fərd.

Mövzu-məzmun qrupuna tamlıq, ümumilik, sistemlilik keyfiyyətləri aid edilir; məzmun-fəaliyyət qrupuna möhkəmlik, mobillik, səmərəlilik aid edilir; məzmun-fərd qrupuna davamlılıq, çeviklik, mənimsənilmə aid edilir [1].

Uzun müddət təfəkkürü bacarıqla, anlamanı biliklə eyniləşdirilməsinə əsaslanan təhsil modeli üstünlük təşkil edirdi. Bilmək və anlamaq eyni deyildir. Məktəb təfəkkürü bilik vasitəsilə anlama mərhələsinə qədər inkişaf etdirilməlidir. Fəal öyrənmə, dialoq və ünsiyyət olduqda anlama reallaşır [2].

Riyazi materialın anlanılmasını dərinləşdirmək vasitələrindən biri refleksiv məsələlərdir. Refleksiv məsələ, adətən həll prosesinin anlanılmasına xidmət edən məsələ kimi başa düşülür. Refleksiv məsələlər şagirdlərdə məsələnin həlli prosesini sərbəst təhlil etmək, bu zaman öz fəaliyyətini nəzərdən keçirmək bacarıqlarını inkişaf etdirməyə xidmət edən məsələlər kimi başa düşülür. Refleksiv məsələlərin həlli şagirdlərdə aşağıdakı təlim hərəkətlərinin formalaşmasına xidmət etməlidir: məsələnin şərtini əsas əlaqəni aşkar etmək məqsədi ilə təhlil etmək, aşkar edilmiş əlaqəni qrafik və ya işarələmələr formasında modelləşdirmək, icra edilmiş hərəkətlərə nəzarət etmək, ümumi həll üsulunu mənimsəmək, qiymətləndirməni verilmiş məsələnin həlli kimi qəbul etmək.

Metodistlər refleksiv məsələlərin aşağıdakı növlərini fərqləndirirlər:

1. Təklif olunan həldə səhvləri tapmağa aid məsələlər.
2. Mühakimələrin və alınan nəticələrin doğru və yalan olduğunu əsaslandırmağa aid məsələlər.
3. Təhrik etməyə xidmət edən məsələr:
   a) şərti səhv cavabın seçilməsinə xidmət edə bilən məsələlər, başqa sözlə, şərti bu və ya digər səhv cavabı seçməyə “təhrik” edən məsələlər;

b) şərti səhv həll üsulunun seçilməsinə xidmət edə bilən məsələlər;

c) verilmiş şərtlərə görə mövcud olmayan riyazi obyektləri tapmağa təhrik edən məsələlər;

d) qeyri müəyyən məsələr:

- konkret cavab almaq üçün bir və ya bir neçə kəmiyyətin çatmadığı və ya obyektin bu və ya digər obyektlərlə əlaqəsinin olması haqqında göstərişin olmadığı məsələlər;

e) şərtində artıq verilənləri olan məsələr;

4. Tədqiqat xüsusiyyətli məsələlər.

Şagirdlərin refleksiv bacarıqlarını inkişaf etdirməyə xidmət edən çalışmaların aşağıdakı növləri vardır:

1. Müəllim hər hansı riyazi məsələnin həllini təklif edir. Amma təklif edilən həll səhvdir. Şagirdlərə həmin səhvi tapmaq həvalə edilir.
2. Müəllim məsələnin həllini tam vermir, şagirdlərə onu tamamlamaq həvalə olunur.
3. Məsələnin müəllim təklif etdiyi həllində prinsipal boşluqlar var. Şagirdlərə onları aşkar etmək həvalə olunur.
4. Müəllim həll etmək üçün əvvəlcə, artıq verilənli məsələ, sonra isə, çatışmayan verilənli məsələ təklif edir. Şagirdlərə bunu aşkar etmək həvalə olunur.

Aşağıda refleksiv məsələlərin bir neçə nümunəsi verilir.

Məsələ 1. Döşəmə iki dəfə yağlı boya ilə boyanmışdır. Birinci dəfə döşəmənin hər kvadrat metrinə 105 q, ikinci dəfə 70 q. işlənmişdir. Otağın uzunluğu 6 m, eni 5 m olarsa, nə qədər boya sərf edilmişdir?

a) aşağıdakı asılılıqlarla əlaqəsi olan kəmiyyətləri göstərin: biri digərindən 1,5 dəfə böyükdür?; biri digərindən 1,5 dəfə azdır?

b) məsələnin şərtindən istifadə edərək hansı ifadələrə məna vermək olar?

$105+70;\ 105\cdot 70;\ 6\cdot 5;$

$6+5;\ 70\cdot(6\cdot 5);\ 105\cdot(5\cdot 6);\ 105+5\cdot 6;$

$6:5;\ 70:6;\ 105\cdot 5$.

Həlli. Əvvəlcə otağın sahəsini tapaq:

1) $5\cdot 6=30m^2$.

Sonra nə qədər boya sərf olunduğunu tapaq:

2) $(105+70)\cdot 30=175\cdot 30=525\ q.$

a) sualına cavablar: biri digərindən 1,5 dəfə çox olan kəmiyyətlər birinci və ikinci boya çəkmə zamanı sərf olunan boyaların nisbətidir:

$$105:70=1{,}5 \text{ (dəfə).}$$

Başqa sözlə, birinci boyalamada sərf olunan boya ikinci boyalamada sərf olunan boyanın miqdarından 1,5 dəfə çoxdur və tərsinə, ikinci boyalamada sərf olunan boya birinci boyalamada sərf olunan boyadan 1,5 dəfə azdır.

b) $105+70$ - $1m^2$ sahəni boyamağa sərf olunan boyanın miqdarıdır;

$105\cdot(5\cdot 6)$ - birinci boya çəkməkdə sərf olunan boyanın miqdarı;

$6\cdot 5$ - döşəmənin sahəsi;

$70 \cdot (5 \cdot 6)$ - ikinci dəfə boya çəkməkdə sərf olunan boyanın miqdarı;

$6:5$ - döşəmənin uzunluğu enindən neçə dəfə çoxdur?

Məsələ 2. Qatarın sürəti 60 km/saatdır və o, 300 km məsafəni getmişdir. $300:60$ ifadəsinin mənasını göstərin.

Həlli. $300:60=5$ (qatarın yola sərf etdiyi zaman)

Cavab. Qatarın verilən məsafəni qət etməyə sərf etdiyi zaman 5 saatdır.

Məsələ 3. Aşağıdakı “isbat”dakı səhvi tapın.

a) “4=5”.

$$16-36=25-45,$$

$$4^2-2\cdot 4\cdot \frac{9}{2}+\left(\frac{9}{2}\right)^2=5^2-2\cdot 5\cdot \frac{9}{2}+\left(\frac{9}{2}\right)^2,$$

$$\left(4-\frac{9}{2}\right)^2=\left(5-\frac{9}{2}\right)^2,$$

$$4-\frac{9}{2}=5-\frac{9}{2},$$

$$4=5.$$

Bu çevirmələrdə səhv $\left|4-\frac{9}{2}\right|=\left|5-\frac{9}{2}\right|$-dən alınan nəticənin düz olmamasıdır.

b) “$\frac{1}{9}>\frac{1}{3}$

İsbatı. $\frac{1}{3}=\frac{1}{3}$; $\lg\frac{1}{3}=\lg\frac{1}{3}$;

$2\lg\frac{1}{3}>\lg\frac{1}{3}$; (səhvdir, çünki $\lg\frac{1}{3}<0$ olur).

$\lg\frac{1}{9}>\lg\frac{1}{3}$;

$\frac{1}{9}>\frac{1}{3}$.

c) $i=\sqrt{-1}$.

Bir tərəfdən $i^2=-1$, digər tərəfdən $i^2=i\cdot i=\sqrt{-1}\cdot\sqrt{-1}=\sqrt{1}=1$.

Səhv ifadə

$\sqrt{-1}\cdot\sqrt{-1}\neq\sqrt{(-1)(1)}$ -dir.

Refleksiv məsələlər şagirdlərin qiymətləndirmə fəaliyyətlərinin formalaşdırılmasına xidmət edir:

- fəaliyyətin nəticəsinin qiymətləndirilməsi;
- fəaliyyət metodunun optimallığının qiymətləndirilməsi;
- fəaliyyət metodunun ümumiliyinin qiymətləndirilməsi.

Ədəbiyyat

1. Далингер В.А. Причины типичных ошибок учащихся по математике // Современная наука: актуальные проблемы и пути их решения, 2014, №12, с.94-97.
2. Майкова Н.С. Виды ошибок учащихся при обучении решению геометрических задач, их причины и способы предупреждения // Известия РГПУ им.А.И.Герцена, 2008, 244 с.

DIVARI MƏSAMƏLİ BORUDA MAYE-QAZ QARIŞIĞININ HİDRODİNMİKASI

Talıblı Şamil Zahid oğlu, Abbasov Elxan Məcid oğlu

Bakı Dövlət Universiteti

aelhan@mail.ru, taliblisamil@gmail.com

Bir çox hallarda içərisi qumla dolmuş borularda iki fazalı maye-qaz qarışığının hərəkətinə baxmaq lazım gəlir. Belə məsələlərə bir çox işlərin həsr edilməsinə baxmayaraq konvektiv hədd nəzərə alınaraq divarı məsaməli içi qumla dolu borularda ikifazalı mühitin hərəkət hidrodinamikası kifayət qədər öyrənilməmişdir. Ona görə də ikifazalı maye-qaz qarışığının borularda qeyri stasionar hərəkətinin öyrənilməsinin həm praktiki həm də elmi əhəmiyyəti vardır.

Divarı məsaməli içi qumla dolu boruda maye-qaz qarışığının hərəkətinə baxaq. Bu məqsədlə borudan sonsuz kiçik dx uzunluqlu bir element ayıraq və baxılan hal üçün kəsilməzlik tənliyini çıxaraq.

Balans tənliyini yazaraq alarıq.

$$\frac{\partial\left(\rho_c\left(1-m\right)\right)}{\partial t}+\frac{\partial\left(\rho_m m\right)}{\partial t}=-\frac{\partial\left(m\,\rho_m V_m\right)}{\partial x}-\frac{\partial\left((m-1)\,\rho_q V_q\right)}{\partial x}+\frac{2\alpha}{R}\left(P-P_c\right) \tag{1}$$

Birinci yaxınlaşmada $m=const$ qəbul edək.

$$\frac{\left(1-m\right)}{c_q^2}\frac{\partial P}{\partial t}+\frac{m}{c_m^2}\frac{\partial P}{\partial t}=-m\frac{\partial\left(\rho_m V_m\right)}{\partial x}-(m-1)\frac{\partial\left(\rho_q V_q\right)}{\partial x}+\frac{2\alpha}{R}\left(P-P_c\right)$$

Mayenin hərəkət tənliyi aşağıdakı kimi olar.

$$Q_m=-\left(\frac{f_T k_m \rho_m}{\mu_m}+\frac{f_T k_q \rho_q}{\mu_q}\right)\frac{\partial P}{\partial x} \tag{2}$$

(2)-ni (1)-də nəzərə alsaq alarıq.

$$\frac{\partial P}{\partial t}-a^2\frac{\partial^2 P}{\partial x^2}-\alpha_1 P=-\alpha_1 P_c \tag{3}$$

Başlanğıc və sərhəd şərtləri.

$$P\big|_{t=0}=f(x) \tag{4}$$

$$P\big|_{x=0}=P_c\ ,\quad P\big|_{x=l}=P_1 \tag{5}$$

f(x) maye-qaz qarışığının stasionar axındakı orta sürətidir. (3) tənliyinin (5) sərhəd şərtlərini ödəyən həllini aşağıdakı kimi axtarırıq.

$$P = P_c - \frac{P_c - P_1}{l_1}x + \sum_{i=1}^{\infty}\varphi_i \sin\frac{i\pi x}{l_1} \tag{6}$$

(6) düsturunu (3) tənliyində yerinə yazıb alınan ifadənin hər iki tərəfini $\sin\frac{i\pi x}{l}$ -ə vurub sıfırdan l-ə qədər inteqrallasaq alarıq.

$$\dot{\varphi}_i + \left(a^2 - \alpha_1\right)\varphi_i = -\frac{2\dot{P}_c}{i\pi}(1-(-1)^i) - 2(-1)^i\frac{\dot{P}_c - \dot{P}_1}{i\pi} + 2\alpha_1(-1)^i\frac{P_c - P_1}{i\pi} \tag{7}$$

Sonuncu tənlikdə Laplas çevirməsini tətbiq edib daha sonra originalına keçsək alarıq.

$$\varphi_i = \varphi_i(0)e^{-(a^2-\alpha_1)t} - \frac{2(1-(-1)^i)}{i\pi}\int_0^t P_c(\tau)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau - \frac{2(-1)^i}{i\pi}\int_0^t\left(\dot{P}_c(\tau) - \dot{P}_1(\tau)\right)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau +$$
$$+\frac{2\alpha_1(-1)^i}{i\pi}\int_0^t\left(P_c(\tau) - P_1(\tau)\right)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau \tag{8}$$

Burada $\varphi_i(0)$ (4) başlanğıc şərtindən tapılır. (8)-i (6)-da nəzərə alaq.

$$P = P_c - \frac{P_c - P_1}{l_1}x + \sum_{i=1}^{\infty}\left[\varphi_i 0)e^{-(a^2-\alpha_1)t} - \frac{2(1-(-1)^i)}{i\pi}\int_0^t P_c(\tau)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau - \right.$$
$$\left. - \frac{2(-1)^i}{i\pi}\int_0^t\left(\dot{P}_c(\tau) - \dot{P}_1(\tau)\right)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau + \frac{2\alpha_1(-1)^i}{i\pi}\int_0^t\left(P_c(\tau) - P_1(\tau)\right)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau\right]\sin\frac{i\pi x}{l}$$

$P_c = const$ halına baxaq.

$$P = P_c - \frac{P_c - P_1}{l_1}x + \sum_{i=1}^{\infty}\left[\varphi_i 0)e^{-(a^2-\alpha_1)t} - \frac{2P_c}{i\pi\left(a^2 - \alpha_1\right)} + \frac{2\alpha_1(-1)^i}{i\pi}\int_0^t\left(P_c - P_1(\tau)\right)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau\right]\sin\frac{i\pi x}{l}$$

Sonuncu ifadəni (2) də nəzərə almaqla maye sərfinin ifadəsini almış olarıq.

$$Q_m = -\left(\frac{f_T k_m \rho_m}{\mu_m} + \frac{f_T k_q \rho_q}{\mu_q}\right)\left[-\frac{P_c - P_1}{l_1} + \right.$$
$$\left. + \sum_{i=1}^{\infty}\frac{i\pi}{l}\left(\varphi_i 0)e^{-(a^2-\alpha_1)t} - \frac{2P_c}{i\pi\left(a^2 - \alpha_1\right)} + \frac{2\alpha_1(-1)^i}{i\pi}\int_0^t\left(P_c - P_1(\tau)\right)e^{-(a^2-\alpha_1)(t-\tau)}d\tau\right)\cos\frac{i\pi x}{l}\right]$$

Beləliklə, divarı məsaməli boruda maye-qaz qarışığının sərfi yuxarıdakı düstur ilə tapıla bilər.

Ədəbiyyat

1. М.Е.Дейч, Г.А.Филиппов. Газодинамика двухфазных сред. Москва: Изд. <<Энергия>>. 1968-422с.

MÜASIR INFORMASIYA TEXNOLOGIYALARININ TƏTBIQI LAYIHƏLƏRI

Vahidli Rəşad Etibar oğlu
Qərbi Kaspi Universiteti
rashad.vahidli@gmail.com

Müasir informasiya texnologiyalarının tətbiqi, günümüz dünyasında şirkətlər, təşkilatlar, vərəqələr və cəmiyyətlər üçün inkişaf etmiş və müstəqil layihələri təşkil etmək üçün əhəmiyyətli bir sahədir. Bu tətbiqlər, texnologiya təcrübəsi və innovasiyaların bir birləşməsi ilə mümkün olur və iş proseslərini, sənayenin keyfiyyətini və hətta cəmiyyətin həyat tərzini dəyişdirir.

Bir çox sahədə müasir informasiya texnologiyalarının tətbiqi mövcuddur. İş dünyası üçün, mühasibat proqramları, müştəri əlaqələri idarəetmə sistemləri,satış və marketinq avtomatlaşdırma texnologiyaları kimi alətlər, effektivliyi artırmaq və prosesləri sürətləndirmək üçün istifadə olunur. Bu, şirkətlərin sürətli və effektiv reaksiya göstərməsini təmin edir və rəqibləri ilə yarışda öncülük etməyə imkan verir.

Əmək müstəqil layihələrində, məsələn, tədris və təhsil sahəsində, tətbiqi layihələr təhsil proseslərini yaxşılaşdırmaq, tələbələrə interaktiv təhsil imkanları təklif etmək və təcrübəyə əsaslanan öyrənməni dəstəkləmək üçün istifadə olunur.

Sənaye sahəsində isə, avtomatlaşdırılmış iş prosesləri, IoT (Internet of Things), və süni intellekt kimi texnologiyaların tətbiqi, effektivliyi artırmağa və enerji sərfiyyatını yaxşılaşdırmağa kömək edir. Bu, sənayenin digər sahələri ilə daha effektiv şəkildə əlaqələnə bilən və daha çevik reaksiya göstərə bilən bir infrastruktura nail olmağı təmin edir.

Cəmiyyət üçün, sosial media platformaları, elektron hökumət xidmətləri, və sağlamlıq informasiya sistemləri kimi tətbiqlər, kommunikasiya və xidmətləşdirmənin daha asan və sürətli olmasına imkan verir.

Bu tətbiqlərin tətbiqi ilə, müasir informasiya texnologiyaları cəmiyyətin müxtəlif sahələrində daha böyük inteqrasiya, effektivliyin artırılması və inovativ tərəfdaşlıqların inkişafını təmin edir.

Ədəbiyyat

1. The Pragmatic Programmer: Your Journey to Mastery - Andrew Hunt, David Thomas (1999)
2. Clean Code: A Handbook of Agile Software Craftsmanship - Robert C. Martin (2008)

BİR NEÇƏ PAYLANMIŞ PARAMETRLİ İDARƏEDİCİ VƏ BAŞLANĞIC İDARƏEDİCİLƏR OLAN ÜÇ TƏRTİBLİ XÜSUSİ TÖRƏMƏLİ TƏNLİKLƏ TƏSVİR OLUNAN PROSESDƏ KVADRATİK FUNKSİONALIN MİNİMUMU MƏSƏLƏSİ HAQQINDA

Yaqubov Məmməd Haqverdi oğlu, Hüseynzadə Zümrüd Cavid qızı
Bakı Dövlət Universiteti
huseynzadzumrud71@gmail.com

Tutaq ki, proses

$$\beta z_{tt} + z_t - \varepsilon \frac{\partial^3 z}{\partial x^2 \partial t} - \frac{\partial^2 z}{\partial x^2} = \left(A(x,t), u(x,t)\right), (x,t) \in D = \{0 < x < 1,\ 0 < t < t_1\}, \tag{1}$$

$$z(0,t) = 0 \quad z(1,t) = 0,\ t \in (0,t_1) \tag{2}$$

$$z(x,0) = v_0(x), \quad z_t(x,0) = v_1(x), \quad x \in (0,1) \tag{3}$$

başlanğıc - sərhəd məsələsi ilə təsvir olunur; burada $u(x,t) = \left(u_1(x,t), u_2(x,t), ..., u_r(x,t)\right)$ paylanmış idarəedici vektor funksiyadır, $v_0(x), v_1(x)$ başlanğıc skalyar idarəedici funksiyalardır, $A(x,t) = \left(A_1(x,t), A_2(x,t), ..., A_r(x,t)\right)$ vektor - funksiyası D-də kəsilməz vektor-funksiyadır, $\left(A(x,t), u(x,t)\right) = \sum_{i=1}^{r} A_i(x,t) u_i(x,t)$. Paylanmış idarəedicilər olaraq $L_2^r(D)$ -dən olan $u(x,t)$ vektor - funksiyaları götürülür, $v_0(x) \in W_2^{1,0}(0,1) \cap W_2^{2,0}(0,1)$, $v_1(x) \in W_2^{1,0}(0,1)$. Elə $u(x,t)$, $v_0(x)$, $v_1(x)$ idarəedicilәri tapmaq tələb olunur ki, (1)-(3) başlanğıc - sərhəd məsələsinin həlli olan $z(x,t)$ funksiyası

$$z(x,T) = \varphi(x) \tag{4}$$

şərtini ödəsin və

$$\mathrm{I}(u, v_0, v_1) = \iint_D \left(u(x,t), u(x,t)\right) dxdt + \alpha_0 \int_0^1 v_0^2(x) dx + \alpha_1 \int_0^1 v_1^2(x) dx \tag{5}$$

funksionalı minimum qiymət alsın.

İşdə (1)-(3) məsələsinin həlli

$$z(x,t) = y(x,t) + w(x,t)$$

şəklində axtarılır; burada $y(x,t)$ funksiyası

$$\beta y_{tt} + y_t - \varepsilon y_{xxt} - y_{xx} = 0,\ (x,t) \in D \tag{6}$$

$$y(x,0) = v_0(x), \quad y_t(x,0) = v_1(x), \quad x \in (0,1) \tag{7}$$

$$y(0,t) = 0,\ y(1,t) = 0,\ t \in (0,1) \tag{8}$$

məsələsinin, $w(x,t)$ isə

$$\beta w_{tt} + w_t - \varepsilon w_{xxt} - w_{xx} = \left(A(x,t), u(x,t)\right),\ (x,t) \in D, \tag{9}$$

$$w(x,0) = 0, \quad w_t(x,0) = 0, \quad x \in (0,1), \tag{10}$$

$$w(0,t) = 0,\ w(1,t) = 0,\ t \in (0,t_1) \tag{11}$$

məsələsinin həlli kimi təyin olunur.

Əvvəlcə (6)-(8) məsələsinin həlli $y(x,t) = X(x)T(t)$ şəklində axtarılaraq

$$y(x,t) = \sqrt{2} \sum_{k=1}^{\infty} \frac{1}{l_2(k) - l_1(k)} \left\{ \int_0^1 \left[l_2(k) v_0(\xi) - v_1(\xi) \right] e^{l_1(k)t} + \right.$$
$$\left. + v_1(\xi) - l_1(k) v_0(\xi) e^{l_2(k)t} \right] \sin \pi k \xi d\xi \Big\} \sin \pi k x \tag{12}$$

şəklində qurulur, sonra isə (9)-(11) məsələsinin həlli

$$w(x,t) = \sqrt{2} \sum_{i=1}^{r} \sum_{k=1}^{\infty} R_k^i(t) \sin \pi k x$$

şəklində axtarılır; burada $l_1(k)$, $l_2(k)$

$$\beta\ddot{T}+(1+\varepsilon k^2\pi^2)\dot{T}+k^2\pi^2T=0$$

tənliyinə uyğun olan xarakteristik tənliyin kökləridir, $R_k^i(t)$ isə

$$\beta\ddot{R}_k^i+(1+\varepsilon k^2\pi^2)\dot{R}_k^i+k^2\pi^2R_k^i=A_k^i(t)u_k^i(t),\ i=1,2,...,r,\ k=1,2,...$$

tənliyinin

$$R_k^i(0)=0,\quad \dot{R}_k^i(0)=0$$

şərtlərini ödəyən həllidir, $X_k(x)=\sqrt{2}\sin\pi kx,\ k=1,2,...\quad X''+k^2\pi^2X=0,\ X(0,t)=0,\ X(1,t)=0$ spektral məsələnin ortonormal məxsusi funksiyalarıdır,

$$A_k^i(t)u_k^i(t)=\sqrt{2}\int_0^1 A_i(\xi,t)u_i(\xi,t)\sin\pi k\xi d\xi\,.$$

Buradan alınır ki,

$$w(x,t)=\sqrt{2}\sum_{k=1}^{\infty}\frac{1}{l_2(k)-l_1(k)}\int_0^1\left[e^{l_2(k)(t-s)}-e^{l_1(k)(t-s)}\right]\sum_{i=1}^{r}A_k^i(s)u_k^i(s)ds\cdot\sin\pi kx\,.$$

Beləliklə, (1)-(3) məsələsinin həlli

$$z(x,t)=\sqrt{2}\sum_{k=1}^{\infty}\frac{1}{l_2(k)-l_1(k)}\left\{\int_0^1\left[\left(l_2(k)v_0(\xi)-v_1(\xi)\right)e^{l_1(k)t}+\left(v_1(\xi)-l_1(k)v_0(\xi)\right)e^{l_2(k)t}\right]\sin\pi k\xi d\xi+\right.$$

$$\left.+\frac{1}{\beta}\int_0^t\left[e^{l_2(k)(t-s)}-e^{l_1(k)(t-s)}\right]\sum_{i=1}^{r}A_k^i(s)u_k^i(s)ds\right\}$$

şəklində qurulur. Sonra (4) bərabərliyindəki $\varphi(x),v_0(x),v_1(x)$ funksiyalarının da $X_k(x)=\sqrt{2}\sin\pi kx$ məxsusi funksiyaları üzrə ayrılışlarını da nəzərə almaqla (5) funksionalının minimumu məsələsi, Laqranj prinsipindən istifadə etməklə çoxdəyişənli funksiyanın ekstremumu məsələsinə gətirilir və alınan məsələdə həllin varlığı üçün zəruri və kafi şərt isbat olunur.

Ədəbiyyat

1. Н.А.Ларкин, В.А.Новиков, Н.Н.Яненко, Нелинейные уравнения переменного типа, Новосибирск, Наука, 1983, 269с.
2. R.Q.Həsənov, H.F.Quliyev, M.H.Yaqubov, Ş.Ş.Yusubov, Optimallaşdırma üsulları. "Bakı Universiteti" nəşriyyatı, 2017, 560s.

KAPUTO KƏSR TÖRƏMƏLI SISTEMLƏRDƏ OPTIMALLIQ ÜÇÜN ZƏRURI ŞƏRTLƏR

Yusubov Şakir Şıxı oğlu

Bakı Dövlət Universiteti

yusubov_sh@mail.ru

Tutaq ki, idarə olunan proses $[0,T]$ parçasında

$$\left({}^cD_{0+}^{\alpha}x\right)(t)=f\left(t,x(t),u(t)\right),\tag{1}$$

$$x(t_0)=x_0\tag{2}$$

sistemi ilə təsvir olunur. Burada x- n ölçülü faza dəyişəni, u-r ölçülü idarəedici vektor, $f(t,x,u)$ funksiyası və onun x-ə nəzərən ikinci tərtibə qədər (ikinci tərtib də daxil olmaqla) xüsusi törəmələri $[0,T]\times R^n \times R^r$ çoxluğunda arqumentlərinin küllüsünə nəzərən kəsilməzdir, $x_0 \in R^n$ qeyd olunmuş başlanğıc vəziyyət, $0 < T \in R$ qeyd olunmuş zaman, $\left({}^c D_{0+}^{\alpha} x\right)(t)$ ilə $\alpha \in (0,1)$ tərtibli Kaputo kəsr törəməsi işarə olunmuşdur, yəni

$$\left({}^c D_{0+}^{\alpha} x\right)(t) = \frac{1}{\Gamma(1-\alpha)} \frac{d}{dt} \int_0^t (t-\tau)^{-\alpha} \left(x(\tau) - x(0)\right) d\tau,$$

$x(\cdot) \in C\left([0,T], R^n\right)$, α qeyd olunub.

Mümkün idarəedicilər olaraq $[0,T]$ parçasında təyin olunan r ölçülü və qiymətləri verilmiş boş olmayan $V \subset R^r$ çoxluğundan olan ölçülən, məhdud $u(\cdot)$ vektor funksiyaları götürülür:

$$u(t) \in V, \quad t \in [0,T]. \tag{3}$$

$AC_{\infty}^{\alpha}\left([0,T], R^n\right)$ ilə $\Phi(t) = \Phi(0) + \left(I_{0+}^{\alpha}\psi\right)(t), \; t \in [0,T]$ bərabərliyini ödəyən $\Phi : [0,T] \to R^n$ funksiyalar çoxluğunu işdarə edək, burada $\psi(\cdot) \in L^{\infty}\left([0,T], R^n\right)$, I_{0+}^{α} -isə Riman-Liuvil kəsr operatorudur.

Qeyd olunmuş $u(\cdot)$ mümkün idarəedicisinə uyğun (1),(2) məsələsinin həlli dedikdə $AC_{\infty}^{\alpha}\left([0,T], R^n\right)$sinfindən olan elə $x(\cdot)$ funksiyası başa düşülür ki, o (2) başlanğıc şərtini və sanki hər yerdə (1) tənliyini ödəsin.

Mümkün idarəedicilər sinfindən elə idarəedici tapmaq tələb olunur ki, o (1),(2) məsələsinin həlli ilə birlikdə

$$J(u) = \varphi(x(T)) + \frac{1}{\Gamma(\beta)} \int_0^T (T-t)^{\beta-1} f_0(t, x(t), u(t)) dt \tag{4}$$

funksionalına minimum versin. Burada $\varphi(\cdot)$ iki dəfə kəsilməz diferensiallanan skalyar funksiya, $f_0(t,x,u)$ skalyar funksiyası və onun x-ə nəzərən ikinci tərtibə qədər (ikinci tərtib də daxil olmaqla) xüsusi törəmələri $[0,T]\times R^n \times R^r$çoxluğunda arqumentlərinin küllüsünə nəzərən kəsilməzdir, $\beta \geq \alpha$ qeyd olunmuş ədəddir.

(1)-(4) məsələsində optimallıq üçün müxtəlif zəruri şərtlər alınmışdır.

Ədəbiyyat

1. Sh.Sh. Yusubov and E.N.Mahmudov, Optimality conditions of singular controls for system with Caputo fractional derivatives. Journal of Industrial and Management Optimization, 19(1), (2023) 246-264. DOI: 10. 3934/jimo.202182.

SİNQULYAR ƏMSALLI ÜÇTƏRTİBLİ PSEVDOPARABOLİK TƏNLİK ÜÇÜN BİR SƏRHƏD MƏSƏLƏSİ

Yusubov Şakir Şıxı oğlu, İsmayılova Xanım Eyvaz qızı

Bakı Dövlət Universiteti

yusubov_sh@mail.ru , xanim.ismayilova.1994@list.ru

Sinqulyar əmsallı üçtərtibli

$$(l_{12}u)(x) \equiv D_1D_2^2u(x) + \frac{a_{02}(x)}{(x_1-x_1^0)^{\alpha_1}}D_2^2u(x) + \frac{a_{11}(x)}{(x_2-x_2^0)^{\alpha_2}}D_1D_2u(x) + \frac{a_{10}(x)}{(x_2-x_2^0)^{\alpha_2}}D_1u(x) +$$

$$+\frac{a_{01}(x)}{(x_1-x_1^0)^{\alpha_1}(x_2-x_2^0)^{\alpha_2}}D_2u(x) + \frac{a_{01}(x)}{(x_1-x_1^0)^{\alpha_1}(x_2-x_2^0)^{\alpha_2}}D_2u(x) + \frac{a_{00}(x)}{(x_1-x_1^0)^{\alpha_1}(x_2-x_2^0)^{\alpha_2}}u(x) = \qquad (1)$$

$$= \frac{\varphi_{12}(x)}{(x_1-x_1^0)^{\alpha_1}(x_2-x_2^0)^{\alpha_2}}, \quad x \in G,$$

psevdoparabolik tənliyi üçün aşağıdakı sərhəd şərtlərinə baxaq:

$$(l_{02}u)(x_2) \equiv \beta_1D_2^2u(x_1^0,x_2) + \beta_2D_2^2u(x_1^1,x_2) = \frac{\varphi_{02}(x_2)}{(x_2-x_2^0)^{\alpha_2}}, \qquad x_2 \in G_2,$$

$$(l_{11}u)(x_1) \equiv D_1D_2u(x_1,x_2^0) = \frac{\varphi_{11}(x_1)}{(x_1-x_1^0)^{\alpha_1}}, \qquad x_1 \in G_1, \qquad (2)$$

$$(l_{10}u)(x_1) \equiv D_1u(x_1,x_2^0) = \frac{\varphi_{10}(x_1)}{(x_1-x_1^0)^{\alpha_1}}, \qquad x_1 \in G_1,$$

$$l_{01}u \equiv D_2u(x_1^0,x_2^0) = \varphi_{01}, \quad l_{00}u \equiv u(x_1^0,x_2^0) = \varphi_{00}.$$

Burada $u(x)-$axtarılan funksiya, $a_{ij}(x),\ i=0,1,\ j=0,1,2,\ i+j<3$ funksiyaları $G-$də ölçüləndirlər, $a_{00}(x), a_{01}(x) \in L_p(G), a_{1j} \in L_{\infty,p}^{x_1,x_2}(G),\ j=0,1, a_{02}(x) \in L_{\infty,p}^{x_1,x_2}(G), 1<p<\infty, \varphi_{12}(x) \in L_p(G)$ $\varphi_{02}(x_2) \in L_p(G_2), \varphi_{1j}(x_1) \in L_p(G_1),\ j=0,1$ verilmiş funksiyalardır, $\varphi_{0i} \in R, i=0,1, \alpha_i \in \left[0,1-1/p\right),$ $\beta_i, i=1,2,\ 1<p<\infty$verilmiş ədədlərdir, $\beta_1+\beta_2 \neq 0,\ G=\{x=(x_1,x_2): x_i \in G_i=(x_i^0,x_i^1), i=1,2\}$.

(1), (2) məsələsinin həlli çəkili

$$W_{p,\alpha}^{(1,2)}(G) = \{u : D_1D_2^2u \in L_{p,\alpha}(G), D_2^2u \in L_{p,\alpha_2}(G), D_1D_2u \in L_{p,\alpha_1}(G),$$
$$D_1u \in L_{p,\alpha_1}(G), D_2u \in L_p(G), u \in L_p(G)\}$$

S.L.Sobolev fəzasında axtarılır, bu fəzada norma

$$\|u\|_{W_{p,\alpha}^{(1,2)}(G)} = \|D_1D_2^2u\|_{p,\alpha,G} + \|D_2^2u\|_{p,\alpha_2,G} + \|D_1D_2u\|_{p,\alpha_1,G} + \|D_1u\|_{p,\alpha_1,G} + \|D_2u\|_{p,G} + \|u\|_{p,G}$$

şəklində verilir, burada $\alpha=(\alpha_1,\alpha_2)$.

(1), (2) məsələsinin korrekt həll olunması araşdırılır.

Qeyd edək ki, $\beta_1=1,\ \beta_2=0$ olduqda (1), (2) məsələsi [1] işində araşdırılmışdır.

Ədəbiyyat

1. M.H.Yagubov, Sh.Sh. Yusubov. The Goursat problem for the pseudoparabolic equation of the third opder with singular coefficients, The 6 th International Conference on Control and Optimization with Industrial Applications, volume I (2018), 376-378.

YÜKLƏNMİŞ İMPULS TƏSİRLİ ÜÇTƏRTİBLİ TƏNLİK ÜÇÜN BİR LOKAL OLMAYAN SƏRHƏD MƏSƏLƏSİ

Yusubov Şakir Şıxı oğlu, Xeyrəddinli Güləzər Mətləb qızı
Bakı Dövlət Universiteti
yusubov_sh@mail.ru, gulezer.ga@gmail.com

Müstəvinin

$$G = G_1 \times G_2,\ G_1 = G_{10} \bigcup G_{11},\ G_{1i} = \left(x_1^i, x_1^{i+1}\right),\ i = 0,1,\ G_2 = \left(x_2^0, x_2^1\right),$$
$$G^i = G_{1i} \times G_2,\ i = 0,1$$

çoxluğunda

$$\begin{aligned}(l_{21}u)(x) \equiv D_1^2 D_2 u(x) + a_{20}(x) D_1^2 u(x) + a_{11}(x) D_1 D_2 u(x) + \\ a_{10}(x) D_1 u(x) + a_{01}(x) D_2 u(x) + a_{00}(x) u(x) + a(x) u(\bar{x}) = \varphi_{21}(x),\end{aligned} \tag{1}$$

üçtərtibli hiperbolik tənliyinə baxılır. Burada $u(x)$ axtarılan funksiya, $a_{ij}(x),\ i = 0,1,2,$ $j = 0,1,\ a(x),\ \varphi_{21}(x)$ funksiyaları G çoxluğunda ölçüləndirlər, $a_{10}(x),\ a_{00}(x),\ a(x),$ $\varphi_{21}(x) \in L_p(G),\ a_{20}(x) \in L_{\infty,p}^{x_1,x_2}(G), a_{11}(x),\ a_{01}(x) \in L_{p,\infty}^{x_1,x_2}(G)$; $\bar{x} = (\bar{x}_1, \bar{x}_2) \in G$ - qeyd olunmuş nöqtədir.

(1) tənliyinin lokal olmayan

$$\begin{aligned}&D_1^2 u(x_1, x_2^0) = \varphi_{20}(x_1),\ x_1 \in G_1,\\ &\Delta D_1 D_2 u(x_1^i, x_2) = \varphi_{11}^i(x_2),\ x_2 \in G_2, i = 0,1,\\ &\Delta D_2 u(x_1^i, x_2) = \varphi_{01}^i(x_2),\ x_2 \in G_2, i = 0,1,\\ &\Delta D_1 u(x_1^i, x_2^0) = \varphi_{10}^i, i = 0,1,\end{aligned} \tag{2}$$
$$\alpha u(x_1^0, x_2^0) + \iint_G d(x) D_1^2 D_2^2 u(x) dx = \varphi_{00}^0,\ \ \Delta u(x_1^1, x_2^0) = \varphi_{00}^1$$

sərhəd şərtlərini ödəyən həlli axtarılır.
Burada

$$\Delta D_1^j D_2 u(x_1^i\ , x_2) = D_1^j D_2 u(x_1^i +, x_2) - D_1^j D_2 u(x_1^i -, x_2),\ i\ = 0,1,\ j = 0,1,$$

$$\Delta D_1^j u(x_1^i\ , x_2^0) = D_1^j u(x_1^i +, x_2^0) - D_1^j u(x_1^i -, x_2^0),\ i\ = 0,1,\ j = 0,1,$$

$$\Delta D_1^j u(x_1^0 -, x_2^0) = 0,\ \ j = 0,1, \quad D_1^j D_2 u(x_1^0 -, x_2) = 0,\ x_2 \in G_2\ , j = 0,1,$$

$$\varphi_{20}(x_1) \in L_p(G_1),\ \varphi_{11}^i(x_2),\ \varphi_{01}^i(x_2) \in L_p(G_2), i = 0,1,$$

$$\varphi_{10}^i,\ \ \varphi_{00}^i \in R,\ \ i\ = 0,1,\ \ \alpha \neq 0.$$

(1)-(2) məsələsinin həlli

$$V_p^{(2,1)}(G) = \{u \in L_p(G):\ D_1^i D_2^j u \in L_p(G^k),$$

$$k = 0,1;\ i = 0,1,2;\ \ j = 0,1\}$$

sinfində axtarılır.

Qoyulmuş məsələnin və uyğun qoşma məsələnin korrekt həll olunması isbat olunur və məsələnin həllinin inteqral göstərilişi alınır.

A STUDY OF NEUTROSOPHIC SOFT LIE ALGEBRAS

Abdullayev Sebuhi Eldar, Veliyeva Kemale Mutalib
Bakı Dövlət Universiteti
sebuhi_abdullaye@mail.ru, kemale2607@mail.ru

We introduce the concept of neutrosophic soft Lie subalgebras of a Lie algebra and investigate some of their properties. The Cartesian product of neutrosophic soft Lie subalgebras will be discussed. In particular, the homomorphisms of neutrosophic soft Lie algebras is introduced and investigated some of their properties.

Keywords: Lie algebra, subalgebra, neutrosophic soft set, neutrosophic soft Lie Algebras.

Definition 1. An intuitionistic fuzzy set $A = (\mu A, \lambda A)$ on L is called an intuitionistic fuzzy Lie subalgebra if the following conditions are satisfied:

$$\mu A(x+y) \geq \min\left(\mu A(x), \mu A(y)\right)\ \ and \quad \lambda A(x+y) \leq \max\left(\lambda A(x), \lambda A(y)\right), \tag{1}$$

$$\mu A(\alpha x) \geq \mu A(x)\ \ and\ \ \ \lambda A(\alpha x) \leq \lambda A(x) \tag{2}$$

$$\mu A([x,y]) \geq \min\{\mu A(x), \mu A(y)\}\ \ and\ \ \lambda A([x,y]) \leq \max\{\lambda A(x), \lambda \setminus A(y)\} \tag{3}$$

for all $x, y \in L$ and $\alpha \in F$.

Theorem 1. Let $\tilde{F}, E$ be a neutrosophic soft Lie subalgebra over L. Then $(\tilde{F}, E)$ is a neutrosophic soft Lie subalgebra of L if and only if for each $e \in E$ the non-empty upper s - level cut.

$$U_{T_{\tilde{F}}(e)}(s) = \{x \in L / T_{\tilde{F}}(e)(x) \geq s\}$$

$$U_{I_{\tilde{F}}(e)}(s) = \{x \in L / I_{\tilde{F}}(e)(x) \geq s\}$$

and the non-empty Lower s - lewel cut

$V_{T_{\tilde{F}}(e)}(s)=\{x\in L/T_{\tilde{F}}(e)(x)\geq s\}$ are Lie subalgebras of L, for all $s\in[0,1]$.

Theorem 2. If $(\tilde{F}^1,E_1)$ and $(\tilde{F}^2,E_2)$ be two neutrosophic soft Lie subalgebra over L, then intersection $(\tilde{F}^1,E_1)\cap(\tilde{F}^2,E_2)=(\tilde{F}^3,E_1\cap E_2)$ is a neutrosophic soft Lie subalgebra over L.

Theorem 3. Let $(\tilde{F}^1,E_1)$ and $(\tilde{F}^2,E_2)$ be two neutrosophic soft Lie subalgebra over L, then union is $(\tilde{F}^1,E_1)\cup(\tilde{F}^2,E_2)=(\tilde{F}^3,E_1\cup E_2)$a neutrosophic soft Lie algebra over L.

References

1. M. Akram , Gulzar, Kar Ping shum: Single-valued neutrosophic Lie Algebras, Journal of Mathematical Resear ch with applications Mar., 2019, vol. 39, no 2, pp.141-152.
2. M. Akram, F.Feng, Soft intersection Lie algebras, Quasigroups and Related Systems 21: 1-10 (2013)
3. F.Smarandache, Neutrosophy. Neutrosophic Probability, Set, and Logic, ProQuest Information & Learning, Ann Arbor, Michigan, USA, 105 p., (1998).

ON THE HIGH-ORDER MOMENTS OF THE RENEWAL-REWARD PROCESS

Afaq Abdullayeva

Azerbaijan State Oil and Industry University

afaq.abdullayeva21@gmail.com

Let random vectors $(\xi_n,\eta_n),n\geq 1$ be independent and identically distributed. In the general case, the random variable η_n is assumed to depend on the random variable ξ_n. Let's introduce the following sum:

$$S_{v(t)}=\sum_{n=1}^{v(t)}\eta_n \tag{1}$$

Where $v(t)=\max\{n:T_n\leq t\},t>0$ is the renewal process and $T_n=\sum_{i=1}^{n}\xi_i \; ,n=1,2,...$.

$S_{v(t)},t\geq 0$ is called renewal-reward process and represents the sum of the rewards obtained up to time t. It is easy to see that, the renewal-reward process is a generalization of the renewal process. So, in the special case if $\eta_n\equiv 1,n\geq 1,$ we obtain that $S_{v(t)}\equiv v(t).$ The renewal-reward process belongs to the class of the stochastic processes of discrete interference of chance. There are many important results in the scientific literature related to this process (see, for example, Brown and Ross (1972), Brown and Solomon (1975), Aliyev et all (2010), Aliyev and Khaniyev (2014), Patch et al. (2015), Aliyev and Bayramov (2017)). Renewal-reward processes are applied in insurance and reliability theories. In the present study, the exact formulas for the third and fourth-order initial moments of the renewal-reward process are given.

Denote the n-th order moment of the renewal-reward process (1) by $D_n(t)$ and the mathematical expectation of the renewal-reward process by
$M_n(t)$ when rewards are given by $\eta_k^n(k\geq 1,n\geq 1)$

$$D_n(t) = E(S_{\nu(t)})^n = E\left(\sum_{k=1}^{\nu(t)} \eta_k\right)^n, \; M_n(t) = E\left(\sum_{k=1}^{\nu(t)} \eta_k^n\right).$$

Main result of this paper can be formulated as the following theorem:

Theorem. Let random vectors (ξ_n, η_n), $n \geq 1$ are independent and identically distributed. Then third and fourth order initial moments of the process, consequently, have following forms:

$$D_3(t) = M_1^{*(3)}(t) + 6M_2 * M_1(t) + M_3(t),$$

$$D_4(t) = 24M_1^{*(4)}(t) + 36M_2 {*} M_1^{*(t)}(t) + 6M_2^{*}(t) + 8M_3 * M_1(t) + M_4(t),$$

Where

$$M_i^{*(k)} * M_j^{*(n)}(t) = \int_0^t M_i^{*(k)}(t-x)\,dM_j^{*(n)}(x), n, k, i, j \geq 1,$$

$$M_i^{*(n)}(t) = \int_0^t M_i^{*(n-1)}(t-x)\,dM_i(x), n, i \geq 1,$$

$$M_i^{*(1)}(t) \equiv M_i(t), M_i^{*(0)}(t) \equiv 1, t \geq 0, i \geq 1.$$

References

1. Aliyev, R.T., Khaniyev, T.A. On the moments of a semi-Markovian random walk with Gaussian distribution of summands. Comm. Statist. Theory Methods. 2014, 43, P. 90–104.
2. Aliyev, R.T., Kucuk, Z., Khaniyev, T.A. Three-term asymptotic expansions for the moments of the random walk with triangular distributed interference of chance. Appl. Math. Model. 2010, 34, P. 3599–3607.
3. Aliyev R., Bayramov V. On the asymptotic behaviour of the covariance function of the rewards of a multivariate renewal–reward process. Statistics and Probability Letters. 2017, 127, P.138–149.
4. Brown, M., Ross, S.M. Asymptotic properties of cumulative processes. SIAM J. Appl. Math. 1972, 22, P. 93–105.
5. Brown, M., Solomon, H.A. Second-order approximation for the variance of a renewal reward process. Stochastic Process. Appl. 3, 1975, P. 301–314.
6. Khaniyev, T.A., Kesemen, T., Aliyev, R.T., Kokangul, A. Asymptotic expansions for the moments of a semi-Markovian random walk with exponential distributed interference of chance. Statist. Probab. Lett. 2008, 78 (6), P. 785–793.
7. Patch, B., Nazarathy, Y., Taimire, T., A correction term for the covariance of renewal-reward processes with multivariate rewards. Statist. Probab. Lett. 2015, 102, P. 1–7.

ON THE SOLVABILITY OF BAOUNDARY VALUE PROBLEM FOR A PERIODIC TYPE

Agayeva Gulsum Allahyar
Baku State Universitety
Gulsumm_agayeva@mail.ru

Let H be a separable Hilbert space. Assume that C is a self-adjoint operator with domain of definition $D(C)$. Then for all $\gamma \ge 0$ the domain of definition of the operator C^{γ} will be a Hilbert space $H_{\gamma}(\gamma \ge 0)$ with a scalar product $(x,y)_{\gamma} = (C^{\gamma}x, C^{\gamma}y)$. For $\gamma = 0$ we assume $H_0 = H$ and $(x,y)_0 = (x,y)$.

Denote by $L_2((0,1):H)$ a Hilbert space of vector –functions determined almost everywhere in $(0,1)$ for which

$$\|f\|_{L_2((0,1):H)} = \left(\int_0^1 \|f(t)\|^2 dt\right)^{1/2}$$

Following the book [13], we determine the Hilbert space

$$W_2^2((0,1):H) = \{u : u'' \in L_2((0,1):H),\ C^2u \in L_2((0,1):H)\}$$

with the norm

$$\|u\|_{W_2^2((0,1):H)} = \left(\|u''\|^2_{L_2((0,1):H)} + \|C^2u\|^2_{L_2((0,1):H)}\right)^{1/2}.$$

We determine the subspace $W^2_{2,\psi}((0,1):H)$ as follows

$$W^2_{2,\psi}((0,1):H) = \{u : u'' \in W_2^2((0,1):H),\ u(0) = e^{i\psi}u(1), u'(0) = e^{i\psi}u'(1), \psi \in R = (-\infty,\infty)\}$$

From the trace theorem it follows that $W^2_{2,\psi}$ is a complete Hilbert space.

Consider in H the boundary value problem

$$L(d/dt)u(t) = -u''(t) + \rho(t)A^2u(t) + (A_1 + K_1)u'(t) + (A_2 + K_2)u(t) = f(t)\ ,\ t \in (0,1) \quad (1)$$

$$u(0) = e^{i\psi}u(1),\ \ u'(0) = e^{i\psi}u'(1) \quad (2)$$

where the operator coefficients of the equation (1) satisfy the conditions:

1) A is a normal operator with a completely continuous operator in H, whose set of spectra is contained in the angular sector

$$S_{\varepsilon} = \{\lambda : |\arg\lambda < \varepsilon,\ 0 \le \varepsilon \le \pi/4\};$$

2) $\rho(t)$ is a scalar function defined in (0,1), measurable and bounded, moreover $0 < \alpha \le \rho(t) \le \beta < \infty$, where $\alpha, \beta \in R = (-\infty,\infty)$;

3) The operators $B_1 = A_1A^{-1}$ *and* $B_2 = A_2A^{-2}$ are bounded in H;

4) The operators $T_1 = K_1A^{-1}$ *and* $T_2 = K_2A^{-2}$ are completely continuous operators in H.

Theorem. Let conditions 1) and 2) be fulfilled. Then for any $u \in W^2_{2,\psi}((0,1):H)$ we have the inequality

$$\|Au'\|_{L_2((0,1):H)} \le d_1(\varepsilon)\|P_0u\|_{L_2((0,1):H)} \quad (3)$$

and

$$\left\|A^2 u\right\|_{L_2((0,1):H)} \le d_0(\varepsilon)\left\|P_0 u\right\|_{L_2((0,1):H)}\ , \tag{4}$$

where

$$d_1(\varepsilon) = \frac{1}{2\sqrt{\alpha}}\,\frac{1}{\cos\varepsilon}\quad ,\quad d_0 = \frac{1}{\alpha}.$$

Referense

1. Лионс Ж.Л.,Мадженс Э. Неоднородные граничные задачи и их приминения. М.:Мир,1971,371с.
2. Mirzoyev S.S., Agayeva G.A. Correct Solvability of One Boundary Value Problem for the Differential Equation of the Second Order on Hilbert Space //Appl.Mathemat.Science, v7,No79, 2013,p.3935-3945//
3. Mirzoyev S.S., Agayeva G.A. On the Solvability Conditions of one Baundary Value Problemfor the second Order Differential Equation with Operator Coefficients/İnt.Jour. of Math.and Computer Science, v8,No4, 2014,p.149-156.//
4. Agayeva G.A. On a boundary value problem for operator-differential equations of the second order. Proceedings of the Pedagogical University, section of the natural sciences.p.9-17,(2017)

ON THE PROBLEM OF POPULATION PROCESSES

Akhmedov Ali Mustafa., Baghirov Suleyman Hafiz

Baku State University

ali.akhmedov@rambler.ru, suleymanbagirov5@gmail.com

The work is devoted to the investigation of changes occurring in the population through iterative sequences. Returning sequences, a special type of iterative sequences, were first investigated by the author of this article [1], [2].

When the changes occurring in the population are determined according to the recurrent relationship $x_{n+1} = rx_n(1 - x_n)$ the bifurcation picture obtained as a part of the Mandelbrot set.

Here r is the growth factor. The quantity $(1 - x_n)$ is the limiting effect of the environment. x_n is a quantity measured by the ratio of the population number to the maximum possible number of the population for a given year. x_{n+1} is a quantity measured by the ratio of the population number for the next year to the maximum possible number of the population.

The expression $x_{n+1} = rx_n(1 - x_n)$ is called logistic regression. An arbitrary population is doomed when r<1. Because the number in each next generation will be less than the previous generation. This will eventually lead to the destruction of the population. When r≥1, the population reaches a certain stationary state. An interesting fact is that the number of possible stationary states reaches 2 when r>3. (figure 1)

As the years pass, the number of the population in a certain year is in an upper stationary state, and in the next year it is in a lower stationary state. As we increase the quantity r, the stability values will increase and the redistribution will begin.



figure 1

Now the cycle will consist of 4 stationary states instead of 2. The length of the cycle, in other words, the period is doubled. This is called bifurcation of peridon doubling. (figure 2)

As the process continues, bifurcations of this type occur again, and 8, 16, 32, 64, etc. cycles are created. Chaos occurs when r=3.57.

Population does not have a stationary value. It is no coincidence that the equation $x_{n+1} = rx_n(1 - x_n)$ is the basis of pseudo-random number generator in machine technology. No apparent regularity or repetition is observed. (figure 3)



figure 2



figure 3

REFERENCES

1. Akhmedov A.M. On recurrent processes and associated with them spectral problems. Proceedings of the Intern. COIA, Vol 1, July,2018, Baku.
2. Akhmedov A.M., I.V.Safarli. On the Recurrence Sequence and Their Applications, News of Baku University, pp.7, 2020.
3. Akhmedov A.M., Baku State University, Head of the Theory of Functions and Functional Analysis Department, doctor of science,
4. prof.Baghirov S.H., Baku State University, doctoral student of the Theory of Functions and Functional Analysis Department

OPTIMIZATION OF LINEAR NONLOCAL BOUNDARY VALUE CONTROL PROBLEM FOR MANJERON EQUATION OF FOURTH ORDER

Akhmedov Fahreddin Shamil, Akhiev Sadeddin Seydi

Baku State University, Azerbaijan State Pedagogical University

axiyev63@mail.ru

In this paper linear nonlocal boundary-value control problem for fourth order Manjeron equation has been considered [1,2]

$$
\begin{aligned}
&(V_{2,2}z)(t,x) \equiv z_{t^2x^2}(t,x) + z(t,x)A_{0,0}(t,x) + z_x(t,x)A_{0,1}(t,x) + z_t(t,x)A_{1,0}(t,x) + z_{x^2}(t,x)A_{0,2}(t,x) + \\
&+ z_{tx}(t,x)A_{1,1}(t,x) + z_{t^2}(t,x)A_{2,0}(t,x) + z_{tx^2}(t,x)A_{1,2}(t,x) + z_{t^2x}(t,x)A_{2,1}(t,x) + z_{tx}(\tau_0,\xi_0)A_{2,2}(t,x) = \\
&= g_{2,2}(t,x), \ (t,x)\in D = T\times X = [t_0,t_1]\times[x_0,x_1],
\end{aligned} \tag{1}
$$

$$
\begin{aligned}
&V_{0,0}z \equiv z(t_0,x_0) = g_{0,0}, \qquad V_{0,1}z \equiv z_x(t_0,x_0) = g_{0,1}, \\
&V_{1,0}z \equiv z_t(t_0,x_0) = g_{1,0}, \qquad V_{1,1}z \equiv z_{tx}(t_0,x_0) = g_{1,1},
